

# AŞURANIN

## deyilməyən həqiqətləri

AYƏTULLAH SEYİD
ƏLİ MİLANİ

**Seyid Əli Milani**

# AŞURANIN DEYİLMƏYƏN HƏQİQƏTLƏRİ

Bakı-2020

Kitabın nəşrinə

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən rəy (08 Oktyabr 2020-ci il tarixli DK-584/H saylı məktub) verilmişdir.

| | |
|---|---|
| **Tərcümə edən:** | A. İ. Əliyev |
| **Elmi redaktor:** | Əli Abdullah |
| **Ərəbcə mətnin tərcüməsi:** | Əbdüssəməd Qurbanov |
| **Redaktor və korrektor:** | Gülarə Cəbiyeva |

*Bu kitabın savabını I və II Qarabağ müharibəsində iştirak etmiş qazi və şəhidlərimizə hədiyyə edirik.*

Besiret.az - 2020

Kitabın bütün hüquqları qorunur.
İcazəsiz olaraq hər hansı vasitə ilə
nəşri qadağandır.

www.besiret.az

# ÖN SÖZ

Ümumən bəşər tarixində və xüsusən İslam tarixində dərin iz buraxmış və baş versməsindən sonra əsrlərlə müxtəlif cəmiyyətlərdə milyonlarla insanı öz təsiri altında saxlamış olan Aşura hadisəsi daim müxtəlif araşdırmaçılar tərəfindən müzakirə edilmiş, hadisənin baş vermə səbəbləri, gedişatı və özündən sonra qoyduğu təsirlər istər dost, istərsə də düşmən tərəfindən geniş araşdırılmış və bu barədə müxtəlif fikirlərin meydana gəlməsinə səbəb olmuşdur. Dünyanın ən böyük dinlərindən biri olan İslam dinini bəşəriyyətə təqdim etmiş Həzrət Muhəmməd peyğəmbərin ﷺ bu dünyanı tərk etməsindən cəmi əlli il sonra onun əziz nəvəsi İmam Hüseynin ؑ azsaylı tərəfdaşları ilə birgə adlarını müsəlman qoymuş böyük bir dəstə tərəfindən vəhşicəsinə qətlə yetirilməsi istər-istəməz bu hadisəyə diqqətləri cəlb etməli idi. Axı burada şəhid edilmiş şəxs müqəddəs Qurani-Kərimdə Allah təalanın öz elçisi həzrət Muhəmmədə ﷺ xitab edərək buyurduğu ***“(Ya Peyğəmbər!) De: “Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlarıma (Əhli-Beytimə) məhəbbət bəsləməkdən başqa bir şey istəmirəm”***[1] – ayəsində müsəlmanların məhəbbət bəsləməli olduqları şəxslərdən biridir. Həmçinin bu şəxs Peyğəmbərin ﷺ *“Hüseyn məndəndir, mən də Hüseyndənəm. Allah Hüseyni sevən şəxsi sevir”* [2]

---

[1] Şura, 23

[2] Bu hədis həm şiə, həm də sünnü mənbələrində nəql olunmuşdur. Müraciət et: İbn Qovləveyh, Kamiluz-ziyarat, c. 1, səh. 52; Şeyx Müfid, Əl-İrşad, c. 2, səh. 127; Həmçinin: Əhməd ibn Hənbəl, Əl-Musnəd, c. 4, səh. 172, Musnəduş-şamiyyin – hədisu Yəla ibn Mərra əs-Səqəfi, hədis 17111; Tirmizi, Camius-səhih (Sunənut-Tirmizi), Kitabul-mənaqib, Babu-mənaqibil-Həsən vəl-Huseyn, c. 5, səh. 617, hədis 3775; İbn

hədisindəki şəxsdir. Bəs necə oldu ki, müsəlmanlar öz Peyğəmbərinin ﷺ əziz nəvəsini qətlə yetirdilər? Bu dəhşətli cinayəti kimlər təşkil etmişdi? Bu hadisənin meydana gəlməsi hansı şəraitdə baş vermişdi? Bu qanlı cinayətdə İmam Hüseynin (ə) tərəfdarları olan Kufə şiələri iştirak etmişdilərmi? Eləcə də digər bu kimi suallar tarixboyu müzakirə edilmişdir. Bəzən müxtəlif şəxs və cərəyanlar bu cür suallarla, həmçinin bu suallara verilən cavablarda təhrif edilmiş məlumatlardan istifadə etməklə əzəmətli Aşura hadisəsinə, İmam Hüseynin (ə) hədəflərinə, onun insanlığa və bəşəriyyətə çatdırmaq istədiyi mesajlara kölgə salmaq istəmişlər. Bu məqsədlərinə çatmaq üçün tarixi faktları təhrif etməkdən, tarixi gerçəkliyi aydın olan məsələləri inkar etməkdən, din adı altında zehinləri qarışdırmaq üçün müxtəlif bəhanələrdən belə istifadə etmişlər. Lakin onlar bütün bunları edərkən  Allah təalanın bu sözünü unutmuşlar: ***"Onlar Allahın nurunu öz ağızları (öz iftiraları və batil sözləri) ilə söndürmək istəyirlər. Allah isə - kafirlərin xoşuna gəlməsə də, öz nurunu (dinini) tamamlayacaqdır".***[3]

Ayədə də qeyd olunduğu kimi Allah təala öz nurunu nə olursa olsun, tamamlayacaq, yəni dinini qoruyacaq. Bu həm Allahın yer üzərindəki höccətinin zahir olduğu dövrə, həm də Allahın höccətinin qeybdə olduğu dövrə aiddir.

İmam Zamanın (ə.f) qeyb dövründə dini qorumaq və onu düşmənlərin hiylələrindən amanda saxlamaq ixlaslı alimlərin öhdəsinə düşən vəzifədir. Bu dövrə nəzər saldıqda çoxlu fədakar və ixlaslı alimlərimizin yaşadıqları zamanın müxtəlif çətinliklərinə baxmayaraq, meydana atılmış müxtəlif şübhələrə gözəl və dərin araşdırmalarla cavab verdiklərini

---

Macə, Sunənu-İbn Macə, Kitabul-müqəddimə, Əbvabun fi fəzaili əshabi Rəsulillah ﷺ, babu fəzlil-Həsən vəl-Huseyn,  c. 1, səh. 51, hədis 144

[3] Saff, 8

və bu barədə çoxlu dəyərli kitablar yazaraq bizlərə irs qoyduqlarını görürük. İmam Hadidən ﷺ nəql olunmuş hədisdə deyildiyi kimi: ***“Əgər Qaimimizin ﷺ qeybətindən sonra ona doğru çağıran, yol göstərən, Allahın höccətləri vasitəsi ilə onun dinini qoruyan, Allahın (elmdə) zəif olan bəndələrini iblisin toruna düşməkdən və nasibilərin (Əhli-Beyt ﷺ düşmənlərinin) hiylələrindən xilas edən alimlər olmasaydı, Allahın dinindən çıxmamış bir nəfər belə qalmazdı. Lakin, gəmi sahibi gəmini və onun əhlini qoruyub saxladığı kimi, onlar da zəif qəlbli şiələrimizi qoruyub saxlayarlar. Onlar Allah yanında ən fəzilətli şəxslərdir”***.[4]

Yuxarıda qeyd olunan vəsflərə malik alimlərimiz günümüzdə də mövcuddur. Onlar müxtəlif məzhəb və cərəyanların ortaya atdıqları yeni şübhələrə və onların müzakirəyə çıxartdıqları müxtəlif məsələlərə böyük zəhmətlər çəkərək tam dolğun cavablar verirlər və öz ömürlərini Əhli-Beyt ﷺ məktəbini müdafiə etməyə sərf edirlər. Bu alimlərdən biri də sizə təqdim etdiyimiz bu kitabın müəllifi Ayətullah Seyid Əli Milanidir. Müəllifin müxtəlif mövzularda qələmə aldığı və ya etdiyi çıxışlardan toplanan onlarla kitabı mövcuddur. Sizə təqdim etdiyimiz “Aşuranın deyilməyən həqiqətləri” kitabı da həmin kitablardan biridir.

Hicri 1428-ci il tarixində (miladi 2007-ci il), Qum şəhəri elmi hövzəsinin “İslam Həqiqətləri Mərkəzi”ndə, tələbələr qarşısında Aşura hadisəsinin həqiqətlərinə dair müzakirələr aparan və mühazirələr söyləyən Seyid Əli Milaninin bütün çıxışları toplanaraq “Aşuranın deyilməyən həqiqətləri” adı altında kitab halına salınmışdı. Bu kitabda o, yeni bir baxışla Aşura hadisəsinə işıq salmış və bu hadisənin başvermə səbəblərinə aydınlıq gətirmişdir. Həmçinin bu hadisəni doğuran səbəblər və hadisədən sonrakı nəticələri də

---

[4] Şeyx Təbərsi, Əl-İhticac, c. 1, səh. 9

araşdırmaqla bir sıra sual və şübhələrə cavab vermişdir. Bu minvalla, belə bir əhəmiyyətli hadisənin həqiqətlərini üzə çıxarmaqla, indiyə qədər belə bir səpkidə söylənilməyənləri gözəl bir tərzdə bəyan etmişdir.

Biz də bu dəyərli əsəri öz doğma dilimizə tərcümə etməklə əziz həmvətənlərimizin bu gözəl araşdırma əsərindən faydalanmalarını və Aşura hadisəsinin deyilməyən həqiqətləri ilə yaxından tanış olmalarını arzu edirik. Ümidvarıq ki, bu əsər araşdırmaçılar və tarixi həqiqətlərlə maraqlanan oxucular üçün çox faydalı olacaqdır.

***Besiret.az** saytının idarə heyəti*<br>
*Bakı şəhəri*<br>
*5 Səfər 1442-ci il (23/9/2020)*<br>
*İmam Hüseynin ﷺ Şam xarabalığında şəhid olmuş*<br>
*kiçik yaşlı qızı Xanım Rüqəyyənin عليها السلام şəhid olduğu gün.*

# AŞURANIN DEYİLMƏYƏN HƏQİQƏTLƏRİ

بسم الله الرحمن الرحيم
الحمد لله رب العالمين والصلاة والسلام على خير خلقه وأشرف بريته
محمد وآله الطاهرين ولعنة الله على أعدائهم أجمعين

## GİRİŞ

Kərbəla hadisəsi və İmam Hüseyn (عليه السلام) şəhadəti, müsəlmanların etiqadında müsbət təsirə malik mühüm tarixi hadisələrdən biri olmaqla yanaşı, alim və mütəfəkkir zümrə üçün bənzəri olmayan bir olay hesab olunur. Ümumilikdə bu hadisəni üç istiqamət və ya cəhət üzrə araşdırmaq olar:

1-Hadisəni törədən səbəblər.

2-Kərbəla hadisəsində baş verənlər.

3-Bəşəriyyət və İslam tarixində bu hadisənin təsiri və ondan doğan nəticələr.

Qeyd olunan hər üç cəhətin özündə belə müxtəlif istiqamətlər mövcuddur ki, biz onların bəzilərini bu kitabda araşdırmağa çalışacağıq. Həmçinin Kərbəla hadisəsinə dair şübhələrə və suallara cavab verəcəyik. Qeyd edək ki, bu araşdırma kiminsə sözünü təkzib etmək və ya başqa birisinin söyləmiş olduğunu tənqid etmək məqsədini daşımır. Əslində, məqsəd bu hadisənin müxtəlif yönlərdən araşdırılmasıdır. Əldə olunan nəticə onu göstərir ki, bu günə qədər bu hadisə haqqında bu tip araşdırma aparılmamışdır. Elə bu səbəbdən əsərə "Aşuranın deyilməyən həqiqətləri" adı verilmişdir. Bizim araşdırmamız da şiə məzhəbinin alimlərinin üslubundan kənara çıxmayacaqdır. Yəni, alimlərimizin Əhli-beytə (عليهم السلام) aid məsələlərdə uzaq keçmişdən bu günə qədər yol qət etdikləri metoda riayət edəcəyik. Bu, müdafiə və şübhələri aradan qaldırmaq metodudur. Aydındır ki, alimlərimiz həmişə şiəliyin əsaslarını bəyan etmiş və tarixi

hadisələrə aydınlıq gətirmiş, həmçinin başqalarının hücumlarına cavab vermişlər. Onlar əksər halda yazılarında və söhbətlərində müdafiə mövqeyində durmuş və hal-hazırda da həmin mövqedədirlər. Məzhəb düşmənlərimiz daim qaldırdıqları məsələlərdə bizə hücum etmiş, bizim alimlər isə qarşılığında onlara cavab vermişlər. Bundan əlavə, şiə məzhəbinin alimləri başqa məzhəb və təriqətlərlə müzakirə zamanı etik davranış çərçivəsindən kənara çıxmamış və bu metodu bütün şiələrə öyrətmişlər. Lakin tarix onu göstərir ki, bizə müxalif olanlar kitablarında, məqalələrində, çıxışlarında bizim məzhəbə, həmçinin bu məzhəbin nümayəndələrinə müxtəlif formada hücumlar etmişlər. Onlar müxtəlif formada, müxtəlif vasitələrlə şiə məzhəbi və onun ardıcılları ilə savaşmış, hətta bəzi hallarda ölümlərə də səbəb olmuşlar. Günümüzdə belə bəzi ölkələrdə bu qəbildən olan hadisələr başverməkdədir. Onlar daim İslam məzhəbləri arasında ixtilaf və parçalanmanın vüsət tapması yolunda olmuşlar. Əksər hallarda isə bizim alimlər bu hücumları dəf etmək üslubundan istifadə etmişlər.

Elə bu səbəbdən də, yazdıqlarımızda əxlaq çərçivəsinə uyaraq sərt sözlərdən belə istifadə edilməyəcək. Yada salaq ki, bu tədqiqat əsərində aşağıda qeyd edilən ən mötəbər sayılan mənbələrdən istifadə edilmişdir:

“Ənsabul-əşraf və futuhul-buldan”, Bəlazuri

“Ət-Təbəqatul-kubra”, İbn Səd

“Tarixu ət-Təbəri”

“Tarixu mədinəti Diməşq”, İbn Əsakir

“Tarixu Hələb”, İbn Ədim Hələbi (hicri VII qəməri əsrinin alimlərindəndir)

“Əl-Mucəmul-Kəbir”, Əbülqasim Təbərani

Əbülfərəc ibn Cövzi Hənbəli Bağdadinin müxtəlif kitabları

“Tarixul-islam və siyəru əlamin-nubəla”, Şəmsuddin Zəhəbi

“Əl-Kamil fit-tarix”, İbn Əsir

“Əl-Bidayə vən-Nihayə”, İbn Kəsir Dəməşqi

“Əl-Futuh”, İbn Əsəm Kufi

“Əl-Əxbar ət-təval”, Dinəvəri

“Murucuz-zəhəb”, Məsudi

“Məqatilut-talibin”, Əbülfərəc İsfahani

“Əl-Mustədrək ələs-səhiheyn”, Hakim Nişapuri

“Musnəd”, Əhməd ibn Hənbəl

“Əl-İstiab”, İbn Əbdülbərr Maliki Qurtubi

“Usdul-ğabə”, İbn Əsir

Bu əsərdə keçmişdəki alimlərimizin əlində olmayan, lakin günümüzdə çap olunan əhli-sünnə məzhəbinə mənsub tarix, hədis və təfsirlərdən, həmçinin İbn Həcər Əsqəlaninin də kitablarından mənbə kimi istifadə olunmuşdur. Əlbəttə, bu tədqiqat əsərində aşağıda adlarını sadalayacağımız şiə alimlərinin də kitablarından yararlanmışıq:

“Əl-İrşad”, Şeyx Mufid

“Əl-Luhuf”, Seyid ibn Tavus

“Biharul-ənvar”, Əllamə Məclisi

Buna baxmayaraq əsaslı və əhəmiyyətli mövzular əhli-sünnə məzhəbinə mənsub kitab və mənbələrdən nəql olunmuşdur. Bu tədqiqat əsərinin həqiqət axtaranlar və təhlilçilər tərəfindən qəbul ediləcəyinə ümid edirik.

*1428-ci il Məhərrəm ayı*
*Seyid Əli Hüseyni Milani*

# AŞURA HADİSƏSİ TARİXİ DÖNƏMLƏRDƏ

## İmamların عليهم السلام Aşura hadisəsinin əzəmətli tutulmasına önəm verməsi

Öncə də qeyd etdiyimiz kimi 12 imam şiələri tarixboyu hücumlara məruz qalmışdır. Alimlərimiz isə əqidə, fiqh və digər mövzularda şiəlik məktəbinin müdafiəsinə qalxmışdır. Şiə məzhəbinə hücum etmək üçün əldə bəhanə tutduqları mövzulardan biri də Kərbəla hadisəsi və İmam Hüseynin عليه السلام şəhadətidir. Hicri-qəməri tarixinin 61-ci ilinin Məhərrəm ayında baş vermiş bu faciənin ilk günündən məsum imamlar عليهم السلام və Əhli-Beyt عليهم السلام ardıcılları olan şiələr bu əzəmətli günü diri saxlamağa səy göstərmişlər. Əlbəttə, İmam Hüseynin عليه السلام matəm məclisinin banisi həzrət Peyğəmbər صلى الله عليه وآله olmuşdur. Bu barədə sünni və şiə mənbələrində həddindən çox hədis mövcuddur.[5] Digər bir tərəfdən isə düşmənlərimiz və müxaliflərimiz Aşura gününün unudulması və bu hadisənin özündən sonra buraxdığı izlərin tamamilə məhv edilməsi yolunda durmadan çalışmışlar. Beləliklə, Aşura günü iki cəbhənin üz-üzə, qarşı-qarşıya dayandığı gündür. Cinahlardan biri bu günün yaşamasına çalışdığı halda, digər cinahın məqsədi isə belə əhəmiyyətli tarixi günü məhv etməkdir.

İslam tarixində belə bir xüsusiyyətə malik əlamətdar günlər azdır. Lakin nümunə üçün Qədir-Xum gününü misal çəkmək olar. Qədir-Xum hadisəsinin ilk günündən bəzi insanlar həmin hadisənin əhəmiyyətinə kölgə salmaq yolunda səy göstərmişlər. Ancaq imamət və vilayət tərəfdarları Qədir-Xum gününün yaşaması və əbədiləşməsi yolunda çox

---

[5] Daha ətraflı məlumat üçün Əllamə Əmininin "Sirətuna və sunnətuna" kitabına, həmçinin Əllamə Seyid Şərəfuddinin "Əl-Məcalisul-faxirə" kitabının müqəddiməsinə müraciət edin.

zəhmət çəkmişlər. Bu xüsusiyyət (inkar və isbat) hər iki günün - Aşura və Qədir-Xum gününün - həssas və əzəmətli olmasına dəlalət edir.

Əslində, Aşura hadisəsi baş verən gün nə Müaviyə, nə Yezid, nə də Bəni-Üməyyə düşünə bilməzdi ki, bu hadisənin nəticələri onların və tərəfdarlarının əleyhinə, əvəzində isə Əhli-Beyt (عليهم السلام) məktəbinin qalibiyyətinə səbəb olacaq. Bu səbəbdən, bütün şiələrin ən ümdə vəzifəsi İmam Hüseynə (عليه السلام) və əshabına matəm məclisləri bərpa etmək və bu günün ehtiramını saxlamaqdır. Bu bizim vacib işlərimizdən hesab olunmalıdır. Hər bir kəs yerinə, məqamına və tutduğu mövqeyə uyğun, bacardığı şəkildə bu yolda üzərinə düşəni yerinə yetirmək üçün çalışıb səy göstərməlidir.

Bir şey də aydındır ki, əzadarlığın fiqhi hökmü və özünəməxsus davranma qaydası mövcuddur və insanlar özlərinin təqlid etdikləri müctehidlərin göstərişlərinə əsasən davranmalı və şəriətin təyin etdiyi çərçivədə hərəkət etməlidirlər.

Əlbəttə, Allahın və on ikinci İmamın (əf) lütfü sayəsində ölkəmizdə əzadarlıq mərasimi çox yaxşı şəkildə icra olunur. Bundan əlavə, digər dinlərin nümayəndələri də əzəmətli Aşura məclislərində iştirak edir və bu mərasimin bərəkətini yaxından hiss edirlər.

Bu mərasim dini və məzhəbi bir mərasimdir, onun qarşısını almaq düzgün deyildir. Ancaq bəzi müsəlman ölkələrində şəhidlərin sərvəri İmam Hüseynin (عليه السلام) əzadarlıq mərasimləri haqda iğtişaş doğuran çıxışlar edilir ki, bunun da sonu acı nəticələr verir.

## Əzəmətli hadisənin unudulması uğrunda səy göstərənlərin uğursuzluğa düçar olması

Öncə də qeyd etdiyimiz kimi, bir qrup düşmən belə bir əzəmətli tarixi hadisənin unudulması üçün daim fəaliyyət

aparmışlar. Əhli-sünnə alimlərindən bəziləri öz məqalə və ya kitablarında müxtəlif üslublardan istifadə etməklə Aşura hadisəsinin unudulmasına və İmam Hüseyn (ə) əzadarlığının bərpasının qarşısının alınmasına cəhd göstərmişlər.

Həmin üslublardan aşağıda nümunə üçün bir neçəsini qeyd edək:

**1. İrfan və sufilik üslubu**

Əhli-sünnə alimlərindən və sufiliyin böyük şəxsiyyətlərindən hesab olunan Əbdülqadir Gilani Aşura mövzusu barədə əhli-sünnəyə tutulan iradı açıqlayaraq belə qeyd etmişdir:

قد طعن قوم على من صام هذا اليوم العظيم وما ورد فيه من التعظيم وزعموا أنه لا يجوز صيامه لأجل قتل الحسين بن علي رضى الله عنهما .فيه وقالوا: ينبغي أن تكون المصيبة فيه عامةً لجميع الناس لفقده فيه، وأنتم تتخذونه يوم فرح وسرور وتأمرون فيه بالتوسعة على العيال والنفقة الكثيرة والصدقة على الفقراء والضعفاء والمساكين وليس هذا من حق الحسين رضى الله عنه على جماعة المسلمين؛

***Bəzi insanlar bu əzəmətli gündə*** *(Aşura günündə – red.)* ***oruc tutanlara*** *(əhli-sünnəyə – red.)* ***və bu günün əzəmətli tutulması*** *(şadyanalıq mənasında – red.)* ***barədə nəql edilmiş hədislərə iradlar edirlər. Onlar bu gün Hüseyn ibn Əli (Allah hər ikisindən razı olsun) qətl edildiyinə görə oruc tutmağın caiz olmadığını iddia edərək deyirlər: Bu gündə bütün insanların matəmdə olması gərəkdir. Çünki bu gün Hüseyn ibn Əli (ə) öldürülmüşdür. Siz isə bu günü sevinc və fərəh günü kimi qəbul edir, insanları əhli-əyala pul xərcləməyə, çoxlu nəfəqə verməyə, fəqir, aciz və miskinlərə sədəqə bəxş etməyə çağırırsınız. Halbuki müsəlman camaatının boynunda Hüseyn ibn Əlinin (Allah hər ikisindən razı olsun) layiq olduğu haqq bu deyildir.***

Gilani bu irada belə cavab verir:

وهذا القائل خاطئ ومذهبه قبيح فاسد، لأنّ الله تعالى اختار لسبط نبيه صلى الله عليه وآله الشهادة... يوم عاشوراء لا يتخذ يوم مصيبة، لأنّ يوم عاشوراء أن يتخذ يوم مصيبة ليس بأولى من أن يتخذ يوم موته فرح و سرور ؛

***Bu iradı edən səhvə yol verir, etiqadı isə pis və yararsızdır. Çünki uca Allah Öz Peyğəmbərinin ﷺ[6] nəvəsi üçün şəhidlik məqamını seçmişdir*** *(təqdir etmişdir – red.)****... Aşura günü matəm günü kimi qəbul edilməməlidir. Çünki Aşura gününü matəm günü kimi qeyd etmək, o həzrətin öldüyü günü fərəh və sevinc günü olaraq qeyd etməkdən yaxşı deyildir...*** *(çünki bu gün aşiq öz məşuquna qovuşmuşdur – red.)*

Əbdülqadir Gilani davam edərək qeyd edir:

ولو جاز أن نتّخذ يوم موته ] يوم[ مصيبة لكان يوم الاثنين أولى بذلك، إذ قبض الله تعالى نبيّه ]محمّداً[ صلى الله عليه وآله فيه وكذلك أبوبكر الصدّيق قبض فيه

***Əgər o həzrətin ölüm gününü*** *(Aşura gününü – red.)* ***matəm günü kimi qeyd etmək doğru olsaydı, o zaman bazar ertəsini matəm günü kimi qeyd etmək daha yaxşı olardı. Çünki Allah Öz peyğəmbəri Muhəmmədin ﷺ ruhunu bu gündə*** *(bazar ertəsində – red.)* ***qəbz etmişdir, habelə Əbu Bəkr Siddiq də bu gün vəfat etmişdir.***[7]

## 2. Müqəddəslik və pəhrizkarlıq üslubu

Digər bir üslub İmam Hüseynin (ə) qatili haqqında şübhə oyadaraq bu yola qarşı mübarizə aparmaqdan ibarətdir. Ğəzzali özünün "İhyau ulumud-din" kitabında müqəddəslik və pəhrizkarlıq üslubundan istifadə edərək İmam

---

[6] Əhli-sünnə mənbələrində Peyğəmbərin ﷺ adının ardınca salavatın yarımçıq qeyd olunmasına baxmayaraq, biz Peyğəmbərin ﷺ göstərişinə uyğun olaraq onu kamil şəkildə qeyd etmişik. Digər bir tərəfdən, məsum imamların mübarək adlarından sonra "əleyhissəlam" ibarəsini yazmışıq.

[7] Ğunyətut-talibin səh 684-687; "Nəfəhatul-əzhar" (4/245) kitabının nəqlinə əsasən.

Hüseynə ﷺ matəm saxlamağın əhəmiyyətsiz olduğunu göstərməyə çalışmışdır. O, kitabında yazır:

إن قيل: هل يجوز لعن يزيد، لأنه قاتل الحسين أو آمر به؟ قلنا: هذا لم يثبت اصلاً . ... فإن قيل: فهل يجوز أن يقال: قاتل الحسين لعنه الله، أو الآمر بقتله لعنه الله؟ قلنا: الصواب أن يقال: قاتل الحسين إن مات قبل التوبة لعنه الله، لأنه يحتمل أن يموت بعد التوبة؛

***Əgər deyilsə: "Yezidə lənət oxumaq olarmı? Çünki o, Hüseynin ﷺ qatilidir yaxud qətlinə fərman verəndir". Belə cavab verərik: "Bu*** *(Yezidin qatil olması, yaxud qətlə fərman verməsi – red.)****, ümumiyyətlə sübuta yetməmişdir". Həmçinin əgər deyilsə ki, "Allah Hüseynin ﷺ qatilinə lənət etsin", yaxud "Allah onun qətlinə fərman verənə lənət etsin" demək olarmı? Cavab verərik ki, düzgün olanı belə deməkdir: "Hüseynin ﷺ qatili əgər tövbə etmədən ölübsə, Allah ona lənət etsin". Çünki ola bilsin ki, o*** *(qatil – red.)****, tövbə etdikdən sonra ölmüşdür.***[8]

Yəni, birincisi budur ki, İmam Hüseynin ﷺ qətlinin Yezidə nisbət verilməsi və Yezidin qatil olması sübuta yetməmişdir. İkincisi, Hüseyn ibn Əlinin ﷺ qatili kim də olsa belə, ölməmişdən öncə bəlkə tövbə etmişdir? Buna görə, İmam Hüseynin ﷺ qatilinə lənət oxumaq caiz deyildir!

Ğəzzali sözünün davamında qeyd edir ki: "***Bu sözlərdənsə, Allah zikri söyləmək daha yaxşıdır".***[9] Yəni "la ilahə illəllah" zikri ilə İmam Hüseynin ﷺ qatilinə lənət oxumaq arasında, "La ilahə illəllah" zikrinin savabı daha çoxdur.

### 3. Təkzib üslubu

Üçüncü üslub Aşura hadisəsini təkzib etməkdən ibarətdir. İbn Teymiyyə mübarizəsini bu metodla başlayaraq deyir ki, İmam Hüseynin ﷺ qatili Yezid deyildir; o, ima-

---

[8] İhya ulumud-din c.3. səh.125-126

[9] Həmin mənbə

mın xanımlarını və yaxınlarını əsir etməmişdir, bu sözlər yalandır..

O, belə yazır:

نّ يزيد لم يأمر بقتل الحسين باتفاق أهل النقل ولكن كتب إلى ابن زياد أن يمنعه عن ولاية العراق والحسين رضي الله عنه كان يظن أنّ أهل العراق ينصرونه... فقاتلوه حتى قتل شهيداً مظلوماً رضي الله عنه. ولمّا بلغ ذلك يزيد أظهر التوجع على ذلك وظهر البكاء في داره ولم يسب له حريماً أصلاً، بل أكرم أهل بيته وأجازهم حتى ردهم إلى بلدهم

***Nəql alimlərinin** (tarixçi və mühəddislərin – red.)* ***yekdil rəyinə əsasən, Yezid İmam Hüseynin* ﷺ *qətlinə fərman verməmişdir. O, sadəcə İbn Ziyada məktub yazmışdır ki, onun İraqda hakimiyyəti ələ keçirməsinin qarşısını alsın. Hüseyn (Allah ondan razı olsun) elə bilirdi ki, İraq camaatı ona kömək edəcək... Amma onlar*** *(İraq camaatı – red.)* ***Hüseynlə (Allah ondan razı olsun) döyüşərək onu məzlumcasına şəhid etdilər. Bu xəbər Yezidə çatdıqda, o, bu hadisəyə görə ürəkağrısı duyduğunu göstərdi, onun evində ağlaşma səsləri yüksəldi. O, heç vaxt həzrətin* ﷺ *ailəsini əsir almadı, əksinə, onun ailəsini öz şəhərlərinə qaytarana qədər onlara ehtiram göstərdi, şərait yaratdı.***[10]

Deməli, İmam Hüseyn ﷺ şəhiddir, özü də məzlumcasına şəhid edilmişdir. "Allah ondan razı olsun *(radiyallahu anhu – red.)*" ifadəsi də onun adının ardınca işlədilməlidir. Lakin Yezid İmam Hüseynin ﷺ qatili deyildir (!!) və onun ailəsini əsir götürməmişdir (!!).

İbn Teymiyyə əlavə edərək yazır:

ليس ما وقع من ذلك بأعظم من قتل الأنبياء... وقتل النبي أعظم ذنباً ومصيبةً؛

***Bu hadisənin baş verməsi*** *(İmam Hüseynin* ﷺ *qətl edilməsi – red.)* ***peyğəmbərlərin qətlindən daha ağır deyil...***

---

[10] Minhacus-sünnə c.4, səh.472

***Bir peyğəmbərin qətli ən böyük günah və ən böyük müsibətdir.***[11]

Ötən səhifələrdə qeyd etdiyimiz kimi Əbdülqadir Gilani Aşura günü matəm və əzadarlıq saxlamaq əvəzinə, Peyğəmbər ﷺ və Əbu Bəkrin vəfat günündə matəm saxlamağı üstün hesab edir. İbn Teymiyyə isə deyir ki, ilahi peyğəmbərlərin qətli ilə müqayisədə İmam Hüseynin عليه السلام qətli elə də böyük bir faciə deyildir və nəyə görə onların qətl günlərini matəm qərar vermirsiniz?!

Deməli, bəzi əhli-sünnə mənsublarının inancına görə, bu hadisə Yezid ibn Müaviyənin razılığı ilə olmamışdır və Yezidi qatil hesab etmək olmaz; və ya ən azından bu məsələ şübhəlidir. Ancaq yazılan cümlələrdən *(yuxarıda qeyd olunmuş sitatlardan – red.)* İmam Hüseynin عليه السلام şəhadəti düzgün bir iş və ya şəriətə uyğun atılan bir addım idi ya yox, bu bəlli olmur. Onların etiqadına görə, İmam Hüseyn عليه السلام uca məqama (şəhadət məqamına) çatdığına görə, onun ruhunun bədənindən çıxaraq mələkut aləminə qovuşduğu gün şadlıq və sevinc günüdür və həmin gün bayrama uyğun məclislər təşkil olunmalıdır... Bəs görəsən onların əsas məqsəd və hədəfləri nədir?

## Həqiqətlərin aşkarlanması

Söylədiyimiz kimi irfan və sufilik təriqətlərinin nümayəndələri Aşura hadisəsinə qarşı mübarizə aparmışlar. Bu üslubun ixtiraçısı olan Əbdülqadir Gilani əhli-sünnə etiqadında olan cəmiyyətin nəzərində böyük ehtirama sahibdir. Bununla yanaşı, həqiqət heç zaman gizli qalmayaraq bir sıra əhli-sünnə alimlərinin qələm-və sözlərində üzə çıxmışdır və onlar bu cür mübarizə üslublarını rədd etmişlər. Əhli-sünnə

---

[11] Həmin mənbə, c.2, səh.247 və c.4, səh.550

məzhəbinin böyük alimlərindən olan Əbülfərəc ibn Cövzi Hənbəli bu haqda belə yazır:

قد تمذهب قوم من الجهال بمذهب أهل السنة، فقصدوا غيظ الرافضة، فوضعوا أحاديث في فضل عاشوراء، ونحن برآء من الفريقين

***Əhli-sünnə məzhəbini qəbul etmiş nadan bir dəstə rafizilərə*** *(şiələrə – red.)* ***acıq vermək məqsədilə Aşura gününün fəzilətləri ilə bağlı*** *(bu günü bayram günü kimi qeyd etməklə bağlı –red.)* ***bir sıra hədislər uydurmuşlar. Biz hər iki dəstədən uzağıq*** *(yəni həm Aşura günü əzadarlıq edənlərdən, həm də həmin günü şadyanalıq məclisi bərpa edənlərdən – müəl.)*.[12]

Əhli-sünnə məzhəbindən olan digər bir alim Mənnavi də bu nəzəriyyəyə qarşı çıxır. O, Məcduddin Firuzabadidən ("Qamus" kitabının müəllifi) nəql edərək belə yazır:

ما يروى في فضل صوم يوم عاشوراء والصلاة فيه والانفاق والخضاب والأدهان والإكتحال، بدعة ابتدعها قتلة الحسين رضي الله عنه. وفي القنية للحنفية الإكتحال يوم عاشوراء لما صار علامة لبغض أهل البيت وجب تركه؛

***Aşura günü oruc tutmağın fəziləti barədə nəql olunmuş hədislər, eləcə də həmin gündə namaz qılmaq*** *(bayram məqsədilə qılınan müstəhəb namazlar – red.)*, ***sədəqə vermək, xına qoymaq, bədənə yağ sürtmək və gözə sürmə çəkmək Hüseynin (Allah ondan razı olsun) qatillərinin çıxardığı bidətlərdəndir*** *(İslamda olmayan şeylərdir – red.)*. ***Hənəfilərin "Qunyə" kitabında da yazılmışdır ki, Aşura günü sürmə çəkmək Əhli-Beytə*** عليهم السلام ***qarşı düşmənçiliyin nişanəsi olduğu üçün tərk edilməsi vacibdir.***[13]

Bu şəxslər Aşura gününü bayram hesab edən, Əhli-Beyti عليهم السلام və şiələri incitmək üçün qondarma hədis nəql edənləri "nasibi", yəni Əhli-Beytin عليهم السلام düşmənləri adlandırmışlar.

[12] Əl-Movzuat c.2. səh.199

[13] Feyzul-qədir c.6. səh.306

## Digər bir mövqedən çıxış edənlər

Qeyd edildiyi kimi, bir qrup İmam Hüseynin (ə) Yezidin vasitəsilə qətlə yetirilərək şəhid edildiyini təsdiq etmir, əksinə inkar edirlər. Lakin bunların müqabilində əhli-sünnə məzhəbinin mötəbər alimlərindən sayılan digər bir qrupu isə başqa bir mövqedən çıxış edirlər. Onlar Yezidin qatil olduğunu təsdiq etsələr də, Kərbəla hadisəsinə xüsusi rəy vermədən belə bir böyük tarixi hadisəyə önəmsiz yanaşırlar. İbn Teymiyyənin seçilmiş tələbələrindən olan İbn Qəyyim Cövziyyə belə söyləmişdir:

ونعتقد حب آل محمد وأزواجه وسائر أصحابه رضوان الله تعالى عليهم، ونذكر محاسنهم وننشر فضائلهم ونجلّ ألسنتنا وقلوبنا عن التطلّع فيما شجر بينهم، ونستغفر الله لهم ونتوسل إلى الله تعالى باتباعهم ونرى الجهاد والجماعة ماضياً إلى يوم القيامة والسمع والطاعة لولاة الأمر من المسلمين واجباً في طاعة الله تعالى دون معصيته، لا يجوز الخروج عليهم ولا المفارقة لهم. ولا نكفّر أحداً من المسلمين بذنب عمله ولو كبر، ولا ندع الصلاة عليهم، بل نحكم فيهم بحكم النبي، ونترحم على معاوية، ونكل سريرة يزيد إلى الله تعالى

***Biz Peyğəmbərin (s) ailəsinə** (Əhli-Beytinə (ə) – red.), **xanımlarına və digər səhabələrinə (Allah onlardan razı olsun) məhəbbət bəsləyir, onların yaxşılıqlarını və fəzilətlərini danışırıq. Dilimizi və qəlbimizi isə onlar arasında baş vermiş mübahisələr barədə maraqlanmaqdan uzaq tuturuq. Biz onlar üçün Allahdan bağışlanma diləyirik, onların ardıcılı olmaqla Allaha təvəssül edirik.** [14] **Biz cihadın da, camaat namazının da Qiyamət gününə qədər davam edəcəyinə inanır, müsəlmanlardan olan əmr sahiblərinə** (dövrün xəlifəsinə – red.) **günahlarda yox, Allahın itaətinə uyğun məsələlərdə qeyd-şərtsiz boyun əyməyi vacib bilirik. Onlara** (əmr sahiblərinə -red.) **qarşı çıxmaq, eləcə***

[14] İbn Qəyyim burada Allaha yaxınlaşmaq üçün təvəssül məsələsinə toxunur. Bu məsələ tədqiqatçılar üçün faydalı ola bilər.

***də onlardan ayrılmaq caiz deyildir. Biz heç bir müsəlmanı onun günah əməlinə görə, hətta böyük günah olsa da, təkfir etmirik*** *(yəni əmr sahibi böyük günah etsə belə ona qarşı çıxmaq caiz deyildir – müəl.)****, onlara cənazə namazı qılmağı da tərk etmirik. Əksinə, onlar barəsində Peyğəmbərin ﷺ hökm etdiyi kimi hökm edirik. Müaviyə üçün rəhmət diləyir, Yezidin ruhunu isə uca Allaha həvalə edirik*** *(Allah onun barəsində nə hökm edərsə, Özü bilər – red.)*[15]

Böyük əhli-sünnə alimlərindən olan Şəmsuddin Zəhəbi Yezidin qatil olduğunu və İmam Hüseynin ؑ şəhid edildiyini etiraf etsə də, bu məsələyə qarşı etinasızlığını belə ifadə edir:

افتتح دولته بمقتل الشهيد الحسين عليه السلام واختتمها بواقعة الحرة فمقته الناس

***Onun*** *(Yezidin – red.)* ***hakimiyyəti şəhid Hüseynin ؑ qətl edilməsiylə başladı və Hərrə faciəsi ilə bitdi. Odur ki, insanlar ona nifrət etdilər.***[16]

Bununla belə yazır:

يزيد ممن لا نسبه ولا نحباس

***Yezid o kəslərdəndir ki, biz onu nə təhqir edirik, nə də sevirik.***[17]

Kərbəla hadisəsini sönük göstərmək və İmam Hüseynin ؑ müsibətinə etinasız yanaşmaq bir sıra əhli-sünnə alimlərinin digər bir yanaşma üslubudur. Görəsən, bu şəxslər tarix barədə, eləcə də məzhəb elmləri barədə yazılmış bütün o kitablarda doğrudanmı həqiqəti görə bilməmişlər?! Əgər həqiqəti bilirlərsə, bəs niyə sükut edirlər? Onlar bu hadisəni nə inkar edirlər, nə də təsdiq. Digər tərəfdən, Yezidin əməlini nəyə görə araşdırmırlar? Bu haqda onlarla sual möv-

---

[15] İctimail-cuyuşil-islamiyyə c.1, səh.104
[16] Siyəru əlamin-nubəla c.4, səh.38
[17] Siyəru əlamin-nubəla c.4, səh.36

cuddur. Qarşınızda olan bu tədqiqat əsəri onların digər alimlərinin bu qəbildən olan suallara verdikləri cavabları ortaya qoyacaq. Hətta bəzilərinin Yezidin İmam Hüseyni عليه السلام qətlə yetirdiyini etiraf etməklə, onun bu əməlinə bəraət qazandırmalarını da qeyd edəcəyik. Növbəti səhifələrdə qeyd edəcəyimiz kimi bu qəbildən olan şəxslər, nəinki şiələrdə nifrət hissi oyatmış, hətta bir sıra əhli-sünnə alimlərinin də nifrətini qazanmışlar.

## Mövzunun xülasəsi

Əhli-sünnə məzhəbinə mənsub olan böyük alimlərdən bəziləri Aşura gününün yaşaması və həzrət İmam Hüseynin عليه السلام adının diri qalmasına qarşı müxtəlif üsullarla mübarizə aparmışlar. Onlar çox gözəl bilirdilər ki, Peyğəmbərin صلى الله عليه وآله وسلم övladının başına gələn müsibəti, bəlanı və qətliamı eşidən müsəlmanlar istər-istəməz zalım hökumətləri qınayacaqlar. Elə bu səbəbdən, Aşura gününün diri qalmasına qarşı mübarizə aparmışlar. Onların mübarizə üslubları, bəzən pəhrizkarlıq və təqva pərdəsi altında gizlənməklə, bəzən Yezidin qatil olmasını, hətta hadisənin başverməsini şübhə altına almaqla, bəzən isə hadisəyə irfani don geydirməklə yerinə yetirilmişdir. Belə ki, irfani üsluba əsasən, Aşura günündə İmam Hüseyn عليه السلام şəhadətə çatmaqla insanlığın kamillik zirvəsinə ucalmışdır deyə, həmin günü şadlıq və bayram günü adlandırmaq təklifini irəli sürmüşlər!

## Yezidin qatil olduğunu təsdiq etməklə yanaşı onun əməlinə bəraət qazandırmaq

Əhli-sünnə alimlərindən digər bir qrupu isə qələmlərini başqa bir üslubda işə salaraq hidayət çırağını söndürmək uğrunda mübarizə aparmışlar. Belə ki, onlar Yezidin qatil

olduğunu etiraf etsələr də, onun cinayətini şəriət rəngi ilə ört-basdır etmişlər. Onların dediklərinə görə, Yezidin hakimiyyəti şəriət qanunlarına uyğundur və İmam Hüseyn ﷺ ilahi hakimiyyətə qarşı qiyam etmişdir. Başqa sözlə desək, Yezid və onun tərəfdarlarının İmam Hüseyni ﷺ qətlə yetirmələri şəriətin onların öhdəsinə qoyduğu bir vəzifə olmuşdur (Allaha pənah aparıram!). Guya, o həzrətin qatilləri Peyğəmbərin ﷺ göstərişi əsasında davranmışlar!

## İbn Xəldunun İmam Hüseynin ﷺ şəhadətinə qarşı inadkarlığı

Adlı-sanlı tarixçilərdən olan İbn Xəldun özünün tarix kitabına bir müqəddimə yazmışdır ki, elmi dairələrdə "İbn Xəldunun müqəddiməsi" adı ilə məşhurdur. Əlbəttə, əhli-sünnə bu kitaba olduqca böyük önəm verir; bəlkə də, elə bu səbəbdəndir ki, bizim ölkədə də *(İranda – red.)* bəzi yazıçılar bu kitaba və müəllifinə ehtiramla yanaşırlar. Tarixçi və hədis rəvayət edən, əhli-sünnənin böyük alimlərindən sayılan Hafiz Səxavi İbn Xəldunun tərcümeyi-halını şərh edərkən belə qeyd etmişdir ki, ustadım İbn Həcər Əsqəlani[18] demişdir: ***"Ustadım Əbülhəsən Heysəmini gördüm, o, İbn Xəldunu məzəmmət edib əleyhinə sözlər danışırdı"***.

İbn Həcər davam edərək deyir ki, Heysəmidən İbn Xəlduna qarşı bu mövqeyi haqda soruşduğum zaman belə cavab verdi:

أنه ذكر الحسين بن علي رضى الله عنهما في تاريخه فقال: قتل بسيف جده؛

***Çünki İbn Xəldun özünün tarix əsərində Hüseyn ibn Əli (Allah hər ikisindən razı olsun) haqqında belə qeyd***

---

[18] Əhli-sünnənin nəzərində İbn Həcər Əsqəlani olduqca böyük fəqih və hədis mütəxəssisidir

***etmişdir: "O, öz babasının** (Peyğəmbərin ﷺ – red.) **qılıncı ilə qətlə yetirilmişdir** (yəni onu öldürənlər öz şəri vəzifələrini icra etmişdir – red.)**".***

İbn Həcər əlavə edir:

ولمّا نطق شيخنا بهذه اللفظة أردفها بلعن ابن خلدون وسبه وهو يبكي

***Ustadımız bu sözləri dedikdən sonra ağlaya-ağlaya İbn Xəlduna lənət oxudu və onu təhqir etdi.***[19]

Ardınca Səxavi İbn Həcər Əsqəlanidən nəql edərək deyir ki, o, bu ifadəyə *("O, babasının qılıncı ilə qətl edilmişdir" ifadəsinə – red.)* İbn Xəldunun mövcud tarix kitabında rast gəlməmişdir. Elə buradan aydın olur ki, İbn Xəldunun tarixinin müxtəlif nüsxələri mövcud olmuşdur. Lakin Hafiz Əbülhəsən Heysəminin əlində olan nüsxədə İbn Xəldun İmam Hüseynin ﵇ şəhadəti haqda qeyd etdiyimiz ibarəni yazmışdır.[20] Ümumiyyətlə, əksər tarixi kitablarda dəyişikliklər olmuşdur. İbn Xəldunun tarix kitabına müraciət etsəniz, kitabı çap edən müəssisənin kitabdan bir neçə səhifənin çıxarıldığına dair xəbərdarlığa rast gələrsiniz.[21] Hazırkı çapın nüsxəsində nə Kərbəla hadisəsi, nə İbn Xəldunun sözü, nə də bu hadisənin tarixçəsi haqda məlumat verilmişdir.[22] Onların digər üslublarından biri isə, ümumiyyətlə, Əhli-Beytin عليهم السلام əhvalatlarını dərc etdirməmək olmuşdur. İbn Sədin "Ət-Təbəqatul-kubra" kitabını çap etdirsələr də, həmin kitabda nə Kərbəla hadisəsini, nə də İmam Hüseynin ﵇ əhvalatını qeyd etmişlər. Guya, "Təbəqat" kitabında İmam Hüseyn ﵇ barəsində heç bir şey yazılmamışdır! Ancaq tədqiqatçılardan biri bu əsərin əlyazma nüsxəsini əldə edərək İmam Hüseynin ﵇ əhvəlatını

---

[19] Əz-Zoul-lame c.4, səh.147

[20] Həmin mənbə

[21] Tarixu İbn Xəldun c.5, səh.50

[22] Həmin mənbə

"İbn Sədin tarixində İmam Hüseynin (ə) tərcümeyi-halı" adı altında nəşr etdirmişdir.

Əlavə olaraq, hamının əlində olan İbn Xəldunun "Tarix" kitabının müqəddiməsində "Vilayətul-əhd" adlı bir fəsil mövcuddur ki, həmin fəsildə Müaviyənin zamanında Yezidin vəliəhdlik mövzusuna toxunmuşdur. Həmin fəsildə müəllif İmam Hüseynə (ə) böyük həqarətlər etmiş, Yezidi isə müdafiə etmişdir. O, həmin fəsildə nəinki Yezidi, hətta Müaviyəni və Yezidlə birgə olub onunla beyət edən səhabələri də müdafiə etmişdir!

O, həmin fəsildə belə deyir: ***"Peyğəmbər (s) səhabələrinin etiqadına görə, Yezidin vəliəhd seçilməsi şəriət baxımından düz idi, onun hakimiyyəti haqq idi və onun əleyhinə qiyam etmək olmazdı, halbuki İmam Hüseyn (ə) bu beyəti pozmuşdu!"***[23]

İbn Xəldun bu yazısında nəhayət dərəcədə təəssübkeşlik edərək İmam Hüseynin (ə) guya beyət etdiyini, sonra isə bu beyəti pozduğunu göstərməyə çalışır.

İbn Xəldunun sözlərindən əldə olunan və bu araşdırmamızda olduqca əhəmiyyət kəsb edən mühüm nöqtə ondan ibarətdir ki, İmam Hüseynin (ə) şəhadəti hadisəsində Müaviyə və səhabələrin də rolu olmuşdur.

## İbn Ərəbi Malikinin nəzəri[24]

İbn Ərəbi Maliki də digər bir əhli-sünnə alimlərindəndir. Hicri-qəməri tarixinin 543-cü ilində vəfat etmiş İbn Ərəbi əhli-sünnənin nəzərində böyük ehtiram və dəyər sahibidir. Onun tərcümeyi-halı barədə tarix kitablarında,

---

[23] Həmin mənbə, c.1, səh.212

[24] Bu İbn Ərəbi "Futuhat" kitabının müəllifi olan İbn Ərəbi deyil.

eləcə də müfəssir və hədis nəql edənlərin tərcümeyi-halı bəyan olunan kitablarda ətraflı yazılmışdır.

Onun barəsində belə yazırlar:

الإمام العلاّمة الحافظ القاضي؛

***O imam, əllamə** (çox elmli – red.)**, hafiz** (bir çoxlarına görə, üç yüz min hədisi sənəd və mətni ilə birlikdə əzbər bilən – red.) **və qazidir** (qəzavət etmək səlahiyyətinə malik olan– red.)**.*** [25]

İbn Ərəbi Malikini tanımaq üçün onun "Əl-Əvasim minəl-qəvasim" kitabına nəzər salsaq, kifayət edər. Çünki həmin kitabda Əhli-Beytə (ə) qarşı bütün ziddiyyət və düşmənçiliyini ortaya qoymuşdur. İbn Teymiyyə özünün bir çox mövzularını onun kitabından əxz etmişdir. Elə bu məsələnin özü onun Əhli-Beytə (ə) qarşı düşmənçiliyinin bariz nümunəsidir. O, İmam Hüseyn (ə) haqda öz fikrini belə bəyan edir:

الحسين لم يقْتل إلاّ بسيف جده؛

***Hüseyn (ə) yalnız öz babasının qılıncı ilə qətlə yetirilmişdir.*** [26]

Digər alimlər İbn Ərəbinin bu sözünü tənqid atəşinə tutmuşlar. Hətta şiələrə qarşı ziddiyyətli mövqeyi ilə seçilən İbn Həcər Məkki İbn Ərəbinin bu sözünə irad tutaraq qeyd edir :

يقشعر منه الجلد؛

***Onun bu sözü insanın canını lərzəyə salır.*** [27]

İndi isə mövzunu iki sual ətrafında davam etdirək: xilafət və hakimiyyətə yetişməkdə əhli-sünnə alimlərinin elmi əsasları nədən ibarətdir və İbn Ərəbinin bu sözləri nə

---

[25] Siyəru əlamin-nubəla, c.20, səh.197

[26] Şərhu əl-Qəsidətil həmziyyə, səh. 271; Feyzul-qədir, c.1, səh.265; Əl-Əvasim minəl-qəvasim, səh. 214

[27] Şərhu əl-Qəsidətil həmziyyə, səh. 271

ilə nəticələnə bilər? İbn Həcər Məkki İbn Ərəbinin nəzərini nəql etdikdən sonra onun sözünə izah verərək belə deyir:

أي بحسب اعتقاده الباطل أنه الخليفة، والحسين باغ عليه والبيعة سبقت ليزيد، ويكفي فيها بعض أهل الحلّ والعقد، وبيعته كذلك، لأنّ كثيرين أقدموا عليها مختارين لها. هذا مع عدم النظر إلى استخلاف أبيه له، أما مع النظر لذلك، فلا يشترط موافقة أحد من أهل الحلّ والعقد على ذلك؛

***Yəni onun** (İbn Ərəbinin – red.) **batil əqidəsinə görə, Yezid xəlifədir, Hüseyn ﷺ isə ona qarşı haqsızlıq etmişdir. Belə ki, ilk öncə Yezidə beyət edilmişdir və bu məsələdə** (beyətin şəriətə uyğun olmasında – red.) **bir neçə həll və əqd əhlinin** (əyan-əşraflar, alimlər, cəmiyyətin öndə gedənləri (burada əsasən səhabələr qəsd olunur) – red.) **beyət etməsi kifayətdir. Yezidin beyəti də belə olmuşdur. Çünki bir çoxları bu beyəti azad şəkildə qəbul etmişdir. Əlbəttə, bu, atasının onu vəliəhd təyin etməsini nəzərə almadıqda belədir. Amma bunu nəzərə alsaq, bu məsələdə həll və əqd əhlindən heç kimin müvafiqliyi şərt deyildir.*** [28]

İbn Həcər İbn Ərəbinin sözlərini nəql etdikdən sonra onu tənqid etməyə başlayır. Əlbəttə, mühüm olan İbn Həcər Məkkinin İbn Ərəbini məzəmmət etdiyi və "*onun bu sözü insanın canını lərzəyə salır*" cümləsi ilə başlayan izah və şərhidir.

Deməli, İbn Ərəbiyə görə, Yezid xəlifədir. Bir xəlifənin və hakimin şəriət baxımından haqq olmasında isə nüfuz sahiblərinin *(bu məsələdə səhabələrin – red.)* bəzilərinin beyət etməsi kifayətdir. Digər tərəfdən, Yezidin hakimiyyəti beyət vasitəsi ilə bərpa olunmuşdur. Çünki peyğəmbər ﷺ səhabələrindən bəziləri tam azad şəkildə bu beyəti qəbul etmişlər. Əlbəttə, hakimiyyətdə nüfuz sahibi olan kəslərin beyətinə o zaman ehtiyac duyulardı ki, Müaviyə Yezidi

---

[28] Həmin mənbə

vəliəhd təyin etməsin. Halbuki Müaviyə Yezidi öz canişini təyin etməklə onu vəliəhdi kimi tanıtdırmışdır və bu halda nüfuz sahiblərindən heç bircə nəfərin belə razılığı şərt sayılmır. Hətta bütün nüfuz sahibləri bu məsələyə qarşı çıxsalar belə, Müaviyənin Yezidi canişin təyin etməklə özünün vəliəhdi kimi tanıtması onun şəriətə uyğun xəlifə olmasına kifayətdir.

Bir halda ki, bu sözlər xilafət mövzusu barədə əhli-sünnə nəzərində qəbul edilən təməl prinsipləri bizə çatdırır, o zaman belə çıxır ki, onların nəzərində Yezidin hakimiyyətinin hüquqi çərçivədə olmasına meyar bir tək Müaviyənin onu xilafətə varis təyin etməsi idi. Bu zaman isə, Yezidin əleyhinə edilən hər bir qiyam batil sayılır. Qiyam edən şəxs, hətta Hüseyn ibn Əli (ə) olmuş olsa belə! O Hüseyn (ə) ki, Peyğəmbər (s) qızı Fatimənin (ə) oğludur... Əgər öldürülübsə, deməli buna layiq idi, çünki onun qiyamı batil bir qiyam idi!

Mənnavi də İbn Ərəbinin fikrini məzəmmət edərək belə yazmışdır:

وقد غلب على ابن العربي الغض من أهل البيت حتى قال: قتله بسيف جده؛

***İbn Ərəbinin Əhli-Beytə (ə) olan düşmənçiliyi ona güc gəlmiş, buna görə də: "Onu*** *(İmam Hüseyni (ə) – red.)* ***babasının qılıncı ilə öldürdülər" - demişdir.***

İbn Həcərin yenidən *(Yezidin hakimiyyətinin qanuniliyi barədə - red.)* Müaviyənin onu özündən sonra xəlifə təyin etməsini və səhabənin onun hakimiyyətini təsdiqləməsini dəlil kimi təqdim etməsi yaddan çıxmamalıdır.

Yezidə dəstək olan, onun hakimiyyətinin bünövrəsini möhkəmlədən və Yezidin iqtidarının sütunlarını çiyinlərində daşıyan səhabələr kimlərdir, görəsən? Əgər onlar tərəfdarlıq etməsəydi, Yezidin hakimiyyətinə din və şəriət baxımından haqq qazandırmaq və behişt cavanlarının ağasını qətlə

yetirmək mümkün olmazdı. Bu suallara sırasıyla cavab veriləcək.

İbn Ərəbi Maliki, Yezidin Müaviyənin vasitəsilə canişin təyin edilməsi və bunun üçün insanlardan beyət alınması mövzusunu şərh edərkən Yezidin xilafət məqamına layiq olmasına dair Buxarinin "Səhih"[29] kitabından Abdullah İbn Ömərin Yezidə beyət etməsini deyən hədisləri də qeyd etmişdir. İbn Ərəbi davamında belə demişdir:

هذه الأخبار الصحاح كلّها تعطيك أنّ ابن عمر كان مسلّماً في أمر يزيد وأنه بايع وعقد له والتزم ما التزم الناس ودخل فيما دخل فيه المسلمون، وحرم على نفسه ومن إليه بعد ذلك أن يخرج على هذا أو ينقضه، وظهر لك أنّ من قال: إنّ معاوية كذب في قوله: بايع ابن عمر ولم يبايع وأنّ ابن عمر وأصحابه سئلوا فقالوا: لم نبايع. فقد كذب، وقد صدق البخاري في روايته قول معاوية على المنبر: إنّ ابن عمر قد بايع

***Bu səhih xəbərlərin hamısı sənə bunu çatdırır ki, Abdullah ibn Ömər Yezidin xilafət məsələsini qəbul etmişdi; belə ki, ona beyət etmiş və əhd bağlamışdı. İnsanların özlərinə vəzifə bildiyini o da özünə vəzifə bilmişdi. Müsəlmanların qəbul etdiyini o da qəbul etmişdi. Bundan sonra o özünə və yaxınlarına bu beyətə qarşı çıxmağı və onu pozmağı haram etmişdi. Həmçinin sənə məlum oldu ki, Müaviyə haqda «Müaviyə yalan danışıb, çünki o, Abdullah ibn Ömərin beyət etmədiyi halda, onun beyət etdiyini demişdi; halbuki İbn Ömərin özündən və yoldaşlarından soruşublar və onlar beyət etmədiklərini söyləyiblər» deyən şəxsin özü yalan danışmışdır. Deməli, Buxari Müaviyənin minbərdə: "İbn Ömər Yezidə beyət etdi" - deməsini nəql etdiyi hədislə təsdiqləmişdir.***

---

[29] Əhli-sünnənin nəzərinə görə, Buxarinin "Səhih" kitabı "Qurandan sonra ən səhih kitab" sayılır.

Buna əsasən, Yezidin xəlifə olması və hakimiyyətinin bərpası üçün dayaq rolu oynayan ilk səhabə Abdullah ibn Ömər olmuşdur.

İbn Ərəbi Maliki əlavə edərək yazır:

فإن قيل: كان يزيد خمّاراً. قلنا: لا يحلّ إلاّ بشاهدين، فمن شهد بذلك عليه؟

***Əgər desələr ki, Yezid şərab içən olmuşdur** (yəni şərab içən xəlifə ola bilməz – red.)**, o zaman belə cavab verərik: Bu, yalnız iki (adil) şəxsin şahidliyi ilə təsdiq edilə bilər. Elə isə kim buna şahid olmuşdur?*** [30]

Yəni: "İki adil şahid olmadan sizin belə sözlər deməniz caiz deyil, gərək iki adil şəxs şahidlik etsin ki, biz Yezidin şərab içdiyini görmüşük. Kim deyə bilər ki, Yezid şərab içirdi? Kim bu məsələyə şahidlik edə bilər?"

İbn Ərəbi Maliki İmam Hüseynin (ə) şəhadətini tənqid edərək xülasə şəklində belə yazır:

1. Kufə şəhərinin əhalisi İmam Hüseyni (ə) öz şəhərlərinə dəvət etdikdə o, Kufəyə yola düşdü. Onun Kufəyə yollanması İbn Ömər kimi böyük bir səhabənin fikrinə qulaq asmamağına görə idi. Guya bu, İmam Hüseynin (ə) zəif nöqtəsi idi. Nəyə görə o, Abdullah ibn Ömərin sözünə qulaq asmayıb kufəlilərin dəvətini qəbul etdi?

2. İmam Hüseynə (ə) qarşı vuruşub onu qətlə yetirənlər Peyğəmbərin (s) göstərişinə əməl etmişlər!

Burada belə sual meydana çıxır: Məgər Peyğəmbər (s) bu barədə nəsə buyurmuşdur? Cavab olaraq deyirlər ki, bəli, buyurmuşdur: ***"Əgər ümmət bir məsələdə vəhdətə gələrsə və bir şəxs o vəhdəti dağıtmağa səbəb olarsa, onu qətlə yetirin, həmin şəxs hər kim olsa belə".*** [31]

---

[30] əl-Əvasim minəl-qəvasim, səh.209-211

[31] Musnədu Əhməd, c.4, səh 261və 341; "Səhih Muslim", c.6, səh.22 və s. mənbələr

Hətta Hüseyn ibn Əli olsa belə?! Bəli, hətta İmam Hüseyn ﷵ olsa belə!!

Bu hədis Peyğəmbər ﷺ tərəfindən söylənilmiş olsa belə, İbn Ərəbi Maliki bu hədisin məzmununu İmam Hüseynə ﷵ şamil edib o həzrətin ﷵ qətlinin vacib olduğunun deyir.[32] (!!)

## Baxışların xülasəsi

Onların söylədiklərindən bu nəticələrə gəlmək olar:

1. Yezidin hakimiyyəti ilahi və şəriətə uyğun hakimiyyətdir.

2. Müaviyəni təhqir etmək, hətta ona qarşı bədgüman olmaq yolverilməzdir.

İbn Xəldun bu barədə belə yazır:

إياك أن تظن بمعاوية رضى الله عنه إنه علم ذلك من يزيد فإنه أعدل من ذلك و أفضل؛

***Müaviyəyə (Allah ondan razı olsun) qarşı "o Yezidin edəcəklərini bilirdi" deyərək bədgüman olma! O, bu şeylərdən*** *(bu sözlərin ona nisbət verilməsindən – red.)* ***daha ədalətli və daha fəziləlidir.***[33]

3. Yezidin hakimiyyətinə irad tutmaq, Müaviyə və səhabələrə, ən başlıcası isə "səhabələrin şeyxi Abdullah İbn Ömərə" irad sayılır. O elə bir şəxsdir ki, Buxari bir rəvayətdə onun Yezidə beyət etməsini nəql edərkən yazır ki, səhabəyə irad tutmaq və məzəmmət etmək küfrə bərabərdir.

4. İmam Hüseyn ﷵ haqq olan hakimiyyətə qarşı qalxmışdır, belə olan halda o, dindən çıxmışdır!

---

[32] Yəni bu hədisin doğru olduğunu qəbul etsək belə, yenə də bunun məzmununu İmam Hüseynə ﷵ şamil edə bilmərik. Amma İbn Ərəbi Maliki bu hədisi öz batil əqidəsi üçün dəlil olaraq istifadə etmişdir! (*Red.*)

[33] Tarixu ibn Xəldun, c.1, səh.212

5. İmam Hüseynin عليه السلام şəhadətə yetirilməsində iştirak edənlər Peyğəmbərin ﷺ əmrinə itaət edərək bu işi icra etmişlər!

Söylənməsi və yazılması olduqca ağır olan bu sözlərdən uca Allaha sığınırıq. İmam Hüseyn عليه السلام Yezidin haqq olan hakimiyyəti əleyhinə qiyam etmiş olduğu təqdirdə onun qətli vacibdir. Digər tərəfdən, onun qatilləri nəinki günah etmiş, əksinə, Peyğəmbərin ﷺ göstərişinə əməl etmişlər və bu əməlləri mükafata və savaba layiqdir! Bəli, onlar belə bir etiqad üzündən bizləri məzəmmət edərək sanki deyirlər: *Qətli vacib və haqq olan bir şəxsə nəyə görə matəm saxlayır və Aşura günü ona əzadarlıq mərasimi keçirirsiniz? Biz sizə qarşı mübarizə aparıb bu mərasimləri aradan qaldıracağıq. Hətta gücümüz yetsə, Hüseyn ibn Əliyə* عليه السلام *əzadarlıq mərasimi keçirənləri məhv edəcəyik.*

## Nəyə görə Aşura hadisəsinə qarşı mübarizə?

Əzadarlığın oxu Müaviyəni hədəf alan məclis və mərasimlərdən ibarətdir. İmam Hüseynə عليه السلام, Aşura hadisəsinə və əzadarlıq mərasimlərinə qarşı mübarizənin digər bir səbəbi ondan ibarətdir ki, əgər İmam Hüseyn عليه السلام və onun şəhadəti haqda söz açsaq, bunun sonu Müaviyənin məzəmməti ilə nəticələnəcəkdir. Əzadarlıqla mübarizə aparılmalı və Aşura mərasiminin qarşısı alınmalıdır ki, Müaviyə və Yezidlə əlbir olub Yezidə beyət edən heç bir səhabəyə zərər dəyməsin.

## Əbdülmuğis Hənbəli Bağdadinin nəzəri

Əhli-sünnə alimlərindən bəziləri isə İmam Hüseynə عليه السلام qarşı digər bir üslubla çıxış etmişlər. Onların sırasından hicri-qəməri tarixinin 583-cü ilində vəfat etmiş Əbdülmuğis

ibn Zuheyr Hənbəli Bağdadini misal çəkmək olar. Əhli-sünnə məzhəbinin tərcümeyi-hal yazarları onun barəsində belə yazmışlar:

كان صالحاً متديناً صدوقاً أميناً حسن الطريقة جميل السيرة حميد الأخلاق مجتهداً في اتباع السنة

***O, əməlisaleh, mütədəyyin** (dinə çox bağlı olan – red.)**, doğrudanışan, əmanətdar, düzgün etiqadlı, gözəl davranışlı və layiqli əxlaq sahibi və sünnəyə tabe olmuş bir müctehid idi.***[34]

Əhli-sünnənin nəzərində belə bir uca məqama və ləqəblərə layiq görülmüş bu şəxs Yezid ibn Müaviyənin fəzilətləri və müsbət keyfiyyətlərinə dair bir kitab yazmışdır. O, Peyğəmbərin ﷺ Müaviyənin mədhi haqda belə buyurduğunu nəql edir:

اللّهم اجعله هادياً واهد به؛

***İlahi! Onu** (Müaviyəni – red.) **hidayət edən qərar ver və onun vasitəsilə (cəmiyyəti) hidayət et!***[35]

Bu hədisə əsasən, biz Müaviyənin oğlu Yezidin vilayətini, yəni hakimiyyətinin haqq olmasını qəbul etməliyik. Belə ki, sözünün davamında deyir:

ومن كان هادياً لا يجوز أن يطعن عليه فيما اختاره من ولاية يزيد؛

***Hidayətedici olan bir şəxsi Yezidi vəliəhd təyin etməsi kimi verdiyi qərarlara görə heç kəsin məzəmmət etməsi caiz deyildir.***[36]

O, davam edərək yazır:

ولاية يزيد ثبتت برضى الأمة؛

***Yezidin hakimiyyəti ümmətin razılığı ilə baş tutmuşdur.***[37]

---

[34] Şəzəratuz-zəhəb c.4, səh.275

[35] Ər-Rəddu ələl-mutəəssibil-ənid, səh.75

[36] Həmin mənbə

[37] Həmin mənbə, səh.77

Təəssübkeş əhli-sünnə alimlərinin fikir və düşüncələrinin özəyini bir cümlə ilə ifadə etmək istəsək, belə ifadə edə bilərik: “Peyğəmbərdən ﷺ xəlifə və əmirlərə tabe olmaq barəsində nəql olunan hədislərə əsasən, Hüseyn ibn Əli عليه السلام həddini aşmış üsyankardır!”

Qəlbi İmam Hüseynin عليه السلام məhəbbəti ilə dolu olan hər bir kəsi bu qəbil sözləri oxumaq və yaxud yazmaq olduqca böyük bir qəm-qüssəyə düçar edir. Əgər Əhli-Beyt عليهم السلام məktəbini və məzhəbini müdafiə etmək məsuliyyəti olmasaydı, heç bir zaman belə sözlər yazmazdıq.

Əbdülmuğis Hənbəli Bağdadi Yezidə qarşı iradlara cavab olaraq yazır: ***“Atasına hörmət əlaməti olaraq onun əleyhinə bir söz demək olmaz”***.

Bəli, Yezidin şərab içdiyini söyləməyin!! Yezid ibn Müaviyənin özünə məhrəm qadınlarla nikaha girdiyini söyləməyin!! Heç kəs Yezidin həqiqi davranışını başqalarının qulağına çatdırmasın...!! Niyə?! Niyə belə etməliyik?! Çünki Yezidin atasına ehtiram əlaməti olaraq susmalıyıq!! Bunlar Hənbəli Bağdadinin tarixi həqiqətləri gizləmək və ya ört-basdır etmək üçün yazmış olduğu kitabın mövzularındandır.

Lakin həqiqət heç vaxt gizli qalmaz! Hətta bəzi vaxtlar bu həqiqətlər onların öz alim və mütəfəkkirlərinin qələmi vasitəsilə aşkara çıxır. Düzdür, bir sıra təəssübkeşlər Yezidin yaramaz əməllərini müdafiə etmək istiqamətində Əbdülmuğis Hənbəli və İbn Ərəbinin söylədiklərini dəlil və mənbə kimi hesab etmişlər. Lakin bu, bir tərəfdən də səbəb olmuşdur ki, bəzi əhli-sünnə alimləri tərəfindən onlara rədd cavabı verilsin və əleyhlərinə kitablar yazılsın. Bu cür alimlərdən biri də Hafiz Əbülfərəc ibn Cövzi Hənbəlidir. O, Əbdülmuğis Hənbəliyə cavab olaraq “Ər-Rəddu ələl-mutəəssibil-ənid əl-mane min zəmmi Yəzid” *(Yezidin məzəmmət edilməsinə mane olmağa çalışan bir təssübkeş və inadkara cavab –*

*red.)* adlı bir kitab yazmışdır. O, Əbdülmuğislə bir dövrdə yaşamış və hicri-qəməri tarixinin 597-ci ilində vəfat etmişdir.

Əlbəttə, Əbdülmuğisin Yezidi müdafiə etmək üçün yazdığı kitab hal-hazırda əlimizdə mövcud deyil. Lakin Hafiz ibn Cövzinin həmin kitabın əleyhinə yazdığı kitab isə mövcuddur. Əhli-sünnənin böyük alimlərindən olan Zəhəbi, İbn Kəsir Dəməşqi və digərləri açıq şəkildə bəyan edirlər ki, ey kaş, Əbdülmuğis bu məzmunda kitab yazmamış olaydı.[38]

Əgər bu şəxsin özündən, yəni Əbdülmuğis ibn Züheyrdən "siz və sizin kimilər Yezid ibn Müaviyəni nəyə görə müdafiə etmisiniz?" – deyə soruşsaq, belə cavab verər:

إنما قصدت كف الألسنة عن لعن الخلفاء وإلاّ فلو فتحنا هذا لكان خليفة الوقت أحق باللعن

***Məqsədim yalnız bu olmuşdur ki, xəlifələrə lənət oxunmasının qarşısını alım. Əks halda, bu qapını*** *(xəlifələrə lənət oxuma adətini – red.)* ***açıq saxlasaydıq, indiki dövrün xəlifəsi lənətə daha layiq görüləcəkdi.***[39]

Bəli, onlar elə bir iş görməlidirlər ki, xəlifələrə lənət deyilməsin *(hətta Peyğəmbər ﷺ nəvəsini, Cənnət cavanlarının ağasını günahkar və üsyankar kimi qələmə vermək bahasına olsa da –red.)*! Bu ana qədər söhbət Abdullah ibn Ömərə və Müaviyəyə xatir Yezidə lənət oxumağın qarşısını almaqdan gedirdi, indi isə bütün xəlifələrin müdafiə məsələsi ortaya çıxdı. Bununla da, İmam Hüseynin (ع) əzadarlığına və mərasimlərinə qarşı mübarizənin sirrinin üstü açılmış olur. Digər tərəfdən isə şiələrin də İmam Hüseynin (ع) matəm və əzadarlıq mərasimi üçün göstərdikləri səy və fədakarlığın səbəbi bəlli olur.

---

[38] Siyəru əlamin-nubəla, c.21.səh.160

[39] Həmin mənbə, səh.161

Bununla belə, onların öz haqqına and olsun ki, həzrət Seyyidüş-şühədanın (عليه السلام) əzadarlıq mərasimlərini əzəmətlə keçirməyimizə baxmayaraq, o həzrətin (عليه السلام) haqqını hələ də layiqincə əda edə bilməmişik, biz hələ də bu məsələdə borclu qalmışıq!

## Təftazani və onun "xəlifələrə lənət oxumaq" barədə nəzəri

Xəlifələrə lənət oxumağa qarşı mübarizə aparan əhli-sünnə alimlərindən biri də Səduddin Təftazanidir. Təftazani Yezidi lənətləməyə qarşı çıxaraq açıq-aşkar formada bəyan edir:

فإن قيل: فمن علماء المذهب من لم يجوز اللعن على يزيد مع علمهم بأنه يستحق ما يربوا على ذلك ويزيد. قلنا: تحامياً عن أن يرتقى إلى الأعلى فالأعلى

***«Məzhəb** (əhli-sünnə – red.) **alimlərindən bəziləri Yezidin lənətə, hətta bundan da artığına layiq olduğunu bildikləri halda, ona lənət deyilməsini niyə caiz bilmirlər?» - deyə sual verilsə, belə cavab verərik: «Lənətin daha yuxarılara çatmasının qarşısını almaq üçün».***[40]

Deməli, Yezidə lənət oxunmasının qarşısını almaqda məqsəd onun atasına və ondan da əvvəlkilərə, yəni Müaviyədən öncəki xəlifələrə lənət deyilməsinə mane olmaqdan ibarətdir. Çünki Yezidi lənətləmək Müaviyə və digər xəlifələrin lənətlənməsi ilə nəticələnəcəkdir.

Onlar tarixin əbədi qəhrəmanlığı ilə, yəni İmam Hüseynin (عليه السلام) şəhadəti ilə mübarizə aparmaq yolunda çarəsizlikdən gah Hüseyn ibn Əlinin (عليه السلام) qətlini vacib hesab edir, gah Kərbəla hadisəsinin xatırlanmasına mane olur, gah da Yezidə lənət deyilməsini haram hesab eedirlər. Onlar moizə və nəsihət vasitəsilə İmam Hüseynin (عليه السلام) əzadarlıq mərasim-

---

[40] Şərhul-məqasid, c.2, səh.307

lərini gözdən salmaq barədə məqsədlərinə çata bilmədikləri üçün bu üslublara əl atırlar. Görəsən, onlarda Kərbəla hadisəsi, Aşura gününün yad olunmasına qarşı hərtərəfli mübarizə aparmaq zərurəti nədən yaranıb? Cavab budur ki, ortada xəlifələrin məsələsi var. Çünki Müaviyə, eləcə də ondan əvvəlki xəlifələr bu hadisədə baş vermiş cinayətlərə şərikdirlər. Elə bu səbəbdən nə İbn Xəldun, nə İbn Ərəbi Maliki, nə Əbdülmuğis ibn Züheyr, nə də Təftazani həqiqəti bəyan etməmişdir. Çünki bu faciənin kökündə bir sıra həqiqətlər mövcuddur ki, inşallah etik çərçivədə onları araşdırmağa çalışacağıq.

## Müaviyənin Kərbəla hadisəsindəki roluna işarə

Müaviyənin Kərbəla hadisəsindəki rolu oğlunu özünə vəliəhd təyin etdiyi gündən başlamışdır. Yezidə irad tutmaq istər- istəməz onu bu məqama qoyan şəxsə yönələcəkdir. Bundan əlavə, öncəki xəlifələr də müqəssir hesab olunacaqlar. Lakin aparılan təhqiqatlara əsasən, məsələ daha geniş və əhatəlidir. Bizim iddiamız bundan ibarətdir ki, İraq ərazisində İmam Hüseyni (ə) şəhadətə yetirmək Müaviyənin qurduğu bir plandır. Yezid isə bu planın icraçısıdır. Qarşıda bəyan ediləcək mövzulara səbr və düşüncə ilə diqqət yetirsəniz, Aşuraya dair söylənilməyən həqiqətlər sizə aydın olacaqdır.

İndi isə deyilən mövzuları diqqətlə araşdırmaq məcburiyyətindəyik. Ancaq mövzunun müzakirəsinə başlamadan öncə bir məsələni xatırlayaq ki, əvvəl də qeyd etdiyimiz kimi Aşura hadisəsinə qarşı mübarizə əhli-sünnə alimlərinin bir qrupu tərəfindən aparılmışdır. Onların başqa bir qrupu isə bu təəssübkeş dəstəni sərt şəkildə tənqid etmişlər. Hafiz Əbül Həsən Heysəmi adlı böyük əhli-sünnə alimi İbn Xəldunun nəzərini nəql edərkən göz yaşı tökərək ona həqa-

rət etmiş və lənət oxumuşdur. İbn Həcər Məkki də İbn Ərəbi Malikinin mövqeyini bəyan edərkən belə demişdir: ***“Onun söyləmiş olduğu söz insanı lərzəyə salır”***.

***“Aşura günü bayram və şadlıq bərpa edilməlidir”*** söyləyən Əbdülqadir Gilaniyə isə İbn Cövzi Hənbəli belə cavab vermişdir: ***“Bu sözlər batildir. Aşura günü bəzənmək və şadlıq etmək və bu qəbildən olan fikirləri Peyğəmbərin ﷺ adına bağlamaq olmaz. Bu sözlər yalandır”***.

Biz irəlidə müxtəlif əsrlərdə yaşamış əhli-sünnə alimlərinin -Əhməd İbn Hənbəldən tutmuş Şəhabuddin Alusi və Şeyx Məhəmməd Əbduh Misriyə qədər - nəzərlərini qeyd edəcəyik. Siz həmin böyük alimlərin Yezidi lənətlədiyini, ona nifrət bəsləyib gördüyü işi qəbul etmədiklərini, hətta bəzilərinin onu kafir belə adlandırdığını görəcəksiniz.

İmam Hüseynin عليه السلام qətlini vacib hesab edən əhli-sünnə alimlərindən olan dəstəni başqalarından fərqləndirmək lazımdır. Bunlar o qəbil alimlərdəndir ki, onların ardıcılları indiki zamanda da Yezidi “əmirəlmöminin Yezid İbn Müaviyə” və ya “məzlum xəlifə Yezid İbn Müaviyə” deyə yad edirlər. Ağamız İmam Hüseynin عليه السلام qətlini vacib hesab edirlərsə, istər-istəməz o həzrətin ardıcılları olan bizləri də kafir çıxarıb qanımızın tökülməsini halal sayacaqlar.

Təəssübkeş dəstənin Əhli-Beytə عليهم السلام düşmənçiliyi o həddə qədər yüksəkdir ki, tarixi cinayətkar “Həccac ibn Yusif” haqda bir kitab yazaraq onu müdafiə etmişlər. Bu azmış kimi, Müaviyənin anası “Hind”in fəzilətləri və üstünlükləri haqda da bir kitab yazmışlar!

Əslində, onlar heç də bütün əhli-sünnə mənsublarının nəzərində dəyərli hesab olunmurlar və müsəlmanların əksəriyyəti onlara etinasız yanaşırlar. Elə buna görə, şiələrdən əlavə, digər müsəlman firqələrindən olanların da Aşura mərasimlərində iştirak etdiklərini görürük.

Gördüyünüz kimi, qatı ifratçı dəstəyə əhli-sünnə məzhəbindən olan böyük alimlər belə etiraz etmişlər. Maraqlı məqam burasındadır ki, bu alimlərin özləri Əhli-Beytə عليهم السلام qarşı heç də xoş münasibət bəsləməmişlər. Ancaq buna baxmayaraq, həmin təəssübkeş qrupun fikir və düşüncələrini şübhə altına alaraq o fikirləri rədd etmişlər. Böyük alimlərdən olan Əbülhəsən Heysəmi, İbn Məkki və İbn Cövzi Hənbəli öz zəmanələrində həm də hafiz mühəddislərdən olmuşlar.

## İfratçı əhli-sünnə alimlərinin nəzərlərinin araşdırılması və onların tənqidi

Qeyd olunanlara bir daha nəzər salsaq, ifratçı qrupun düşüncə və baxışları aydın şəkildə bəlli olacaqdır. Behişt cavanlarının sərvəri İmam Hüseynin عليه السلام şəhadətinə dair onların baxışları aşağıdakılardan ibarətdir:

**1-Yezidin xilafət və hakimiyyətinin bütün səhabələr tərəfindən qəbul edilməsi**

Bu fikir tarixi həqiqətlərə ziddir, çünki həmin dövrdə səhabələrin və məşhur şəxsiyyətlərin Yezidin hakimiyyətinə qarşı olduqlarını ətraflı şəkildə aydınlaşdıracağıq. Elə bu səbəbdən, Müaviyə problemlərlə üzləşdi və Yezidi canişin təyin etmə məsələsinə qarşı çıxanları sıradan çıxarmaq üçün müxtəlif metodlara əl atdı. Əlbəttə, bir neçə şəxs, o cümlədən Cabir ibn Abdullah Ənsari, Əbu Səid Xudri, Səhl ibn Səd Ənsari, Zeyd ibn Ərqəm və başqaları Yezidin canişin təyin olunmasına bitərəf qalaraq sükut etmişdilər. Ayındır ki, onların sakit qalması onların bu işlə razı olması anlamına gəlmir. Çünki onlar təqiyyə halında idilər. Ümumiyyətlə səhabələrin təqiyyə halında olması Müaviyənin dövründə geniş vüsət almışdı. Çünki onlar başqalarının başı-

na gətirilən problemlərlə özlərinin də üzləşəcəyindən qorxurdular.

Buna görə də, Peyğəmbər ﷺ səhabələrinin sükutu, Müaviyənin etdiyinə razı olmalarına dəlil və sübut sayıla bilməz. Digər tərəfdən isə, bir qrup səhabənin Müaviyə ilə işbirliyinə razı olması onlara pul təklif edilməsi, yaxud ölümlə təhdid olunmaları və ya güc tətbiq edilməsi yolu ilə həyata keçirilmişdir.

**2-Yezidin hakimiyyətində Abdullah ibn Ömərin rolu**

İbn Ərəbi Maliki, Buxarinin "Səhih" kitabında yazılmış hədislərə istinad edərək Abdullah ibn Ömərin Yezidə beyət edib hakimiyyətini qəbul etdiyini söyləmişdir. Ancaq İbn Ərəbi Malikinin öz dediyinə görə: ***"Alimlərin bir neçəsi Abdullah ibn Ömərin Yezidə beyət etdiyini təsdiq etməmişlər və bunun yalan olduğunu söyləmişlər".*** [41]

Bu cümlədən də göründüyü kimi Abdullah ibn Ömərin Yezidə beyət etməsi məsələsində əhli-sünnə alimləri arasında fikir ayrılığı mövcud olmuşdur. Əlbəttə, bu məsələ Buxarinin "Səhih" əsərində də qeyd olunmuşdur. Ancaq Buxarinin özünün təəssübkeş dəstənin öndəri olaraq Yezid və İmam Hüseynin (ə) şəhadəti haqqında nəzərini bəyan etmişik *(çox güman ki, "Mən hum qətələtul-Huseyn" kitabında – red.)*. Abdullah ibn Ömərin şəxsiyyətini azacıq da olsa, araşdırdıqda onun zəif və ruhi cəhətdən süst bir fərd olduğu ilə qarşılaşacağıq. Ona atasına görə ehtiram edirdilər. İbn Ərəbinin onu böyük səhabə (şeyxus-səhabə) kimi tanıtdırması isə özünün məqsədi naminə atılmış bir addımdır. O, heç vaxt "böyük səhabə" olmamışdır, həmin dövrdə belə bir rütbə də mövcud deyildi, hətta atası Ömər belə onu qəbul etməmişdir. Ömərə oğlun Abdullaha da bir

---

[41] Əl-Əvasim minəl-qəvasim, səh.208

vəzifə və ya məqam tapşır deyə təklif olunduqda Ömər cavabında belə söyləmişdir: ***“Abdullah öz həyat yoldaşına təlaq verməyi belə bacarmadığı halda mən ona hansı vəzifəni tapşıra bilərəm axı?!”***[42]

O da öz növbəsində atasını qəbul etməmiş hətta bəzi hallarda, əhli-sünnənin nəzərinə görə ona nöqsan hesab edilən tərzdə müxalif olmuşdur. Məsələn, “müvəqqəti izdivac” məsələsində atasının əməlinə qarşı belə söyləmişdir:

***“Müvəqqəti izdivacın haram edilməsi [ki, bu hökmü atam vermişdir] Allah Peyğəmbərinin ﷺ hökmünə ziddir. Biz atamın hökmünə deyil, əksinə, Peyğəmbərin ﷺ verdiyi hökmə tabe olmalıyıq”***.

Abdullah ibn Ömərin Yezidin vəliəhdliyinə dair mövqeyi haqqında belə yazılır: ***“Müaviyə ona yüz min dirhəm verdi. O, bu məbləği qəbul etdikdən sonra Yezidin canişinlik məsələsinə sükutla yanaşdı”***. [43] Bəli, dinmədi, sükut etdi. Ancaq Müaviyənin dövründə Abdullah ibn Ömər həqiqətənmi Yezidə beyət etdi ya yox? Əhli-sünnə alimləri arasında bu məsələyə dair fikir ayrılıqları mövcuddur.

Abdullah ibn Ömərin zəif şəxsiyyəti haqda qeyd olunur ki, o, Osmanın vəfatından sonra Əmirəlmöminin Əli ibn Əbu Talibə عليه السلام beyət etmədi! Ancaq Mədinə əhalisinin Yezidə qarşı qiyam etdiyi və qiyamın sonu Hərrə faciəsi ilə bitdiyi zaman Yeziddən beyətini geri çəkib müsəlmanlarla həmkarlıq etmədi. Yeziddən sonra hakimiyyət Əbdülməlik ibn Mərvanın əlinə keçdiyi vaxt belə söylədi: ***“Mən Peyğəmbərin ﷺ belə buyurduğunu eşitmişəm: «Xəlifə ilə beyət etməyən kəs müsəlman deyildir»”***. Elə bu səbəbdən, gecə vaxtı həmin əyalətdə Mərvan ibn Əbdülməlik tərəfindən vali təyin edilmiş Həccac ibn Yusif Səqəfinin

---

[42] Ət-Təbəqatul-kubra, c.3, səh.343

[43] Fəthul-bari, c.13, səh.60; Əl-kamilu fit-tarix, c.5, səh.373

yanına yollanaraq onunla beyət etdi. Həccac onu görən kimi dedi: ***“Axı niyə gecə gəlmisən, səhərə qədər gözləyə bilməzdin?”*** Abdullah isə onun cavabında belə dedi: ***“Mən gecə vaxtı dünyamı dəyişməyimdən və Əbdülməlik ibn Mərvanla beyətin boynumda qalacağından qorxub gəldim. Dövrün xəlifəsi ilə beyət etmək məsuliyyətli bir işdir, mən də üzərimə düşəni etmək üçün gəlmişəm!”*** Həccac məşğul olduğunu söyləyərək ayağını ona tərəf uzatdı (!!) və dedi: ***“Ayağımla beyət et!”***[44] Abdullah ibn Ömər, Həccac ibn Yusif Səqəfinin ayağını tutaraq beyət etdi və bu minvalla dövrün xəlifəsi Əbdülməlik ibn Mərvana beyət etmiş oldu. Bəli, Əmirəlmöminin Əli ibn Əbu Talib (ə) ilə beyət etməyən Abdullah görün hansı aqibətlə üzləşdi!

## Yezidi nəyə görə lənətləmək olmaz?

Öncədən qeyd etdiyimiz kimi bir sıra əhli-sünnə alimlərinin nəzərinə görə, Yezidi lənətləmək olmaz. Lakin onlara “Yezidi törətdiyi cinayətlər müqabilində nəyə görə lənətləmək olmaz?” sualını verdikdə cavab olaraq belə deyirlər: “Əgər Yezidə lənət deyilsə, ardınca insanlar lənəti ondan üstdəkilərə qədər aparıb çatdıracaqlar. Bu mövzu elə bir kəsləri əhatə edəcək ki, onların adının hallanması rəva görülmür”.

Bəli, Kərbəla hadisəsində xəlifələrin rolunun əsası Səqifədə qoyulmuşdur. Müsəlmanların Ömər ibn Xəttabın xilafəti dövründə Şam ərazilərinin bir hissəsini fəth etdikləri zamandan pöhrə vermişdir. Yezid ibn Əbu Süfyan *(Müaviyənin qardaşı – red.)*, Ömər tərəfindən həmin əyalətə vali təyin edilmiş, ölümündən sonra isə onun yerinə qardaşı Müaviyə canişin olaraq keçmişdi. Ardınca Şam ərazisi

---

[44] Nəhcül-Bəlağənin şərhi, İbn Əbilhədid, c.13, səh.242

bütünlüklə müsəlmanların əlinə keçdikdə Müaviyə bütöv Şam ərazisinin valisi olmuşdu. Osman da özünün xilafəti dövründə Müaviyəni həmin diyarda vali olaraq saxlamışdı.[45] Hətta Ömər ibn Xəttab Müaviyəni Şama vali təyin edərkən Əbu Süfyan sevincək halda Ömərə belə demişdi:

وصلتك رحم

***"Sileyi-rəhm etdin** (qohumluq əlaqələrinə riayət etdin – red.)**".***[46]

Nəticədə, Müaviyəni belə bir məqama çatdıranlar və ya təyin edənlər, onun həm yaxşı (əgər yaxşı əməli olubsa!), həm də pis əməllərinə şərikdirlər. Buradan aydın görünür ki, Müaviyənin etdiyi əməllər birbaşa özündən üstdəkilərə, yəni öncəki xəlifələrə bağlanır. Müaviyənin tərcümeyi-halına azacıq diqqət yetirsək, aşağıdakı suallar meydana çıxacaq:

1-Onu bu vəzifəyə kim təyin etmişdir?

2-Müaviyəni Şama vali təyin etməkdə məqsəd nədən ibarət olmuşdur?

### Müaviyənin mədhi üçün hədis uydurulması

Əhli-sünnə alimlərindən bəziləri Peyğəmbərdən ﷺ hədis nəql edirlər ki, guya, o həzrət ﷺ Müaviyəni tərifləyərək belə buyurmuşdur:

اللّهم اجعله هادياً مهدياً، اهده واهد به

***"İlahi! Müaviyəni hidayətedici qərar ver! Onu hidayət et, başqalarını da onun vasitəsilə doğru yola yönəlt!"***[47]

---

[45] Tarixu mədinəti Diməşq, c.55, səh.59

[46] Əl-İstiab, c.3, səh.1417; Usdul-ğabə, c.4, səh.386; Tarixu mədinəti Diməşq, c.65, səh.251

[47] Dəməşq şəhərinin tarixi c.3 səh.1417; Əl-İstiab c.2 s.843; Ət-Təbəqatul-Kubra c.7, s.418; Bağdadın tarixi c.1 s.222

Peyğəmbərin ﷺ buyurduğuna əsasən Müaviyənin Yezidi özündən sonra canişin təyin etməsini məzəmmət etmək olmaz. Çünki Müaviyə Peyğəmbərin ﷺ duası ilə hidayət olmuşdur və o, ümməti düz yola hidayət edən bir şəxsdir. İnsanları düz yola yönəldən bir şəxs olaraq yanlış əməl etməz. Belə olan təqdirdə ona irad tutmaq olmaz. Övladı Yezidi vəliəhd kimi tanıtmasını da qınamaq olmaz. Bu nəzəriyyəni bir neçə cəhətdən incələmək məcburiyyətindəyik:

Birincisi, Peyğəmbər ﷺ Müaviyənin fəzilət və tərifi haqda bir kəlmə belə söyləməmiş və bu iddianın özü dünyanın ən böyük yalanlarındandır. Bu məsələni hamının qəbul etdiyi bir sənədlə isbat etmək mümkündür. Əhli-sünnənin nəzərində ən düzgün kitablardan sayılan Buxarinin "Səhih" kitabında səhabələrin fəzilət və uğurlarına dair "filankəsin fəziləti" adı altında fəsillər mövcuddur. Lakin Buxari Müaviyə barədə olan fəsildə "Müaviyənin fəzilətləri fəsli" əvəzinə bölümün başlığına "Müaviyənin xatırlanması" adını vermişdir. Buxarinin kitabına şərh yazanlar bu məsələyə aydınlıq gətirərkən bəyan edirlər ki, Peyğəmbərdən ﷺ Müaviyənin fəzilətinə dair bir hədis belə nəql edilməmiş, elə bu səbəbdən də, Buxari ona aid olan bölümü "Müaviyənin fəzilətləri" deyə qeyd etməmişdir. Bəs onda Peyğəmbər ﷺ "İlahi, Müaviyəni hidayət et və başqalarını da onun vasitəsilə doğru yola yönəlt!" cümləsini harada buyurmuşdur?!

Bu məsələnin izahı, əhli-sünnənin ən yaxşı kitablarından sayılan Buxarinin "Səhih" kitabına şərh üslubunda yazılmış İbn Həcərin "Fəthul-bari" əsərində verilmişdir. Müəllif bu haqda İshaq ibn Rahəveyhdən nəql edərək yazır:

لم يصح في فضائل المعاوية شيء

***Müaviyənin fəziləti haqda səhih olan heç bir şey yoxdur.***[48]

İkincisi, Müaviyənin Yezidi öz yerinə canişin təyin etməyə ixtiyarı var idi ya yox? Müaviyənin bu addımı müqəddəs şəriət tərəfindən qəbul olunurmu? Əhli-sünnənin etiqadi əsasları belə bir məsələ ilə uyğun gəlirmi?

Üçüncüsü, fərz edək ki, Müaviyənin özündən sonra yerinə canişin təyin etməklə insanlardan beyət almağa haqqı çatırdı, ancaq bu işin forması necə olmalı idi? Məsələn, Yezidi namizəd kimi irəli sürüb söyləməliydi ki: "O, əməlisaleh bir şəxsdir, mənim canişinim olmağa, xilafətə və hökuməti idarə etməyə layiqdir". Cəmiyyətdən ədəb çərçivəsində tam azad şəkildə Yezidə beyət etmələrini istəməli idi. Tutaq ki, Müaviyə belə bir haqqa sahib idi, amma o, məsələni bu şəkildəmi həll etdi? Əsla! O, bu məsələyə qarşı olanları müxtəlif üsullarla sıradan çıxardı. Bəzilərini məhv etdi, bəzilərini şirnikləşdirdi, bəzilərini pul vasitəsilə ələ aldı, bəzilərini isə qorxutmaqla səssiz qalmağa vadar etdi. O, Yezidi bu formada öz canişini elan etmişdir və irəlidə bu məsələni ətraflı şəkildə bəyan edəcəyik.

Dördüncüsü, acıqlı və təəssübkeş dəstənin araşdırmalarından əldə edilən qənaət bundan ibarətdir ki, onlar Müaviyəni şişirtməklə öz hədəflərinə çatmaq istəyirlər. Onlar çəkinmədən birbaşa qeyd edirlər ki, Müaviyə Peyğəmbər ﷺ səhabələri önündə bir səddir. Yəni əgər bir kəs Müaviyəni lənətləyib ona həqarət edərsə, bu tənəli sözlər birbaşa səhabələrə çatacaqdır. Belə olan halda hədislər qondarmaqla, Müaviyənin şənini ucaldaraq bütün insanların, hətta şiələrin belə Müaviyəyə nalayiq söz demələrinin qarşısını almaq lazımdır! Nəticədə onun bütün addımları, o cümlədən Yezidi canişin təyin etməsi doğru və düzgün sayı-

---

[48] Fəthul-bari, c.7, səh.81

lacaqdır. Nümunə olaraq İbn Əsakirin yazmış olduğu “Tarixu mədinəti Diməşq” və digər kitablara müraciət edə bilərsiniz. Həmin mənbədə Müaviyənin tərcümeyi-halı barədə belə yazılır***: “İslam bir ev misalına bənzəyir və hər bir evin qapısı vardır. Səhabələr bu evin qapısı və qoruyucusudurlar. Müaviyə isə həmin qapının dəstəyidir. Müaviyəyə dil uzadan (irad tutan) kəs səhabələrə və İslama dil uzatmış olar”.*** [49]

Bu baxış iki cəhətdən tənqid olunmalıdır:

İlk olaraq, bu fikrin özü batildir. Peyğəmbərin ﷺ qəti şəkildə buyurduğu hədislərlə daban-dabana ziddiyyət təşkil edir. Belə ki, Allah Rəsulu ﷺ bir rəvayətdə buyurur:

إني تارك فيكم الثقلين: كتاب الله وعترتي أهل بيتي؛

***“Sizin aranızda iki dəyərli əmanət qoyub gedirəm: Allahın Kitabı və itrətim olan Əhli-Beytim”.***[50]

Başqa bir rəvayətdə isə həzrət ﷺ belə buyurmuşdur:

أنا مدينة العلم وعلي بابها؛

***“Mən elmin şəhəriyəm, Əli (ə) isə onun qapısıdır”.***[51]

Deməli, bizim qeyd etdiyimiz fikir elə əhli-sünnənin özünün də nəql etdiyi Peyğəmbər ﷺ kəlamına əsaslanır.

---

[49] Tarixu mədinəti Diməşq, c.59, səh.210

[50] Bu hədis həm şiə, həm də əhli-sünnətin bir çox mühüm mənbələrində qeyd olunmuşdur. Nümunə üçün bir neçə mənbəni qeyd edirik: Bəsairud-dərəcat, səh.433; Əl-Əmali, Şeyx Səduq, səh.500; Əl-İrşad, c.1, səh.233; Əl-İhticac, c.1, səh 216-217; Biharul-Ənvar, c.23, səh.133-134; Musnədu Əhməd, c.3, səh 14, 17, 26, 59 və 182; Fəzailus-səhabə, Nəsai, səh.15; Əl-Mustədrək ələs-səhiheyn, c.3, səh.109 və 148; Əs-Sunənul-kubra, Nəsai, c.5, səh 45 və 130; Məcməuz-zəvaid, c.9, səh.163 və s.

[51] Bu hədis də bir çox şiə və əhli-sünnə mənbələrində qeyd olunmuşdur. O cümlədən: Əl-Əmali, Şeyx Səduq, səh. 425; Uyunu-əxbarir-Rza, c.1, səh.72; Biharul-Ənvar c.40, səh.70; Əl-Mustədrək ələs-səhiheyn, c.3, səh.126; Əl-Mucəmul-kəbir, c.11, səh.55; Sunənu Tirmizi, c.5, səh.301, hədis 3707; Kənzul-Ummal, c.13, səh 148 və s.

Ancaq bir qrup söyləyir ki, səhabələr İslamın giriş qapısıdır. Müaviyə isə bu səhabələrlə müqayisədə mühafizəçi rolunu ifa edir. Niyə?! Çünki, Müaviyə səddi aşılsa, İslam evinin qapısı da qırılmalıdır və nəticədə İslam hörmətdən düşəcək. Müaviyəyə həqarət edən əslində İslama həqarət etmiş olacaq. Müaviyə haqqında biçilmiş bu batil təxəyyüldən məqsəd nədir? Məqsəd budur ki, həqarətlər yuxarılara sirayət etməsin və böyük səhabələrin adları hallanmasın, Müaviyəni məzəmmət edəcək dillərin qarşısı alınsın.

İkincisi, maraqlısı budur ki, bir sıra əhli-sünnə alimləri həqiqətləri söyləmiş, batil nəzəriyyə və nahaq sözlərə qarşı öz fikirlərini bildirmişlər. Məsələn, Nəsai onların iddiasının batil olduğunu söyləmişdir.

Nəsai əhli-sünnə məzhəbinin böyük alimlərindən biri hesab olunur. Həmçinin, onun "Sunən" adlı kitabı isə əhli-sünnə icması tərəfindən qəbul olunmuş məşhur altı kitabdan biridir.

Qeyd edilir ki, Nəsai Şam ərazisinə daxil olan zamanda, həmin əyalətin əhalisi Əliyə ﷵ qarşı kin və düşmənçilik münasibəti bəsləyirdi. Elə bu səbəbə görə, Nəsai Əlinin ﷵ xüsusiyyəti və üstünlüklərinə dair bir kitab yazdı ki, bəlkə, bu minvalla insanları düz yola yönəldə bilsin. Ancaq Şam əhalisi ondan Müaviyənin fəziləti və üstünlüyü haqda bir rəvayət söyləməsini tələb etdiyi zaman o, belə cavab verdi: ***"Müaviyə hansı fəzilət və dəyərə malikdir ki, mən onu sizlərə nəql edim?"*** Əhali bu cavabı eşitdikdən sonra ona hücum etdilər və o həddə qədər döydülər ki, bədəninin həssas nöqtələrində yırtıq əmələ gəldi. Onu oradan Məkkəyə apardılar. Elə həmin hadisədən sonra vəfat etdi. Tarixçilər onun tərcümeyi-halında bu cümləni qeyd etmişlər:

توفّي ا مقتولا شهيداً

***O, qətl edilərək şəhid olmuşdur.***[52]

Bu hadisə "əhli-sünnə və digər firqə alimlərinin əhvalat toplusu" adı altında "Siyəru əlamin-nubəla" kitabında da qeyd olunmuşdur. Kitabın müəllifi əhli-sünnə məzhəbinin adlı-sanlı tarixçi alimi, hədis nəql edən və tarixi şəxsiyyətlərin tərcümeyi-halını araşdıran Hafiz Zəhəbidir. Zəhəbi əhli-sünnənin qatı təəssübkeşlərindən olmasına baxmayaraq, Yezid barəsində demişdir:

لا نسبه ولا نحبه؛

***Onu nə təhqir edir, nə də sevirik.*** [53]

Bu cümlənin özü belə onun təəssübkeşliyindən xəbər verir. Onu niyə təhqir etmirsiniz? Yezid Peyğəmbərin ﷺ Əhli-Beytini عليهم السلام incitməmişdirmi? O, Peyğəmbərin ﷺ əziz qızı Fatimənin عليها السلام övladını faciəvi şəkildə şəhadətə yetirməmişdirmi? Əhli-Beyti عليهم السلام incitmək, Peyğəmbəri ﷺ incitməkdir. Peyğəmbəri ﷺ incitməksə, Allahı incitməkdir, bu əməl isə küfrə bərabərdir. Ey Zəhəbi! Nəyə görə "onu nə təhqir edir, nə də sevirik" deyirsən? Deməli, onların *(əhli-sünnə alimlərinin – red.)* təəssübkeşliyinin müxtəlif dərəcələri və pillələri mövcud imiş.

Müaviyə üçün bir fəzilət belə yazmağı özünə rəva bilməyən digər əhli-sünnə alimlərindən biri Hakim Nişapuridir. O, "Əl-Mustədrək ələs-səhiheyn" kitabının müəllifidir. Əhli-sünnənin nəzərində böyük bir şəxsiyyət hesab olunur və əhli-sünnə icması ona "imamul-muhəddisin" *(mühəddislərin öndəri – red.)* ləqəbini vermişdir. O da Nəsainin başına gəlmiş hadisəyə bənzər bir hadisə ilə üzləşmişdir. Ondan Müaviyənin fəzilətinə dair hədis söyləməsini istədikdə belə cavab vermişdir: *"Müaviyənin hansı fəziləti var-*

[52] Təhzibul-kəmal, c.1.səh.339; Xəsaisu Əmirulmuminin, Nəsai, səh.11; Təhzibut-təhzib, c.1 səh.33; Əl-Bidayə vən-nihayə, c.11. səh.141

[53] Siyəru əlamin-nubəla, c.14, səh.129-130

*dır ki, mən onu nəql edim?"* Bu sözdən sonra insanlar ona hücum edərək əyləşdiyi minbəri dağıtmışdılar. O, camaatın əlindən qaçıb evində gizlənmişdi. Cəmiyyət axışaraq onun evini mühasirədə saxlayıb evdən bayıra çıxmasına mane olmuşdular! Bir müddət sonra bir nəfər onunla görüşüb ona belə bir tövsiyə verdi: "Camaatın hiddətindən yaxa qurtarmaq istəyirsənsə, çıx onların qarşısına və Müaviyənin fəzilətinə aid bir hədis söylə!"

Hakim Nişapuri belə cavab verdi:

لا يجئ من قلبي

***"Ürəyimcə deyil axı".***[54]

Qeyd edək ki, Müaviyə haqqında əhli-sünnə alimlərinin düşüncə və baxışlarına aydınlıq gətirmək üçün başqa zamana ehtiyac var.[55]

### 5. İraq şiələrinin İmam Hüseyni (ə) dəvət etmələri

Əhli-sünnənin Aşura hadisəsinə dair şübhə yaratdıqları məsələlərdən biri də ondan ibarətdir ki, şiələr İmam Hüseyni (ə) İraqa dəvət etsələr də, onlar öz əhdlərinə vəfa etməyərək, Hüseyni (ə) qətlə yetirdilər! Yezid yalnız

---

[54] Siyəru əlamin-nubəla, c.17, səh.175; Əl-Vafi bil-vəfəyat, c.3, səh.260; Tarixul-İslam, Zəhəbi, c.28, səh.132; Əl-Muntəzəm, c.7, səh.75; Bir məsələni də qeyd edək ki, həmin dövr İran ərazisindəki Nişapur şəhəri əhli-sünnə məzhəbinin elmi mərkəzlərindən olub və Hakim Nişapuri həmin məntəqənin alimlərindən olub.

[55] Bu yaxınlarda Mədinə şəhərində olarkən əlimə bir kitab keçdi. Həmin kitabı müasir dövrün tədqiqatçı alimlərindən biri yazmışdır. Həmin kitabda Peyğəmbərin (s) Müaviyəni və atası Əbu Süfyanı məzəmmət edən hədisləri toplamışdır. Kitab isə "Əqvalur-Rəsulil-əzəm seyyidina Muhəmməd (s) və əqvalu əshabihil-kiram fi Muaviyə bin Əbi Sufyan" *(Allah Rəsulunun (s) və hörmətli səhabələrinin Müaviyə ibn Əbu Süfyan haqqında söylədikləri – red.)* adlanır. Müəllif əsaslı şəkildə əhli-sünnə alimlərinin və hədis mütəxəssislərinin nəzəriyyələrinə söykənərək həmin hədislərin doğru olduğunu təsdiqləyərək kitabında qeyd etmişdir.

Übeydullah ibn Ziyada məktub yazaraq ona göstəriş vermişdi ki, Hüseyn ibn Əlinin عليه السلام Kufə şəhərinə girib orada hakimiyyəti ələ keçirməsinin qarşısını alsın. Beləliklə, Yezid İmam Hüseynin عليه السلام şəhadətə yetməsində heç bir rol oynamamışdır. Onu şəhadətə yetirən elə həmin şiələr olmuşdur! Onlar hətta bu iddialarının isbatı üçün "Hüseyni kimlər qətlə yetirmişdir?" adlı kitab belə yazmışlar. Elə həmin kitabda şiələrə xitab edərək belə deyirlər: ***"Hüseyni* عليه السلام *özünüz qətlə yetirdiyiniz halda, ona əzadarlıq mərasimi niyə keçirdirsiniz?!"***

Biz onlara cavab olaraq söyləyirik ki, Kufə şiələrinin İmam Hüseynin عليه السلام şəhadətə yetirilməsində heç bir rolu olmamışdır. Tədqiqat və araşdırmalara əsasən, Ömər ibn Sədin ordusunun dəstə rəhbərliyi Bəni-Üməyyə sülaləsindən, Xəvaricdən və şamlılardan ibarət olan bir dəstəyə həvalə edilmişdi. Bir qrup insanın Şamdan Kufəyə qədər 8 günlük yolu qət edərək özlərini Kərbəlaya çatdırdıqları haqqında sübut və şahidlər mövcuddur.

Bu mövzuları aşağıda sıralanan 3 fəsildə bəyan edəcəyik:

Müaviyənin İmam Hüseynin عليه السلام şəhadətindəki rolu;

Aşura hadisəsində Yezid ibn Müaviyənin rolu;

Kufə əhalisinin İmam Hüseynin عليه السلام şəhadətindəki rolu;

Bu sonuncu fəsildə İmam Hüseynə عليه السلام məktub yazanlar, həmçinin Ömər ibn Sədin ordusunun dəstə rəhbərləri də aşkar olunub tanıtdırılacaq. Əlbəttə, bu mövzularla yanaşı günümüzdə bəzilərinin bilərəkdən və ya bilməyərəkdən əllərində bayraq etdikləri bir çox şübhələrə də cavab verməyə çalışacağıq.

# BİRİNCİ FƏSİL

## MÜAVİYƏNİN İMAM HÜSEYNİN ﷺ ŞƏHADƏTİNDƏKİ ROLU

### Yezidin vəliəhdlik və canişinliyi

İmam Hüseynin ﷺ şəhadətində Müaviyənin rolunu iki istiqamətdə araşdırmaq zərurəti yaranır:

1) Yezidin Müaviyənin yerinə vəliəhd və canişin təyin olunması. Heç şübhəsiz, Yezidin vəliəhd və canişin təyin olunması Müaviyənin vasitəsi ilə həyata keçirilmişdir. Bu səbəbdən, həm hüquqi baxımdan, həm şəriət baxımından Yezidin əməllərini birbaşa Müaviyə ilə əlaqələndirmək mümkündür. Bu mövzu təəssübkeş qrupun söylədiklərindən əldə etdiyimiz bir həqiqətdir. Bu kəslər Müaviyəni məzəmmət və lənətdən uzaq tutmağa çalışmışlar. Bu metodla onu iş başına gətirən peyğəmbər ﷺ səhabələrinin məzəmmət və qınağa tuş gəlmələrinin qarşısını almağa səy göstərmişlər.

2) Bu mövzu ilə əlaqəli bütün izlərin dəqiq araşdırılması və tarixi hadisələrin axarı onu deməyə əsas verir ki, İmam Hüseynin ﷺ İraqda qətlə yetirilərək şəhid edilməsi planını Müaviyə qurmuşdur. Bu tarixi cinayətin hazırlıq planını onun özü işləyib hazırlamış, Yezid isə bu planın icraçısı olmuşdur. Əlbəttə, başqa bir fəsildə Yezidin Aşura hadisəsində oynadığı rolu ətraflı şəkildə bəyan edəcəyik. Kitabın müqəddiməsində qeyd olunanlardan da göründüyü kimi, Yezidin canişinlik məsələsi və vəliəhd təyinatı Müaviyə üçün olduqca böyük zəhmət və siyasət bahasına da olsa, o, bu işi həyata keçirməyə müvəffəq olmuşdur. Çünki bu planın önünü kəsən maneələr var idi. Nümunə üçün bu maneələrdən ikisini qeyd edək:

1. Müaviyə həmin dövrdə həyatda olan böyük səhabələr önündə bu planı nəinki həyata keçirmək, heç xəlvətdə belə onu dilinə gətirib səsləndirmək cəsarəti tapa bilməzdi.

2. Həmin dövrdə hakimiyyətə iddialı bir neçə şəxs özlərinin xilafətə çatmasına hazırlaşırdılar. Aydın məsələdir ki, bu qrup da Yezidin vəliəhdlik planına müxalif idilər. Müaviyə özünün mənfur məqsədinə çatmaq və maneələri aradan qaldırmaq üçün bir neçə yola əl atdı. O, bəzilərini zəhərləməklə aradan götürdü, digər bir dəstəni pul vasitəsilə ələ aldı, bəzilərini isə sürgünə yollamaqla oğlunun canişinlik yolundakı maneələri dəf etdi.

Nümunə üçün bunlardan bəzilərini qeyd edirik:

## İmam Həsən Müctəba (عليه السلام) - Yezidin canişinlik yolunda ən böyük maneə

Əhli-sünnə alimlərinin yazdığına əsasən, Müaviyə hələ İmam Həsən (عليه السلام) həyatda olarkən Yezidi canişin təyin etmək fikrinə düşmüşdü.[56]

İmam Həsən (عليه السلام) sağ olarkən Müaviyənin cızdığı planın həyata keçməsi iki cəhətdən böyük maneə yaradırdı:

Birincisi, həzrətin özünün və qardaşı İmam Hüseynin (عليه السلام) ictimai nüfuzları və xüsusilə Mədinə şəhərindəki sahib olduqları mövqeləri buna mane olurdu.

İkincisi, bundan ibarət idi ki, İmam Həsənlə (عليه السلام) Müaviyə arasında bağlanmış sülh müqaviləsinin bəndlərinə əsasən, Müaviyə özündən sonra heç kəsi öz yerinə canişin təyin edə bilməzdi. Bu müqaviləyə əsasən, canişinlik ondan sonra İmam Həsənə (عليه السلام), o həzrət həyatda olmadığı təqdirdə isə İmam Hüseynə (عليه السلام) çatmalı idi. Müaviyə bu müqaviləyə

---

[56] Əl-İmamə vəs-siyasə, c.1, səh.191-194

imza ataraq qəbul etmişdi. Əhli-sünnənin böyük alimləri bu həqiqəti öz kitablarında qeyd etmiş və şiənin müttəfəkkirləri də müqavilənin həmin bəndini aydın şəkildə izah etmişlər. İbn Həcər Əsqəlani danılmaz fakt əsasında bu məsələni rəvayət edərək deyir ki, İmam Həsən (ع) buyurdu: ***"Mən Müaviyə ilə onun özündən sonra xilafətin mənə qayıdacağı şərti ilə müqavilə bağladım".*** İmam Həsən (ع) Müaviyənin hüzurunda buyurmuşdu ki: ***"Müaviyə ilə mən müqavilə bağlamışıq və o da söz verib ki, özündən sonra xilafəti mənə buraxacaqdır"***. İbn Həcər Əsqəlani yazır:

لمّا قتل علي سار الحسن بن علي في أهل العراق ومعاوية في أهل الشام

***Əli (ع) qətlə yetirildikdən sonra İmam Həsən (ع) Kufə ordusu ilə birgə, Müaviyə isə Şam ordusu ilə birgə hərəkətə keçdi.***

İbn Həcər yazır ki, iki qoşun üz-üzə gəlib müəyyən hadisələr baş verdikdən sonra hər iki tərəf arasında sülh müqaviləsi bağlandı. Sülh müqaviləsinin əsas məqamlarından biri bundan ibarət idi ki, Müaviyədən sonra İmam Həsəndən (ع) başqa heç kəs xəlifə ola bilməz. Belə ki, yazır:

على أن يجعل العهد للحسن من بعده؛

***Müaviyə özündən sonra xilafəti Həsənin (ع) ixtiyarına buraxmalıdır.*** [57]

Digər bir tərəfdən, Yezid heç vaxt İmam Həsənin (ع) cəmiyyətdə tutduğu mövqeyə çata bilməzdi, həmçinin İmam Həsənlə (ع) imzalanmış müqaviləyə əsasən, Müaviyə Yezidin canişinlik planını həyata keçirə bilməzdi.

Hafiz Əbdülbərr Qurtubi yazır:

---

[57] Fəthul-bari, c.13, səh.55; Siyəru əlamin-nübəla, c.3, səh.264; Tarixu mədinəti Diməşq, c.13, səh.261; Əl-İstiab, c.1, səh.386; Təhzibut-təhzib, c.2, səh.259; Əl-bidayə vən-nihayə, c.8, səh.41; Əl-isabə fi mərifətis-səhabə, c.2, səh.12; Tarixul-xuləfa, səh.194 və s.

لا خلاف بين العلماء أنّ الحسن إنما سلَّم الخلافة لمعاوية حياته لا غير، ثمّ تكون له من بعده، وعلى ذلك إنعقد بينهما ما انعقد في ذلك

***Alimlər arasında yekdil nəzər bundan ibarətdir ki, Həsən (ع) xilafəti yalnız Müaviyənin sağlığında onun ixtiyarına buraxmışdı. Ondan sonra isə xilafət özünə qayıtmalı idi. Onlar arasında müqavilə məhz bu bəndə əsasən bağlanmışdır.*** [58]

Diqqət yetirin! Qərara alınmışdı ki, Müaviyə özündən sonra heç bir kəsi öz yerinə təyin etməsin və hakimiyyət İmam Həsənə (ع) qaytarılsın. Müaviyə belə bir şəraitdə oğlu Yezidi özünə canişin təyin etmək üçün hansı çıxış yoluna baş vurmalıydı? Yalnız bir çıxış yolu - İmam Həsəni (ع) şəhid etməklə önünü açmalıydı. Əhnəf ibn Qeys Müaviyənin zamanında yaşamış görkəmli şəxsiyyətlərdən biri idi. O, belə bir vəziyyətdə Müaviyəyə demişdi:

إنّ أهل الحجاز وأهل العراق لا يرضون به ذا ولا يبايعون ليزيد ما كان الحسن حياً؛

***"Həsən ibn Əli (ع) həyatda ikən Hicaz və İraq əhalisi Yezidə beyət etməz və bu məsələyə*** *(Yezidin canişin təyin edilməsinə - red.)* ***razılıq verməz".*** [59]

Nəinki İraq əhalisi, Həsən ibn Əli (ع) sağ ikən Müaviyə heç Şam əhalisini belə Yezidlə beyət etməyə razı sala bilməzdi. Çünki onlar Yezidi yaxşı tanıyırdılar. Müaviyə bu problemi həllini yalnız Cədənin *(İmam Həsənin (ع) zövcəsi – red.)* əli ilə İmam Həsəni (ع) zəhərləyib şəhid etməkdə görürdü. Zəməxşəri yazır:

جعل معاوية لجعدة بنت الأشعث إمرأة الحسن مائة ألف حتى سمته؛

***Müaviyə Həsənin (ع) xanımı Cədə binti Əşəsə yüz min dirhəm verdi ki, onu zəhərləsin.*** [60]

---

[58] Əl-İstiab, c.1, səh.387

[59] Əl-İmamə vəs-siyasə, c.1, səh.191

[60] Rəbiul-əbrar, c.4, səh.208-209

Məsudi bu barədə belə yazır:

إنّ امرأته جعدة بنت الأشعث بن قيس الكندي سقته السم وقد كان معاوية دس إليها إنك إن احتلت في قتل الحسن وجهت إليك بمائة ألف درهم وزوجتك من يزيد

***Həsənin ﷺ xanımı Cədə binti Əşəs ibn Qeys Kindi ona zəhər içirdi. Müaviyə (zəhəri) gizlicə ona verərək (demişdi ki), əgər sən Həsəni ﷺ öldürməyi öz üzərinə götürsən, sənə yüz min dirhəm verəcəyəm və səni oğlum Yezidlə evləndirəcəyəm.*** [61]

Cədə bu işi yerinə yetirdikdən sonra, yəni İmam Həsəni ﷺ zəhərlədikdən sonra Müaviyə ona yüz min dirhəm göndərdi. Lakin Yezidlə ailə qurması məsələsinə gəlincə isə ona belə dedi: ***"Qorxuram ki, Həsənin ﷺ başına gətirdiyini oğlum Yezidin də başına gətirəsən"***.

Müaviyənin hazırladığı zəhər vasitəsilə şəhid edilən İmam Həsənin ﷺ əhvalatını əhli-sünnə alimləri ardıcıl şəkildə nəql etmişlər. Baxmayaraq ki, İbn Xəldun inad və təəssübkeşliyi üzündən belə demişdir: ***"Müaviyə İmam Həsənin ﷺ xanımı Cədə binti Əşəs vasitəsilə bu cinayəti etməmişdir. Bu, şiələrin uydurduqları hekayələrdən biridir!"*** [62]

Bəli, heç bir şəkk-şübhə yoxdur ki, İmam Həsənin ﷺ qatili elə Müaviyənin özüdür. Əhli-sünnə tarixçiləri əlavə edərək qeyd edirlər ki, İmam Həsənin ﷺ şəhadəti xəbərini Müaviyə eşitdikdə:

أظهر فرحاً وسروراً، حتى سجد وسجد من كان معه

---

[61] Murucuz-zəhəb, c.1, səh.713-714

[62] Tarixu İbn Xəldun, c.2, səh.187

***O, fərəh və sevincini gizlətmədi. Hətta səcdəyə getdi** (şükr əlaməti olaraq – red.)**, onunla birlikdə olanlar da səcdə etdilər.***[63]

Beləliklə, Müaviyənin qurduğu plan əsasında Yezidin canişinlik məsələsi yolundakı ən böyük və ilk maneə aradan götürüldü.

## Digər bir maneə - Səd ibn Əbu Vəqqas

Digər maneələrdən biri də Səd ibn Əbu Vəqqas idi. Onun Əmirəlmöminin Əli ibn Əbu Taliblə (ə) arası yaxşı olmasa da, Müaviyəyə qarşı da heç bir müsbət rəğbəti yox idi, o ki qalmışdı Yezidə qarşı xoş fikirdə olsun. Başqa sözlə desək, Sədin Müaviyəyə qarşı etinasızlığı İmam Əliyə (ə) qarşı yaxşı münasibətindən irəli gəlmirdi, əslində Müaviyənin özündən acığı gəlirdi. Əhli-sünnə icması Səd ibn Əbu Vəqqası "əşərətun mubəşşərə"[64] dəstəsindən sayır. Həmçinin, o, Ömər ibn Xəttabın özündən sonra xəlifə seçmələri üçün təyin etdiyi altı nəfərlik şuranın üzvlərindən biri idi. Yeri gəlmişkən, Səd ibn Əbu Vəqqas həmin toplantıda İmam Əliyə (ə) tərəf çıxmamışdır. Bütün bunlara baxmayaraq, Müaviyə Mədinə şəhərinə gələrkən, o dövrün hörmətli şəxsləri onun görüşünə yollanmış, o cümlədən, Səd ibn Əbu Vəqqas da Müaviyə ilə görüşə getmişdi. Səd içəri girdikdə Müaviyə ehtiram əlaməti olaraq qalxıb onu öz yanında əyləşdirdi və onunla söhbət etməyə başladı. Söhbət əsnasında Səd ibn Əbu Vəqqasdan belə soruşdu: ***"Sən nəyə görə Əlini (ə) lənətləmirsən?"*** Səd cavabında belə dedi:

---

[63] Əl-imamə vəs-siyasə, c.1, səh.196-198; Rəbiul-əbrar, c.4, səh.186, 187 və 209

[64] "Əşərətun mubəşşərə" - əhli-sünnənin Peyğəmbərdən (s) nəql etdiyi bir rəvayətə görə cənnətlə müjdələnmiş on nəfərdir. Əlbəttə, bu hədisin uydurma olduğunu başqa bir əsərdə isbat etmişik.

***“Mən Peyğəmbərdən ﷺ Əlinin ؑ barəsində elə fəzilətlər eşitmişəm ki, onları unutmadıqca mən ona qarşı heç vaxt belə iş görmərəm!”*** Müaviyə Səd ibn Əbi Vəqqasın cavabından hirslənərək yığıncağı narahat halda tərk etdi.[65]

Müaviyə belə bir şəxsin varlığı ilə öz planını rahat şəkildə həyata keçirə bilməzdi və çıxış yolunu onu aradan götürməkdə gördü. İmam Həsəni ؑ zəhərlədiyi kimi onu da zəhərləməklə qətlə yetirdi.[66]

## Aişənin canişinlik planına qarşı çıxması

Qeyd edildiyi kimi, Müaviyə Mədinə şəhərinə gəldikdə bir sıra nüfuzlu şəxsiyyətlərlə görüşmüş və onlarla söhbət əsnasında Yezidin vəliəhdlik məsələsini də müzakirə etmişdi. Belə nüfuzlu şəxslərdən biri də Aişə idi. Müaviyə onunla görüşməyə gedib bu haqda belə deyir:

إنّ أمر يزيد قضاء من القضاء، وليس للعباد الخيرة من أمرهم، وقد أكّد الناس بيعتهم في أعناقهم وأعطوا عهودهم على ذلك ومواثيقهم، أفترين أن ينقضوا عهودهم ومواثيقهم؟

***“Yezidin məsələsi*** *(məndən sonra xəlifə olması – red.)* ***ilahi bir təqdirdir. Bəndələrin isə (ilahi təqdir barəsində) seçim haqları yoxdur. İnsanlar artıq üzərlərindəki beyəti yerinə yetiriblər, əhd-peymanlarını bağlayıblar. Sən onların bağladığı əhd-peymanı pozmalarına tərəfdarsan?”***

Aişə isə Müaviyəyə belə cavab verir:

أما ما ذكرت من عهود ومواثيق، فاتق الله في هؤلاء الرهط ولا تعجل فيهم؛

---

[65] Sunənu Tirmizi, c.5, səh.301; Şərhu Muslim, c.15, səh.175; Fəthul-bari, c.7, səh.60; Əs-Sunənul-kubra, Nəsai, c.5, səh.107; Xəsaisu Əmiril-muminin, Nəsai, səh.48; Əl-İsabə, c.4, səh.468; Usdul-ğabə, c4, səh.25 və s.

[66] Məqatilut-talibin səh.80; Nəhcül-Bəlağənin şərhi, İbn Əbilhədid, c.16, səh.49

***“Söylədiyin əhd-peymana gəlincə, bu dəstə barədə Allahdan qorx! Onlar barəsində tələsik qərar vermə!”***[67]

Yəni hansı əhd-peyman, hansı razılıqdan danışırsan? Böyük şəxsiyyətlərin adından yalan niyə danışırsan? Onların əvəzindən qərar qəbul edib onların yerinə öhdəlik götürmə!

Aişənin bu məsələyə müxalif olmasına işarə edən kitablardan biri də “Əs-Siratul-mustəqim” kitabıdır. Bu kitab faydalı əsərlərdən biridir. Müəllifi isə qədim alimlərimizdən olan Əllamə Əli ibn Yunis Amili Nəbatidir. O yazır ki, Müaviyə minbərdə ikən Yezidin vəliəhdliyi üçün camaatdan beyət almaq üçün insanlara müraciət etdi. Bu zaman Aişə ona xitab edərək dedi:

هل استدعى الشيوخ لبنيهم البيعة؟

***“De görüm, şeyxlər** (əvvəlki xəlifələr – red.) **öz övladları üçün beyət tələb ediblərmi?”***

Yəni Peyğəmbərin ﷺ xəlifələri olmuş böyük səhabələr öz övladları üçün camaatdan beyət alıblarmı? Onlar övladlarını özlərinə canişin təyin ediblərmi?

Müaviyə dedi: ***“Xeyr!”***

Aişə isə belə dedi:

فبمن تقتدي؟

***“Onda kimin yolunu gedirsən?”***

Bu zaman Müaviyə pərt oldu. Ardından Aişə Müaviyə ilə görüşmək üçün onun mənzilinə getmək qərarına gəldi. Müaviyə bu məsələdən xəbərdar olduqda yolun üstündə bir çala qazdırıb üstünün örtülməsinə göstəriş verdi. Aişə minik üzərində onun evinə tərəf yollandıqda həmin çalaya düşərək dünyasını dəyişdi. Abdullah ibn Zübeyr bu hadisə ilə bağlı bir şeir yazaraq həmin şeirdə Müaviyənin Aişənin qatili olduğuna kinayəli şəkildə işarə etmişdir.[68] Beləcə, Aişənin

---

[67] Əl-İmamə vəs-siyasə c.1, səh.205

[68] Əs-Siratul-mustəqim, c.3, səh.45

ölümü də Müaviyənin gizli hiyləsi ilə baş tutdu. Çünki Aişə də Yezidin canişinlik məsələsinə müxalif idi və aradan götürülməli idi.

Mədinə şəhərində Yezidin vəliəhdliyi ilə müxalif olan başqa nüfuzlu şəxslər də var idi. Onlardan bəzilərinin adını qeyd edirik:

Əbu Bəkrin oğlu Əbdürrəhman, Ömərin oğlu Abdullah, Zübeyrin oğlu Abdullah, Zübeyrin digər bir oğlu Munzər, Osmanın oğlu Səid, Xalid ibn Vəlidin oğlu Əbdürrəhman və Ziyad ibn Əbih.

## Müaviyə və başqa bir terror planı

Yezidin vəliəhdliyinə müxalif olan kəslərdən biri də Aişənin qardaşı Əbdürrəhman ibn Əbu Bəkr idi. Müaviyə ilk olaraq ona yüz min dirhəm pul göndərdikdə o, belə cavab vermişdi:

لا أبيع ديني بدنياي؛

***"Mən dinimi dünyaya satmaram".***

Mötəbər kitablardan hesab olunan "Əl-İstiab" kitabında belə qeyd edilir: ***"Müaviyə tərəfindən Əbdürrəhmana pul göndərildikdən və Əbdürrəhmanın həmin puldan imtina etməsindən azacıq keçməmiş Əbdürrəhman öldü!"***[69]

Azca araşdırma aparmaqla, Əbdürrəhmanın ölümünün bir çox həqiqətlərini ortaya çıxarmaq mümkündür. Əhli-sünnə tarixçiləri yazırlar ki, Müaviyə Əbdürrəhman ibn Əbu Bəkrə belə dedi: ***"Səni öldürmək qərarına gəlmişəm!"***[70] Müaviyə açıq formada onu öldürməklə hədələmişdir. Çox keçmədi ki, Əbdürrəhmanın ölüsünü tapdılar.

---

[69] Əl-İstiab, c.2, səh.825-826

[70] Tarixut-Təbəri, c.4, səh.226

İbn Əsir özünün “Tarix” kitabında qeyd edir ki, Mərvan Mədinə şəhərinin valisi olduğu dönəmdə bir xütbəsində belə demişdi: ***“Əmirəl-möminin** (Müaviyəni qəsd edir – red.) **sizin üçün oğlu Yezidi özünə canişin təyin etmişdir”***. Əbdürrəhman isə bu sözü eşidər-eşitməz ayağa qalxaraq demişdi: ***“Ey Mərvan! Sən də Müaviyə də yalan deyirsiniz. Siz Peyğəmbər ﷺ ümməti üçün xeyir istəmirsiniz, sizin məqsədiniz səltənət və şahlıqdır. Siz varislik hakimiyyəti qurmaq istəyirsiniz, belə ki, sizlərdən biri öldükdə onun yerinə ailəsindən biri hakimiyyətə keçsin***”.

Əbdürrəhmanın bu etirazının ardınca hakimiyyətin məmurları onu həbs etmək istəsələr də, o, bacısı Aişənin evinə sığınır. Bu zaman Aişə onun müdafiəsinə qalxaraq Mərvana açıq şəkildə lənət yağdırırdı.[71]

## Həqiqətlərlə oynamaq

Əhli-sünnə alimlərinin elmi metodlarına diqqət yetirsək, belə bir nəticəyə gəlmək olar ki, onlar nəinki Peyğəmbərdən ﷺ sonrakı əhəmiyyətli mövzu olan xilafət məsələsi ilə, hətta tarix və tarixi hadisələrin nəqli ilə də oyun oynamışlar *(təhriflərə yol vermişlər – red.)*.

Əbdürrəhman haqqında qeyd etdiklərimiz, Buxarinin “Səhih” kitabında da dəyişdirilərək qeyd olunub, ancaq hansı həddə qədər dəyişdiriləcək?! Belə ki, Buxari bu zəmində belə yazır: “*Mərvan Hicazda xütbə edərək, Yezidin canişinlik məsələsinə toxunaraq, insanların ona beyət etməsi məsələsini açıqladığı zaman Əbdürrəhman ibn Əbu Bəkr ona bir şeylər söyləmişdi!”*[72]

---

[71] Əl-Kamilu fit-tarix, c.3, səh.506, hicri-qəməri 56-cı ilin hadisələri
[72] Fəthul-bari, c.8, səh.467-468 *(bəzi nüsxələrdə səh.439 – red.)*

Buxari bu hadisəni nəql edərkən elə bir cümlə ilə kifayətlənərək hadisənin davamını qeyd etmir. Görəsən, Əbdürrəhman nə deyib ki, Buxari onu nəql etməkdən çəkinmişdir? Bəli! "Əl-İstiab" kitabında nəql edildiyi kimi Əbdürrəhman Müaviyəni təhqir edərək belə demişdi: ***"Ey Mərvan! Sən və Müaviyə yalançısınız, siz xilafəti şahlığa çevirmək istəyirsiniz"***.

Digər tərəfdən, bu sözlər Buxari və ona bənzərlər üçün dözülməz sayılır. Çünki Müaviyənin cinahında dayananlar, həqiqətlərin nəql edilməsinin qarşısını kəsməlidirlər ki, ağalarına irad tutulmasın. Buxari yalnız belə yazır: ***"Əbdürrəhman bir söz dedi və Mərvan onun həbs olunması əmrini verdi. Bu zaman o, Aişənin evinə sığındı və onu həbs edə bilmədilər!"***

Əbdürrəhmanı nəyə görə həbs edə bilmədilər? Çünki Peyğəmbərin ﷺ zövcəsi Aişə həmin evdə idi və ona ehtiramla yanaşırdılar. Təbəri isə rahatlıqla həqiqəti söyləyərək Müaviyənin Əbdürrəhmana demiş olduğu sözü açıq şəkildə nəql edir. Müaviyə Əbdürrəhmana dedi:

و اللّه! لقد هممت أن اقتلك؛

***"And olsun Allaha! Səni öldürməyi qərara almışam".***

Bu sözdən azacıq müddət keçmədi ki, Əbdürrəhman öldü.[73]

## Maneə törədən başqa bir şəxs - Əbdürrəhman ibn Xalid

Yezidin canişin təyinatına qarşı olan şəxslərdən biri də Xalid ibn Vəlidin oğlu Əbdürrəhman idi. Xalid ibn Vəlidin iki oğlu var idi. Onlardan birinin adı Əbdürrəhman, digərininki isə Mühacir idi. Xalid Əhli-Beytə عليهم السلام qarşı uzun zamandan bəri düşmən mövqedə idi. Ancaq Allahın iradə-

---

[73] Tarixut-Təbəri, c.4, səh.226

sinə əsasən, onun Mühacir adlı oğlu “Siffeyn” müharibəsində İmam Əlinin ﷺ süvariləri sırasında yer almışdı. Xalidin digər oğlu Əbdürrəhman isə “Siffeyn” döyüşündə Müaviyənin ordusunda yer almışdı. O, nəinki sıravi döyüşçü, hətta qoşunun ən böyük bayraqdarı olmuşdu və bu səbəbdən, Şam əhalisi ona hörmət bəsləyirdi. Hafiz ibn Əbdülbərr yazır ki, Müaviyə Yezidin xilafəti üçün beyət almaq istəyərkən Şam əhalisinin qarşısında xütbə oxuyaraq belə dedi: ***“Ey camaat! Mən artıq qocalmışam, yaşım da çoxdur. Özümdən sonra rəhbərliyi vəhdətinizi qoruya biləcək və hakimiyyəti idarə edə biləcək birinə tapşırmaq istəyirəm. Mən də sizlərdən biriyəm, siz bu məsələyə dair öz fikrinizi söyləyin”***. Camaat hamısı bir ağızdan dedi: ***“Biz Əbdürrəhman ibn Xalidi sənin canişinin olaraq seçirik”***. Əhalinin nəzəri və seçimi Müaviyəni çox narahat etdi. O, bu narahatçılığını biruzə vermədi. Ancaq günlərin birində Əbdürrəhman xəstələndi. Müaviyə Əbdürrəhmanı müalicə etdirmək məqsədilə onun yanına yəhudi *(bəzi mənbələrdə xristian – red.)* bir təbib göndərdi. Həmin yəhudi təbib Müaviyənin yanında xüsusi hörmətə malik idi. Müaviyə ona Əbdürrəhmanın sağalması üçün hazırladığı məlhəmə zəhər qatmasını və həmin dərmanla onu öldürməsini tapşırdı. Göstəriş verdi ki, əhaliyə Əbdürrəhmanın xəstəlik ucbatından öldüyünü söyləsinlər... Yəhudi təbib Müaviyənin göstərişinə əməl edərək qurulmuş planı icra etdi. Həmin dərman Əbdürrəhmanın mədə-bağırsaq sistemində problem meydana çıxararaq onun ölümünə səbəb oldu.[74]

İbn Əbdülbərr hadisənin davamında qeyd edir ki, gizli terrorun ardınca Əbdürrəhmanın qardaşı Mühacir ibn

---

[74] Əl-İstiab, c.2, səh.829

Xalid[75] öz qulamı *(və ya: oğlu – red.)* ilə birlikdə məxfi şəkildə Dəməşq şəhərinə daxil olaraq qardaşının intiqamını almaq məqsədilə həmin yəhudi təbibi qətlə yetirdi. Bu hadisə tarixçilər və tərcümeyi-hal mütəxəssisləri yanında məşhur bir hadisədir.[76] Müaviyə Mühacir ibn Xalidin həbs edilməsi əmrini verdi. Dövlət məmurları Muhaciri həbs edib zindana saldılar. O, Müaviyə dünyasını dəyişənə qədər həbsdə qaldı.[77] Müaviyənin qoşununda böyük rütbəyə sahib olan Əbdürrəhman hansı səbəbdən bu şəkildə terrora məruz qaldı? Çünki Yezidin canişinlik məsələsinə qarşı bir maneə idi və o həyatda ikən bu planın baş tutması mümkün deyildi. Müaviyə onu aradan götürməli idi ki, Yezid atasının yerini tutaraq xilafət və səltənətini idarə edə bilsin.

İbn Əsakir isə bütün hadisəni nəql etməklə yanaşı yəhudi təbibin adını da açıqlayaraq belə qeyd etmişdir:

فأمر ابن أثال أن يحتال في قتله وضمن له إن هو فعل ذلك أن يضع عنه خراجه ما عاش وأن يولّيه جباية خراج حمص، فلما قدم عبدالرحمان حمص منصرفاً من بلاد الروم دس إليه ابن أثال شربة مسمومة مع بعض مماليكه، فشربها، فمات بحمص، فوفى معاوية

---

[75] Bəzi tarixi mənbələrə əsasən bu şəxs Mühacir ibn Xalid yox, onun oğlu Xalid ibn Mühacir olmuşdur. Mühacir özü isə "Siffeyn" döyüşündə qətlə yetirilmişdir. Düzdür, "Əl-İstiab" kitabında (2/289) təbibi öldürən şəxsin Əbdürrəhmanın qardaşı Mühacir ibn Xalid olduğu qeyd olunur. Lakin elə "Əl-İstiab" kitabının başqa bir yerində (4/1453) bu şəxsin Xalid ibn Mühacir olduğu yazılır. (*Red.*)

[76] Əl-İstiab, c.2, səh.830

[77] Tarixu mədinəti Diməşq, c.16, səh.215; Qeyd: Bu mənbədə Mühacir ibn Xalid yox, Xalid ibn Mühacir ibn Xalid keçir. Yəni Mühacir ibn Xalidin oğlu olan Xalid. Sonda isə müəllif (İbn Əsakir) qeyd edir ki, bu şəxs Xalid ibn Əbdürrəhman ibn Xalid də ola bilər. Yəni Xalid ibn Mühacirin əmisi oğlu olan Xalid. Bu, zahirən kitabı ərəbcədən *("Mən hum qətələtul-Huseyn" kitabını)* farscaya tərcümə edənlərin səhvidir. Çünki ərəbcədə burada qeyd etdiyimiz kimi yazılıb. (*Red.)*

***“Müaviyə İbn Əsala** (yəhudi təbibin adı – red.) **Əbdürrəhmanı hiyləgərliklə qətlə yetirmək əmrini verdi. Ona zəmanət verdi ki, əgər o, bu işi görsə, yaşadığı müddət ərzində onu xəracdan** (qeyri-müsəlmanlardan alınan vergidən – red.) **azad edəcək və Homs şəhərinin xəracının toplanmasını ona həvalə edəcək. Beləliklə, Əbdürrəhman Rumdan Homsa qayıtdığında, İbn Əsal bəzi xidmətçiləri ilə birlikdə xəlvəti şəkildə onun qarşısına zəhərlənmiş bir içki qoydu. O da onu içərək (zəhərləndi və) elə Homs şəhərindəcə vəfat etdi. Müaviyə də öz sözünü tutdu”.*** [78]

## Ziyad ibn Əbihin aqibəti

Ziyad ibn Əbih Yezidin canişin təyinatı planına qarşı çıxanlardan biri idi. Onun atasının kim olduğu məlum deyil *(buna görə də ona “ibn Əbih” deyilir, yəni atasının oğlu – red.)*. Müaviyə onu (Ziyadı) atası Əbu Süfyana bağlayaraq cəmiyyətə öz qardaşı kimi tanıtdırmışdı! Bəs, Müaviyə onu niyə aradan götürdü? Çünki Ziyad Yezidin vəliəhd olmasına qarşı çıxanlardan biri idi. Hətta bu etirazını yazılı şəkildə Müaviyəyə xatırlatmışdı. O bu məsələyə qarşı çıxmaqdan əlavə, həm də Müaviyədən sonra hakimiyyətə yiyələnmək sevdası ilə yaşayırdı. Yəqubi özünün “Tarix” əsərində bu haqda belə yazır ki, Müaviyə Ziyada bir məktub yolladı və həmin məktubda insanlardan Yezidin vəliəhdliyinə beyət almasını tələb etdi. O isə məktubun cavabında belə yazdı:

يا أميرالمؤمنين! إن كتابك ورد علي بكذا، فما يقول الناس إذا دعوناهم إلى بيعة يزيد، وهو يلعب بالكلاب والقرود، ويلبس المصبغ، ويدمن الشراب، ويمشي على الدفوف

***“Ey Əmirəlmöminin! Mənə sənin filan məktubun çatdı. Biz insanları Yezidin beyətinə dəvət etsək, onlar nə***

---

[78] Tarixu mədinəti Diməşq, c.16, səh.164

***deyəcəklər? Axı o, it və meymunlarla oynayır, rəngli libaslar geyinir, şərabxorluq edir, gününü dəf-qavalla keçirir".***

فلما صار الرسول إلى معاوية وأدى إليه الرسالة قال: ويلي على ابن عبيد! لقد بلغني أن الحادي حدا له أن الأمير بعدي زياد، والله لأردنه إلى أمه سمية وإلى أبيه عبيد؛

***"(Ziyad tərəfindən olan) qasid Müaviyənin yanına gəlib məktubu ona verdikdə, (Müaviyə məktubu oxuyub) dedi: Übeydin oğluna***[79] *(yəni Ziyada – red.)* ***görə vay mənim halıma*** *(yəni ona etdiyim yaxşılıqlara görə vay olsun mənə - red)!* ***Onsuz da mənə çatmışdı ki, onun qulağına "Müaviyədən sonra padşah Ziyaddır" mahnısını oxuyublar. And olsun Allaha! Onu anası Süməyyəyə və atası Übeydə geri qaytaracağam*** *(yəni onun atam Əbu Süfyanın oğlu olmasını inkar edib camaat arasında rüsvay edəcəyəm – müəl.)*". [80]

Yezidin canişinlik məsələsinə dair, hər ikisinin arasındakı söz güləşdirmənin ardından bir həftə belə keçməmiş, Ziyadın əlinin üstündə ölümünə səbəb olan bir yara əmələ gəldi. İnsanlar onun yatalaq xəstəliyinə tutularaq öldüyünü söyləyirdi! İnsanların əksəriyyəti isə Ziyadın da Müaviyə vasitəsilə zəhərləndiyi ehtimalını düşünürdü. [81] Qeyd olunanlar, Hicaz və Şam əyalətlərində Yezidin vəliəhd təyinatına qarşı olan və maneçilik törədənlərin müxtəlif metodlarla qətlə yetirilmələrinin bir neçə nümunəsi idi.

---

[79] Ehtimallardan biri də bu idi ki, Ziyadın atası Übeyd adlı bir şəxs olmuşdur.

[80] Tarixu Yəqubi, c.2, səh.220

[81] Tarixu Yəqubi, c.2, səh.235; Siyəru əlamin-nubəla, c.3, səh 496; Tarixu mədinəti Diməşq, c.19, səh.203.

## Müxaliflərlə digər bir mübarizə - sürgün etmək

Yezidin canişinlik və vəliəhdlik planına müxalif olanlara qarşı Müaviyənin mübarizə metodundan biri isə onları sürgün etmək idi. O, hazırladığı planı poza bilməsinlər deyə, qeyd olunan məsələyə qarşı çıxan, o dövrün nüfuzlu şəxslərindən bəzilərini uzaq məntəqələrə sürgün etdirdi. Elə şəxslərdən biri də Səid ibn Osman ibn Əffan idi. İbn Əsakir bu haqda belə qeyd edir:

***"Mədinə əhalisi Müaviyədən sonra Səid ibn Osmanın xəlifə olacağına inanırdılar. O, Bəni-Üməyyə qövmü və tərəfdarlarının nəzərində belə bir mövqeyə sahib idi. Əhalinin onun barəsindəki qəti inamı Yezidin xəlifə olacağına fürsət belə yaratmırdı"***.

Qeyd olunanlar, Yezidin vəliəhd təyinatına qarşı olan və ya maneçilik törədənlərin bir neçə nümunəsidir. Hətta əhali arasında nəzmə çəkilmiş və dildən-dilə gəzərək məşhurlaşan bir deyim də mövcud idi:

والله لا ينالها يزيد
حتى ينال هامه الحديد
إنّ الأمير بعده سعيد

***"And olsun Alllaha! Yezid xilafətə yetişməyəcək. Yetişsə də başına qılınc dəyəcək. Ondan (Müaviyədən) sonra hakim Səiddir".***[82]

İbn Kəsir "Əl-Bidayə vən-nihayə" kitabında bu haqda belə yazmışdır:

***Günlərin birində Səid Müaviyənin yanına gedərək belə dedi:***

***-Eşitmişəm, Yezidi canişin olaraq insanlara tanıtmaq istəyin var.***

***Müaviyə dedi:***

---

[82] Tarixu mədinəti Diməşq, c.21, səh. 223

***-Bəli!***

***Səid dedi:***

***-Sən həmişə atamın nəzər diqqətində olmusan və atamın qisasını almaq sayəsində bu məqama yetişmisən! Halbuki, həm atam-anam sarıdan, həm də şəxsiyyət cəhətindən bu məqama (xilafətə) mən ondan daha çox layiqəm. Atalarımızı müqayisə etsək, mənim atam Osman, onun atası Müaviyədir, əgər analarımızı müqayisə etməli olsaq, Yezidin anası xaçpərəstdir. O, xaçpərəst tərbiyəsi almışdır.***

***Müaviyə onun cavabında belə dedi:***

أما ما ذكرت من إحسان أبيك إليّ فإنه أمر لا ينكر، وأما كون أبيك خيراً من أبيه فحق وأُمك قرشية وأمه كلبية فهي خير منها. وأما كونك خيراً منه فوالله لو ملئت إلى الغوطة رجالاً مثلك لكان يزيد أحب إليّ منكم كلّكم؛

***"Atanın mənə etdiyi yaxşılığa gəlincə, bu, inkarolunmazdır. Sənin atanın onun (Yezidin) atasından üstün olmasına gəlincə, bu da düzdür. Sənin anan qüreyşi, onun anası isə kəlbidir, deməli, sənin anan da onun anasından üstündür. Amma sənin ondan üstün olmağına gəlincə, and olsun Allaha ki, əgər Quta vadisini*** *(Şam əyalətində bir yerin adıdır – red.)* ***sənin kimi şəxslərlə doldursalar belə, yenə də Yezid mənim üçün sizin hamınızdan sevimli olar".***[83]

Sonda Müaviyə Mədinə əhalisi arasında böyük ehtiram sahibi olan Osmanın oğluna, Xorasana gedib oranın valisi olması təklifini verir. [84] O, Osmanın oğlunun Xorasana getməsini və bu minvalla mərkəzdən uzaqlaşmaqla özü və Yezid üçün problem yaratmamasını istəyirdi.

Beləliklə, Səid Xorasana getdi. Müaviyənin hakimiyyəti tərəfindən isə Səidin ətrafında olanlara və xidmətçilərinə

---

[83] Əl-Bidayə vən-nihayə, c.8, səh.87

[84] Vəfəyatul-əyan, c.5, səh.389-390

onu qətlə yetirmələri tapşırığı verildi. Qətlin gizli qalması üçün həmin xidmətçilərə bir-birilərini öldürmək göstərişi verildi. Onlar da Səidi öldürdükdən sonra aralarında dava-dalaş salıb bir-birilərini qətlə yetirdilər. Hətta onlardan biri belə sağ qalmadı.[85]

## Böyük mənsəb sahiblərini pulla satın almaq

Müaviyə Yezidin vəliəhd təyinatını möhkəmlətmək yolunda üçüncü bir üslubdan da yararlandı. O, bu məsələyə qarşı çıxan böyük mənsəb sahiblərini onlara pul verməklə ələ aldı. Öncədən qeyd etdiyimiz kimi, Müaviyə Əbu Bəkrin oğlu Əbdürrəhmana yüz min dirhəm pul göndərdiyi zaman o, belə cavab vermişdi: ***"Mən dinimi dünyaya satmaram".*** Müaviyə bu planın icrası üçün Kufə şəhərinin valisi Müğeyrə ibn Şöbəyə göstəriş verir ki, Kufə əhalisindən bir qrup nümayəndə heyətini Şama göndərsin və onlar da Müaviyənin önündə Yezidin canişin olması tələbilə çıxış etsinlər. Başqa sözlə desək, "Yezidin vəliəhd təyin edilməsi xalqın istəyidir" desinlər. Müğeyrə qırx nəfər seçib Şama yolladı. Onlar Müaviyənin xütbə söylədiyi zaman orada iştirak edirdilər. Bu vaxt ona müraciət edərək dedilər:

***"Ey sərvərimiz! Vaxtı niyə uzadırsan? İnsanları nəyə görə intizarda qoymusan?! Ey Müaviyə! Bizim gələcəkdən xəbərimiz yoxdur, sabah nə baş verəcəyini də bilmirik. Yezidi öz yerinə canişin kimi tanıtmağını məsləhət görürük".***

Müaviyə bu müraciətdən sonra dedi: ***"Maraqlıdır! Sizin tələbiniz budur?! Olsun! Siz biraz səbr edin, mən bu haqda düşünüm. Fikrimi sonra elan edərəm"***.

[85] Tarixu Yəqubi, c.2, səh.237

Bu dəstənin rəhbəri Müğeyrə ibn Şöbənin oğlu Ürvə idi. Bir nəfər Ürvəyə dedi:

***-Atan bu dəstəni hansı məbləğə satın alıb?***

Ürvə cavabında:

***-Otuz min dirhəmə satın alıb*** - dedi.

O isə belə dedi:

***-Maraqlıdır! Onların dini çox ucuz imiş***.[86]

## Abdullah ibn Ömərin sükutu

Müaviyə və Yezid üçün olduqca faydalı, digər tərəfdən isə İslam və müsəlman cəmiyyətinə olduqca böyük zərəri dəyən yeganə şəxs Abdullah ibn Ömər idi. O da əslində, Yezidin vəliəhdlik planına qarşı çıxanlardan idi. Lakin pul alaraq sükut yolunu seçdi və onun bu sükutu tarixdə böyük bir iz buraxdı. Çünki Abdullah zahirən, müqəddəs bir şəxs idi. O dövrün insanları və həmin diyarın əhalisi üçün etalon hesab olunurdu. Bundan əlavə, atasına görə də ona böyük hörmət bəsləyirdilər. O, sükut etməsinin əvəzində yüz min dirhəm pul almışdı və bu sükutu ilə son ana qədər Müaviyənin bütün tədbir və planlarını təsdiqləmiş oldu.[87]

## Munzər ibn Zübeyrin yarımçıq sükutu

Zübeyrin oğlu Munzər də Yezidin vəliəhdliyi məsələsinə qarşı çıxanlardan idi. O da yüz min dirhəmin müqabilində sükut etmişdi. Lakin onun səssizliyi çox sürmədi. O, Yezidə qarşı düşüncələrini dilə gətirəcək insanlara belə deyərdi:

---

[86] Tarixu mədinəti Diməşq, c.40, səh.298; Əl-Kamilu fit-tarix, c.3, səh.350

[87] Fəthul-bari, c.13, səh.60

إنه قد أجازني بمائة ألف، ولا يمنعني ما صنع بي أن أخبركم خبره، والله إنه ليشرب الخمر، والله إنه ليسكر حتى يدع الصلاة؛

***“Yezid mənə yüz min pul göndərib, ancaq bu, onun həqiqəti barəsində sizə xəbər verməyimə mane ola bilməz. And olsun Allaha! O, şərab içir və And olsun Allaha ki, o qədər məst olur ki, namaz da qılmır”.*** [88]

Qeyd olunanlar Müaviyənin Hicaz və Şam ərazilərində Yezidin vəliəhdliyi və hakimiyyəti yolunda həyata keçirdiyi metodların bir qismi idi. Planın icrasına maneçilik törətməsinlər deyə, müxalifləri ayrı-ayrı metod və üsullarla sıradan çıxarırdı.

**Müaviyənin fəaliyyətləri və onun Kufədəki valiləri**

Müaviyənin hakimiyyətdə olduğu ilk gündən ölən anına qədər Kufə şəhərində altı nəfər valilik vəzifəsini daşımışdır. Məsələnin maraqlı cəhəti ondan ibarətdir ki, bu valilərin altısı da ya Bəni- Üməyyə qəbiləsindən, ya da Müaviyənin özünə yaxın adamlarından seçilmişdi. Onların hamısı müxtəlif şəkildə Əhli-Beytə عليهم السلام düşmən münasibəti bəsləyənlər idi. Müaviyənin Kufə şəhərinə vali təyin etdiyi şəxslər aşağıdakılar olmuşdur:

Müğeyrə ibn Şöbə, [89] Ziyad ibn Əbih, Abdullah ibn Xalid ibn Üseyd,[90] Zəhhak ibn Qeys,[91] Əbdürrəhman ibn Ümmi Həkəm[92] və Numan ibn Bəşir.[93]

---

[88] Tarixut-Təbəri, c.4, səh.368

[89] Əhli-Beytə عليهم السلام qarşı açıq-aşkar düşmən kəsilənlərdəndir.

[90] Bəni-Üməyyə qəbiləsindəndir. Osman ibn Əffanın kürəkənidir.

[91] O, Siffeyn döyüşündə Şam ordusunun komandanı olmuş, həm də Şam şəhərinin polis *(qaravul, mühafizə - red.)* rəisi idi. Müaviyənin cənazə namazını bu şəxs qılmışdır, çünki həmin vaxt Yezid əylənmək və əyyaşlıq üçün şəhərdən kənarda idi! Zəhhak Müaviyə öləndə şəhərə nəzarəti möhkəmləndirdi ki, Yezid gəlsin. O, Müaviyə ailəsinə ən yaxın adam sayılırdı.

## Müaviyənin hakimiyyət dövrü və onun təyin etdiyi valilərin davranışları

Bizim müzakirə etdiyimiz mövzuya bir o qədər də aidiyyatı olmasa da, Müaviyənin bacısı oğlu Əbdürrəhman haqqında olan bir hekayəni qeyd etmək istərdik. Bu hekayədən həmin dövrdə müsəlmanlara rəhbərlik edənlərin durumu rahat anlaşılacaqdır. Əbülfərəc ibn Cövzi qeyd edir:

«Günlərin birində cavan bir ərəb narahat halda Müaviyənin görüşünə yollandı. Ona növbə yetişəndə Müaviyə soruşdu:

-Nə olub?

O dedi:

-Mən Kufədənəm və filan qəbilədənəm, bir müddət bundan öncə əmim qızı ilə ailə quraraq evlənmişdim. Bir neçə dəvə və qoyunum var idi. Zaman keçdikcə onları satdım və əlimdə bir şeyim qalmadı. İş elə gətirdi ki, möhtac duruma düşdüyümə görə, əmim gəlib qızını öz evinə apardı. Mən baş vermiş bu hadisəyə görə, Kufə şəhərinin valisi Əbdürrəhman ibn Ümmi Həkəmə şikayət etdim. Əbdürrəhman əmimi öz qızı ilə birgə yanına çağırdı. Onlar Əbdürrəhmanın yanına gəldikdə isə o, mənim həyat yoldaşımı görən kimi ona gözü düşdü və əmimə on min dirhəm verib həyat yoldaşımla nikah bağladı, məni isə zindana saldırdı və

---

[92] Ümmu Həkəm Əbu Süfyanın qızı və Müaviyənin bacısıdır. O, həmin kəsdir ki, nəql olunmuş rəvayətə əsasən İmam Sadiq (ə) namazdan sonra ona və bir neçəsinə lənət oxuyarmış.

[93] Numan Əhli-Beytin (ə) qatı düşmənlərindən idi. O, Bəşirin oğludur. Bəşir isə Səqifədə baş vermiş hadisə zamanı ənsar arasında ixtilaf salaraq Əbu Bəkri himayə etmiş birisidir. Numan isə Kərbəla hadisəsindən əvvəl də, sonra da, yəni əsirlərin Şama aparıldığı zaman da Yezidin yanında olmuşdur. Tezliklə, onun cənab Müslimin (ə) və İmam Hüseynin (ə) başına gətirilən hadisələrdəki rolunu bəyan edəcəyik.

yoldaşıma təlaq (boşanma) verməyə razı olmadığım üçün mənə işgəncə verilməsini əmr etdi».

Diqqət yetirdiniz?! Təlaq verilməmiş həmin qızı öz evinə aparıb! Bu cavanın təlaq verməsinin razılığı isə həbs-xanada işgəncə altında alınıb.

Müaviyə bu şikayəti eşitcək çox narahat oldu və kobud ifadələrlə dolu bir məktub yazıb birbaşa özünə təhvil üçün elçi vasitəsi ilə yola saldı. Həmin məktubda xanımı boşayaraq öz ərinə geri qaytarması əmrini də verdi. Məktub Əbdür-rəhmanın əlinə yetişən zaman bir ah çəkərək dedi: ***"Ey kaş, Müaviyə mənim bu xanımla birgə yaşamağıma bir il də möhlət verib ondan sonra öldürəydi!"*** Müaviyənin göndərdiyi elçi Əbdürrəhmana dərhal xanıma təlaq verməsini söylədi. Əbdürrəhman çarəsizlikdən həmin xanımı boşadı. Əbdürrəhman həmin xanımı elçi ilə birgə Şama yolladı. Müaviyənin göndərdiyi şəxs həmin xanımı görən kimi öz-özünə belə dedi: ***"Bu qadının həmin oğlana qismət olması heyifdir. Əslində, bu xanım Müaviyə kimi şəxsə layiqdir!"*** Onlar Şama yetişdikdən sonra Müaviyənin hüzuruna getdilər. Müaviyə həmin xanımı görən kimi onun gözəlliyinə heyran oldu və ondan bir an belə gözünü çəkə bilmədi! Müaviyə üzünü cavan oğlana çevirib dedi:

-Cavan oğlan, bəlkə, bu xanımdan əl çəkəsən?

Oğlan dedi:

-Bu, başımı bədənimdən ayırmaq şərtilə mümkün ola bilər.

Müaviyə bu sözdən narahat olub üzünü xanıma tərəf çevirib dedi: ***"Ey qadın! Sən bu cavanla mənim aramda seçim ixtiyarına maliksən, ikimizdən birini seçə bilərsən"***. Qadın isə belə cavab verdi: ***"Mənim dünya bər-bəzəyində gözüm yoxdur, mən həyat yoldaşımı istəyirəm".*** Müaviyə cavan oğlana üzünü çevirərək dedi:

خذها لا بارك اللّٰه لك فيها

***“Götür, apar xanımı! Allah bu xanımdan sənə xeyir-bərəkət verməsin !”***[94]

## Müaviyənin Kufədəki mənfur məqsədləri

Müaviyə Kufədə altı vali ilə əlbir olub öz müxaliflərini sıradan çıxarmağa başladı. O, hər bir valiyə Kufədəki şiələri müxtəlif üsullarla sıradan çıxarıb əzmək əmrini verdi. Bu addımı iki səbəbə görə atdı:

1. Yezidin vəliəhdlik məsələsinə qarşı çıxanlar sıradan çıxarılmalıdır.

2. Gələcəkdə İmam Hüseynə (ə) kömək və arxa ola biləcəkləri səbəbindən Kufədəki şiələr məhv edilməlidir. Kufə şiələrdən və hörmətli şəxsiyyətlərdən təmizlənməlidir. Bu təmizləmə prosesi, əsasən, Ziyad ibn Əbih vasitəsilə həyata keçirilirdi. Çünki o, şiələrin hamısını tanıyırdı və bu səbəblə də, onları təqib etdirirdi. Onun şiələrlə rəftarı haqda bəzi tarixçilər açıq-aşkar yazırdılar:

كان زياد يتتبع شيعة علي

***Ziyad Əlinin (ə) şiələrini (təzyiq altında saxlayaraq) onları daim təqib edirdi.***[95]

Kufədə Hücr ibn Ədi [96] və Əmr ibn Huməq[97] şiələrin böyük şəxsiyyətlərindən idi. Ziyad ibn Əbih onların hər ikisini dostları ilə birgə həbs etdirdi. Tərcümeyi-hal mütəxəssisləri onların hər ikisi haqda belə yazmışlar: ***“Hücr və Əmr ibn Huməq Peyğəmbərin (s) böyük səhabələrindən***

---

[94] Əl-Muntəzəm (İbn Cövzi), c.5, səh 295

[95] Mucəmul-kəbir, c.3, səh.70, 2690-cı xəbər; Tarixu mədinəti Diməşq, c.19, səh.202; Siyəru əlamin-nubəla, c.3, səh.496; Tarixul-İslam c.4, səh.210; Əl-Futuh, c.4, səh.316.

[96] Usdul-ğabə, c.1, səh.697-698; Əl-İstiab, c.1, səh.329

[97] Əl-İstiab, c.3, səh.174

***idilər”.*** [98] Aydındır ki, belə şəxsiyyətli insanları həbs etmək üçün bəhanəyə ehtiyac duyulur. Çünki o dövrdə Peyğəmbər ﷺ səhabələri cəmiyyətdə xüsusi hörmətə sahib idilər. Onlar Hücr ibn Ədidən Əlini عليه السلام təhqir edib lənətləməsini tələb etdikdə o, belə bir işə boyun əymədi. Bəllidir ki, həmin dövrdə Əlini عليه السلام təhqir etməmək böyük bir cinayət sayılırdı və bunu da isbat etmək üçün tutarlı bir dəlilə ehtiyac var idi. Bu səbəbdən, Kufənin nüfuz sahibləri Hücr ibn Ədinin əleyhinə bir bəyannamə tərtib edərək imzaladılar. Həmin bəyannamədə Hücrün Əli ibn Əbu Talibdən عليه السلام uzaq olduğunu *(bezarlığını – red.)* etiraf etmədiyinə görə ölümə layiq olduğunu qeyd etdilər.

Tarixdə bu bəyannaməni imzalayanların adları da məlumdur. Aşağıda onların adlarını qeyd edirik:

Əmr ibn Hüreys, Xalid ibn Ərfətə, Əbu Burdə ibn Əbu Musa Əşəri, Qeys ibn Vəlid ibn Əbduşəms ibn Müğeyrə, İshaq ibn Təlhə, İsmayıl ibn Təlhə, Musa ibn Təlhə, Munzər ibn Zübeyr ibn Əvam, Ömər ibn Səd ibn Əbu Vəqqas, Əmarə ibn Səd ibn Əbu Vəqqas, Əmarə ibn Əqəbə ibn Əbi Muit, Şəbəs ibn Ribi, Qəqa ibn Şur Zuhli, Həccar ibn Əbcər İcli, Əmr ibn Həccac Zubeydi, Şimr ibn Zilcövşən, Zəhr ibn Qeys, Kəsir ibn Şihab, Amir ibn Məsud ibn Üməyyə ibn Xələf, Muhriz ibn Cariyə ibn Rəbiə ibn Əbdüluzza ibn Əbduşəms, Übeydullah ibn Müslim ibn Şöbə Həzrəmi, İnaq ibn Şürəhbil ibn Əbu Dəhm, Vail ibn Hücr Həzrəmi, Məsqələ ibn Hubeyrə Şeybani, Qətən ibn Abdullah ibn Husayn Harisi, Saib ibn Əqrə Səqəfi, Lubeyd ibn Utarid Təmimi, Muhzər ibn Sələbə, Əbdürrəhman ibn Qeys Əsədi və Əzrə ibn Əzrə Əhməsi.

Biz bu adları bir neçə səbəbə görə qeyd etdik:

---

[98] Həmin mənbə

1. O günün Kufəsini və Əhli-Beytə ﷺ düşmən olan nüfuzlu şəxsləri tanıtdırmaq.

2. Bu şəxslərdən bir neçəsi Hücr ibn Ədinin başına gələn macərada iştirak etdikləri kimi, Müslimin ﷺ və İmam Hüseynin ﷺ də şəhadətə yetirilməsində iştirak etmişdilər. Onlar Yezidin qoşununun sıralarında yer almışdılar.

3. Bu şəxslərin bir çoxu "sihahus-sittə"nin[99] nüfuzlu ravilərindən hesab olunur. Əhli-sünnə alimləri bu şəxslərin müqəddəs, təqvalı və etibarlı insanlar olduğuna inanır, fiqh və təfsir elmində etibarlı mənbə kimi onlardan rəvayət nəql edirlər! Həmin məktubu imzalayanlar arasında Şimr ibn Zilcövşən və Ömər ibn Səd də vardır. Onların hər ikisi Übeydullah ibn Ziyadın yaxın silahdaşı və Kərbəla hadisəsində ona ən çox yardım edən kəslər olmuşlar. Onların bu hadisədə oynadıqları rol haqqında tezliklə məlumat verəcəyik.

Bu arayışla həmin dövr Kufə şəhərində kimlərin yaşadığı məlum oldu. Bu səbəbdən, heç kəs söyləməsin ki, həmin dövrdə Kufə şəhərində Əlinin ﷺ şiələri yaşayıb və yaxud şiələr üstünlüyə sahib olublar. Yuxarıda adı qeyd olunanlar Kufənin nüfuzlu şəxsləri olmaqla yanaşı, heç biri şiə deyildilər. Hətta açıq şəkildə şiələrə qarşı düşmən idilər.

Şiələrdən sayılan Əmr ibn Huməq elə həmin ərəfədə Ziyad ibn Əbihin əli ilə şəhadətə yetirildi. Ziyad belə bir möhtərəm şəxsin şəhadətindən sonra başını kəsərək Şama göndərdi. Tarixçilərin yazdığına görə, İslamda ilk dəfə bir şəhərdən digər şəhərə göndərilən kəsilmiş baş, elə Əmrin başı olmuşdur.[100]

---

[99] Əhli-sünnəyə məxsus 6 ədəd kitabdır ki, onlar arasında "sihahus-sittə" adı ilə məşhurdur.

[100] Əl-İstiab, c.3, səh.174

Ziyad ibn Əbih Kufədə çoxlu cinayətlər törətdi. O cümlədən nüfuzlu şiələrdən olan Ruşeyd Hicri, Meysəm Təmmar, Kumeyl kimilərini ya şəhid edir, ya da nəzarət altında saxlayırdı. Qeyd edildiyi kimi, Müaviyə müxtəlif metodlarla Hicazı, Şamı, Mədinə və Kufə şəhərlərini öz əleyhdarlarından təmizlədi. Bu mövzuya dair araşdırmalar göstərir ki, Yezidin vəliəhd təyinatı planına qarşı çıxan böyük şəxsiyyətlərdən yalnız ikisi – İmam Hüseyn عليه السلام və Abdullah ibn Zübeyr – sağ qalmışdı. Müaviyə həmin maneəni də aşmaq üçün ilk zəminəni hazırlamışdı. Belə ki, bir vəssiyyətnamə yazıb Sərcun adlı bir xaçpərəst qulamına verdi ki, onu gizlətsin və zamanı yetişəndə Yezidə təhvil versin.

Araşdırma və tədqiqatın davamında İmam Hüseynin عليه السلام şəhid edilməsinin əsas planının Müaviyə vasitəsilə həyata keçirildiyi isbat olunacaqdır. Bu həqiqət aparılan araşdırmalar sayəsində isbat olunacaqdır.

## Müaviyənin digər bir üslubu

Müaviyə bu əsnada, Mədinə şəhərinə vali təyin etdiyi Mərvandan da faydalanırdı. Mərvanın Əhli-Beytə عليهم السلام qarşı sərtliyi və düşmən mövqeyi uzun zamandan bəri hamıya bəlli idi. O, bütün məlumatları Müaviyəyə ötürür və İmam Hüseynin عليه السلام yanına gedib-gələnlər haqda ona xəbər verirdi. Hətta Müaviyəyə yazdığı bir məktubda belə qeyd etmişdi: ***“Hüseyn ibn Əli عليه السلام ilə dil tapmaq mümkün deyil”***.

Bəlazuri bu haqda belə yazır:

***Hicazın və İraqın nüfuzlu şəxsiyyətləri daim İmam Hüseynin عليه السلام yanına get-gəl edirdilər. Həmin insanlar həzrət Hüseynə عليه السلام böyük hörmət bəsləyirdilər. Onlar Hüseynin عليه السلام məqam və fəzilətləri haqda bir-birlərinə***

***danışırdılar. Günlərin birində o həzrətə xitabən belə söylədilər:***

إنا لك يد وعضد

***"Biz sənə arxa-dayağıq".***

Onun yanına böyük şəxsiyyətlərin get-gəl etməsinin artdığı bir zamanda Əmr ibn Osman Mərvanın yanına gedərək belə dedi: ***"Hüseynin (ə) gələcəkdə sizə çətin günlər yaşadacağını görürəm!"*** Bu zaman Mərvan Müaviyəyə bir məktub yazaraq Mədinə şəhərinin vəziyyəti haqda ona məlumat verdi. Müaviyə isə onun məktubunun cavabında belə yazdı:

اترك حسيناً ما تركك

***"Nə qədər ki, Hüseyn (ə) sənə toxunmur, sən də ona toxunma".***[101]

## İmam Hüseynin (ə) Müaviyə ilə söhbəti

Bir dəfə Həcc ziyarəti üçün Müaviyə Hicaza səfər etmişdi. İmam Hüseyn (ə) və Yezidin canişinliyinə müxalif olan digər şəxslərin iştirak etdiyi bir məclisdə Müaviyə Yezidin tərifi və şəxsiyyəti haqda söz saldı. Bu zaman İmam Hüseyn (ə) qalxıb Allaha həmd-səna edib və Peyğəmbərə (s) salavat dedikdən sonra buyurdu:

وفهمت ما ذكرته عن يزيد،... تريد أن توهم الناس في يزيد، كأنك تصف محجوباً أو تنعت غائباً أو تخبر عما كان ما احتويته بعلم خاص وقد دلّ يزيد من نفسه على موقع رأيه؛

***"Yezid barədə qeyd etdiklərini anladım... Ancaq sən camaatın Yezid barədə elə xəyal etməsini istəyirsən ki, sanki sən sirli bir şey haqda danışırsan, yaxud gözlərdən qeybdə olan bir kəsi tərif edirsən, yaxud da elə bir şeydən***

---

[101] Ənsabul-əşraf, c.3, səh.152

***danışırsan ki, sanki onu xüsusi bir elm vasitəsilə yalnız sən dərk etmisən! Halbuki Yezid özü öz halını çoxdan bəlli edib”.***

İmam Hüseyn ﴿ع﴾ sözünün davamında Yezidin aşkar şəkildə törətdiyi, insanlara da məlum olan günah və fəsadlarını xatırlatdıqdan sonra Müaviyəyə xitabən buyurdu:

ودع عنك ما تحاول، فما أغناك أن تلقى الله من وزر هذا الخلق بأكثر مما أنت لاقيه، فوالله! ما برحت تقدم باطلاً في جور وحنقاً في ظلم، حتى ملأت الأسقية، وما بينك وبين الموت إلاّ غمضة، فتقدم على عمل محفوظ في يوم مشهود ولات حين مناص

***“Uğrunda çalışıb-çapaladığın bu işdən əl çək! Çünki indiyə qədər camaata etdiyin zülmün yükü sənə kifayət edir. And olsun Allaha! Sən batil əməlinlə və qəddarlıqla o qədər zülm və sitəm etmisən ki, artıq günah tuluğun dolmuşdur. Halbuki ölümlə aranda bir göz qırpımı qədər vaxt qalıb. Odur ki, əməllərin aşkar olacağı gündə azuqə ola biləcək bir iş gör*** *(yəni xeyirli əməllərlə məşğul ol – red.)*. ***Elə bir gün ki, o gün artıq can qurtarmağa fürsət qalmayacaq!”***[102]

Müaviyə Şamdan özü ilə min nəfər əsgər gətirmişdi. Onlar da əllərində qılınc onun yanında dayanmışdılar. Bu zaman Müaviyə çıxış yolunu yalana üz tutmaqda görərək belə dedi: ***“Bu nə şayiədir ki, yayırlar?! Kim deyir ki, bu dörd nəfər (Hüseyn ibn Əli ﴿ع﴾, Əbdürrəhman ibn Əbu Bəkr, Abdullah ibn Ömər və Abdullah ibn Zübeyr) Yezidlə beyət etməyib? Bu böyük şəxslərin hamısı beyət etmişdir. Başqaları yalandan şayiə yayırlar ki, guya, bunlar Yezidlə beyət etməyiblər”.*** Bu zaman o, üzünü əli qılınclı əsgərlərə çevirdi, onlar isə Müaviyənin ürəyincə olan şikayəti dilə gətirərək belə dedilər: ***“Nə olub, bu dörd nəfəri niyə bu***

---

[102] Əl-İmamə vəs-siyasə, c.1, səh.208-209

***qədər böyüdürsən axı?! Bu şəxslər insanların gözü qarşısında aşkar formada Yezidə beyət etməlidirlər, biz onların gizlin şəkildə beyət etmələrini qəbul etmirik. Hamı onların Yezidlə beyət etdiyini bilməlidir".***

Öncədən Müaviyə ilə əsgərlər arasında əldə edilmiş razılığa əsasən, Müaviyə onlara cavab olaraq dedi: ***"Xeyr, bu möhtərəm şəxslər Yezidə beyət ediblər. Özü də, rəğbətlə və könüllü olaraq beyət ediblər. Ey əsgərlər! Siz, deyəsən, iğtişaş salıb fitnə qoparmaq istəyirsiniz. Bu şəxslər müsəlmanların böyük şəxsiyyətləridir, onlar haqqında belə sözlər söyləməyin, mən onlardan razıyam!"***

Toplantı qurtardıqdan sonra İmam Hüseyndən ﷺ soruşdular:

***"Siz beyət etdinizmi?"***

İmam Hüseyn ﷺ buyurdu:

لا، واللّه ما بايعنا ولكن معاوية خدعنا وكادنا

***"And olsun Allaha ki, xeyr! Biz beyət etmədik. Ancaq Müaviyə bizə qarşı oyun qurub hiyləgərlik etdi".***[103]

Təbərani yazır ki, Hüseyn ibn Əli ﷺ Müaviyəyə belə buyurdu:

أنا ـ واللّه ـ أحقا منه، فإنّ أبي خير من أبيه وجدي خير من جده وإنّ أمي خير من اُمه وأنا خير منه

***"And olsun Allaha, xilafətə Yeziddən daha artıq mən layiqəm. Atam onun atasından üstündür, babam onun babasından üstündür, anam isə heç şübhəsiz, onun anasından üstündür, özüm də ondan üstün və layiqəm".***

Müaviyə cavab olaraq belə dedi: ***"Ana sarıdan sən ondan üstünsən. Ancaq ata sarıdan bunu demək mümkün***

[103] Əl-İmamə vəs-siyasə, c.1, səh.213; Tarixul-xuləfa, səh. 197; Əl-Futuh, c.4, səh.343

***deyil, çünki döyüşdə onun atası sənin atana qalib gəldi. Həmçinin, Yezid də səndən üstündür!”*** [104]

## Müaviyənin məktubuna İmam Hüseynin ﷵ cavabı

Bir rəvayətə görə, Müaviyə İmam Hüseynə ﷵ məktub-da bu sözləri qeyd edərək o həzrətə yolladı:

أما بعد، فقد انتهت إليّ منك أمور، لم اكن أظنك بها رغبة عنها

***“Bəzi fəaliyyətlərin haqda mənə xəbər çatıb. Amma düşünmürəm ki, sən belə şeylərə rağbət göstərəsən”.***

İmam Hüseyn ﷵ məktubun cavabında yazdı:

أما بعد، فقد جائنى كتابك

***“Məktubun əlimə yetişdi”.***

Ardınca, İmam ﷵ Müaviyənin törətdiyi cinayətlərin bir neçəsini xatırlatdıqdan sonra, ona nəsihət edərək buyurdu:

واعلم، أنّ لله كتاباً لا يغادر صغيرة ولا كبيرة إلاّ أحصاها. واعلم أنّ الله ليس بناس لك قتلك بالظنة وأخذك بالتهمة، وإمارتك صبياً يشرب الشراب، ويلعب بالكلاب. ما أراك إلاّ وقد أوبقت نفسك وأهلكت دينك، وأضعت الرعية

***“Bil və agah ol! Allahın bir kitabı mövcuddur ki, orada bütün kiçik və böyük günahları qeyd etmişdir. Bil ki, Allah səni də unutmamışdır; bədgümanlıqla törətdiyin qətlləri, töhmət vuraraq cəzalandırmalarını, eləcə də şərabxor və itbaz bir uşağı hakim təyin etməni. Mən səni yalnız özünü həlak edən, dinini məhv edən və xalqı(n haqqını) zay edən biri olaraq görürəm”.*** [105]

---

[104] Əl-Mucəmul-kəbir, c.19, səh.356

[105] Əl-İmamə vəs-siyasə, c.1, səh. 203-204

## İmam Hüseynin ﷺ müqaviməti və Müaviyənin uğursuzluğu

Qeyd edildiyi kimi İmam Hüseyn ﷺ ilə Müaviyə arasında hakimiyyət məsələsinə dair həm məktub yazışmaları, həm də üzbəüz görüşlər olmuşdur. Ancaq Müaviyə İmam Hüseyndən ﷺ nə könüllü, nə də zor gücünə Yezid üçün beyət ala bilməmişdi. Çünki İmam Hüseyn ﷺ bir neçə özəlliyə sahib idi:

1. Həmin dövrdə İmam Hüseynin ﷺ ictimai nüfuzu və mövqeyi.

2. Müaviyə İmam Hüseynin ﷺ qardaşı İmam Həsəni ﷺ zəhərləyərək qətlə yetirmişdi. Bu hadisənin üstündən elə də uzun bir zaman keçməmişdi. Müaviyə həmin cinayətin gizli qalmasına səy göstərsə də, insanlar hadisənin mahiyyətini artıq bilirdilər. Elə bu səbəbdən, əgər o, İmam Hüseynə ﷺ zərər yetirmiş olsaydı, onun özü üçün baha başa gələr və ona qarşı ictimai bir zərbə olardı.

3. Bundan əlavə, İmam Həsənlə ﷺ Müaviyə arasında bağlanmış sülh müqaviləsinin bir bəndinə əsasən, Müaviyə tərəfdən İmam Həsən ﷺ və İmam Hüseynə ﷺ təhlükə və ya zərər yetişməməli idi. Həmin sülh müqaviləsini bir sıra tarixçilər də qeyd etmişlər.[106]

## Mədinə şəhəri valisinin Müaviyə tərəfindən çıxarılması

İmam Hüseynin ﷺ müqavimət göstərməsi sayəsində Müaviyə Yezid üçün o həzrətdən beyət ala bilmədi. O, Şama geri döndü, ölümündən əvvəl Mərvanı Mədinə şəhərinin valiliyindən çıxarıb onun yerinə Vəlid ibn Ütbəni

---

[106] Əl-Futuh, c.4, səh.291; Mətalibus-suul fi mənaqib alir-Rəsul, səh.357; Biharul-ənvar, c.44, səh.65; Ən-Nəsaihul-kafiyə, səh.148

hakim təyin etdi.[107] Belə bir siyasi yerdəyişmənin sirri nədir? Nəyə görə Mərvan işdən çıxarıldı və onun yerinə Vəlid təyin edildi?

Mərvanın İmam Hüseynə (ə) qarşı düşmənçilik münasibəti var idi. O, İmam Hüseyni (ə) hər bir vəchlə qətlə yetirmək istəyirdi. Lakin Vəlid İmam Hüseynə (ə) belə münasibət bəsləmirdi. Müaviyə də Mərvan kimi bir şəxsin belə bir şəraitdə hakimiyyətdə qalmasını istəmirdi. İsbatına çalışdığımız iddianın əsasları Mədinədəki siyasi yerdəyişmədən başlamışdır. Fərqli baxışlarına görə, Mərvan işdən çıxarılmış və yerinə Vəlid təyin olunmuşdu. Bu yerdəyişmə icra olunmasaydı, İmam Hüseynin (ə) şəhadətə yetirilmə planı həmin formada həyata keçməzdi. Bu tədbir planları öncədən müəyyən edilmişdir və sonda həyata da keçirildi. Başqa sözlə desək, Müaviyə İmam Hüseynə (ə) Mədinədə sərt davranmaq istəmədi. Elə bu səbəbə görə də, Mərvan şəhərin hakimi postunda qalmamalı idi.

## Əhəmiyyət kəsb edən üç məsələ

Bu mövzunu dəqiq araşdırmaq üçün üç mühüm məsələni xatırlatmaq istərdik.

**Birincisi,** Kufə əhalisi elə Müaviyə dönəmində onun Yezidə beyət almasından sonra İmam Hüseynə (ə) məktub göndərməyə başladı. İbn Kəsir bu haqda yazır: ***“Müaviyə camaatdan Yezidə beyət aldığı vaxt, Hüseyn (ə) ona beyət etmədi. Kufə əhalisi Hüseynə (ə) məktub yazaraq onu qiyama dəvət etdilər. O həzrət (ə) onların bu çağırışına***

[107] Əl-İmamə vəs-siyasə, c.1, səh.198; Əl-Futuh, c.5, səh.9; İbn Əsəmin Əl-Futuh kitabında qeyd etdiyinə görə, Mərvanın işdən çıxarılıb yerinə Vəlid ibn Ütbənin təyin olunması Yezidin hakimiyyətinin ilk günlərində baş vermişdir.

***əhəmiyyət vermədi. Ardınca bir qrup Kufədən yola düşüb imamın ﷺ görüşünə gəldilər ki, bəlkə onların dəvətini qəbul edə, ancaq Hüseyn ﷺ onların dəvətinə müsbət cavab vermədi. O həzrətdən ﷺ müsbət cavab almadıqda Məhəmməd ibn Hənəfiyyənin yanına gedib ondan vasitəçilik edib İmam Hüseynin ﷺ onlarla birgə Kufəyə getməsi üçün razılığa gətirməsini istədilər”***. İmam Hüseyn ﷺ isə qardaşına (Məhəmməd Hənəfiyyəyə) belə buyurdu:

إنّ القوم إنما يريدون أن يأكلوا بنا ويستطيلوا بنا ويستنبطوا دماء الناس ودماءنا

***“Bu qövm bizim sayəmizdə mal toplayıb özbaşınalıq etmək istəyir*** *(yəni hakimiyyət əldə etmək istəyirlər – müəl.)* ***və bu yolda camaatın və bizim qanımızı tökmək istəyirlər”.***[108]

İmam Hüseynin ﷺ cavabından bu nəticələrə gəlirik:

1. Əhalinin dəvəti Müaviyə dönəmində baş vermişdir.

2. Dəvət edənlərin məqsədi hakimiyyətə çatmaq və İmam Hüseynin ﷺ qanını axıtmaq olmuşdur. İmam Hüseyn ﷺ özü də dəfələrlə ***“Onlar məni qətlə yetirmək istəyirlər”*** ifadəsini səsləndirmişdir. Yəni Kufə əhalisi!

**İkincisi,** Müaviyənin Yezidə etdiyi vəsiyyət nədən ibarət olub? Müaviyə ömrünün son çağlarında Yezidə dedi:

يا بني! إني قد كفيتك الرحلة والرحال، وطّأت لك الأشياء، وذلّلت لك الأعزاء، وأخضعت لك أعناق العرب

***“Ey oğlum! Mən səni(n önünü) gediləcək (çətin) yoldan və (sənə mane olacaq) şəxslərdən azad etmişəm. Bütün işləri sənin üçün sahmana salmışam, nüfuzlu şəxsləri zəlil etmişəm və ərəbləri sənə boyun əydirmişəm”.***[109]

---

[108] Əl-Bidayə vən-nihayə, c.8, 174

[109] Həmin mənbə, səh.123

Digər bir yerdə isə qeyd edilir ki, Müaviyə belə demişdir:

يا بني! إني قد كفيتك الشد والترحال، وطّأت لك الأُمور، وذلّلت لك الأعداء، وأخضعت لك رقاب العرب، وجمعت لك مالم يجمعه أحد

***"Ey oğlum! Mən səni bütün çətinliklərdən və ora-bura köçməkdən** (yəni əzab-əziyyətlərdən – red.) **azad etmişəm. Sənin üçün işləri sahmana salmışa, düşmənləri zəlil etmişəm, ərəbləri sənin önündə diz çökdürmüşəm. Heç bir kəsin düzüb-qoşa bilmədiklərini sənin üçün düzüb-qoşmuşam".*** [110]

İbn Əsəm isə qeyd edir ki, Müaviyə oğlu Yezidə belə dedi:

إني من أجلك آثرت الدنيا على الآخرة ودفعت حق علي بن أبي طالب، وحملت الوزر على ظهري

***"Mən sənə xatir dünyanı axirətdən üstün tutdum. Əli ibn Əbu Talibin ﷺ haqqını rədd edib, belimə günahlar yüklədim".*** [111]

Müaviyə İmam Hüseynlə ﷺ əlaqədar Yezidə mühüm tövsiyələr verərək demişdir:

أما الحسين بن علي، فإنّ أهل العراق لن يدعوه حتى يخرجوه... فلست أشك في وثوبه، ثمّ يكفيكه الله بمن قتل أباه وخذل أخاه؛

***"Hüseyn ibn Əliyə ﷺ gəlincə! İraq camaatı onu (vətənindən) çıxarmayınca ondan əl çəkməyəcək** (qiyama vadar etməyincə əl çəkən deyillər – red.)**... Onun qiyam edəcəyinə şübhə də etmirəm. Amma onun atasını öldürüb qardaşını köməksiz qoyanlar** (yəni İraq camaatı – müəl.) **vasitəsilə Allah səni ondan xilas edəcək".*** [112]

---

[110] Əl-Kamilu fit-tarix, c.4, səh.6; Nihayətul-irəb, c.20, səh.365, Tarixu İbn Xəldun, c.3, səh.18; Tarixut-Təbəri, c.4, səh.238

[111] Əl-Futuh, c.4, səh.348

[112] Ət-Təbəqat, İbn Səd, İmam Hüseynin ﷺ tərcüməyi-halı, səh.55; Təhzibul-kəmal, c.6, s.414; Siyəru əlamin-nubəla, c.3, səh.295; Tarixul-

Xarəzmi qeyd edir ki, Müaviyə övladı Yezidə belə dedi:

أما الحسين بن علي، فأوه أوه يا يزيد! ماذا أقول لك فيه! فاحذر أن تتعرض له إلاّ بسبيل خير، وامدد له حبلا طويلاً... ولكن أرعد له وأبرق. وإياك والمكاشفة له في محاربة بسيف أو منازعة بطعن رمح؛

***"Hüseyn ibn Əliyə ﷺ gəlincə! Ah-Ah, ey Yezid! Gör, onun barəsində nə deyirəm sənə! Ona qarşı yalnız yaxşılıqla davran, ona uzun bir möhlət ver. Ancaq onu (qorxutmaqla canını) lərzəyə sal, şimşək kimi çax(araq onu vahimədə saxla)! Amma onunla aşkarcasına qılınc müharibəsinə çıxma, nizə yaralaması (və ya hücumu) ilə döyüşmə*** *(yəni onunla qətiyyən açıq-aşkar şəkildə müharibə etmə - red.)****".***[113]

İbn Səd "Ət-Təbəqatul-kubra" əsərində qeyd edir ki, Müaviyə can verən zaman Yezidi yanına çağırıb ona vəsiyyət edərkən dedi:

انظر حسين بن علي بن فاطمة بنت رسول الله صلى الله عليه وآله وسلم، فإنه أحب الناس إلى الناس، فصل رحمه وارفق به، يصلح لك أمره، فإن يك منه شيء فإني أرجو أن يكفيكه الله بمن قتل أباه وخذل أخاه

***"Əlinin ﷺ və Peyğəmbər ﷺ qızı Fatimənin ﷺ oğlu Hüseynə ﷺ nəzarət et! O, insanların ən sevimlisidir. Onunla sileyi-rəhm et və onunla xoş münasibət qur. Onun məsələsi sənin üçün həll olacaq. Özü bir şey eləməsə də, mən ümid edirəm ki, onun atasını öldürənlər və qardaşını köməksiz qoyanlar vasitəsilə Allah səni ondan xilas edəcək!".*** [114]

---

İslam c.5, səh.7; Əl-Bidayə vən-nihayə, c.8, səh.123; Tarixu mədinəti Diməşq, c.14, səh.206

[113] Məqtəlul-Huseyn, c.1, səh.174; Əl-Futuh, c.4, səh.350 (azca fərqlə)

[114] Ət-Təbəqatul-kubra, səh.55, İmam Hüseynin ﷺ tərcüməyi-halı; Əl-Bidayə vən-nihayə, c.8, səh.123-124; Tarixut-Təbəri, c.4, səh 239; Tarixul-İslam, c.5, səh.7; Tarixu mədinəti Diməşq, c.14, səh.206; Siyəru əlamin-nubəla, c.3, səh.295. Təhzibul-kəmal c.6, səh.414

Müaviyənin Yezidə etdiyi vəsiyyətdə diqqəti çəkən iki məsələ mövcuddur:

1. Hüseynə عليه السلام toxunma!

2. İraq əhalisi onu dəvət edəcək, özləri də onu qətlə yetirəcək.

Bu iki məsələni də Müaviyə sağ ikən Kufə əhlinin İmam Hüseynə عليه السلام yazdığı məktublara əlavə etmək lazımdır.

**Üçüncüsü,** Yezid Şamda söylədiyi elə ilk xütbədəcə, tezliklə İraq əhalisi ilə müharibə olacağını və Übeydullah ibn Ziyadın vasitəsilə qalibiyyət əldə ediləcəyini xəbər verdi.[115]

## Yezidin Mədinə valisi Vəlidə göndərdiyi məktub

Müaviyə dünyasını dəyişən kimi Yezid hakimiyyət taxtına əyləşdi. O, ilk olaraq Mədinənin valisi Vəlidə məktub yazaraq göstəriş verdi: ***"Bütün əhalidən mənim üçün beyət al, ələlxüsus, Abdullah ibn Zübeyr və Hüseyn ibn Əlidən*** عليه السلام***".***

O, həmin məktuba siçan qulağı həcmində digər bir məlumat da əlavə edib Vəlidə yolladı. Həmin kiçik yazı nə olub görəsən?

Məktubun və həmin kiçik əlavənin məzmunu haqda müxtəlif fikirlər irəli sürülüb ki, tezliklə, həmin mövzunu da araşdıracağıq.

Vəlid İmam Hüseyni عليه السلام yanına çağıraraq Yezidə beyət etməsini tələb etdi. İmam Hüseyn عليه السلام ona buyurdu: ***"Düşünmək üçün mənə möhlət ver".***

Vəlid isə İmama عليه السلام dedi:

فانصرف على اسم الله

---

[115] Əl-Futuh, c.5, səh.6

***“Allah amanında sağ-salamat get”.***[116]

İmam Hüseyn (ə) Vəlidin yanından xətasız-bəlasız xaric oldu.

Zəhəbi bu hadisəni bəyan edərkən əlavə edərək yazır:

لم يشدد على الحسين

***Vəlid Hüseynlə (ə) sərt davranmadı.*** [117]

Heç bir rəsmi məqamda çalışmayan Mərvan da həmin məclisdə iştirak edirdi. O, Vəlidə belə dedi: ***“Mən sənə elə buradaca onu qətlə yetir dedim, nəyə görə dediyimi yerinə yetirmədin?”*** Vəlidin davranışını və Mərvanın bu sözünü gördükdən sonra, onun vəzifədən uzaqlaşdırılıb yerinə Vəlidin vali təyin edilməsinin səbəbi aydın olmurmu?!

Mərvan sözünün davamında dedi:

عصيتني، لا والله لا يمكّنك مثلها من نفسه أبدا

***“Sözümə qulaq asmadın, and olsun Allaha, (bundan sonra) o, sənə heç vaxt belə bir fürsət yaratmayacaq!”***

Vəlid isə cavabında dedi:

الويح لغيرك يا مروان! إنك اخترت لي الّتي فيها هلاك ديني ودنياي. والله ما أحب أنّ لي ما طلعت عليه الشمس وغربت عنه من مال الدنيا وملكها وإني قتلت حسيناً. سبحان الله! أقتل حسيناً إن قال: لا أبايع؟ والله إني لأظن أنّ امرءاً يحاسب بدم الحسين خفيف الميزان عندالله يوم القيامة

***“Vay olsun səndən başqasına, ey Mərvan!*** [118] ***Sən öhdəmə elə bir iş qoyursan ki, bu işi görməkdə din və dünyamın xarab edilməsi var. And olsun Allaha ki, Hüseyni (ə) öldürüm deyə, günəşin üzərinə şəfəq saldığı yerdən batdığı yerə qədər mənə dünya malı və mülkü versələr də, istəmərəm. Sübhanallah! Hüseyni (ə) “beyət etmirəm” dediyinə görə öldürüm?! And olsun Allaha, mən belə***

---

[116] Əl-Bidayə vən-nihayə, c.8, səh.157

[117] Siyəru əlamin-nubəla, c.3, səh.534

[118] Bu ifadə xitab edilən şəxsə ehtiram göstərildiyini bildirir. Yəni, “vay” sənin məqamına layiq deyil, başqaları ona layiqdir. (*Red.*)

***düşünürəm ki, Qiyamət günündə Hüseynin (ع) qanı ilə hesaba çəkilən şəxsin əməl tərəzisi Allah dərgahında yüngül gələcəkdir”.***[119]

Biz Vəlidin söylədiklərini nəql etdik, ancaq heç kəs güman etməsin ki, Vəlid İmam Hüseynə (ع) rəğbət bəsləyirdi. Xeyr, o, Müaviyənin nəzərdə tutduğu plana əsasən davranırdı! Bu mövzunu tezliklə sübut edəcəyik. Vəlid ibn Ütbənin İmam Hüseyn (ع) və Abdullah ibn Zübeyrlə üzləşməsindəki rəftarı, Müaviyənin Yezidə etdiyi vəsiyyətnaməyə uyğun şəkildə yerinə yetirilirdi. Müaviyə Yezidə vəsiyyət etmişdi ki, Abdullah ibn Zübeyri harada görsən tikə-tikə doğra,[120] ancaq Hüseynlə (ع) mülayim davranarsan.

Müaviyənin tövsiyələri və Vəlidin davranışı İmam Hüseynə (ع) olan sevgidən irəli gəlmirdi. Bunların hamısı plana uyğun icra olunan davranış və rəftarlar idi.

Abdullah ibn Zübeyr gizli yolla Mədinədən çıxaraq Məkkə şəhərinə yola düşdü. Vəlid ibn Ütbə onu həbs etmək üçün bir qoşun yola saldı. Ancaq İmam Hüseynin (ع) Mədinəni tərk edib Məkkəyə yola çıxdığı xəbəri Vəlidə yetişdikdə o, Allaha şükür etdi.

Şeyx Mufid bu haqda belə yazır:

وهي ليلة السبت لثلاث بقين من رجب سنة ستين من الهجرة، واشتغل الوليد بن عتبة بمراسلة ابن الزبير في البيعة ليزيد وامتناعه عليهم... فخرج عليه السلام في تلك الليلة وهي ليلة الأحد ليومين بقيا من رجب متوجهاً إلى مكّة

***(İmam Hüseynin (ع) Mədinədə olduğu son gecə) hicrətin altmışıncı ili Rəcəb ayının sonuna üç gün qalmış olan şənbə gecəsi idi. Bu zaman Vəlid ibn Ütbə Abdullah ibn Zübeyrdən Yezidə beyət almaq üçün onun dalınca düşmüşdü. Abdullah ibn Zubeyr də beyət etməkdən imtina***

---

[119] Əl-İrşad, c.2, səh.33-34; Əl-Futuh, c.5, səh.14; Tarixut-Təbəri, c.4, səh.252

[120] Tarixut-Təbəri. c.4, səh.238

***etmişdi... İmam Hüseyn ﷺ bazar günü gecəsi, yəni Rəcəb ayının sonuna iki gün qalmış Məkkə tərəfə yola çıxdı.***

Vəlid məmurlarını İmam Hüseynin ﷺ evinə göndərdi ki, görsün imam Mədinəni tərk edib ya yox. Məmurlar İmam Hüseynin ﷺ evdə olmadığını öyrənib Vəlidə xəbər verdilər. Bu zaman Vəlid belə dedi:

الحمد لله الّذي خرج ولم يبلتني بدمه؛

***"Şükür Allaha ki, Mədinədən çıxdı və əlim onun qanına batmadı".***[121]

Vəlidin İmam Hüseynlə ﷺ rəftarı və davranışındakı diqqət çəkən maraqlı incəliklərdən birini Bəlazuri nəql etdiyi rəvayətdə qeyd etmişdir. O yazır ki, Vəlid İmam Hüseyni ﷺ çağırtdırıb görüşdükdən sonra, ona "sağ-salamat get" deyib yola saldıqda o həzrətə ﷺ xitabən belə dedi:

لو علمت ما يكون بعدنا لأحببتنا كما أبغضتنا؛

***"Əgər bizdən sonra (başqaları tərəfindən) başına nələr gələcəyini bilsəydin, (indi) bizə nifrət etdiyin qədər məhəbbət bəslərdin".***[122]

## Şiə kitablarında Müaviyənin Yezidə verdiyi tövsiyələr

Müaviyənin oğlu Yezidə etdiyi vəsiyyət şiə mənbələrində də mövcuddur. Şeyx Səduq yazır ki, bir şəxs İmam Sadiqdən ﷺ İmam Hüseynin ﷺ şəhadəti haqda sual etdikdə o həzrət buyurdu ki, Atam öz atasından nəql edərək buyurmuşdur ki, Müaviyə ölümünə yaxın vaxtda Yezidi çağırıb yanında əyləşdirərək ona belə bir tövsiyə verdi:

***"Oğlum! İpə-sapa yatmayanları sənin önündə zəlil etmişəm, bütün diyarları sənin hakimiyyətin üçün hazırlamışam. Ancaq sənin önünü kəsə biləcək və sənə problem***

[121] Əl-İrşad, c.2, səh.34
[122] Ənsabul-əşraf, c.3, səh.157

***çıxara biləcək üç nəfərdən qorxuram. Onlar Abdullah ibn Ömər ibn Xəttab, Abdullah ibn Zübeyr və Hüseyn ibn Əlidir ﵇. Abdullah ibn Ömər səninlə yola gedəcək, lakin gözün üstündə olsun. Abdullah ibn Zübeyr harada əlinə düşsə, elə orada da tikə-tikə edərsən. Onun səninlə üzləşməsi, canavarla itin üzləşməsi məsələsi və yaxud şirlə qoyun sürüsünün üzləşməsinə bənzəyir. Ancaq Hüseyn ﵇, bildiyin kimi o, Peyğəmbərin ﷺ soyundandır, istər-istəməz İraq əhalisi ilə birgə hərəkət etmək üçün Mədinəni tərk edəcək. Elə həmin İraq əhalisi də onu yalnız qoyub aradan götürəcəklər".*** [123]

Xülasə şəkildə qeyd etməli olsaq, Müaviyənin vəsiyyəti bundan ibarət idi ki, Hüseynə ﵇ toxunma, Abdullah ibn Zübeyri tikə-tikiə et. Abdullah ibn Öməri öyməklə, ləqəblərini şişirtməklə və pul vasitəsilə ələ al. Həqiqətən də, Abdullah ibn Ömər yaxşı xidmət göstərdi. Etibarlı mənbələrə əsasən, o İmam Hüseynə ﵇ özünün nəzərincə nəsihət edərkən belə demişdi:

لا تخرج! فإنّ رسول الله صلى الله عليه وآله خيره الله بين الدنيا والآخرة، فاختار الآخرة وإنك بضعة منه

***"Yezidə qarşı çıxma! Allah Peyğəmbəri ﷺ dünya və axirət arasında seçim qarşısında qoydu. O da axirəti seçdi. Sən də onun canının bir parçasısan*** *(yəni sən də onun getdiyi yolu get və axirətinin abad olması üçün Yezidə beyət etməyi seç!! – red.)****".*** [124]

Bəli, o, İmam Hüseyni ﵇ beyətə dəvət edirdi, özü də hansı dəlilə əsasən! Tarixdə buna bənzər hadisələr çox olub. Bir sıra müqəddəs görünən şəxslər, başqalarının azğınlığına və yanlışlığa düçar olmalarına səbəb olmuşlar. Bu səbəbdən, belə şəxslərin zahiri görünüşlərinə aldanmamaq lazımdır.

---

[123] Əl-Əmali, Şeyx Səduq, səh.216

[124] Tarixul-İslam, c.5, səh.7

Həqiqəti və reallığı əldə etmək lazımdır. Məmun da İmam Rzaya ﷺ zəhər verdikdən sonra o həzrətin ﷺ şəhadət xəbərini eşitcək, dəfn mərasiminə ayağıyalın, başıaçıq gedərək elə göz yaşı tökdü ki, neçə əsrlər sonra belə bəzilərinin onun qatil olduğuna inanmağı gəlmirdi.

Vəlidin də rəftarı bəslədiyi məhəbbət üzündən deyildi, o, əvvəlcədən qurulmuş plan üzrə davranırdı. Abdullah ibn Zübeyr Mədinə şəhərini tərk edib Məkkəyə yollananda Həbib ibn Zəkkanın başçılıq etdiyi otuz nəfər atlı süvarini onun ardınca yola saldı ki, onu həbs edib gətirsinlər.[125] Ancaq İmam Hüseynin ﷺ Mədinəni tərk edib Məkkəyə yollandığı xəbərini eşitcək o hərəkətə qarşı belə davranmadı, əksinə: ***"Əlhəmdulillah"***-deyərək Allaha şükr etdi. Əgər Vəlid İmam Hüseyndən ﷺ ya beyət almaq, ya da onu qətlə yetirmək tapşırığını almış olsaydı, o həzrətin ﷺ Mədinəni tərk etməsinə görə "əlhəmdulillah" söyləməsinin bir anlamı olmazdı. Tapşırığı yerinə yetirmədiyi səbəbindən hələ cəza da almalı idi. Halbuki, belə olmadı. İmam Hüseyni ﷺ öz ixtiyarına buraxıb qarşısını kəsmədiyi üçün onun məzəmmətə tuş gəlib cəzalandırılması faktına rast gəlməmişik. Əgər cəzalandırma olsa da, Abdullah ibn Zübeyrin qaçmasına görə ola bilər, çünki onu qətlə yetirmək əmrini almışdı.

Bu mövzunun isbatına digər bir dəlil ondan ibarətdir ki, İmam Hüseyn ﷺ Mədinəni tərk etdikdən sonra belə Vəlid mərkəzi Şam hakimiyyətinin nəzərində böyük ehtiram sahibi idi. Zəhəbi yazır ki, hicrətin 62-ci ilində Vəlid hakimiyyət tərəfindən həcc karvanına başçı təyin edilmişdi. Bundan əlavə, Yezidin oğlu Müaviyə atasının vəfatından sonra hakimiyyəti qəbul etmədikdə onu zəhərləyib qətlə yetirdilər. Onun cənazə namazını elə həmin Vəlid qıldı... O cəzalandırılmadı, çünki göstərişə uyğun hərəkət edirdi.

[125] Əxbarut-təval, səh.228

Hətta Yezidin oğlu Müaviyənin ölümündən sonra Şam əhalisi onun xəlifə olmasını istədikdə, o, bu təklifi qəbul etməmişdi.[126]

Təkrar deyilməsinə baxmayaraq, bir daha təkid edərək qeyd edirəm ki, Vəlid Əhli-Beytə ﴿عليهم السلام﴾ olan məhəbbəti üzündən İmam Hüseynlə ﴿عليه السلام﴾ mülayim davrandı sözü dilə gətirilməsin. O, məmur idi, bu çərçivədə rəftar etməsi üçün tapşırıq almışdı.

Qeyd olunanlar əsasən üç sütuna söykənir:

Müaviyənin dövründə Kufə əhalisinin İmam Hüseyni ﴿عليه السلام﴾ dəvət etməsi...

Həzrət İmam Hüseynin ﴿عليه السلام﴾ Məhəmməd ibn Hənəfiyyəyə: ***“Bunlar mənim qanımı tökəcəklər”*** – deyə cavab verməsi.[127]

Mədinə şəhər valisi Vəlidin İmam Hüseynə ﴿عليه السلام﴾ qarşı mülayim davranması...

## İmam Hüseynin ﴿عليه السلام﴾ Məkkəyə daxil olması

Şeyx Müfidin dediyinə görə, İmam Hüseyn ﴿عليه السلام﴾ Mədinə şəhərini tərk edib Məkkəyə yola düşərək aşağıdakı mübarək ayəni oxudu:

فَخرج منها خائفًا يترقَّب قالَ رب نجني من الْقَومِ الظّالمين

***“(Musa) qorxu və vəhşət içərisində, (hansısa bir hadisənin başverməsini) gözləyən halda şəhərdən çıxdı, dedi: Ey Rəbbim, mənə zalımların qövmündən nicat ver”.***[128]

---

[126] Siyəru əlamin-nubəla, c.3, səh.534

[127] Bu ifadəni İmam Hüseyn ﴿عليه السلام﴾ bir çox hallarda və məkanlarda səsləndirmişdir. Mədinədən yola düşdüyü ilk saatlardan belə görülən tədbir planlarından xəbərdar idi; Əl-Bidayə vən-nihayə c.8.səh.161

[128] Qəsəs surəsi, ayə 21

İmam Hüseyn (ə) Məkkə istiqamətinə gedən əsas yolu seçərək yola düzəldikdə həzrətin ailəsi ona dedi ki, bəlkə biz də istiqaməti dəyişib başqa bir yolla gedək. Bu minvalla, mənzil başına sağ-salamat çatarıq.

İmam Hüseyn (ə) onların cavabında buyurdu:

لا، واللّه لا أُفارقه حتى يقضي اللّه ما هو قاض

***"Xeyr! And olsun Allaha ki, Allah Öz hökmünü yerinə yetirməmiş** (Allahın təqdiri baş tutmamış – red.) **bu yoldan ayrılmayacağam!"***

İmam Hüseyn (ə) Şaban ayının üçü cümə axşamı Məkkə şəhərinə yetişdikdən sonra bu mübarək ayəni tilavət etdi:

و لَما توجه تلْقاءَ مد ين قالَ عسى ربي أَنْ يهديني سواءَ السبيلِ ؛

***"O, Mədyən şəhərinə tərəf üz tutan zaman dedi: "Ümidvaram, (ola bilsin ki,) Rəbbim məni düzgün yola (Mədyən şəhərinin yoluna) yönəltsin".***[129]

O həzrət (ə) fərdi ümrə ziyarətini yerinə yetirdi. Ancaq əhəmiyyətli məsələlərdən biri də budur ki, İmam (ə) həcc mövsümündə də fərdi ümrə (ümreyi-müfrədə) qəsdi ilə Məkkə şəhərinə daxil olmuşdur. Rəvayətlərin birində qeyd olunur ki, İmam Sadiqdən (ə) bir kəsin həcc mövsümündə ümrə ziyarətini yerinə yetirdikdən sonra öz vətəninə dönməsi haqda sual olunduqda, o həzrət (ə) belə buyurmuşdu:

لا بأس ... وإنّ الحسين بن علي عليهما السلام خرج يوم التروية إلى العراق وكان معتمراً؛

***"Heç bir eybi yoxdur... Hüseyn ibn Əli də (ə) ümrə ziyarəti üçün ehram bağladığı halda Tərviyə günü (Zilhiccə ayının səkkizinci günü) Məkkəni tərk edib İraqa yollandı".***

Digər bir rəvayətdə isə belə qeyd olunmuşdur ki, İmam Sadiq (ə) bir hədisdə buyurur:

---

[129] Qəsəs surəsi, ayə 22

قد اعتمر الحسين عليه السلام في ذي الحجة ثمّ راح يوم التروية إلى العراق والناس يروحون إلى منى، ولا بأس بالعمرة في ذي الحجة لمن لا يريد الحج؛

***"İmam Hüseyn ﴿ع﴾ Zilhiccə ayında ümrə ziyarəti üçün ehram bağladı, Tərviyə günü camaat Minaya getdikləri halda, o həzrət İraqa sarı yola düşdü. Buna görə də, Zilhiccə ayında Həcc ziyarətini yerinə yetirmək istəməyən bir kəsin yalnız ümrəni yerinə yetirməsində bir eyb yoxdur".*** [130]

Beləliklə, İmam Hüseyn ﴿ع﴾ Həcc mövsümündə bir daha fərdi ümrə ziyarəti üçün ehram bağlayaraq Məkkəyə daxil oldu. Bu giriş-çıxışın bir mənası vardır, əgər o həzrətin Məkkədə qalıb Həcc ziyarətini yerinə yetirmək fikri olsaydı, Həcc mövsümündə fərdi ümrə ziyarəti etməsinin mənası yox idi. Demək, o həzrət həcc mövsümündə Məkkə şəhərinə fərdi ümrə ziyarəti etmək üçün daxil olmuşdur, çünki Həcc ziyarəti başlamadan Məkkəni tərk edəcəyini bilirdi.

Şeyx Mufid bu haqda əlavə edərək yazır:

وأقبل أهلها يختلفون إليه، ومن كان بها من المعتمرين وأهل الآفاق، وابن الزبير بها، قد لزم جانب الكعبة، فهو قائم يصلّي عندها ويطوف، ويأتي الحسين عليه السلام فيمن يأتيه، فيأتيه اليومين المتوالين ويأتيه بين كلّ يومين مرةً وهو أثقل خلق الله على ابن الزبير، لأنه قد عرف أنّ أهل الحجاز لا يبايعونه مادام الحسين عليه السلام في البلد؛

***Məkkə əhalisi, orada ümrədə olanlar, həmçinin digər diyarlardan gələnlər görüşmək üçün imamın ﴿ع﴾ yanına gedib-gəlirdilər. Abdullah ibn Zübeyr də Məkkədə idi. O Kəbə ətrafından ayrılmırdı. Orada namaz qılıb təvaf etməklə məşğul olurdu. İmam Hüseynin ﴿ع﴾ yanına gələnlərə qoşularaq o da gah ardıcıl iki gün, gah da iki gündən bir həzrətin ﴿ع﴾ hüzuruna gəlirdi. İmam Hüseynin ﴿ع﴾ Məkkədə olması Abdullah ibn Zübeyrə çox ağır gəlirdi.***

---

[130] Vəsailus-şiə, c.14, səh.311, hədis 2, 3

***Çünki bilirdi ki, nə qədər ki, İmam ﷺ Məkkədədir, Hicaz əhalisi ona beyət etməyəcəkdir*** *(çünki İbn Zübeyr hakimiyyət və qüdrət sevdasındaydı – müəl.).*[131]

Elə bu səbəbdəndir ki, tarixçilər yazırlar ki, Abdullah ibn Zübeyrin Yezidə müxalif olmasında əsas məqsədi hakimiyyəti ələ keçirmək olmuşdur. Onlar qeyd edirlər ki, bir neçə nüfuzlu möhtərəm şəxslər Kəbə evinin kənarında yerləşən hicri-İsmayıla bir-bir daxil olub Allahdan ən əhəmiyyətli hacətlərini diləmək qərarına gəlmişdilər. Abdullah ibn Zübeyrə növbə çatanda o dedi: ***"İlahi! Mənim yeganə istəyim ondan ibarətdir ki, xilafətə yetişim (xəlifə olum)".***[132]

Göründüyü kimi İmam Hüseynlə ﷺ Abdullah ibn Zübeyrin məqsədləri arasında olduqca böyük fərq vardı.

## İmam Hüseyn ﷺ və Məkkə valisinin rəftarı

İmam Hüseyn ﷺ Məkkə şəhərinə daxil olduqda şəhərin valisi Əmr ibn Səid ibn As Əşdəq idi. O, hökumətin nəzərdə tutduğu plana əsasən, Hüseynin ﷺ hüzuruna gedərək soruşdu: ***"Cənab! Siz Məkkəyə nə üçün gəlmisiz?"***

İmam ﷺ buyurdu:

عائذاً باللّه و ذا البيت

***"Allaha və bu Evə (Kəbəyə) sığınmaq üçün gəlmişəm".***[133]

Tarixi mənbələrdə bu çox qısa dialoqdan başqa İmam Hüseynlə ﷺ Əmr ibn Səid arasında baş vermiş heç bir danışığa rast gəlinmir.

---

[131] Əl-İrşad, c.2, səh.36
[132] Vəfəyatul-əyan, c.2 səh.235
[133] Təzkirətul-xəvass, səh.237

Sonda İmam Hüseyn (ع) Məkkədən yola düşdü. Həmin əsnada Bəni-Haşimdən olan bəzi adamların (Abdullah ibn Cəfər) istəyi əsasında Səid öz qardaşı Yəhyanın vasitəsilə İmam Hüseynə (ع) bir amannamə çatdırdı. Həmin amannamədə belə yazmışdı: ***“Siz Məkkədə qalmaq istəsəniz, mən tərəfdən sizə heç bir zərər yetişməyəcəkdir”.***

İmam Hüseyn (ع) həmin amannaməyə əhəmiyyət verməyərək yoluna davam etdiyi vaxtda Əmr ibn Səid Kufə şəhərinin valisinə bir məktub göndərdi. O, həmin məktubda belə yazmışdı: ***“Hüseyn (ع) Kufəyə gəlir. Bunu bil ki, əgər onu qətlə yetirməsən, özün təhlükə ilə üzləşəcəksən”.***

Qeyd olunanlardan belə bir nəticə çıxarmaq olar:

Mədinənin valisi Yezidə beyət etməyən şəxslə mülayim davrandı.

Məkkənin valisi də eyni üslubda rəftar etdi.

Məsələlərin bu cür inkişafından hansı nəticənin əldə olunduğunu düşünürsünüzmü? Bu arada Yezid tərəfdən Abdullah ibn Abbasa bir məktub yetişmişdi:

أما بعد، فإنّ ابن عمك حسيناً وعدواللّه ابن الزبير إلتويا ببيعتي ولحقا بمكّة مرصدين للفتنة، معر ضين أنفسهما للهلكة. فأما ابن الزبير فإنه صريع الفناء وقتيل السيف غداً. وأما الحسين، فقد أحببت الاعذار إليكم أهل البيت مما كان منه . ... وأنت زعيم أهل بيتك وسيد أهل بلادك، فألقه فاردده عن السعي في الفرقة ورد هذه الأمة عن الفتنة، فإن قبل منك وأناب إليك، فله عندي الأمان والكرامة الواسعة؛

***“Əmioğlun Hüseyn (ع), həmçinin, Allahın düşməni Abdullah ibn Zübeyr hər ikisi mənə beyət etməkdən boyun qaçıraraq fitnə törətmək üçün Məkkəyə getmişlər, (bununla da) özlərini təhlükəyə atmışlar. İbn Zübeyrə gəlincə, o, sabah*** *(tezliklə - red.)* ***fənaya qovuşacaq və qılıncla qətlə yeririləcək. Hüseynə (ع) gəldikdə isə, onun etdiklərinə görə siz Əhli-Beyti üzürlü saymaq istəyirəm... Sən ailənin böyüyü və öz diyarının ağasısan. Hüseynlə (ع) görüş, onu təfriqə yaratmaqdan çəkindir və bu ümməti***

***fitnədən qoru! Əgər qəbul etsə və səhv olduğunu sənə etiraf etsə, onun üçün amannamə verməyə və geniş imkan yaratmağa hazıram" .***

İbn Abbas isə cavabında belə yazdı:

فاما ابن الزبير، فرجل منقطع عنا برأيه . ... وأما الحسين فإنه لمّا نزل مكّة وترك حرم جده ومنازل آبائه، سألته عن مقدمه، فأخبرني أنّ عمالك بالمدينة أساؤوا إليه، وعجلوا عليه بالكلام الفاحش، فأقبل إلى حرم الله مستجيراً به

***"İbn Zübeyr öz şəxsi rəyi ilə bərabər bizdən uzaq bir adamdır... Hüseynə ﵇ gəlincə, babasının ﷺ hərəmini və atalarının yurdunu tərk edib Məkkəyə gəldikdə, ondan gəlmə səbəbini soruşdum. O da mənə belə dedi ki, sənin*** *(Yezidə xitab olunur – red.)* ***Mədinədəki məmurların ona qarşı pis davranıblar və onun ünvanına nalayiq sözlər deyiblər. Buna görə də o, pənahgah olaraq Allahın hərəminə üz tutub".***

İbn Abbas sözünə davam edərək yazmışdı:

فاتق الله في السر والعلانية... ولا تحفر له مهواة، فكم من حافر لغيره حفراً وقع فيه

***"Aşkarda da, gizlində də Allahdan qorx!.. Ona (Hüseynə ﵇) quyu qazma. Neçə-neçə quyu qazanlar var ki, başqaları üçün qazdıqları quyuya özləri düşmüşlər".***

İbn Abbas həmin məktubda Yezidə digər nəsihətlər də yazmışdır.[134]

## Məkkə valisi Əmr ibn Səid Əşdəqin şəxsiyyəti haqda

Tarixçilər Əmr ibn Səid haqda belə yazmışlar:

كان جباراً من جبابرة بني أُمية؛

***"O, Bəni-Üməyyənin ən qəddar simalarından biri idi".***[135]

---

[134] Təzkirətul-xəvass, 237-239

[135] Əl-Bidəyət vən-nihayə, c.8, səh. 342

O, lənətlənmiş soydandır. İbn Kəsir Əhməd ibn Hənbəldən, Əhməd isə Əbu Hüreyrədən nəql edir ki, Peyğəmbərin ﷺ belə buyurduğunu eşitdim:

لَيرعفَن على منبري جبار من جبابرة بني أُمية حتى يسيل رعافه؛

***"Mənim minbərimdə Bəni-Üməyyə soyunun zalımlarından olan bir qəddarın burnundan qan açılacaq, hətta onun qanı (minbərin üzərinə) axacaq".***

İbn Kəsir Əhməd ibn Hənbəldən nəql edərək əlavə edir ki, Əmr ibn Səid ibn Ası görmüş bir şəxs mənə dedi ki, o Peyğəmbər ﷺ minbərinin üstündə ikən burnundan qan açılmaqla xəstəliyə tutuldu.[136] Deməli, əhli-sünnə Peyğəmbərin ﷺ buyurduğu kəlamın Əmr ibn Səid ibn Əşdəqə aid olduğunu söyləyir. Belə bir qəddar şəxs İmam Hüseynə (ə) yalnız bir sual verərək o həzrətin Məkkəyə gəlmə səbəbini soruşmuş və bundan əlavə heç bir maneçilik yaratmamışdır. Ancaq görün, Əmr ibn Səid Əşdəq, Zübeyrə qarşı hansı mövqe nümayiş etdirmiş və nələr söyləmişdir: ***"And olsun Allaha, Kəbə evinin içərisinə belə girmiş olsa, onu həbs edəcəyik. Lazım gəlsə, Kəbəni başına uçuracağıq, hətta bu hal bəzilərini narahat etsə belə!"***[137]

Əmr ibn Səid Şam əhalisinin nəzərində o qədər sevimli idi ki, hətta sonralar onunla beyət edib xəlifə belə adlandırdılar. Ancaq Əbdülməlik ibn Mərvan hiylə işlədərək hakimiyyətə yiyələndi, ilk başda Əmr ibn Səidə aman verərək toxunmadı, lakin sonradan onu qətlə yetirdi.[138] Bəli! İstər Mədinə, istər Məkkənin valisi olsun, onların hər ikisinin rəftarı öncədən qurulmuş plana uyğun olmuşdur.

---

[136] Əl-Bidayə vən-nihayə c.8, səh.342; Musnədu Əhməd, c.2, s.522
[137] Tarixul-İslam c.4 səh.170
[138] Siyəru əlamin-nubəla, c.3, s.449; Tarixu mədinəti Diməşq, c.46, səh.29

## Kufə əhalisinin məktubları və həzrət Müslimin (ə) Kufəyə göndərilməsi

Kufə əhalisi İmam Hüseynə (ə) ard-arda məktub yollayırdı. Hətta onlardan bəziləri İmam Hüseyni (ə) dəvət etmək üçün Məkkəyə getdilər. İmam Hüseyn (ə) bu vəziyyəti müşahidə etdikdən sonra Müslimi (ə) özünün nümayəndəsi olaraq Kufəyə göndərdi. O, həzrət Müslimə (ə) təqvalı olmağı və mövzunu gizli saxlamağı tövsiyə etdi.[139]

## Kufə şəhərinin valisi Numanın fəaliyyəti

Kufə şəhərinin valisi Numan ibn Bəşir idi. Müslimin (ə) Kufəyə gəlib Muxtar Səqəfinin evində məskunlaşdığı xəbərini eşitdikdən sonra minbərə çıxaraq belə dedi: ***"Parçalanmaqdan və iki dəstəyə bölünməkdən çəkinin! Çünki fitnə baş qaldırdığı vaxt qan tökülür, möhtərəm kişiləri həlak edir və malları tarac olur..."***

Bu çıxışa diqqət yetirsək, belə bir nəticə əldə etmək olar ki, bu valinin də davranışı öncədən qurulmuş plana uyğun çərçivədə olmuşdur. Hadisələr elə buradan inkişaf etməyə başlamışdır. Numan sözünün davamında belə deyir: ***"Mənimlə işi olmayanla mənim işim olmaz, mənə qarşı döyüşməyənlə mən də döyüşməyəcəm... Mən səbəbsiz yerə heç kəsi həbs etdirmərəm"***.

ولا آخذ بالقرف ولا الظنة ولا التهمة؛

***"Mən (heç kimə) pislik, bədgümanlıq və böhtan əsasında cəza vermərəm".***

Bu Numanın sözüdür. Ancaq qarşıda qeyd edəcəyik, belə ki, Yezid İbn Ziyada yazdığı bir məktubda əmr edir ki,

---

[139] Əl-İrşad c.2 səh.39

ona şübhə ilə yanaşanları həbs etsin. Hətta təkidlə göstəriş verir:

خذ بالتهمة والظنة؛

***"(Şübhələndiyin hər kəsə) iftira və güman əsasında (olsa belə) həbs et!".***

Numan isə çıxışının davamında belə deyir: ***"Siz əgər mənimlə üzbəüz dayanıb müqavimət göstərmək istəsəniz və beyəti pozaraq qiyama əl atsanız, mən sizə bir qılınc zərbəsi endirəcəm... Hətta bu mübarizədə köməksiz qalsam da belə"***.[140]

Numanın dedikləri haqda bir düşünün, onun sözləri bugünkü ifadəylə desək, hadisələrə yaşıl işıq yandırmaqdır. Numanın məsələyə bu tip reaksiya verməsi həzrət Müslimin (ə) tərəfdarlarında arxayınçılıq və təhlükəsizlik hissi yaratdı. Sonunda isə onun Kufəyə göndərilməsi üçün nəzərdə tutulan məqsəd və hədəf aşkara çıxdı. Həzrət Müslimin (ə) gəlmə məramı üzə çıxdıqdan sonra hakimiyyətin Kufədə yerləşən muzdur və casusları Yezidə bir məktub yazdılar. Bu muzdurlardan Abdullah ibn Müslim ibn Rəbiə Həzrəmini nümunə göstərmək olar. O, Bəni-Üməyyə sülaləsinə vəfadar olmağa and içmiş bir şəxs idi və Yezidə belə bir məzmunda məktub yolladı:

اما بعد، فإنّ مسلم بن عقيل قد قدم الكوفة، فبايعته الشيعة للحسين بن علي، فإن كان لك بالكوفه حاجة، فابعث إليها رجلا قوياً، ينفّذ أمرك ويعمل مثل عملك في عدوك، فإن النعمان بن بشير رجلٌ ضعيف أو هو يتضعف

***"Müslim ibn Əqil artıq Kufədədir və şiələr Hüseyn ibn Əli (ə) üçün ona beyət ediblər. Kufəyə ehtiyacın varsa*** *(əlindən çıxmasını istəmirsənsə - müəl.)****, bura sənin əmrlərini icra edə bilən, düşmənlərlə sənin kimi rəftar***

---

[140] Əl-Kamilu fit-tarix, c.4 səh.22; Əl-Futuh, c.5, səh.35; Tarixut-Təbəri, c.4.səh.264 (az bir fərqlə)

***edən güclü bir şəxs göndər.Numan ibn Bəşir bacarıqsız biridir, ya da özünü acizliyə vurub".***[141]

Əmarə ibn Əqəbə və Ömər ibn Səd ibn Əbu Vəqqas da həmin məzmunda məktub yazaraq Yezidə göndərmişdilər.

## Numanın özünü sülhsevər və mərhəmətli göstərməsi

Müslim ibn Əqilin ﷺ tərəfdarları belə bir şəraitdə təhlükənin olmadığına arxayınlaşıb sadəlövhlük üzündən pul yardımları və silah toplamağa başladılar. Bu işdə Müslim ibn Ovsəcə məsuliyyət daşıyırdı. Bu minvalla, həzrət Müslimin ﷺ Kufəyə gəlişinin məqsədi aşkara çıxdı. İmam Hüseynin ﷺ gizlin saxlanılması üçün vermiş olduğu tövsiyənin əksi baş verdi.

Onu da qeyd edək ki, Müslim ﷺ Allah eləməmiş, İmam Hüseynin ﷺ göstərişinin əksinə çıxmamışdı, sadəcə olaraq düşmənin hiyləsi və onun bəzi tərəfdarlarının səhvi ucbatından məqsədin üstü açılmışdı. Numanın çıxışları və davranışı onun sülhsevərliyinin nişanəsi idimi? Ömər ibn Səd və başqalarının şikayət etməsinə baxmayaraq mərkəzi hakimiyyət tərəfindən ona rəftarına görə irad belə tutuldumu? Əsla! Çünki ona bu üslubda davranıb və bu cür çıxış etməsi əmr olunmuşdu. O, Kufə valiliyindən çıxarılıb əvəzinə Übeydullah ibn Ziyad təyin edildikdən sonra asudə və rahat şəkildə Şama qayıtdı. Maraqlı burasıdır ki, Übeydullah ibn Ziyadın Kufə və Bəsrə şəhərlərinə başçı təyin edilməsi əmrini Müaviyə öz əli ilə yazıb Sərcuna vermişdi. Müaviyənin ölümündən bir neçə ay sonra həmin məktub (əmr) üzə çıxdı. Bəli, Müaviyə bu əmri öz əl ilə yazıb imzalamışdı.

---

[141] Tarixut-Təbəri, c.4, səh.265

## Xülasə və nəticə

Bura qədərki təhqiqatın nəticəsini və xülasəsini aşağıdakı şəkildə bəyan etmək olar:

**Birincisi,** İmam Hüseynin عليه السلام şəhid edilməsi Müaviyə və ondan yuxarıdakı xəlifələrlə əlaqəlidir. Çünki Yezidin iş başına gəlməsinə həmin xəlifələr səbəbkardır.

**İkincisi,** İmam Hüseynin عليه السلام İraqda şəhid edilməsi planının əsas qurucusu Müaviyə olmuş, Yezid isə həmin planı həyata keçirmişdir.

Bu nəticəyə, aşağıda qeyd ediləcək məsələlərin toplumundan gəlmişik:

1. Həm sünni, həm də şiə rəvayətlərinə əsasən, Müaviyə vəsiyyətində İmam Hüseyni عليه السلام qorxutmağı, ancaq zərər vurmamaq göstərişini vermiş və istədiyi yerə getməyinə mane olmamasını tövsiyə etmişdi.

2. Hüseynin عليه السلام atasını qətlə yetirənlər və qardaşı İmam Həsəni عليه السلام yalnız qoyanlar onu İraqa dəvət edəcəkdilər.

3. Müaviyə hələ sağ ikən Kufə əhalisi tərəfindən yeni hökumətin qurulması üçün göndərilən məktublara görə, mərkəzi Şam hakimiyyəti tərəfindən məktub göndərənlərə qarşı heç bir cəza və ya araşdırma tədbiri görülməmişdi.

4. Daim İmam Hüseyni عليه السلام qətlə yetirməyi düşünən Mərvanın Mədinə valiliyindən kənarlaşdırılması.

5. Mədinə və Məkkə şəhəri valilərinin davranışları.

Hər iki valinin lənətlənmiş soy olan Bəni-Üməyyə tayfasına mənsub olmalarına baxmayaraq onların heç biri İmam Hüseynlə عليه السلام sərt davranmadılar. Halbuki, Mərvan israrla Vəlidə İmam Hüseyni عليه السلام qətlə yetirməsini deyir, Vəlid isə həzrətə ***“buyurun, Allahın amanında”*** deyərək yola salmışdı. İmam Hüseynin عليه السلام Mədinə şəhərini tərk etdiyini eşitdikdə isə ***“əlhəmdulillah”*** deyərək Allaha şükür etmişdi.

Həmin valilər İmam Hüseynə ﷺ qarşı nəyə görə sərt və kobud davranmadılar? Hökuməti təmsil edən bu şəxslər Əhli-Beyt ﷺ dostları idilərmi? Əsla belə deyildi! Öz zehnində bu xəyalı quranlar möhkəm yanılırlar. Məkkə və Mədinə şəhər valilərinin yaxşı olmaları yanlış düşüncədən başqa bir şey deyildir. Əhli-Beyti ﷺ sevmələrini demək isə böyük bir səhvdir.

6. İmam Hüseynin ﷺ öz sözləri, həmçinin, Məkkədə İbn Abbasa buyurduğu sözlər.

7. İbn Abbasın Yezidə cavab məktubu.

8. İmam Hüseynin ﷺ Müslim cənablarını Kufəyə yola saldığı zaman buyurduğu ***"Allah səni də, məni də şəhidlərdən qərar versin"*** ifadəsi.

9. Yezidin hakimiyyəti yetişdikdən dərhal sonra İraqda baş verəcək döyüşdən və Übeydullah ibn Ziyadın vasitəsilə qələbə əldə olunmasından xəbər verməsi.

Bəli, İmam Hüseynin ﷺ İraqda şəhadətə yetişəcəyindən xəbəri var idi. Yezid də (Allah ona lənət eləsin) bunu bilirdi. Peyğəmbər ﷺ səhabələri, o cümlədən İbn Abbas və başqaları, həmçinin Ümmü Sələmə (Allah ondan razı olsun) və Peyğəmbərin ﷺ digər xanımları da İmam Hüseynin ﷺ İraqda şəhid ediləcəyindən xəbərdar idilər. Hətta evlərində əyləşib bayıra çıxmayan bəzi xanımlar belə bu hadisədən xəbərdar idilər. O möhtərəm və əzəmətli İmamın ﷺ İraqda şəhadətə yetişəcəyi bəlli bir məsələ idi. Əgər bir nəfər söyləsə ki, İmam Hüseyn ﷺ həmin hadisədən xəbərdar olmayıb, həmin şəxs qərəzli və ya nadan deyilsə, onda böyük yanlışlığa uğrayıb.

**Üçüncüsü,** İmam Hüseyn ﷺ Yezidə beyət etmiş olsaydı, əsla ona qarşı bir təhlükə baş verməzdi. Bu məsələ, Yezidin İbn Abbasa yazdığı ***"Hüseyni ﷺ məqsədindən çəkindir!"*** cümləsi ilə tam aydın şəkildə bəlli olur. İbn

Zübeyr barəsində gəldikləri qərar da (tikə-tikə doğrayıb qətlə yetirmək istəyirdilər) məsələyə aydınlıq gətirir.

İmam Hüseyn (ə) həmişə iki məsələyə toxunmuşdur:

1. Beyət etməyəcəyəm.

2. Onların məni qətlə yetirəcəyini bilirəm, ancaq Məkkədə qətlə yetirilmək istəmirəm.

# İKİNCİ FƏSİL

# YEZİD İBN MÜAVİYƏNİN AŞURA HADİSƏSİNDƏKİ ROLU

## Müaviyə və İbn Ziyadın başçı təyin edilməsi

Kufə şəhərində ara qarışmışdı, belə ki, Yezid şəhərin əldən çıxma təhlükəsi ilə üz-üzə qalmışdı. Bu vaxt Yezid atası Müaviyənin sirlərinə vaqif müşaviri xaçpərəst Sərcunu yanına çağırıb onunla məşvərətləşdi. Sərcun Yezidə dedi: ***“Əgər atan elə indicə diriləræk sənə əmr etmiş olsa, həmin əmrə tabe olarsanmı?”***

Yezid dedi: ***“Bəli!”*** Sərcun dərhal Übeydullahh ibn Ziyadın Kufə şəhərinə vali və başçı təyin olunmasına dair hökmü çıxardı. Hökmün məzmunu belə idi: ***“Übeydullah ibn Ziyad Bəsrə şəhərinin hakimi olmaqla yanaşı, Kufə şəhərinə də vali təyin edilsin”***. Həmin əmri Müaviyə öz əli ilə yazaraq Sərcuna vermiş və zamanı çatanda onu Yezidə verməsini tapşırmışdı.[142]

Mühüm hadisələr bu tarixdən sonra cərəyan etməyə başlayır. Bu dönəmin ardınca Hüseynin ﷺ qətlinə fərman verilir. Yezidin İmam Hüseynin ﷺ şəhadətindəki fəaliyyəti Übeydullah ibn Ziyada valilik hökmü (atasının imzaladığı əmr) ilə birgə bir məktub yazaraq göndərdiyi vaxtdan başlayır. Yezid həmin məktubda Übeydullah ibn Ziyada xitab edərək İmam Hüseynin ﷺ qətlinə rəsmi göstəriş verir.

Digər tərəfdən, Yezid Vəlid ibn Ütbəyə də bir məktub göndərir. Yezidin Mədinə valisi Vəlid ibn Ütbəyə İmam Hüseyn ﷺ barəsində yazmış olduğu məktubu tarixçilər üç məzmunda qeyd etmişlər.

---

[142] Tezliklə mənbələri qeyd edəcəyik.

Yəqubi (hicri qəməri tarixinin 292-ci ilində vəfat edib) qeyd edir ki, Yezid Hüseyn ibn Əli (ع) beyət etmədiyi təqdirdə, onu qətlə yetir deyə əmrini vermişdi. Yezid yazdığı məktubda belə qeyd edir:

إذا أتاك كتابي هذا، فأحضر الحسين بن علي وعبدالله بن الزبير فخذهما بالبيعة لي، فإن امتنعا فاضرب أعناقهما وابعث لي برؤوسهما؛

***"Bu məktub əlinə yetişən kimi Hüseyn ibn Əli (ع) və Abdullah ibn Zübeyri dərhal yanına çağırıb onları mənə beyət etməyə məcbur et. Əgər*** *(beyət etməkdən – müəl.)* ***boyun qaçırsalar, hər ikisinin boynunu vur və başlarını mənə göndər".***[143]

İbn Əsəm Kufi (v.341 h.q.) öz kitabında yazır ki, Yezid Vəlid ibn Ütbəyə göndərdiyi məktubda belə yazmışdı:

وقد كان عهد إليّ عهداً وجعلني له خليفةً من بعده، وأوصاني أن آخذ آل أبي تراب بآل أبي سفيان؛

***"(Atam) Məni vəliəhd təyin etmiş və özündən sonra xəlifə qərar vermişdir. Həmçinin, Əbu Süfyan ailəsinin intiqamını Əbu Turab*** *(Əli ibn Əbu Talib (ع) – red.)* ***ailəsindən almağı vəsiyyət etmişdir".***[144]

Bu "intiqam" nəyin intiqamı idi? İslamın başlanğıc dönəmindəki müharibələrdə, Bədr və digər savaşlarda Əmirəl-möminin Əli ibn Əbu Talibin (ع) Əbu Süfyan ailəsindən qətlə yetirmiş olduğu müşriklərin intiqamı idi. İndi Yezid intiqam almalı idi.

İbn Əsəm əlavə edir ki, Yezid yazdığı məktuba siçan qulağı həcmində bir əlavə də artıraraq göndərdi və həmin əlavədə belə yazılmışdı:

أما بعد، فخذ الحسين بن علي وعبدالرحمان بن أبي بكر وعبدالله بن الزبير وعبدالله بن عمر بن الخطاب أخذاً عنيفاً ليست فيه رخصة، فمن أبى عليك منهم فاضرب عنقه وابعث إليّ برأسه

[143] Tarixul-Yəqubi, c. 2, səh.241

[144] Əl-Futuh, c. 5, səh.10

***“Sonra isə, Hüseyn ibn Əlini (ə), Əbdürrəhman ibn Əbu Bəkri, Abdullah ibn Zübeyri və Abdullah ibn Ömri zorla, onlara heç bir möhlət vermədən (hüzuruna çağırıb beyət etməyə) məcbur et. Onlardan hansı sənə qarşı çıxsa boynunu vurub başlarını mənə göndər”.*** [145]

İbn Əsəmin yazdığına irad tutaraq qeyd edirlər ki, Yezidin məktubu Vəlidə yetişən zamanda Əbdürrəhman ibn Əbu Bəkr həyatda yox idi. Digər tərəfdən, bu məktub yazılmamışdan qabaq o, Yezidə beyət etmişdi. Bu tarixdən (qabaq) - “Səhih” kitabının şərhində nəql edildiyinə əsasən - Abdullah ibn Ömər yüz min dirhəm alaraq Yezidə beyət etmişdi. Bəli, tarixdə bu cür səhv və yanlışlıqlar olur, buna görə də, tədqiqatçı və araşdırma aparan şəxs, müxtəlif tarixi ifadələrə düşüncəli və diqqətli yanaşaraq səhvləri anlamalıdır.

Təbəri bu haqda belə yazmışdır: ***“Yezid iş başına keçdiyi zaman heç bir problemi və sıxıntısı yox idi. Yalnız Müaviyə dönəmində ona əl uzadıb beyət etməyən kəslərdən savayı”***.

O, sözünün davamı olaraq əlavə edir:

وكتب إليه في صحيفة كأنها أُذن فارة  أما بعد، فخذ حسيناً وعبدالله بن عمرو وعبدالله بن الزبير بالبيعة أخذاً شديداً ليست فيه رخصة حتى يبايعوا. والسلام ؛

***“Yezid siçan qulağı boyda olan bir vərəqdə belə yazaraq Vəlidə göndərdi: Zorla Hüseyn (ə), Abdullah ibn Ömər və Abdullah ibn Zübeyri beyət etməyə məcbur et və beyət etməyincə onlara möhlət verma. Vəssalam”.*** [146]

Göründüyü kimi, Təbərinin nəql etdiyində başların kəsilərək Yezidə göndərilməsi haqda məlumat qeyd olunmayıb. Xarəzmi (v.568 h.q.) “Məqtəlul-Huseyn” əsərində bu

---

[145] Əl-Futuh, c.5, səh.10.

[146]Tarixut-Təbəri, c.4, səh.250; Məqtəlul-Huseyn, Əbu Mixnəf, səh.3

mövzu haqda belə yazır ki, Yezid Vəlid ibn Ütbəyə göndərdiyi məktubda belə yazmışdı:

وأوصاني أن احذر آل أبي تراب وجرأتهم على سفك الدماء وقد علمت يا وليد أن الله تعالى منتقم للمظلوم عثمان بن عفان من آل أبي تراب بآل سفيان

***"Atam mənə Əbu Turab ailəsindən və onların qan tökməyə çalışmasından ehtiyatlı olmamı tövsiyə edib. Ey Vəlid! Bildiyin kimi, Allah-Təala məzlum olan Osman ibn Əffanın intiqamını Əbu Turab ailəsindən Əbu Süfyan ailəsinin vasitəsilə alacaqdır".*** [147]

İbn Əsəmin qeyd etdiyi ifadələrə diqqət yetirsək, görərik ki, orada yalnız Əbu Süfyan ailəsinin Əmirəl-möminin Əli ibn Əbu Talib (ə) ailəsindən alacağı intiqam barədə söz açılmışdır.

Ancaq Xarəzminin qeyd etdiyi ifadələrdə isə Osmanın məzlumluğu və intiqamı da qeyd olunub. İfadələr arasında niyə bir belə fərqlilik mövcuddur?! Bəli! Onlar əlacsızlıqdan Osmanın intiqam məsələsini də ortaya atmışdılar. Müaviyə elə həmin intiqam bəhanəsi ilə hakimiyyətə yiyələnmişdi. Bu mövzuya sübut, qeyd olunan bir sıra tarixi hadisələrdir:

İmam Əlinin (ə) şəhadətinin ardınca İmam Həsənlə (ə) bağlanmış sülh müqaviləsindən sonra Müaviyə Mədinə şəhərinə gedir. Ona Osmanın qızının ah-nalə içində ağladığı xəbərini verirlər. Müaviyə Osmanın evinə gedərək onun qızı ilə görüşən zaman soruşur: ***"Niyə narahatsan axı?"*** Osmanın qızı cavab verir: ***"Atam yadıma düşüb, hakimiyyəti əldə etmisən, səndən atamın intiqamını almağını xahiş edirəm".*** Əhli-sünnə alimlərinin aydın şəkildə yazdıqlarına əsasən, Müaviyə Osmanın qızına cavab olaraq belə deyir: ***"Bu nə sözlərdir danışırsan? Biz hakimiyyəti əldə etmək istəyirdik (və buna da nail olduq). Bu gün sizi maddi cəhətdən təmin etmişik. Bir daha belə sözlər danışmamağı***

---

147 Məqtəlul-Huseyn, c.1, səh.180

***tələb edirəm!”*** [148] Deməli, Osmanın intiqamı mövzusu bəhanədən başqa bir şey deyildi. Osmanın qətlindən sonra Müaviyənin məqsədi hakimiyyətə yiyələnmək idi. Xarəzmi sözünə davam edərək yazır ki, Vəlidə göndərilən məktuba bir kiçik əlavə də artırılmışdı. Həmin əlavədə belə yazılmışdı:

أما بعد، فخذ الحسين وعبدالله بن عمر وعبدالرحمان بن أبي بكر وعبدالله بن الزبير بالبيعة أخذاً عنيفاً ليست فيه رخصة، فمن أبى عليك منهم فاضرب عنقه وابعث إليّ برأسه، والسلام؛

***“Sonra isə, Hüseyn ibn Əlini ﴿ع﴾, Əbdürrəhman ibn Əbu Bəkri, Abdullah ibn Zübeyri və Abdullah ibn Ömərizorla, onlara heç bir möhlət vermədən (hüzuruna çağırıb beyət etməyə) məcbur et. Onlardan hansı sənə qarşı çıxsa boynunu vurub başlarını mənə göndər. Vəssəlam”.*** [149]

Bu ifadədə də səhv və narahatlıq hiss olunmasına baxmayaraq mətndə qətlin göstəriş verildiyi qeyd olunmuşdur. İbn Səd (v. 230 h.q.) “Ət-Təbəqatul-kubra” əsərində həmin mövzuya toxunaraq belə yazır:

لمّا حضر معاوية دعا يزيد فأوصاه بما أوصاه به وقال: انظر حسين بن علي ابن فاطمة بنت رسول الله صلى الله عليه وآله، فإنه أحب الناس إلى الناس، فصل رحمه وارفق به، يصلح لك أمره، فإن يك منه شيء فإني أرجو أن يكفيكه الله بمن قتل أباه وخذل أخاه؛

***“Müaviyənin (ölümünə) az bir vaxt qaldığı zamanda Yezidi yanına çağırıb bəzi şeyləri vəsiyyət etdi. Sonra isə ona dedi: “Əlinin ﴿ع﴾ və Peyğəmbər ﴿ص﴾ qızı Fatimənin ﴿ع﴾ oğlu Hüseynə ﴿ع﴾ diqqət et! O, insanlar arasında ən sevimli şəxsdir. Onunla qohumluq əlaqələrini saxla və***

148 Tarixu mədinəti Diməşq, c.59, səh.155; Əl-Bidayə vən-nihayə, c.8, səh.141

149 Məqtəlul-Huseyn, c.1, səh.180; Tarixut-Təbəri, c.4, səh.250; Əl-Bidayə vən-nihayə, c.8, səh.157; Əl-Kamilu fit-Tarix, c.4, səh.14; Tarixu ibn Xəldun, c.3, səh.19

***mülayim davran ki, (bununla) onun məsələsi sənin üçün həll olsun*** *(sənin üçün bir təhlükəyə çevrilməsin – red.).* ***Lakin onun tərəfindən (sənə qarşı) bir şey baş versə, ümid edirəm ki, Allah onun atasını qətlə yetirən və qardaşını köməksiz halda tənha buraxanlar vasitəsilə səni ondan xilas edəcəkdir".***

O davam edərək yazır ki, Müaviyə hicrətin 60-cı ili, Rəcəb ayının ortasında vəfat etdi və camaat Yezidə beyət etdi. Yezid Vəlid ibn Ütbə ibn Əbu Süfyana (Mədinənin valisi) belə bir məktub göndərdi:

ادع الناس فبايعهم، وابدأ بوجوه قريش، وليكن أول من تبدأ به الحسين بن علي، فإنّ أميرالمؤمنين [معاوية] عهد إليّ في أمره الرفق به واستصلاحه؛

***"İlk olaraq Qüreyş qəbiləsi böyükləri olmaqla, əhalini çağır və onlardan (mənim adıma) beyət al. (Beyət almağa) başladığın ilk şəxs də Hüseyn ibn Əli olsun. Əmirəl-möminin (Müaviyə) mənə Hüseyn ﷺ barədə onunla mülayim olmağı və aranı düzəltməyi tövsiyə etmişdir".*** [150]

Bəlazuri digər tarixçilər kimi bu xüsuslara toxunmadan bu haqda belə yazmışdır:

كتب يزيد إلى عامله الوليد بن عتبة بن أبي سفيان في أخذ البيعة على الحسين وعبدالله بن عمر وعبدالله بن الزبير. فدافع الحسين بالبيعة، ثمّ شخص إلى مكّة؛

***"Yezid öz valisi Vəlid ibn Ütbə ibn Əbu Süfyana Hüseyndən ﷺ, eləcə də Abdullah ibn Ömər və Abdullah ibn Zübeyrdən beyət alması üçün məktub yazdı. Lakin Hüseyn ﷺ beyətdən üz çevirdi, sonra isə Məkkəyə tərəf yola çıxdı".*** [151]

"Tarixu mədinəti Diməşq" kitabının müəllifi İbn Əsakir də İbn Sədin sözlərinə bənzər şəkildə qeyd edərək yazır:

---

[150] İbn Sədin "Ət-Təbəqat" kitabındakı İmam Hüseynin ﷺ tərcümeyi-halı fəslindən, səh. 55

[151] Ənsabul-əşraf, c.3, səh.155

فكتب يزيد مع عبدالله بن عمرو... أن ادع الناس فبايعهم، وابدأ بوجوه قريش، وليكن أول من تبدأ به الحسين بن علي ؛ فإنّ أمير ا لمؤمنين [معاوية] عهد إلي في أمره الرفق به واستصلاحه.

***"Yezid məktub yazaraq Abdullah ibn Ömərlə... İlk olaraq Qüreyş qəbiləsi böyükləri olmaqla, əhalini çağır və onlardan (mənim adıma) beyət al. (Beyət almağa) başladığın ilk şəxs də Hüseyn ibn Əli ﴿ع﴾ olsun. Əmirəlmöminin (Müaviyə) mənə Hüseyn (ə.s ) barədə onunla mülayim olmağı aranı düzəltməyi tövsiyə etmişdir".*** [152]

Böyük tarixçilər o cümlədən, Əbülhəccac Mizzi və digərləri[153] nəql edirlər ki, Yezid Vəlidə göndərdiyi məktubda belə yazmışdı:

فإنّ أمير المؤمنين (معاوية) عهد إلي في أمره الرفق به واستصلاحه

***"Əmirəlmöminin (Müaviyə) mənə Hüseyn (ə.s ) barədə onunla mülayim olmağı və aranı düzəltməyi tövsiyə etmişdir".***

Zəhəbi isə həmin mətləbi digər bir formada nəql edərək qeyd edir ki, Yezid Vəlidə göndərdiyi bir məktubda belə yazmışdı:

أن ادع الناس وبايعهم وابدء بالوجوه وارفق بالحسين؛

***"Nüfuzlu şəxslərdən başlamaqla insanları çağır və onlardan mənim üçün beyət al, ancaq Hüseynlə ﴿ع﴾ mülayim davran".***

Vəlid axşam ikən İmam Hüseyni ﴿ع﴾ və İbn Zübeyri yanına çağırdıqda onların hər ikisi belə dedilər:

نصبح وننظر فيما يعمل الناس؛

***"(Düşünməmiz üçün səhərə qədər bizə möhlət ver –*** *müəl.)* ***Sabahı açaq, insanların etdiyi iş (beyət – red.) barədə düşünək".***

---

[152] Tarixu mədinəti Diməşq, c.14, səh.206-207

[153] Təhzibul-kəmal, c.6, səh.414; Tarixu mədinəti Diməşq, c.14, səh.206; Əl-Bidayə vən-nihayə, c.8, səh.175

Ardınca isə onların hər ikisi Mədinə şəhərini tərk etdilər.

Zəhəbi belə yazır:

وقد كان الوليد أغلظ للحسين، فشتمه حسين وأخذ بعمامته فنزعها. فقال الوليد: إن هجنا ذا إلاّ أسداً؛

***"Vəlid Hüseynlə ﷺ kobud danışdıqda Hüseyn ﷺ onu lənətlədi, əmmaməsini (başından) çəkib atdı. Bu zaman Vəlid dedi: "Biz (yatmış) bir şiri oyatdıq".***

Ardından Mərvan Vəlidə dedi: ***"Onu qətlə yetir!"*** Vəlid isə belə cavab verdi:

إنّ ذاك لَدم مصون؛

***"O, (mənim axıda biməyəcəyim) qorunmuş bir qandır (ki, mən bu barədə məsuliyyət daşıyıram –*** *müəl.)****".*** [154]

Burada diqqət yetiriləsi məsələ Vəlidin davranma tərzidir. Bir tərəfdən Vəlidin İmam Hüseynə ﷺ qarşı rəftarı digər tərəfdən Mərvanın söyləmiş olduğu onu göstərir ki, əgər həmin zaman Mərvan Mədinə şəhərinin valisi olsaydı, İmamı ﷺ qətlə yetirərdi. Belə olan halda Yezidin hakimiyyəti olduqca böyük problemlə üzləşərdi. Elə buradan da, Mərvanın Mədinə valiliyindən kənarlaşdırılmasının sirri çözülmüş olur. Əhli-sünnə alimləri heç vaxt bu həqiqətin üstünü açıb tarixin səhifələrində qeyd etmirlər. Həmin həqiqətləri tarixdən silib çıxarırlar. Bəli, Mərvan kənarlaşdırılmalı idi, vali olduğu təqdirdə niyyətindəkini həyata keçirəcəkdi və belə olan halda isə qurulmuş plan öz məcrasında irəli doğru getməyəcəkdi.

"Əl-muxtəsər fi əxbaril-bəşər" kitabının müəllifi Əbülfida bu tarixi hadisəni başqa bir formada nəql etmişdir. O, nə məktub haqda, nə qətl haqda, nə də sərt və ya mülayim davranış haqda bir şey yazmadan qeyd edir ki:

---

[154] Siyəru əlamin-nubəla, c.3, səh.295

أرسل إلى عامله بالمدينة بإلزام الحسين وعبدالله بن الزبير وابن عمر بالبيعة

***"Yezid Mədinədəki valiyə məktub yazaraq (bildirdi ki,) Hüseyn ﷺ, Abdullah ibn Zübeyr və Abdullah ibn Öməri beyətə məcbur etsin.".*** [155]

Bu, tarixçilər arasından olan bir qrup tarixi yazarların həmin hadisəni üç prizmadan yanaşaraq nəql etmə formasıdır. İmam Hüseynin ﷺ qətlinə əmr olunduğunu nəql edən tarixçilərin də sözləri müxtəlifdir. Lakin bir şey gün kimi aydındır ki, İbn Səddən bu yana olan əhli-sünnə tarixçiləri Yezidin Vəlidə İmam Hüseyni ﷺ qətlə yetirməsinə dair verdiyi göstərişi bəyan etməmişlər. Görəsən niyə?

Çünki hələ həmin dövrdə qətlə yetirmək əmri verilməmişdi. Araşdırmalara əsasən, o həzrəti ﷺ öldürmək əmri Yezidin İbn Ziyada göndərdiyi məktubda verilmişdi. Həmin məktubdan əvvəl hələ öldürmək əmri verilməmişdi. Çünki Bəni-Üməyyə hökumətinin İmam Hüseynlə ﷺ bağlı davranış və rəftarı məkanlara görə fərqli idi. Başqa bir ifadə ilə desək, onların Hicaz (Məkkə və Mədinə) daxilindəki siyasəti ilə Hicazdan kənar ərazidəki (İraq) siyasəti arasında fərqlilik mövcud idi. Elə onlar bu siyasət sayəsində, o həzrətin ﷺ Hicazdan xaric olmasına səy göstərib çalışırdılar. Məkkə və Mədinə valiləri də həmin siyasət əsasında davranırdılar. Elə ona görə də, İmam Hüseyn ﷺ Hicaz ərazisini tərk edən kimi onların da siyasəti dəyişdi.

Buna sübut Yezidin İbn Ziyada yazdığı ilk məktubudur. Yezid həmin məktubda İbn Ziyada belə yazmışdı:

...قد بلغني أنّ أهل الكوفة قد كتبوا إلى الحسين في القدوم عليهم وأنه قد خرج من مكّة متوجهاً نحوهم وقد بلي به بلدك من بين البلدان وأيامك من بين الأيام، فإن قتلته وإلاّ رجعت إلى نسبك وإلى أبيك عبيد، فاحذر أن يفوتك؛

[155] Əl-Muxtəsər fi əxbaril-bəşər, c.1, səh.131; Tarixu İbnil-Vərdi, c.1, səh.162

***“Mənə xəbər çatıb ki, Kufə əhalisi Hüseynə* ﷺ *onlara tərəf gəlməsi üçün məktub yazıblar, o da (onların dəvətinə cavab olaraq) Məkkədən onlara doğru yola çıxmışdır. Şəhərlər içərisində sənin şəhərin*** *(Kufə - red.),* ***dövrlər içərisində də sənin*** *(valilik)* ***dövrün onunla imtahana çəkilib. Onu qətlə yetirsən (heç), əks halda soy-kökünə, atan Übeydə qayıdarsan*** *(və hamıya sağlam ata-anaya sahib olmadığını çatdıracağam. Özün və atan Ziyad ibn Əbihin Qureyş qəbiləsinə bağlı olmadığınızı, sənin keçmişinin zinadan törəmiş olduğunu hər bir kəsə çatdıracağam – müəl.)* ***Ehtiyatlı ol ki,*** *(Hüseyn* ﷺ*)* ***əlindən çıxmasın”.***[156]

Yezid həmin məktubda Übeydullanın ən zəif damarına basmışdır. Çünki həmin dövrün cəmiyyəti arasında Übeydullah Əbu Süfyan soyuna bağlı olmasına görə hörmət və izzətə sahib idi. Düzdür, həmin qəbilə xəbis soy sayılsa da, ancaq üzdə adı-sanı olan bir qəbilə kimi tanınırdı və Übeydullahı bu qəbiləyə bağlamaqla zinadan törəməsi məsələsindən xilas etmişdi.

Bəlazuri və başqaları Yezidin İbn Ziyada yazmış olduğu məktub haqda belə yazmışlar:

بلغني مسير حسين إلى الكوفة وقد ابتلي به زمانك من بين الأزمان، وبلدك من بين البلدان،

وابتليت به من بين العمال، وعندها تعتق أو تعاود عبدًا كما يعتبد العبيد؛

***“Hüseynin* ﷺ *Kufə tərəfə yola düşdüyü xəbərini eşitmişəm. Şəhərlər içərisində sənin şəhərin*** *(Kufə - red.),* ***dövrlər içərisində sənin*** *(valilik)* ***dövrün, valilər içərisində də sən onunla imtahana çəkilmisən. (Hüseyni* ﷺ *öldürsən) O zaman ya azad olacaqsan*** *(möhtərəm şəxsiyyətə sahib – müəl.)****, ya da*** *(öldürməsən – red.)* ***digər qula çevri-***

[156] Tarixul-Yəqubi, c.2, səh.242

***lənlər kimi yenidən qul olacaqsan*** *(dəyərsiz, bilinməyən vələduzzina soyuna qaytarılacaqsan – müəl.)****”.***[157]

Təbərani də özünün istinad etdiyi rəvayətə əsasən yazır ki, Yezid İbn Ziyada göndərdiyi məktubda belə yazmışdı:

***“«Hüseyni ﷺ qətlə yetirmədiyin təqdirdə öz keçmiş soyuna qayıdacaqsan». Übeydullah bu səbəbdən Hüseyni ﷺ qətlə yetirib, kəsilmiş mübarək başını Yezidə göndərdi. Yezid o başı gördüyü zaman küfr dolu bir şeir oxumuşdu”.***[158]

Yeri gəlmişkən, Alusi və digər alimlər elə bu şeirə görə, Yezidin kafir olduğu hökmünü vermişlər və qarşıda həmin mövzunu araşdıracağıq. İmam Hüseynin ﷺ qətlinə rəsmi fərman elə buradan başlamışdır, halbuki, buraya qədər o həzrətlə ﷺ mülayim davranmaq əmri verilmişdi.

Heysəmi istinad etdiyi sənədin doğruluğuna israr edərək həmin məktubu nəql etmişdir. İbn Əsakir “Tarixu mədinəti Diməşq” kitabında, Zəhəbi “Siyəru əlamin-nubəla” kitabında, Əbülfərəc ibn Cövzi Hənbəli “Ər-Rəddu ələl-mutəəssibil-ənid” kitabında, Suyuti “Tarixul-xuləfa” kitabında və digərləri qeyd etmişlər ki, Yezid İbn Ziyada yazdığı məktubda Hüseyni ﷺ qətlə yetirmək əmrini vermişdi.[159] Beləliklə, ibn Teymiyyənin davamçıları və Yezidə lənət oxumaqla ehtiyatlanan müqəddəsnümalar bilsinlər ki, İmam

---

[157] Ənsabul-əşraf, c.3, səh.160; Tarixu mədinəti Diməşq, c.14, səh.214; c.65, səh.396; Əl-Mucəmul-kəbir, c.3, səh.115; Siyəru əlamin-nubəla, c.3, səh.305; Tarixul-islam, c.5, səh.10; Əl-Bidayə vən-nihayə, c.8, səh.178; Məcməuz-zəvaid, c.9, səh.193; Əl-Vafi bil-vəfəyat, c.12, səh.263-264 və digər mənbələr.

[158] Əl-Mucəmul-kəbir, c.3, səh.115-116; Tarixu mədinəti Diməşq, c.14, səh.214 və c.65, səh.396

[159] Məcməuz-zəvaid, c.9, səh.193; Tarixu mədinəti Diməşq, c.14, səh.214; Siyəru əlamin-nubəla, c.3, səh.305; Ər-Rəddu ələl-mutəəssibil-ənid əl-mani min zəmmil-Yəzid, səh.49; Tarixul-xuləfa, səh.207

Hüseyni ﷺ Yezid qətlə yetirmişdir. Çünki Hüseynin ﷺ qətlinə fərmanı Yezid vermişdir. "İhyaul-ulum" kitabının müəllifi olan Ğəzzali necə olur ki, Yezidin qatil olmasına şübhə ilə yanaşır?! Özündən öncəki və sonrakı alimlərin Yezidin İbn Ziyada yazdığı məktubda İmam Hüseyni ﷺ qətlə yetirmək əmrini verdiyini qeyd etdikləri halda, Yezidə lənət oxumasını özünə rəva bilməmiş və bu məsələyə müqəddəslik prizmasından yanaşaraq ehtiyat etmişdir. Belə bir halda yenə də ehtiyat edib lənətləməyi caiz hesab etməmək olarmı?!

## İbn Abbasın Yezidə məktubu

Bu mövzuya digər bir sübut ondan ibarətdir ki, İbn Zübeyr Məkkə şəhərində rahat olduğu dönəmdə özünü xəlifə elan edərək əhalidən beyət almağa başladı. Nüfuzlu şəxslər, o cümlədən İbn Abbas ona beyət etmədilər. Yezid bu hadisədən xəbər tutan kimi İbn Abbasın İbn Zübeyrə beyət etməməsi müqabilində ona təşəkkür əlaməti olaraq belə bir məktub yazdı: ***"İbn Abbas! Sən beyət etməməklə mənimlə olan bağlılığını qoruyub saxladın. Allah qohumluq əlaqələrini qoruyan şəxslərə nəzərdə tutduğu mükafatı sənə əta etsin və biz sənin bu xeyirxahlığını unutmarıq, tezliklə, sənin dostluğunun əvəzini çıxarıq".*** Yezid sözünün davamında belə yazmışdı: ***"Səndən istəyimiz budur ki, həqiqəti digər insanlara da çatdırasan və onların İbn Zübeyrə beyət etmələrinə mane olasan. İnsanların mənə tərəfdar olması və məni sevməsi yönündə çalış. Çünki sən hamı tərəfindən qəbul edilən bir şəxssən, hamı sənin sözünü eşidər".*** İbn Abbas Yezidə olduqca dəyərli bir cavab yazdı. O, Yezidə belə bir məktub yolladı:

أما بعد، فقد جاءني كتابك، فأما تركي بيعة ابن الزبير فوالله ما أرجو بذلك برك ولا حمدك، ولكن الله بالّذي أنوي عليم. وزعمت أنك لست بناس بري،

فاحبس أيها الإنسان! برك عني فإني حابس عنك بري .وسألت أن أحبب الناس إليك... كيف؟ وقد قتلت حسيناً وفتيان عبدالمطّلب مصابيح الهدى ونجوم الأعلام،... فما أنس من الأشياء فلست بناس اطّرادك حسيناً من حرم رسول الله صلى الله عليه وآله إلى حرم الله، وتسييرك الخيول إليه، فمازلت بذلك حتى أشخصته إلى العراق، فخرج خائفاً يترقّب، فنزلت به خيلك عداوةً منك لله ولرسوله ولأهل بيته الّذين أذهب الله عنهم الرجس وطهرهم تطهيراً... فاغتنمتم قلّة أنصاره واستئصال أهل بيته وتعاونتم عليه كأنكم قتلتم أهل بيت من الشرك والكفر. فلا شيء أعجب عندي من طلبتك ودي وقد قتلت ولد أبي وسيفك يقطر من دمي، وأنت أحد ثاري؛

***"Sonra isə ... sənin məktubun mənə yetişdi. İbn Zübeyrə beyət etməyi tərk etməyimə gəlincə, and olsun Allaha, bu işimlə nə sənin mənə yaxşılığını, nə də təşəkkürünü umuram. Allah mənim niyyətimi bilir. Güman edirsən ki, mənim yaxşılığımı unutmayacaqsan. Yaxşılığını məndən əsirgə, ey insan*** *(ola bilsin insanın unutma mənasına işarə edir – red.)!* ***Çünki mən də səndən əsirgəyəcəyəm. Məndən səni insanlara sevdirməmi istəyirsən ... Axı necə? Sən hidayət çıraqları və yol göstərən ulduzlar olan Hüseyn ﷷ və Əbdülmütəllib övladlarını qətlə yetirmisən. Hər nəyi unutsam da, heç vaxt unutmaram ki, Hüseyni ﷷ (təzyiq altında saxlayaraq, təqibə məruz qoyaraq –*** *müəl.)* ***Peyğəmbər ﷺ hərəmindən Məkkəyə qovdurdun, at(lı)ları onun üzərinə göndərdin. (Bütün bu təqiblərə) davam edib onu İraqa getməyə vadar etdin".***

Bu cümlələr Aşura hadisəsi haqqında söylənilməyənlərə dair ən dəqiq incəliklərə bir işarədir. Bu həqiqətlər tarixin ən incə və zərif bulağından qaynaqlanır. Əlbəttə, bəziləri bu məsələyə təəccüblənəcək, ancaq azacıq düşünən olsa, həqiqətlərə və incəliklərə vaqif olacaqdır. Onlar elə bir plan qurdular ki, İmam Hüseyn ﷷ Hicazı tərk etsin və onlar həzrəti ﷷ rahat təqib edə bilsinlər. İbn Abbas sözünün davamında yazır:

***“Hüseyn ﷺ qorxu və (hər an bir təhlükə) gözləyən halda (Peyğəmbərin ﷺ hərəmindən) çıxdı. Allaha, Peyğəmbərinə ﷺ və Allahın bütün çirkinliklərdən paklayıb tərtəmiz etdiyi onun Əhli-Beytinə ﷺ düşmənçiliyinə görə at(lı)larını onun üzərinə göndərdin... Onun havadarlarının azlığını və Əhli-Beytinin ﷺ kökünü kəsməyi (yəni bu fürsəti) qənimət bilib ona qarşı əlbir oldunuz. Sanki kafir və müşrik bir evin əhlini qətlə yetirmisiniz. Məndən sevgi istəməyin qədər mənim üçün təəccüblü bir şey yoxdur. Bir halda ki, sən atamın övladlarını öldürmüsən və sənin qılıncından mənim qanım*** *(nəslimin qanı – müəl.)* ***damlayır. Sən mənim intiqam almalı olduğum şəxslərdən birisən!”***[160]

İbn Abbasın Yezidə yazdığı məktubda bir çox incəliklər mövcuddur. Biz burada həmin incəliklərdən ikisini qeyd edək:

1. İmam Hüseyn ﷺ Yezid üzündən öz şəhərini tərk etdi. Çünki onun əsgərləri imamı ﷺ təzyiq və təqib altında saxlamışdılar.
2. İmam Hüseyni ﷺ qətlə yetirdiyinə görə Yeziddən intiqam alınmalıdır.

Bu məktub Aşura hadisəsində ən əhəmiyyətli tarixi sənədlərdən sayılır.

## Yezid oğlu Müaviyənin xütbəsi

Yezidin qatil olduğunu sübuta yetirən digər dəlillərdən biri Yezidin oğlu olan Müaviyənin xütbəsidir. Yezid öldükdə oğlu Müaviyə - onun əməlisaleh bir cavan olduğunu deyirlər - özünün ilk çıxışında belə dedi: ***“Atam İmam Hüseynin ﷺ qatilidir. Babam isə xilafəti qəsb etmişdir. Mənim xilafətlə (xəlifəliklə) işim olmaz”.***

[160] Tarixul-Yəqubi, c.2, səh.247-249; Əl-Kamilu fit-tarix, c.4, səh.127-128

Şiə məzhəbindən olan bəzi yazarların nəzərinə görə o, insanları İmam Səccada ﴿ع﴾ tərəf yönəltməsə də, özü şiə olmuşdur. Mən onun şiə olmasına şübhə ilə yanaşıram. Amma hər halda, o, xəlifə olmağı qəbul etmədi. Birinci və ikinci xəlifənin müdafiəsi barədə, həmçinin, şiə məzhəbinin əleyhinə yazılmış "Əs-Səvaiqul-muhriqə" kitabının müəllifi İbn Həcər Məkki öz kitabında qeyd edir ki, Müaviyə ibn Yezid insanlar arasına çıxmadı və camaat namazında iştirak etmədi. Onun hakimiyyəti qırx gün sürdü və bu müddətdə hakimiyyətin heç bir işinə dəxalət etmədi. Onun yaxşı bir şəxs olduğuna dəlalət edən xüsusiyyətlərdən biri də bu idi ki, minbərə çıxaraq çıxışında bu sözləri dedi:

إنّ هذه الخلافة حبل اللّه وإنّ جدي معاوية نازع الأمر أهله ومن هو أحق به منه علي بن أبي طالب، وركب بكم ما تعلمون... ثم قلّد أبي الأمر وكان غير أهل له ونازع ابن بنت رسول اللّه صلى اللّه عليه وآله

***"Həqiqətən də bu xilafət Allahın ipidir. Babam Müaviyə də bu işi öz əhlindən, ona özündən daha çox layiq olan Əli ibn Əbu Talibdən ﴿ع﴾ qopararaq sizə bildiyiniz kimi hökm etmişdir. Ardınca xilafətə haqqı olmadığı halda bu işi atama vermiş*** *(yaxud atam onun etdiyini təkrarlamış – red.)* ***və Peyğəmbər ﴿ص﴾ qızının oğluna qarşı düşmənçilik etmişdir".***

O ağlayaraq çıxışında bu sözləri də söyləmişdir:

إنّ من أعظم الأمور علينا علمنا بسوء مصرعه وبئيس منقلبه، وقد قتل عترة رسول اللّه صلى اللّه عليه وآله، وأباح الخمر وخرب الكعبة... فشأنكم أمركم. واللّه لئن كانت الدنيا خيراً، فقد نلنا منها حظاً ولئن كانت شراً، فكفى ذرية أبي سفيان ما أصابوا منها؛

***"Onun*** *(Yezidin – red.)* ***ölümünün pisliyi və qayıtdığı yerin*** *(Axirətdəki yerinin – red.)* ***şiddətli olmasını bilməyimiz bizə ən ağır olan məsələlərdəndir. O Peyğəmbər ﴿ص﴾ Əhli-Beytini ﴿ع﴾ qətlə yetirdi, şərabı halal etdi və Kəbə evini viran elədi. (Xilafət barədə, kimə beyət edəcəyiniz barədə) işinizi özünüz bilərsiniz. And olsun Allaha, əgər dünya*** *(məqam,*

*mənsəb, var-dövlət – red.)* ***xeyirlidirsə, biz ondan öz payımızı almışıq. Yox əgər şərdirsə, Əbu Süfyan nəslinə bu şərdən (indiyə qədər) çatan miqdar kifayətdir".***[161]

Yezidin oğlu öz çıxışında atasının qatil olduğunu təsdiqləmişdir. O bu cinayətin cəhənnəm odu ilə nəticələnəcəyini də etiraf etmişdir. Ardından isə xilafətdən əl çəkərək belə demişdir: ***"Özünüz bilərsiniz, mən hakimiyyətin nə xeyrinə, nə də zərərinə qarışıram".***

## İbn Ziyadın iqrar etməsi

Bu mövzuya dair digər bir sübut, İbn Ziyadın özünün iqrar edərək təsdiq etməsidir. Belə ki, o özü deyir:

وأما قتلي الحسين، فإنه أشار علي يزيد بقتله أو قتلي، فاخترت قتله

***"Hüseyni (ə) öldürməyimə gəlincə isə, Yezid mənə bildirdi ki, ya Hüseyni (ə) öldürməliyəm, ya da özüm ölməliyəm. Mən də onu qətlə yetirməyi seçdim".***[162]

Bu cinayətlərin Yezidin məlumatı və xəbəri olmadan həyata keçirildiyini iddia edənlər və yaxud Yezidin qatil olduğuna şübhə edən kəslər haradadırlar görəsən?! Aşura həqiqətini hifz edib qorumaq bizim öhdəmizə düşən bir vəzifə və məsuliyyətdir. Çünki pak və məsum imamlar (ə) Aşura gününün qorunub saxlanılmasına olduqca əhəmiyyətli yanaşmışlar. Əhli-Beyt (ə) məktəbinin davamçıları olan böyük mərceyi-təqlid alimləri də bəzən evlərində, bəzən isə ayaqyalın, başıaçıq küçələrə çıxaraq İmam Hüseynin (ə) Aşura faciəsinə əzadarlıq məclisi bərpa etmiş, hətta bu yürüşlərdə ilahi lütf və bərəkətə də nail olmuşlar. [163]

---

[161] Əs-Səvaiqul-muhriqə, c.2, səh.641-642

[162] Əl-Kamilu fit-tarix, c.4, səh.140.

[163] Həzrət Ayətullah Burucerdi İmam Hüseyn (ə) əzadarlarının ayağının tozundan ağrıyan gözlərinə təbərrük edərək sürtmüş və gözünün

Beləliklə, İmam Hüseyn (ə) şüarları (əzadarlıq mərasimləri) əleyhinə mübarizə aparan və ya onu gözdən salmaq istəyənlər ya nadandırlar, ya da ki, bu məsələyə laqeyd olanlarla (düşmənlərlə) əlbirdirlər. Bu səbəbdən, onlara qarşı müqavimət göstərmək üçün bizim üzərimizə böyük bir məsuliyyət düşür.

## Yezidin həzrət Müslimin (ə) şəhadətinə sevinməsi

Bu mövzuya dair *(Yezidin İmamın (ə) qatili olma mövzusuna dair – red.)* bütün tarixi mənbələrin qeyd etmiş olduğu digər bir sübut da mövcuddur. Yezidin əmrinə əsasən, İbn Ziyad Müslim və Hani ibn Ürvəni şəhadətə yetirdikdən sonra, hər ikisinin başını bədənlərindən ayıraraq Şama göndərdi. Yezid bu işin müqabilində ibn Ziyada minnətdarlıq məktubu yazaraq həmin məktubda şad olduğunu izhar etmişdi.[164]

## Kəsilmiş pak başların Yezidə göndərilməsi

Digər bir sübut ondan ibarətdir ki, İbn Ziyad İmam Hüseynin (ə) bədənindən ayrılmış pak başını Şama göndərməmişdən öncə, Zəhr ibn Qeysi[165] Yezidə xəbər vermək üçün onun yanına göndərdi.[166]

---

narahatçılığı aradan qalxmışdır. Hətta qocalıq yaşına qədər eynəkdən istifadə etməmişdir.

[164] Əl-İrşad, c.2, səh.65; Ənsabul-əşraf, c.2, səh.85; Tarixut-Təbəri, c.4, səh.285-286; Əl-Futuh, c.5, səh.63; Tarixu mədinəti Diməşq, c.18, səh.307 və s.

[165] Kərbəlada hər iki qoşunda olan adamların adlarının qeyd olunmasında səhvlərə yol verilmişdir. Məsələn, Zəhr ibn Qeysin adını bəziləri Zəcr ibn Qeys kimi qeyd etmişlər. Onun hekayəsinə dair məlumat “Tarixu mədinəti Diməşq” kitabında mövcuddur; Tarixu

İbn Teymiyyə (Allah onu əfv etməsin, necə ki əfv etməyəcək də) deyir: ***“Aşura hadisəsində heç kəs əsir götürülməmiş və İmam Hüseynin ﵇ pak başı şəhərlərdə gəzdirilərək Şama aparılmamışdır!”*** Halbuki “Ət-Təbəqatul-kubra” kitabının müəllifi İbn Səd, Zərr ibn Hübeyş adlı mötəbər bir şəxsdən nəql edir ki, nizələrə taxılaraq aparılan başların ən öndə aparılanı İmam Hüseynin ﵇ mübarək başı idi.[167]

Bəlazuri bu haqda belə yazır:

نصب ابن زياد رأس الحسين بالكوفة وجعل يدار به فيها. ثمّ دعا زحر بن قيس الجعفي فسرح معه برأس الحسين ورؤوس أصحابه وأهل بيته إلى يزيد بن معاوية

***“İbn Ziyad Hüseynin ﵇ mübarək başını Kufədə nizəyə taxıb şəhərdə dolandırdı. Sonra Zəhr ibn Qeys Cofini çağırıb Hüseynin ﵇ və əshabının (nizəyə taxılmış) başlarını onun əhli-əyalı ilə birgə Yezid ibn Müaviyənin yanına göndərdi”.***[168]

İbn Teymiyyənin şagirdi olan İbn Kəsir bu haqda belə yazır:

ثمّ امر ـ ابن زياد ـ برأس الحسين عليه السلام فنصب بالكوفة وطيف به في أزقتها ثمّ سيره مع زحر بن قيس و... فخرجوا حتى قدموا بالرؤوس كلّها على يزيد بن معاوية

---

mədinəti Diməşq, c.18, səh.443, 2242-ci xəbər; Əl-Kamilu fit-tarix, c.4, səh.87

166 Ət-Təbəqat, İbn Səd, səh.81-82; Tarixut-Təbəri, c.4, səh.351; Əl-Kamilu fit-tarix, c.4, səh.83; Əl-Əxbarut-təval, səh.260; Əl-Bidayə vən-nihayə, c.8, səh.208; Tarixu mədinəti Diməşq, c.18, səh.445; Əl-Futuh c.5, səh.127

167 Ət-Təbəqat, İbn Səd, səh.81, 294-cü xəbər

168 Ənsabul-əşraf, c.3, səh.228, 58-ci hədis; Tarixu mədinəti Diməşq, c.18, səh.445; Tarixut-Təbəri, c.4, səh.35; Əl-Vafi bil-vəfəyat, c.14, səh.127.

***“Sonra İbn Ziyadın göstərişinə əsasən Hüseynin ﷺ başını nizəyə taxıb Kufənin küçələrində dolandırdılar. Daha sonra isə onu Zəhr ibn Qeys ilə (Yezidə) yolladı... Onlar (Kufədən) çıxaraq bütün başları Yezid ibn Müaviyənin hüzuruna apardılar”.***[169]

## Qadınların və körpə uşaqların əsir edilərək Yezidin hüzuruna göndərilməsi

Digər bir sübut ondan ibarətdir ki, Yezid İmam Hüseynin ﷺ qətlinə əmr verməklə yanaşı, onun Əhli-Beytini ﷺ əsir götürməyə də göstəriş vermişdi.

Təbəri yazır: ***Yezid bir məktub yazaraq göstəriş verdi ki, döyüşdə əsir edilənləri onun yanına göndərsinlər. Bu səbəbdən, Übeydullah İbn Ziyad Məxfər ibn Sələbə və Şimr ibn Zilcövşəni yanına çağırıb, qadınları və körpə uşaqları, İmam Hüseynin ﷺ mübarək başı ilə birgə əmirəlmöminin (Yezid ibn Müaviyə) yanına aparmalarını göstəriş verdi. Onlar Kufədən yola düşüb birbaşa Yezidin hüzuruna çatdılar. Yezid İmam Hüseynin ﷺ mübarək başını görən kimi bir beyt şer oxudu:***

يفلّقن هاماً من رجال أعزة *** علينا وهم كانوا أعق وأظلما؛

***“Bizim əmrimizdən boyun qaçıran, bizə qarşı əzəmətli böyük güc göstərən kəslərin başları bədənindən ayrılıb”.***[170]

İbn Səd isə bu haqda belə yazır:

قدم رسول من قبل يزيد بن معاوية يأمر عبيدالله أن يرسل إليه بثقل الحسين ومن بقي من ولده وأهل بيته ونسائه؛

***“Yezid tərəfindən bir elçi gəlib Übeydullaha*** *(İbn Ziyada – red.)* ***Hüseynin ﷺ yükünü*** *(başını – red.)* ***onun övladlarından, əhli-əyalından və qadınlarından sağ***

[169] Əl-Bidayə vən-nihayə, c.8, səh.208
[170] Tarixut-Təbəri, c.4, səh.355

***qalmışlarla birgə Yezid ibn Müaviyənin hüzuruna göndərməsi əmrini verdi”.***[171]

İbn Cövzi də eynisini nəql etmişdir.[172]

Kərbəla hadisəsindən 1200 il sonra yaşamış Şəhabuddin Alusi bu mövzu haqda belə deyir: ***Əsirləri Yezidin yanına apardılar. Yezid əmirəl-möminin Əlinin ﷺ və İmam Hüseynin ﷺ xanımlarına və uşaqlarına nəzər saldı. Nizələrə sancılmış kəsik başlar da əsirlərin yanında idi. Birdən bir qarğa səs-küy saldıqda Yezid bu şeiri oxudu:***[173]

لمّا بدت تلك الحمول وأشرفت *** تلك الرؤوس على شفا جيرون نعب الغراب فقلت: قل أو لا تقل *** فقد إقتضيت من الرسول ديون

***Elə ki, həmin əsirlər gösəndi, həmin (nizədəki) başlar Ceyrunun (məntəqə adı – red.) kənarında parıldadı (aşkar oldu – red.), qarğalar qarıldadılar. Mən də bu zaman dedim: Desən də, deməsən də Peyğəmbərdən ﷺ (bizə olan qan) borclarını aldım***.

Onlar açıq şəkildə qeyd edirlər ki, Yezid Əhli-Beytin ﷺ əsirlərini və Kərbəla şəhidlərinin başlarını görən kimi sevinc hissi keçirdi və həmin münasibətə görə şərab məclisi bərpa etdi. İbn Səd “Ət-Təbaqatul-kubra” əsərində bu mövzuya toxunaraq əlavə edir ki, Yezid əlindəki qamışdan olan çubuqla İmam Hüseynin ﷺ dodaqlarına vuraraq bu beyti oxuyurdu:

يفلّقن هاماً من رجال أعزة *** علينا وهم كانوا أعق وأظلما

***“Bizə qarşı güc göstərən mühüm şəxslərin (başları bədənindən) ayrılıb, onlar üsyankar və zülmkar idilər”.***

Həmin məclisdə Ənsardan olan bir kişi üzünü Yezidə çevirərək dedi:

---

[171] İbn Sədin “Ət-Təbəqat” kitabında İmam Hüseynin ﷺ tərcümeyi-halından bəhs edən fəsil, səh.81

[172] Ər-Rəddu ələl-mutəəssibil-ənid, səh.56

[173] Ruhul-məani, c.26, səh.72

ارفع قضيبك هذا، فإني رأيت رسول الله صلى الله عليه وآله يقبل الموضع الّذي وضعته عليه؛

***"O çubuğunu (tutduğun yerdən) götür. Sənin çubuğu qoyduğun yerdən Peyğəmbərin ﷺ öpdüyünü görmüşəm".*** [174]

Bu mövzunu hətta Əhli-Beytə عليهم السلام ədavət bəsləyən, imamların عليهم السلام əleyhinə çoxlu sözlər demiş Təbəri, Bəlazuri və İbn Cövzi kimi əhli-sünnə alimləri də nəql etmişlər.[175] İbn Cövzi bu haqda belə yazır: ***"Kəsilmiş başları Şama apardıqdan sonra Yezid bir məclis qurdu. Şam əhalisinin nüfuzlu şəxslərinin də iştirak etdiyi həmin məclisdə əlindəki çubuqla kəsilmiş başa vuraraq dedi..."***[176]

İbn Səd "Ət-Təbəqatul-kubra" kitabında yazır:

ثمّ أُتي يزيد بن معاوية بثَقَل الحسين ومن بقي من أهله ونسائه، فأُدخلوا عليه قد قرنوا في الحبال، فوقّفوا بين يديه؛

***"Hüseynin عليه السلام başını, həmçinin əhli-əyalından və qadınlarından sağ qalanları Yezidin yanına gətirdilər. Onları əl-qolu bağlı vəziyyətdə Yezidin yanına*** *(sarayına – red.)* ***daxil edib, onun qarşısında saxladılar".*** [177]

Zəhəbi Peyğəmbər ﷺ ailəsinin əsirliyini və Yezidin ürək dağlayan məclisini təsvir edərək yazır ki: ***Əsirləri Yezidin yanına göndərdilər. Bu zaman İmam Səccadın عليه السلام qolu zəncirlənmişdi. Yezidin əlində bir çubuq vardı... və deyirdi... Elə bu əsnada, İmam Səccad عليه السلام aşağıdakı Quran ayəsini tilavət etdi:***

ما أَصاب من مصيبة في اْلأَرضِ ولا في أَنفُسِكُم إِلاّ في كتاب من قَبلِ أَنْ نبرأَها؛

---

[174] İbn Sədin "Ət-Təbəqat" kitabında İmam Hüseynin عليه السلام tərcümeyi-halı, səh.82

[175] Tarixut-Təbəri, c.4.səh.293; Ənsabul-əşraf, səh.219, 217-ci xəbər; Ər-Rəddu ələl-mutəəssibil-ənid, səh.58

[176] Ər-Rəddu ələl-mutəssibil-ənid c.57, səh.59

[177] İbn Sədin "Ət-Təbəqat" kitabında İmam Hüseynin عليه السلام tərcümeyi-halı, səh.83

***“Həm Yer üzündə (zəlzələ, qıtlıq və hərc-mərclik kimi), həm də sizin özünüzdə (yaralanmaq, xəstəlik və ölüm kimi) nə müsibət üz verirsə, Biz onu yaratmamışdan qabaq Kitabda (Lövhi-məhfuzda) qeyd edilmişdir”.***[178]

İmamın عليه السلام bu sözü Yezidi pərt etdi, çünki o, şeir deyir İmam Səccad عليه السلام isə Qurani-Kərimdən misal çəkirdi. Məcburiyyətdən o da bir Quran ayəsi oxudu:

وما أَصابكُم من مصيبة فَبِما كَسبت أَيديكُم ويعفُوا عن كَثير

***“Sizə yetişən müsibətlər özünüzün qazandığınız günahlara görədir və O, (hələ) onların çoxundan keçir”.***[179]

Bu, bir atmaca idi, yəni Hüseynin عليه السلام başına gələnlər öz ucbatından olub. İmam Səccad عليه السلام buyurdu: ***“Əgər Allah Rəsulu ﷺ bizi bu vəziyyətdə görsəydi, dərhal bizi bu zəncir və qandallardan azad edərdi”.***[180] Təbəri isə bu haqda belə yazır: ***“Qadınlar və uşaqlardan ibarət olan əsirləri Yezidin yanına gətirdikdə olduqca xoşagəlməz vəziyyətdə idilər”***.

Fatimə binti Əli عليه السلام buyurur: ***Bizi Yezidin məclisinə apardıqları zaman, orada Şam sakinlərindən olan bir kişi ayağa duraraq Yezidə yaxınlaşdı və məni göstərərək dedi: “Ey Əmirəlmöminin! Bu qadını mənə hədiyyə ver!” Bu zaman bütün bədənimi qorxu bürüdü və titrəməyə başladım. Narahatçılığım o həddə qədər idi ki, böyük bacım Zeynəbin عليها السلام ətəyindən yapışdım. Bacım Zeynəb عليها السلام isə həmin kişiyə belə dedi***:

كذبت والله ولؤمت، ما ذلك لك وله؛

---

[178] Hədid surəsi, ayə 22

[179] Şura surəsi, ayə 30

[180] Siyəru əlamin-nubəla, c.3, səh.319; Tarixul-islam c.5, səh.17-18; Tarixu mədinəti Diməşq c.20, səh.353; Əl-Bidayə vən-nihayə c.8, səh.211; Əl-Kamilu fit-tarix, c.4, səh.86-87

***“And olsun Allaha ki, (bizə qul, cariyə kimi baxmaqla) yalan danışdın və (bu istəyinlə) alçaqlıq etdin. Belə bir işə nə sənin, nə də Yezidin haqqı var”.***

***Yezid bu sözdən əsəbləşərək dedi: “Yalan deyirsən, and olsun Allaha! Bunların hamısı mənim əsirim və qullarımdır”. Zeynəb*** عليها السلام ***buyurdu:***

كلاّ واللّه، ما جعل الله ذلك لك إلاّ أن تخرج من ملّتنا وتدين بغير ديننا؛

***“Əsla! And olsun Allaha ki, Allah bu haqqı sənə verməyib. Bu sənin bizim dinimizdən çıxıb digər bir dini qəbul etdiyin halda mümkündür”.***

***Yezid əsəbi halda cavab verdi: “Əslində sən, sənin atan və qardaşın Allahın dinindən çıxmısınız!”***

***Bacım Zeynəb*** عليها السلام ***belə cavab verdi:***

بدين الله ودين أبي ودين أخي وجدي اهتديت أنت وأبوك وجدك؛

***“Sən və atan (Müaviyə) və baban (Əbu Süfyan) həmin Allahın dini olan, atamın, qardaşımın və babamın dini vasitəsilə azğınlıqdan hidayətə yönəlmisiniz”.***

***Yezid dedi: “Ey Allahın düşməni! Yalan deyirsən”.***

***Zeynəb*** عليها السلام ***isə belə dedi:***

أنت أمير مسلّط، تشتم ظالماً وتقهر بسلطانك؛

***“Sən səltənət sahibi bir hakimsən. Zülm edərək (bizimlə) pis danışır və öz hakimiyyətin sayəsində (bizə zorla) üstün gəlirsən”.***[181]

Əhli-Beyt عليهم السلام qadınlarının və körpə uşaqlarının əsir aparılmasına dair həqiqətlər əhli-sünnəyə aid olan qədim və mötəbər kitablardan iqtibas edilmişdir. Bu məsələni bəyan etməklə xanımların və uşaqların həzrət İmam Hüseynlə عليه السلام birlikdə getmələrinin sirrinə aydınlıq gətirmək istədik. Bu baş verənləri şiələr qondarıb? Əsla belə deyil!

---

[181] Tarixut-Təbəri, c.4 səh.353; Əl-Bidayə vən-nihayə, c.8, səh.194; Tarixu mədinəti Diməşq, c.69, səh.177; Əl-Kamilu fit-tarix, c.4, səh.86 və digər mənbələr.

Böyük şiə alimlərinin minbərdə İmam Hüseynin (عليه السلام) şəhadətinə dair söylədikləri mövzuların hamısı haqq və həqiqətdir və heç kəs buna şübhə edə bilməz. Əhli-sünnə nümayəndələri də bu tarixi həqiqətləri araşdıraraq qeyd etmişlər. Bu həqiqətlər yalnız Şeyx Mufid, Şeyx Tusi, Seyid ibn Tavus və Əllamə Məclisi və digər şiə alimləri tərəfindən nəql edilməmişdir. Hətta Əhli-Beytlə (عليهم السلام) heç bir əlaqəsi olmayanlar belə həmin tarixi hadisəni bacardıqları həddə qədər nəql etmişlər. Bəli, Allah-Təala bu həqiqətlərin və Kərbəlada İmam Hüseynə (عليه السلام) qarşı edilən zülmlərin gizlin qalmasını istəməmişdir. Allahın istək və iradəsi belədir, bu nuru sönməyə qoymaz. Biz də Allah-Təalanın istəyinin həyata keçməsi üçün lazımi vasitələri tədarük etməliyik. Belə ki, Allah-Təala Qurani-Kərimdə buyurur:

ويأْبى اللّه إلاّ أَنْ يتم نوره ولَو كَرِه الْكافرونَ

***"Halbuki, Allah kafirlərə xoş gəlməsə belə, yalnız öz nurunu (hətta zamanın keçməsi, ağılların kamilləşməsi və bütün aləmin islahedicisinin gəlməsi ilə olsa da) kamilləşdirmək istər".***[182]

Qeyd etmək lazımdır ki, şiələr əhli-sünnə mənbələrinə iki səbəbə görə müraciət edirlər:

1. Öz kitablarına istinad etməklə, əhli-sünnənin şübhə və ittihamlarını dəf etmək və verilən cavabları qəbul etmək məcburiyyətində qalacaqları səbəbilə.

2. Hamı bilsin ki, bütün baş vermiş bu hadisələr həm şiə, həm də sünni mənbələrində mövcuddur.

Ancaq unutmaq olmaz ki, əhli-sünnə alimləri Əhli-Beytə (عليهم السلام) dair bütün hadisələri və baş verən olayların hamısını qeyd etməmişlər. Mənim *(müəllifin – red.)* nəzərimə görə, onlar iki hadisə ətrafında baş verənlərin hamısını nəql etməmişlər:

---

[182] Tövbə sürəsi ayə.32

1. Fatimeyi-Zəhranın (عليها السلام) başına gələnlər;

2. Kərbəlada baş verənlərin necəlikləri;

Əlbəttə, biz əhli-sünnənin kitablarında qeyd olunan mövzuların hamısının doğru və dəqiq olduğunu da gözü-yumulu qəbul etmirik. Biz şiə məktəbinə müxalif olanları susdurmaq və düşmənçiliyi yatırtmaq xatirinə onların kitablarına müraciət edirik. Yoxsa bizim məzhəbin alimləri istər tarixi, istər qeyri-tarixi olsun, bütün həqiqətlərin qorunub nəql olunmasında olduqca zəhmət çəkmişlər. Onların nəql etdikləri bizim üçün başqalarının nəql etdiyindən daha önəmlidir. Amma nə edək ki, din düşmənləri məqalələrində və yaxud internet səhifələrində bizim etiqadımıza hücum edirlər və bu etiqadı qorumaq isə bizim ümdə vəzifəmizdir.

## Yezidin rüsvay olması və Dəməşq şəhərində durumun dəyişməsi

Az bir müddət keçdikdən sonra Dəməşq şəhərində maraqlı dəyişikliklər baş verdi. Əsirlər şəhərə gətirildikdən qısa müddət sonra Yezid peşman olduğunu dilə gətirdi. Görəsən, hansı amillər bu dəyişkənliyə və nəticədə Yezidin rüsvay olmasına gətirib çıxardı? Bəni-Üməyyə hökumətinin paytaxtı Dəməşq şəhərini alt-üst edən, insanlara agahlıq verən və son olaraq Yezidi başıaşağı edən amillər aşağıdakılardan ibarətdir:

### 1. İmam Hüseynin (عليه السلام) nizəyə taxılmış başının Quran oxuması

Amillərdən biri həzrət İmam Hüseynin (عليه السلام) pak başının nizədə Quran oxuması idi. Şam əhlindən olan İbn Əsakir deyir: İmam Hüseynin (عليه السلام) nizədəki pak başını Şamda üç

gün bir yerə sancmışdılar. Kəsilmiş baş Quranın bu ayəsini oxuyurdu:[183]

أَم حسِبت أَنَّ أَصحاب الْكَهف والرقيمِ كانوا من آياتنا عجبا

***"Yoxsa (yüz illərlə yatıb ayılan) o böyük mağara yoldaşlarının (əshabi-kəhfin) və o yazılı lövhə sahiblərinin (əhvalatlarının) Bizim ayə və nişanələrimizdən (daha) heyrətləndirici olmasını güman etmisən?"***[184]

Bu hadisə düşüncə və etiqad cəhətdən zəif olan bəzi şiələri belə heyrətə sala bilər. İmam Hüseynin ﷺ kəsilmiş pak başının Quran ayəsini tilavət etməsi anlaşılmaz ola bilər. Ancaq bu mövzunun əhli-sünnə mənbələrində qeyd edildiyini qəbul edərlər! Görəsən, bəziləri niyə belə düşünür axı?! Bəli, elə bir dövrə gəlib çıxmışıq ki, Şeyx Səduq, Şeyx Tusi və ya Əllamə Məclisidən nəql olunan bir rəvayətlə rastlaşdıqda bəziləri onu qəbul etməkdə çətinlik çəkir. Ancaq "həmin mövzunu filan sünni alimi də nəql etmişdir" dediyimizdə olduqca maraq göstərərək qəbul edirlər!

**2. İmam Səccadın ﷺ Dəməşq şəhəri məscidindəki çıxışı**

Şam əhalisini agah edən və Yezidə başıaşağılıq gətirən ikinci səbəb İmam Səccadın ﷺ Dəməşq məscidindəki bir xütbəsi oldu. Həmin məşhur xütbəni İbn Əsəm Kufi (v.304 h.q.), Xarəzmi və başqaları da nəql etmişlər.[185]

**3. Dəməşq şəhərində üçgünlük ümumi matəm**

Qeyd etdiyimiz iki səbəb üzündən Dəməşq şəhərinin vəziyyəti dəyişdi. Bəlazuri, İbn Səd, Təbəri və digərləri nəql

---

[183] Tarixu mədinəti Diməşq, c.60, s.370

[184] Kəhf surəsi ayə 9

[185] Əl-Futuh, c.5, səh.133; Məqtəlul-Huseyn, c.2, səh.76-78; Məqatilut-talibyyin, səh.81; Mənaqibu ali-Əbitalib c.3, səh.261

edir ki, Yezid belə bir göstəriş verdi ki, Əhli-Beytdən ﷺ olan qadınlar onun evinə aparılsın, Əbu Süfyan ailəsindən olan qadınlar da onları qəbul edərək İmam Hüseynə ﷺ əzadarlıq mərasimi keçirsinlər. Bu göstərişin ardından üç gün İmam Hüseyn ﷺ və onun şəhid olmuş köməkçilərinə matəm məclisi keçirdilər.[186]

Bəlazuri əlavə edərək yazır:

وبعث يزيد برأس الحسين إلى نسائه فأخذته عاتكة ابنته ـ وهي أم يزيد بن عبدالملك فغسلته ودهنته وطيبته؛

***"Yezid Hüseynin ﷺ başını onun qadınlarına göndərdi. Onun qızı və Yezid ibn Əbdülməlikin anası olan Atikə başı götürdü, yuyub, yağlayıb üzərinə ətir səpdi".***[187]

**4. İmam Səccadın ﷺ "məvəddət" ayəsinin nazil olma səbəbinə istinad etməsi**

Qeyd etdiyimiz kimi İmam Səccad ﷺ Dəməşq məscidində mühüm bir xütbə söylədi. Bundan əlavə, bir şamlı kişi İmam Səccada ﷺ belə dedi: ***"Şükür Allaha ki, sizi məğlub edərək fitnəni yatızdırdı".*** Həmin kişinin sözünə cavab olaraq İmam Səccad ﷺ buyurdu:

أقرأت القرآن؟

***"Quran oxumusanmı?"***

Dedi: ***"Bəli".*** İmam ﷺ buyurdu: ***"«Ha mim ailəsi» surəsini oxumusanmı?"*** O dedi: ***"Quranı oxumuşam, ancaq bu surəni xeyr oxumamışam".*** İmam ﷺ yenə buyurdu: ***"Allah-Təalanın nazil etdiyi bu ayəni oxumusanmı:***

قُلْ لا أَسئَلُكُم علَيه أَجرا إِلاَّ الْمودةَ في الْقُرب

---

[186] Ənsabul-əşraf, c.3, səh.214, 62-ci xəbər; Ət-Təbəqat, səh.83; Tarixut-Təbəri, c.4, səh.353; Əl-Bidayə vən-nihayə, c.8, səh.212; Tarixu mədinəti Diməşq, c.69, səh.177

[187] Həmin mənbə

***De: “Sizdən bunun (ilahi tapşırıqların çatdırılmasının) müqabilində qohumların barəsində (qəlb və əməldə olan) məhəbbətdən başqa bir muzd istəmirəm”.***[188]

Həmin kişi dedi: ***“Bu ayə sizin haqqınızdamı nazil olub?”***

İmam ﷷ buyurdu: ***“Bəli”.***[189]

**5. İmam Səccadın ﷷ Minhal ilə söhbəti**

İbn Əsəm yazır ki, bir gün İmam Səccad ﷷ Dəməşq bazarında hərəkət edərkən Minhal ibn Əmr Saibi ilə üzləşdi. Minhal İmamdan ﷷ soruşdu: ***“Ey Peyğəmbər balası əhvalınız necədir?”*** İmam ﷷ buyurdu:

امسينا كبني إسرائيل في آل فرعون ؛ يذبحون أبناءهم ويستحيون نساءهم . يا منهال! أمست العرب تفتخر على العجم لأنّ محمداً منهم، وأمست قريش تفتخر على سائر العرب بأنّ محمداً منها، وأمسينا أهل بيت محمد ونحن مغصوبون مظلومون مقهورون مقتلون مثبورون مطرودون. فإنا لله وإنا إليه راجعون، على ما أمسينا فيه يا منهال

***“Bəni-İsrailin Firon ailəsi yanında olduğu kimi, oğlanları öldürülən, qadınları isə sağ buraxılan haldayıq. Ey Minhal! Ərəblər Muhəmməd ﷺ onlardan olduğu üçün əcəm*** *(qeyri-ərəblər – red.)* ***qarşısında öyünürlər, Qüreyş isə digər ərəblər arasında Peyğəmbərin ﷺ həmin qəbilədən olduğuna görə öyünür. Halbuki biz Peyğəmbərin ﷺ Əhli-Beyti isə (haqqımız) qəsb edilmiş, zülmə məruz qalmış, (zorla) boyun əydirilmiş, qətlə yetirilmiş, həlak olmuş və qovulmuş haldayıq. Bu halda***

---

[188] Şura surəsi, ayə 23

[189] Təfsirut-Təbəri, c.25, səh.33-34; Bəhrul-muhit, c.7, səh.516; Əd-Durrul-mənsur, c.6, səh.7; Ruhul-məani, c.25, səh.31; Təfsiru İbn Kəsir c.4, səh.121

***olsaq da "həqiqətən biz Allahdanıq və həqiqətən, Ona tərəf dönəcəyik", ey Minhal!"***[190]

Beləliklə, bütün bu amillər üzündən:

İmam Hüseynin ﷺ nizəyə taxılmış pak başının Quran oxuması;

İmam Səccadın ﷺ xütbəsi;

İmam Səccadın ﷺ Quran ayəsinə istinad etməsi;

Qadınların matəm mərasimi keçirtmələri;

İmam Səccadın ﷺ Minhal ilə söhbəti, şam əhalisinin oyanmasına, cəmiyyətdə dəyişkənliyə və nəhayət, Yezidin peşmançılıq hissi keçirdiyini izhar etməsinə gətirib çıxardı.

## Yezidin məclisində Peyğəmbər səhabəsinin etiraz etməsi

Öncə də qeyd edildiyi kimi, Yezid Əhli-Beyt ﷺ əsirləri, İmam Hüseynin ﷺ və digər şəhidlərin başlarının yanına gətirildiyi zaman ümumi bir şərab məclisi bərpa edir. Həmin məclisdə əlindəki çubuqla İmam Hüseynin ﷺ dodaqlarına və dişlərinə vurur. Bu zaman Əbu Bərrə Əsləmi Ənsari birdən ayağa qalxaraq Yezidə deyir: ***"Dəyərli və olduqca qiymətli dodağa və dişə çubuq vurursan?! Həmin yerdən Peyğəmbərin ﷺ öpdüyünü öz gözlərimlə görmüşəm.***[191] ***Bil və agah ol! Qiyamət günü sənə İbn Ziyad şəfaət edəcək. Ancaq Hüseynə ﷺ Muhəmməd ﷺ şəfaət edəcəkdir".***

Bu zaman Yezid qalxaraq məclisi tərk etdi.[192]

---

[190] Əl-Futuh, c.5, səh.133

[191] Əl-Kamilu fit-tarix, c.4, səh.85

[192] Əl-Kamilu fit-tarix, c.4, səh.85; Əl-Bidayə vən-nihayə, c.8, səh.209; Təhzibul-kəmal, c.6, səh.429; Siyəru əlamin-nubəla, c.3.səh.309

## İmam Hüseynin عليه السلام mübarək başı Şama gətirilən zaman tabeindən olan bir nəfərin sözləri

Xalid ibn Ğüfran Şamın nüfuzlu şəxsiyyətlərindən və o dövrdə olan tabeinlərin böyüklərindən hesab olunurdu. İbn Əsakir deyir ki, İmam Hüseynin عليه السلام pak başını Şama gətirdikləri zaman Xalid ibn Ğüfran gizlənərək gözə dəymədi. Təxminən, bir il onun sorağına düşüb axtardılar. Onu tapdıqdan sonra insanlardan uzaqlaşması və gözdən itməsi səbəbini soruşduqda belə cavab verdi: ***“Başımıza gələnləri görmürsünüzmü?”*** Ardınca isə aşağıdakı beytləri oxudu:

جاؤوا برأسك يابن بنت محمد! *** متزملا بدمائه تزميلا وكأنما بك يابن بنت محمد! *** قتلوا جهاراً عامدين رسولا قتلوك عطشاناً ولم يترقّبوا *** في قتلك التتريل والتأويلا ويكبرون بأن قتلت وإنما *** قتلوا بك التكبير والتهليلاً

***Sənin başını gətirdilər, ey Muhəmmədin ﷺ qızının عليها السلام oğlu – qanına qəltan olmuş halda.***

***Sanki səninlə*** *(səni qətl etməklə -red.)****, ey Muhəmmədin ﷺ qızının عليها السلام oğlu – açıq-aşkar, bilərəkdən Peyğəmbəri ﷺ öldürdülər.***

***Səni susuz öldürdülər, sənin qətlin barədə tənzil və təvili*** *(Quranın hökmünü – red.)* ***gözləmədilər*** *(gözardı etdilər – red.)****.***

***Öldürüldün deyə təkbir deyirlər, lakin onlar səninlə təkbiri və təhlili*** *(la ilahə illəllah deməyi (yəni İslamı) – red.)* ***öldürdülər.***[193]

---

[193] Tarixu mədinəti Diməşq, c.16, səh.181; Təhzibul-kəmal, c.6, səh.448; Əl-Bidayə vən-nihayə, c.6, səh.261 və c.8, səh.216.

## Dəməşq şəhərinin vəziyyətinə dair tarixçilərin rəvayət etdikləri

Şamda baş verən olaylar, bundan əlavə, Yezidin küfr dolu şeiri, əsirlər və İmam Hüseynin ﷺ kəsilmiş mütəhhər başı ilə nalayiq davranması, əhalinin tez bir zamanda həqiqəti öyrənməsinə səbəb oldu. Yezid sevincini və şadlığını, qəm-qüssə və kədərlə əvəzləməyə məcbur oldu. Tarixçilər həmin dəyişkənlikləri də qeyd etmişlər. Belə ki, Təbəri bu haqda yazır ki: ***"İbn Ziyad Əhli-Beytdən ﷺ əsir edilmişlərlə İmam Hüseynin ﷺ mübarək başını Şama göndərdi. Yezid ilk başda onu xoşlamasa da, İbn Ziyada razılığını bildirdi. Ancaq çox keçmədən bu qətldən peşman olduğunu etiraf etdi".***[194]

Təbərinin nəql etdiyini, Zəhəbi də ona irad tutmadan nəql etmişdir.[195] Yezid ilk başda həmin cinayət və qətllərdən o qədər sevinc hissi duymuşdu ki, İbn Ziyadın maaşını belə artırmışdı!

İbn Əsir bu haqda yazır: ***"İmam Hüseynin ﷺ başını Yezidin yanına gətirdikləri zaman İbn Ziyadın məqamı onun nəzərində o qədər yüksəldi ki, ona mükafat verməklə yanaşı aylıq məvacibini də artırdı. Ancaq çox keçmədən insanlar bu əməlinə görə, Yezidə həqarət və lənət yağdırdılar, insanların qəzəbi nəticəsində Yezid peşman olduğunu bəyan etdi".*** [196]

Cəlaləddin Suyuti isə belə yazır: ***"Hüseyn ﷺ və qardaşları öldürüldükdən sonra, İbn Ziyad onların kəsilmiş başlarını Yezidə göndərdi. Yezid ilk olaraq bu məsə-***

---

194 Tarixut-Təbəri, c.5, səh.506

195 Tarixul-İslam, c.5, səh.20, 61-ci ildə baş verə hadisələr; Siyəru əlamin-nubəla, c.3, səh.317

196 Əl-Kamilu fit-tarix, c.4, səh.85-86

***ləyə sevindi, sonradan isə müsəlmanların öldürülməsinə görə peşman olduğunu izhar etdi. Bu isə insanların ondan üz çevirməsinə səbəb olmuşdu, əhalinin ona qəzəblənməsi də yersiz deyildi”.***[197]

Xanımların və azyaşlı uşaqların da İmam Hüseynlə ﷷ birgə Kərbəlaya getmələrinin sirri də aydın olur. İmam Hüseyn ﷷ şəhid ediləcəyini bildiyi halda xanımları və uşaqları da özü ilə aparır ki, onların əsir düşmələri ilə Kərbəla hadisəsinin həqiqətləri gizli qalmasın və hamı üçün aşkar edilsin. Beləliklə, Yezidin Kərbəla hadisəsindəki rolu aydınlaşdı.

---

[197] Tarixul-xuləfa, səh.208

# ÜÇÜNCÜ FƏSİL

# KUFƏ ƏHALİSİNİN İMAM HÜSEYNİN عليه السلام ŞƏHADƏTİNDƏKİ ROLU

## İmam Hüseyni عليه السلام dəvət edən kufəlilər

Öncədən də qeyd edildiyi kimi, Kufə əhalisinin bir qrupu məktub yazaraq və ya nümayəndə göndərərək israrla İmam Hüseyni عليه السلام Kufəyə dəvət edirdilər. Bu bölümdə həmin şəxslərin kimliyini araşdırmağa çalışacağıq. İndi isə bizi belə bir sual düşündürür, Hüseyni عليه السلام Kufəyə dəvət edənlər Əhli-Beytin عليهم السلام həqiqi və doğru şiələridir ya yox? Əgər həqiqətən, onlar şiə idilərsə, onların aqibəti nə ilə nəticələnmişdir?

Vəhhabilər və onların davamçıları bu sualı ortaya ataraq belə söyləyirlər: ***“Şiələrin özləri İmam Hüseyni عليه السلام Kufəyə dəvət etmiş, özləri də onu qətlə yetirmişlər, indi isə ona matəm saxlayırlar!”*** Bu söz şübhədən başqa bir şey deyil, buna təhqiq və araşdırma yolu ilə cavab verilməlidir və araşdırma səbəbilə İmam Hüseyni عليه السلام Kufəyə dəvət edənlərin kimliyi müəyyən edilməlidir. Əlbəttə, dəvət edənlərdən məqsədimiz qəbilələrin sıravi fərdləri deyil, Kufə şəhərinin tanınmış nüfuzlu və zadəgan təbəqəsindən olanları nəzərdə tuturuq. Həqiqətən, görəsən, İmam Hüseyni عليه السلام Kufəyə kimlər dəvət edib? Bu sualı cavablandırmaq üçün Kufə şəhərinin həmin dövrdəki ümumi və ictimai vəziyyətini araşdırmalıyıq.

Kufədə vəziyyət heç də yaxşı deyildi. Göstərişə əsasən, Numan ibn Bəşir əhali ilə mülayim davranırdı. Hamıya təhlükəsiz atmosfer yaratmışdı, belə ki, həzrət Müslimin عليه السلام tərəfdarları yavaş-yavaş müəyyən edilərək tanınmağa başlanmışdı. Belə bir durumda Yezid Sərcunla məşvərət etdi.

O, Yezidə dedi: ***“Əgər atan (Müaviyə) dirilib gəlsə və sənə əmr etsə, sən o əmrə tabe olacaqsanmı?”*** Yezid dedi: ***“Bəli!”*** Bu vaxt Sərcun Müaviyənin yazmış olduğu məktubu çıxarıb Yezidə göstərdi. Həmin məktubda Müaviyə öz dəst-xəttilə Übeydullah ibn Ziyadın Kufəyə vali təyin etdiyini yazmış və zamanı çatanda onu Yezidə təqdim etməsi üçün Sərcuna tapşırıq vermişdi. Bu mövzu əksər mənbələrdə qeyd olunmuşdur.[198] Bizim iddia etdiyimizə - İmam Hüseynin (عليه السلام) Müaviyənin öncədən qurduğu plan əsasında şəhid edilməsinə - dair sübutlardan biri Sərcunun Yezidə verdiyi məktub və bundan sonra baş verənlərdir. Yezid atasının yazmış olduğu hökmlə birlikdə bir məktub yazaraq İbn Ziyada göndərdi. Özünün yazdığı məktubda belə qeyd etmişdi:

***“Müslimi ya həbs edib yanıma göndərirsən, ya da onu qətlə yetirirsən”***.

Digər tərəfdən, Kufənin sabiq valisi hörmət və izzətlə Şama yollandı. Şama çatdıqdan sonra Yezid onu Şamın ali məhkəməsinə sədr təyin etdi. Halbuki o, əgər Kufədə səhlənkarlıq etmiş olsaydı, Yezid onu məzəmmət edərək cəzalandırmalı idi. Ancaq göründüyü kimi onu vəzifəyə təyin etdi, hətta azacıq vaxtdan sonra onu Homs şəhərinə vali təyin etdi. Zəhəbi Numan haqqında belə yazır ki, o, Müaviyənin yaxın adamlarından idi.[199] Baş vermiş bu qədər hadisədən sonra Numanın həzrət Müslim (عليه السلام) və dostları ilə mülayim davranmasının öncədən müəyyən edilmiş plana uyğun olduğunu anlamaq yenə də çətindir?!

---

[198] Əl-İrşad c.2, səh.42; Tarixut-Təbəri, c.4, səh.258; Əl-Futuh, c.5, səh.36; Məqtəlul-Huseyn, c.1, səh.164; Əl-Bidayə vən-nihayə, c.8, səh.164; Tarixu İbn Xəldun, c.3, səh. 22; Təhzibut-təhzib, c.2, səh.302; Əl-İmamə vəs-siyasə, c.2, səh.8 (bu kitabda Sərcunun adı çəkilməmişdir); Əl-Kamilu fit-tarix, c.4, səh.22-23; Təhzibul-kəmal, c.6, səh.423

[199] Tarixul-İslam, c.5, səh.262

## Məkkə valisi Əmr ibn Səidin amannaməsi

Öncə də işarə etdiyimiz kimi, İmam Hüseyn (ə) Məkkəni tərk etmək qərarına gələndə Əmr ibn Səid ona bir məktub yazdı. Məktubda Hüseynə (ə) nəsihət verərək nifaq və fitnə əhlinə qarşı ehtiyatlı olmasını tövsiyə etmiş və demişdir ki, əgər Yezidin adamlarının səni öldürməsindən qorxursansa, mən sənə amannamə verməyə hazıram.[200] Bu məktub Məhəmməd ibn Hənəfiyyə və ya Abdullah ibn Cəfərin istəyi və xahişinə əsasən yazılmışdı. Maraqlısı budur ki, İmam Hüseyn (ə) həmin məktuba etina etməyərək yoluna davam etdiyi təqdirdə üzdə özünü canı yanan kimi göstərən həmin şəxs ibn Ziyada belə bir məktub göndərir: ***"Hüseyn (ə) İraqa gəlir, icra etməli olacağın işi yerinə yetir".***

## İmam Hüseynin (ə) öz şəhadətindən xəbər verməsi

İmam Hüseyn (ə) həmişə öz şəhadətindən xəbər verərdi. Bu məna onun ***"məni qətlə yetirəcəklər"*** ifadəsindən anlaşılırdı. İmam Hüseynin (ə) Mədinədə oxuduğu iki beyt şeir, onun şəhadətə yetəcəyini aşkar şəkildə bəyan edirdi. O, həmişə özünü Zəkəriyyə (ə) peyğəmbərin oğlu Yəhya (ə) ilə müqayisə edərək belə buyurardı:

من هوان الدنيا على الله أنّ رأس يحيى اهدي إلى بغي من بغايا بني إسرائيل؛

***"Dünyanın** (dünya əhlinin – red.) **Allaha qarşı ən alçaq işlərindən biri də o olmuşdur ki, Yəhyanın (ə) başı (kəsilərək) Bəni-İsrailin azğınlarından birinə hədiyyə aparılmışdır".*** [201]

---

[200] Ət-Təbəqat, səh.59; Tarixu mədinəti Diməşq, c.14, səh.209; Əl-Bidayə vən-nihayə, c.8, səh.178; Təhzibul-kəmal, c.6, səh.418-419; Tarixut-Təbəri c.4, səh.292

[201] Əl-İrşad, c.2, səh.132; Mənaqibu ali Əbi Talib c.3, səh.237; Əl-Luhuf, səh.22

## İmam Hüseynin ﷺ öz yuxularını yozması

İmam Hüseyn ﷺ yol boyu yuxularını danışardı və ondan yuxu haqda sual edildikdə belə buyurardı:

قد رأيت هاتفاً يقول أ نتم تسرعون والمنايا تسرع بكم إلى الجنة

***"Yuxuda bir şəxsin belə səsləndiyini eşitdim: Siz sürətlə irəli getdiyiniz halda, ölüm də sizləri sürətlə Cənnətə tərəf aparır".***[202]

Başqa bir yuxu haqda isə belə buyurmuşdu:

رأيت كلاباً تنهشني أشدها علي كلب أبقع؛

***"Məni dişləyən itlər gördüm və onların arasında mənə qarşı ən amansızı xallı bir it idi".***[203]

Hüseynin ﷺ bu yuxusu Şimr ibn Zilcövşənə aid edilmişdir və həzrət ﷺ özü də bu mövzuya işarə etmişdir.[204]

İmam Hüseyn ﷺ yola düşərkən bəziləri üzrxahlıq edərək ona qoşula bilməyəcəklərini söyləmişlər. İmam ﷺ onlara cavab verərək buyurmuşdu: ***"Buralardan uzaqlaşın! Bizim tənha qaldığımızı eşidən və bizə yardım etməyə gəlməyən şəxsi Allah-Təala üzüüstə Cəhənnəm oduna atacaqdır".***[205]

Belə olan təqdirdə İmam Hüseyn ﷺ öz şəhadətindən xəbərsiz idimi? İmam Hüseyn ﷺ bəzi məkanlarda sinəsinə işarə edərək belə buyurmuşdur: ***"And olsun Allaha! Bunlar mənim ürəyimi sinəmdən parçalayıb çıxarmaq üçün dəvət edirlər!"***[206]

---

[202] Əl-Luhuf, səh.43

[203] Kamiluz-ziyarat, səh.157, 23-cü fəsil, 19-cu hədis

[204] Kamiluz-Ziyarat, 157, 23-cü fəsil, 19-cu hədis

[205] Ricalu Şeyx Tusi və Ricalu Kəşşi, Əmr ibn Qeys Məşriqinin tərcümeyi-halı

[206] Əl-İrşad, c.2, səh.76; Əl-Kamilu fit-tarix, c.4, səh.39; Tarixu mədinəti Diməşq, c.14, səh.216; Tarixut-Təbəri, c.4, səh.296; Əl-Bidayə vən-nihayə, c.8, səh.183

İmam Hüseyn ﷺ Məkkədən çıxarkən belə buyurdu:

والله لأن أقتل خارجاً منها بشبر أحب إليّ من أن أقتل داخلاً منها بشبر ؛

***"And olsun Allaha! Məkkədən bir qarış belə kənarda öldürülsəm daha yaxşıdır, nəinki Məkkənin bir qarış belə daxilində qətlə yetirilmiş olsam".***[207]

Abdullah ibn Abbas bu haqda belə söyləmişdi: ***"Bizə - Əhli-Beytə ﷺ bəlli idi və bu barədə heç bir şübhəmiz yox idi ki, Hüseyn ibn Əli ﷺ Kərbəlada şəhid ediləcək".***[208]

Digər bir rəvayətdə İbn Abbasın belə söylədiyi nəql olunmuşdur:

إنّ اصحاب الحسين لم ينقصوا رجلاً ولم يزيدوا رجلاً نعرفهم بأسمائهم من قبل شهودهم؛

***"Hüseyn ﷺ əshabı nə azalıb, nə də çoxalıb. Biz onları şəhadətlərindən öncədən belə adları ilə tanıyırdıq".***[209]

Məhəmməd ibn Hənəfiyyə bu haqda belə demişdir:

وانّ اصحابه عندنا لمكتوبون بأسمائهم وأسماء آبائهم.

***"Hüseynin ﷺ əshabının adları və atalarının adları bizdə yazılı halda mövcuddur".***[210]

İmam Hüseyn ﷺ cənab Müslimi ﷺ Kufəyə göndərdiyi zaman ona buyurdu:

إني موجهك إلى أهل الكوفة وهذه كتبهم إليّ، وسيقضي الله من أمرك ما يحب ويرضى، وأنا أرجو أن أكون أنا وأنت في درجة الشهداء؛

***"Mən səni Kufə əhalisinin yanına göndərirəm, bu onların mənə yazmış olduğu məktublarıdır. Allah-Təala tezliklə sənin barəndə məhəbbəti və razılığı əsasında hökm edəcəkdir. Ümid edirəm ki, (sonda) sən də, mən də şəhidlik dərəcəsində olaq".***[211]

---

207 Əl-Kamilu fit-tarix, c.4, səh.38; Tarixut-Təbəri c.3, səh.289

208 Əl-Mustədrək ələs-səhiheyn, c.3, səh.179

209 Mənaqibu ali Əbi Talib, c.3, səh.211; Biharul-ənvar, c.44, səh.185, 12-ci hədis

210 Həmin mənbə

211 Məqtəlul-Huseyn ﷺ, Xarəzmi, c.1, səh.196; Əl-Futuh, c.5, səh.31

Ravi nəql edir ki, Bəni-Əsəd qəbiləsindən olan bir ərəb İmam Hüseynə ﷷ qoşulmaq məqsədilə səhrada onun yolunu gözləyirdi. İmam Hüseynin ﷷ şəhadətindən sonra şəhidlərin arasında onun da cənazəsinə rast gəldik.[212]

İmam Hüseyn ﷷ Məkkəni tərk etdiyi zaman Ümrə binti Əbdürrəhman adlı bir qadın İmam Hüseynə ﷷ yazdığı bir məktubda belə qeyd etmişdi: ***"Şəhadət verirəm ki, Aişə mənə belə dedi: "Allah Peyğəmbərinin ﷺ "Hüseyni ﷷ Babil (İraq) ərazisində şəhadətə yetirəcəklər" deyə buyurduğunu eşitdim"***.

İmam Hüseyn ﷷ həmin məktubu oxuduqdan sonra belə buyurdu:

فلا بد لي إذا من مصرعي

***"Deməli, mütləq şəhid olacağım məkana getməliyəm".***[213]

Əlbəttə, bu, Allahın iradəsinə bağlı məsələdir, lakin zahiri səbəblər də öz rolunu ifa etmişdir. Bütün baş verənlər İmam Hüseynin ﷷ Mədinədən Məkkəyə yollandığı, Məkkədən İraqa tərəf hərəkət etdiyi ərəfədə və yolda baş verən hadisələr açıq şəkildə onu göstərir ki, Yezid hakimiyyətinin onunla davranış metodu əvvəlcədən ölçülüb-biçilmiş plana əsasən olmuşdur. Peyğəmbərin ﷺ İmam Hüseynə ﷷ yardım edilməsi əmrini vermiş olduğu halda "İmam Hüseynlə ﷷ birgə şəhid edilənlərin sayı və adı bizlərə bəllidir" deyə söyləyən İbn Abbas kimi bir şəxs, görəsən, nəyə görə İmam Hüseynə ﷷ etiraz bildirir?

İmam Hüseyn də ﷷ ona cavab olaraq belə buyurur:

إنك شيخ قد كبرت

---

[212] Ət-Təbəqat, səh.50; Tarixu mədinəti Diməşq, c.14, səh.216

[213] Tarixu mədinəti Diməşq, c.14, səh.209; Siyəru əlamin-nubəla, c.3, səh.297; Əl-Bidayə vən-nihayə, c.8, səh.176; Təhzibul-kəmal, c.6, səh.418

***“Sən yaşlısan, qocalmısan”.***[214]

Bu bir kinayədir, yəni yaddaşını itirmisən.

İmam Hüseyn (ع) Kərbəlaya gəlib çatmadan öncə belə buyurmuşdu:

اللهم إنا عترة نبيك محمد صلى اللّٰه عليه وآله وقد أخرجنا وطردنا وأزعجنا عن حرم جدنا وتعدت بنو أُمية علينا؛

***“İlahi! Biz Sənin peyğəmbərin olan Muhəmmədin ﷺ ailəsiyik. Biz babamızın hərəmindən (Mədinədən – red.) çıxarıldıq, qovulduq, sürgün edildik və Bəni-Üməyyə bizə qarşı düşmənçilik edərək həddi aşdı”.***[215]

## Peyğəmbərin ﷺ İmam Hüseynin (ع) şəhadətindən xəbər verməsi

Peyğəmbərin ﷺ İmam Hüseynin (ع) şəhadəti haqda söylədiklərini, həm şiə, həm də əhli-sünnə ard-arda nəql etmişlər. Əhməd ibn Hənbəl, Peyğəmbərin ﷺ belə buyur-duğunu deyir:

لقد دخل علي البيت ملك لم يدخل علي قبلها فقال لي: إنّ ابنك هذا حسين مقتول وإنْ شئت أريتك من تربة الأرض التي يقتل

***“Daha öncə yanıma gəlməyən mələklərdən biri evimə daxil olaraq mənə dedi: Sənin bu oğlun, Hüseyn (ع) qətlə yetiriləcək. İstəyirsənsə, öldürüləcəyi məkanın torpağını sənə göstərim”.***[216]

---

[214]Əl-Bidayə vən-nihayə, c.8, səh.178; Tarixu mədinəti Diməşq, c.14, səh.211; Siyəru əlamin-nubəla, c.3, səh.297

[215] Biharul-ənvar, c.44, səh.383

[216] Musnədu Əhməd, c.6, səh.294; Məcməuz-zəvaid, c.9, səh.187; Tarixu mədinəti Diməşq, c.14, səh.193; Mizanul-itidal, c.1, səh.13

Heysəmi qeyd edilən həmin hədisin sənədinin doğru olduğunu təkid etmişdir. Təbərani də etibarlı sənədə əsasən nəql edir ki, Peyğəmbər ﷺ buyurmuşdur:

أخبرني جبريل عليه السلام: أنّ هذا يقتل بأرض العراق للحسين. فقلت لجبريل عليه السلام أرني تربة الأرض التي يقتل ، فهذه تربتها؛

***"Cəbrail (ə) mənə Hüseyn (ə) barədə: "Bu, İraq torpağında öldürüləcək" - dedi. Mən də ona: "Onun öldürüləcəyi yerin torpağını mənə göstər" - dedim. (Peyğəmbədr ﷺ torpağı göstərərək buyurdu) Bu da həmin yerin torpağıdır".***[217]

Deməli, Peyğəmbərdən ﷺ ardıcıllıqla nəql edilən rəvayətlərə əsasən, o həzrət ﷺ İmam Hüseynin (ə) şəhadətini insanlara xatırlatmış və hətta İmam Hüseynin (ə) həmin hadisə ilə üzləşdiyini görənlərə ona yardım etmələrini belə buyurmuşdur. Ənəs ibn Haris deyir ki, özüm eşitdim ki, Peyğəmbər ﷺ belə buyurdu:

إنّ ابني هذا - يعني الحسين - يقتل بأرض يقال لها: كربلاء، فمن شهد ذلك منكم فلينصره؛

***"Bu oğlumu** (Hüseyni (ə) qəsd edir) **Kərbəla adlı bir ərazidə qətlə yetirəcəklər. Sizlərdən bu hadisəni görən kəs ona yardım etməlidir".*** [218]

Həmin bu mövzu "Xəsaisul-kübra" kitabının Peyğəmbərin ﷺ möcüzələri fəslində də nəql olunmuşdur. Belə ki,

---

[217] Əl-Mucəmul-kəbir, c.3, səh.109-110, 2821-ci hədis; Əl-Mustədrək ələs-səhiheyn c.4, səh.398 *(Hədisin Şeyxeynin (Buxari və Müslimin – red.) şərtlərinə əsasən səhih olduğunu bildirib – müəl.)*; Tarixu mədinəti Diməşq, c.14, səh.192; Siyəru əlamin-nubəla, c.3, səh.289; Əl-Bidayə vən-nihayə, c.6, səh.257

[218] Tarixu mədinəti diməşq, c.14, səh.224; Əl-Bidayə vən-nihayə c.8, səh.217; Usdul-ğabə, c.1, səh.123; Əl-İsabə, c.1, səh.271; Əl-Xəsaisul-kubra, c.2, səh.125; Kənzul-ummal, c.12, səh.126; Əl-Kamilu fit-tarix, c.1, səh.99

orada Peyğəmbər ﷺ sonradan baş verən hadisədən xəbər verdiyi yazılmışdır.

Həmin bu mövzu "Xəsaisul-kubra" kitabının "Peyğəmbərin ﷺ möcüzələri" fəslində də nəql olunmuşdur. Belə ki, orada Peyğəmbərin ﷺ sonradan baş verəcək hadisələrdən xəbər verdiyi yazılmışdır.

## Əmirəlmöminin Əli ibn Əbu Talibin (ə) İmam Hüseynin (ə) şəhadətinə dair verdiyi xəbər

Əmirəlmöminin Əli ibn Əbu Talib (ə) də İmam Hüseynin (ə) şəhid ediləcəyi haqda öncədən xəbər verərək belə buyurmuşdur:

ليقتلن الحسين قتلاً وإني لأعرف التربة التي يقتل فيها قريباً من النهرين

***"Həqiqətən Hüseyni (ə) öldürəcəklər, özü də necə bir halda öldürəcəklər! Mən onun iki çaya yaxın olan ərazidə öldürüləcəyi torpağı** (yeri – red.) **da tanıyıram".***[219]

Heysəmi "Məcməuz-zəvaid" kitabında bu hədisi rəvayət edənlərin doğru insanlar olduğunu təkidlə vurğulamışdır.[220]

Başqa bir rəvayətdə isə nəql olunur ki, Əmirəlmöminin İmam Əli (ə) Siffeyn döyüşündən dönərkən Kərbəla ərazisindən keçdikləri vaxtda İmam Hüseynə (ə) belə buyurdu:

صبراً يا أبا عبدالله، فقد لقي أبوك مثل الذي تلقي منهم.

***"Səbret, ey Əbu Abdullah** (İmam Huseynin künyəsidir – red.)**! Sənin atan sənin bunlardan** (İraq əhlindən – red.) **görəcəyin şeyləri** (vəfasızlıq, xəyanət və s. – red.) **artıq görüb".***[221]

---

[219] Əl-Mucəmul-kəbir, c.3, səh.110-111, 2824-cü hədis; Əl-Musənnəf, c.7, səh.276

[220] Məcməuz-zəvaid, c.9, səh.190

[221] Kəmalud-din və təmamun-nimə, səh.355; Əd-durrun-nəzim, səh.539; Biharul-ənvar, c.44, səh.252

Əlimizdə bu qədər dəlil olduğu halda, özlərini şiə hesab edənlər nəyə görə həqiqətləri danaraq insanların İmam Hüseynin ﷺ şəhadətindən bixəbər olduqlarını iddia edirlər?! Hətta bir az da irəli gedərək İmam Hüseynin ﷺ özünün belə şəhid olacağından xəbərsiz olduğunu söyləyirlər. Belə insanlara nə deyək? Onlar haqqında hansı hökmü verək? Bu hadisədən nəinki Peyğəmbərin ﷺ xanımları, hətta kənar xanımlar belə evlərində otura-otura xəbərdar idilər. Əlbəttə, Abdullah ibn Ömər kimi şəxsin hərəkəti təəccüb doğurmur, çünki o, ilk gündən hökumətə satılmış, Yezidin hökuməti ilə əməkdaşlığı və davranma metodu onun üçün bir əqidə və düşüncə formuluna çevrilmişdir. Həmin formul bu günə qədər əhli-sünnədə başlıca bir devizə (*hakim əleyhinə qiyam etmək olmaz – müəl.)* çevrilərək rəvac tapmışdır. O deyirdi: ***"Xalq beyət etdiyi zaman biz də xalqın rəyinə tabe olmalıyıq!"*** Onun bu addımı ideoloji bir düşüncəyə çevrilmiş və üstündən əsrlər keçsə də, bu gün də Abdullah ibn Ömərin davamçıları mövcuddur. Həmin davamçılar İmam Hüseynin ﷺ hərəkatını şəriətə uyğun gəlməyən bir qiyam hesab edirlər!

İbn Ömər İslam dininə olduqca böyük zərər vurmuşdur. Əliyə ﷺ beyət etməyən bir şəxs azacıq bir vaxtdan sonra düşüncə tərzini dəyişdirərək pul müqabilində sükuta qapılmış və dinini dünyaya satmışdır. Zahirdə müqəddəs görünüşü ilə İmam Hüseynə ﷺ ***"Sən də baban kimi ol o, dünyapərəst olmamışdır!"*** deyə söyləyərək öz təbirilə nəsihət vermişdir.[222]

Bu qeyd olunanlar İslamın qorunması və dinin yaşamasında İmam Hüseynin ﷺ şəhadəti və ailəsinin əsir düşməsinin oynadığı böyük təsirin kiçik xülasəsidir.

---

[222] Tarixu mədinəti Diməşq, c.14, səh.208

Bir sıra məclis və toplantılarda deyildiyi kimi İslam İmam Hüseynin ﴿ع﴾ şəhadətinə borcludur. Bəli, bu danılmaz bir həqiqətdir. Çünki bu hadisə dinin yaşamasına və sonda Yezid və Yezid kimilərin hakimiyyətinin süqutuna təsir etmişdir. Aydındır ki, Bəni-Üməyyə tez bir zaman içində sıradan çıxmaq üçün hakimiyyətə gəlməmişdir. Onların elə plan və proqramları var idi ki, tez və asanlıqla həmin hakimiyyəti yıxmaq mümkün deyildi. Onlar İslamın adından sui-istifadə edərək hökumət qurmuşdular. Kərbəla hadisəsi və Əhli-Beytin ﴿عليهم السلام﴾ əsirliyi, onların dinsiz olduqlarının, Allaha və Peyğəmbərə ﴿ص﴾ düşmənçiliklərinin üzə çıxmasında əhəmiyyətli rol oynadı. Din İmam Hüseynin ﴿ع﴾ şəhadətinin sayəsində yaşadı.

Bir çox tarixçilər yazır ki, İmam Hüseynin ﴿ع﴾ şəhid edilməsi və Əhli-Beytinin ﴿عليهم السلام﴾ əsir götürülməsi xəbərini Yezid eşidən kimi ilk başda sevinmiş, İbn Ziyada böyük ehtiram bəsləyərək məqamını ucaltmışdır. Ancaq qısa bir müddətdən sonra insanlar Yezidi lənətləməyə başlamışlar. Hətta iş o yerə gəlib çatmışdı ki, Yezidin əsgərləri belə ona etiraz edərək tutduğu işin qəbahət olduğunu söyləmişlər!

## İmam Hüseynə ﴿ع﴾ göndərilən məktublar

İndi isə kufəlilərin İmam Hüseyni ﴿ع﴾ dəvət etdikləri məsələsini araşdıraq. Şeyx Mufid “Əl-İrşad” kitabında rəvayət edir ki, Kufədə Süleyman ibn Surədin evində bir yığıncaq keçirildi. Süleyman bu toplantıya Kufə şəhərinin nüfuzlu şəxslərini dəvət etmişdi. O, yığıncaqda toplaşanların önündə çıxış edərək dedi:

إنّ معاوية قد هلك وإنّ حسيناً قد تقبض على القوم ببيعته، وقد خرج إلى مكّة، وأنتم شيعته وشيعة أبيه، فإن كنتم تعلمون أنكم ناصروه ومجاهدوا عدوه، فأعلموه، وإن خفتم الفشل والوهن فلا تغروا الرجل في نفسه؛

***"Bildiyiniz kimi, Müaviyə artıq həlak olub, Hüseyn (ə) isə Yezidə beyət etməyərək Məkkəyə yollanıb. Siz onun və atasının tərəfdarlarısız. (Çağıracağınız təqdirdə özünüzdən əminsizsə,) Ona yardım edəcəyinizi, düşməninə qarşı cihad edəcəyinizi bilirsinizsə, bunu ona bildirin*** *(məktubla onu dəvət edin – red.)*. ***Əgər uğursuzluq və zəyiflikdən qorxursuzsa, onu canı bahasına aldatmayın".***[223]

Süleyman İmam Hüseynin (ə) düşmənlərinə qarşı döyüşə biləcəkləri təqdirdə məktub yazıb o həzrəti (ə) dəvət etmələri üçün nüfuzlu şəxslərdən, belə demək mümkündürsə, sədaqət andı aldı. Əks halda məktub yazıb dəvət etməmələrini tövsiyə etdi. Onlar isə Süleymana cavab olaraq belə dedilər: ***"Biz onu dəvət edirik, düşməninə qarşı vuruşuruq, hətta onun yolunda canımızı belə qurban verməyə hazırıq".*** Süleyman dedi: ***"Belə olan təqdirdə o həzrətə (ə) bir məktub yazın".***

Elə həmin yığıncaqda belə bir məzmunda məktub yazdılar:

بسم اللّٰه الرحمن الرحيم للحسين بن علي عليهما السلام من سليمان بن صرد والمسيب بن نجبة ورفاعة بن شداد وحبيب بن مظاهر وشيعته من المؤمنين والمسلمين من أهل الكوفة :سلام عليك، فإنا نحمد إليك اللّٰه الّذي لا إله إلاّ هو .أما بعد ،فالحمد للّٰه الّذي قصم عدوك الجبار العنيد، الّذي انتزى على هذه الأمة فابتزها أمرها، وغصبها فيئَها وتأمر عليها بغير رضى منها، ثمّ قتل خيارها واستبقى شرارها، وجعل مال اللّٰه دولةً بين (جبابرا وأغنيائها)، فبعداً له كما بعدت ثمود. إنه ليس علينا إمام، فأقبل لعلّ اللّٰه أن يجمعنا بك على الحق . والنعمان بن بشير في قصر الإمارة، لسنا نجمع معه في جمعة ولا نخرج معه إلى عيد، ولو قد بلغنا أنك أقبلت إلينا أخرجناه حتى نلحقه بالشام إن شاء اللّٰه؛

***"Mehriban və bağışlayan Allahın adı ilə! Bu, Kufənin mömin-müsəlman camaatı Süleyman İbn Surəd, Museyyib ibn Nəcbə, Rufaət ibn Şəddad, Həbib ibn Məzahir və***

[223] Əl-İrşad, c.2, səh.36; Tarixut-Təbəri, c.4, səh.261

***(digər) şiələri tərəfindən Hüseyn ibn Əliyə ﷺ yazılan bir məktubdur.***

***Salam olsun sənə. Biz özündən başqa ilah olmayan Allaha, səninlə birgə olan nemətinə görə həmd edirik. Sonra isə, həmd olsun o Allaha ki, sənin zalım və inadkar düşməninin*** *(Müaviyəni – red.)* ***həlak etdi. O düşmən ki, bu ümmətin üzərinə atılıb onun işini*** *(xilafəti – red.)* ***qəsb etdi, qənimətlərini ələ keçirdi, ümmətin razılığı olmadan ona hakim oldu. Daha sonra ümmətin ən xeyirlilərini öldürüb ən şər şəxslərini sağ qoydu, Allahın malını ümmətin zalımları və varlıları arasında əl dəyişən*** *(birindən digərinə keçən – red.)* ***hala gətirdi. Görüm onu Səmud qövmü tək məhv olsun!***

***(Ey Hüseyn!) bizim rəhbərimiz yoxdur. (Yanımıza) gəl, ümid var ki, Allah bizi sənin vasitənlə haqqın ətrafına toplayar. Numan ibn Bəşir valilik sarayındadır*** *(Kufə valisidir – red.)****. Biz onunla cümə namazında iştirak etmirik, bayramlara da (onunla namaz qılmağa) çıxmırıq. Əgər bizə sənin gəliş xəbərin yetişsə*** *(təklifimizi qəbul etsən – red.)****, biz inşallah onu Kufədən çıxardıb Şama yollayarıq*** *(qovarıq – red.)****”.***[224]

Bu onların yazmış olduqları məktubun xülasəsidir. Onlar məktubu Abdullah ibn Mismə Həmədani və Abdullah ibn Val[225] vasitəsilə göndərdilər. Araşdırmalara əsasən, həmin məktubu adları qeyd olunan dörd nəfər imzalamışdır. Məktubu yolladıqdan bir müddət sonra İmam Hüseynlə ﷺ görüşmək üçün bir neçə nəfərdən ibarət nümayəndə heyəti göndərdilər. Həmin heyət, Qeys ibn Müsəhhər Seydavi, Əbdürrəhman ibn Abdullah Ərhəbi, Əmarə ibn Abdullah

---

[224] Həmin mənbə

[225] Bu adları yadda saxlayın, çünki qarşıda gələcək araşdırmada qarşınıza çıxacaq.

Səlulidən ibarət idi. İki-üç gün sonra isə başqa bir məktub yazaraq Hani ibn Hani Səbii və Səid ibn Abdullah Hənəfi vasitəsilə Hüseynə (ə) göndərdilər.

Bu əsnada altı nəfərdən ibarət bir dəstə ayrıca bir məktub yazaraq İmam Hüseynə (ə) göndərdilər. Həmin şəxslər, Şəbəs ibn Ribi, Həccar ibn Əbcər, Yezid ibn Haris ibn Ruveyd, Uzrə ibn Qeys, Əmr ibn Həccac Zubeydi və Məhəmməd ibn Umeyr Təmimi idi.

## İmam Hüseynin (ə) Kufə şiələrinə cavab məktubu

İmam Hüseyn (ə) Kufə şiələrinin məktubuna cavab olaraq belə bir məktub yazdı:

بسم الله الرحمن الرحيم أما بعد، فإنّ هانئاً وسعيداً قدما علي بكتبكم، وأنا باعث إليكم أخي وابن عمي وثقتي من أهل بيتي مسلم بن عقيل، فإن كتب إليّ أنه قد اجتمع رأي ملأكم وذوي الحجى والفضل منكم على مثل ما قدمت به رسلكم وقرأت في كتبكم، فإني أقدم إليكم؛

***“Rəhman və Rəhim olan Allahın adı ilə! Sonra isə, Hani və Səid sizin məktublarınızı mənə çatdırdılar. Sizin (durumunuzu yaxından öyrənib mənə xəbər verməsi üçün) yanınıza mənim Əhli-Beytdən (ə) olan etibar etdiyim qardaşım və əmioğlum Müslim ibn Əqili göndərirəm. O, elçilərinizin xəbər gətirdiyi və məktublarınızda oxuduğum kimi sizin camaatın, (məntəqənizdəki cəmiyyətdə) ağıl və hörmət sahiblərinin fikirlərinin bir olduğunu mənə məktubla bildirərsə, sizə tərəf yollanacağam”.***[226]

Maraqlı burasıdır ki, bir neçə məktub almasına və bir neçə dəfə nümayəndələrin gəlib-getməsinə baxmayaraq

---

[226] Əl-İrşad, c.2, səh.39; Tarixut-Təbəri, c.4, səh.262; Əl-Əxbarut-təval, səh.230; Əl-Kamilu fit-tarix, c.4, səh.21; Əl-Futuh, c.5, səh.30; Məqatilut-talibiyyin, səh.63; Tarixu ibn Xəldun, c.3, səh.22; Nihayətul-ərəb, c.20, səh.241 və digər mənbələr.

İmam Hüseyn عليه السلام arxayın deyildi. Elə arxayın olmadığına görə də, Müslim ibn Əqili göndərdi. İmam Hüseyn عليه السلام yola çıxdığı ilk gündən hər hansı bir hadisə və ya şəxslə üzləşdikdə iki məsələni xatırlayıb belə buyurardı:

1. Mən bu yola davam etməliyəm. Mənim üzərimdə öhdəliyim var.

2. Mən qətlə yetiriləcəyəm.

Hər iki məsələ ayrı-ayrı yerlərdə və müxtəlif formalarda İmam Hüseyn عليه السلام tərəfindən bəyan olunmuşdu. Əgər bir nəfər desə ki, İmam Hüseyn عليه السلام şəhid ediləcəyindən xəbərsiz idi, həmin adam ya nadandır, ya da qərəzli mövqeyə sahibdir.

Əgər İmam Hüseynin عليه السلام Zəhəbinin "Tarixul-İslam", Təbarinin "Əl-Mucəmul-kəbir", İbn Sədin "Ət-Təbəqatul-kubra", ibn Kəsirin "Əl-Bidayə vən-nihayə", Təbərinin "Tarix" kitablarında və sair mənbələrdə qeyd edilmiş sözlərinə nəzər salsaq, o həzrətin daim belə buyurduğuna rast gələrik: ***"Mən şəhid olacağamı bilirəm və digər tərəfdən, İraqa tərəf hərəkət etmək kimi bir öhdəliyim var".***

İmam Hüseynin عليه السلام buyurduğu cümlələr aşağıdakı formada olmuşdur. Məsələn, bir yerdə belə buyurmuşdur:

لأن اقتل بمكان كذا وكذا أحب إليَّ أن تستحلّ بي ؛ يعني مكّة.

***"Mənim üçün filan bir məkanda öldürülməyim mənə görə (Məkkənin) halal edilməsindən daha yaxşıdır*** *(yəni Məkkənin hörmətinin saxlanmamasından və burada qan tökülməsindən daha yaxşıdır – red.)**"**.*[227]

[227] İbn Sədin "Ət-Təbəqat"ından İmam Hüseynin عليه السلام tərcümeyi-halı, səh.60; Tarixul-İslam, c.5, səh.106; Məcməuz-zəvaid, c.9, səh.192; Əl-Mucəmul-kəbir, c.3, səh.120, hədis 2859; Tarixu mədinəti Diməşq, c.14, səh.200 və 203; Əl-Bidayə vən-nihayə, c.8, səh.174; Əl-Mərifə vət-tarix, c.1, səh.291; Siyəru əlamin-nubəla, c.3, səh.292; Təhzibul-kəmal, c.6, səh.420-421 və digər mənbələr. Əlavə edək ki, Heysəmi Məcməuz

Digər bir yerdə isə belə buyurmuşdur:

لأن أُقتل خارجاً منها بشبرين أحب إليَّ من أن أقتل داخلا منها بشبر، وأيم الله، لو كنت في جحر هامة من هذه الهوام لاستخرجوني حتى يقضوا بي حاجتهم، والله ليعتدنّ علي كما اعتدت اليهود في السبت.

***"Oradan** (Məkkədən – red.) **ikicə qarış da olsa xaricdə öldürülməyim, oranın ikicə qarış da olsa daxilində öldürməyimdən xoşdur. And olsun Allaha ki, əgər bir sürünənin** (ilanın – red.) **qarnında olsam belə, onlar mənimlə işlərini görmək üçün məni oradan çıxardarlar. And olsun Allaha, yəhudilərin şənbə günü zülm etdikləri kimi, bunlar da mənə qarşı zülm edəcəklər".*** [228]

Başqa bir cümləsində isə belə buyurmuşdur:

والله لا يدعوني حتى يستخرجوا هذه العلَقَة من جوفي

***"And olsun Allaha! Sinəmdən qəlbimi qoparıb çıxarmayana qədər məndən əl çəkməyəcəklər".*** [229]

Digər bir cümləsində isə:

إني رأيت رؤيا ورأيت فيها رسول الله صلّى الله عليه وآله وأَمرني بأمر، أنا ماض له ولست بمخبر بها احداً حتى اُلاقي عملي

***"Mən bir yuxu gördüm. Yuxumda Peyğəmbəri ﷺ gördüm və mənə bir əmr verdi. Mən o işi görəcəyəm və işimi görənə qədər də heç kəsə bu barədə məlumat verməyəcəm".*** [230]

Yenə buyurmuşdur:

---

zəvaid kitabında, həmçinin "Tarixul-İslam" kitabının tədqiqatçısı qeyd edirlər ki, bu rəvayəti nəql edən şəxslər doğru danışan adamlardır.

[228] Əl-Kamilu fit-tarix, c.4, səh.38; Tarixut-Təbəri, c.4, səh.289

[229] Əl-İrşad, c.2, səh.76; Əl-Kamilu fit-tarix, c.4.səh.39; Tarixu mədinəti Diməşq, c.14, səh.216; Tarixut-Təbəri, c.4, səh.296; Əl-Bidayə vən-nihayə, c.8, səh.183

[230] Tarixu mədinəti Diməşq, c.14, səh.209; Təhzibul-kəmal, c.6, səh.418; Tarixul-İslam, c.5, səh.9; Əl-Bidayə vən-nihayə, c.8. səh.176; İbn Sədin "ət-Təbəqat" kitabında İmam Hüseynin (ə) tərcümeyi-halı fəsli, səh.59; "Buğyətut-tələb fi tarixi Hələb" kitabında İmam Hüseynin (ə) tərcümeyi-halı fəsli, səh.117

لابد لي إذاً من مصرعي

***“Mən qətlə yetiriləcəyim məkana çatmalıyam”.***

İmam Hüseynin (ə) buyurduğu bu cümlə “Ət-Təbaqa-tul-kubra”, “Siyəru əlamin-nubəla”, “Tarixu mədinəti Diməşq”, “Əl-Bidayə vən-nihayə” və “Tarixu Hələb”[231] kimi mötəbər kitablarda qeyd olunmuşdur.[232]

Başqa bir ibarədə isə İmam (ə) belə buyurmuşdur:

مهما يقض الله من أمر يكن.

***“Allah bir iş barədə hökm etdikdə o, yerinə yetər”.***[233]

İmam Hüseyndən (ə) Məkkədən təcili çıxmasını soruşduqda o həzrət buyurmuşdu:

لو لم اعجل لاخذت؛

***“Tələsməsəm, məni həbs edəcəklər”.***[234]

Bir nəfər isə xeyirxahlıq üzündən İmam Hüseynə (ə) ***“Kufəyə getməyin, onlar sizin atanızı qətlə yetirdilər və qardaşınızı da tək qoydular”*** deyə məsləhət verdikdə belə cavab vermişdi:

إنه ليس يخفى علي الرأي ما قلت ورأيت، ولكن الله لا يغلب على أمره؛

***“Dediklərin və fikirlərin mənim üçün gizli deyil*** *(hamısını bilirəm – red.)*. ***Ancaq Allah görəcəyi işdə***

---

[231] Hələb tarixi kitabından əldə etdiyimiz məlumat ondan ibarətdir ki, İmam Hüseynin (ə) mübarək bədəninin atların ayaqları altında tapdalayan on nəfərin hamısı Şam əhli olmuşdur. Onlardan heç biri Kufə əhalisindən olmamışdır.

[232] İbn Sədin “Ət-Təbəqat” kitabında İmam Hüseynin (ə) tərcümeyi-halı, səh.58; Siyəru əlamin-nubəla, c.3, səh.297; Tarixu mədinəti Diməşq, c.14.səh.209; Əl-Bidayə vən-nihayə, c.8, səh.176; Tarixu Hələb, İmam Hüseynin (ə) tərcümeyi-halı, səh.116

[233] Tarixut-Təbəri, c.4, səh.287; Əl-Kamilu fit-tarix, c.4, səh.37

[234] Tarixut-Təbəri, c.4, səh.290; Əl-İrşad, c.2. səh.67; Biharul-ənvar, c.44, səh.365; Əl-Bidayə vən-nihayə, c.8, səh.180

***məğlub edilə bilməz** (əmri, təqdiri dəyişməzdir, nə hökm etsə o olacaq – red.)**”.*[235]

İmamın ﷺ bu cümləsi “Əl-Kamilu fit-tarix”, “Əl-Bidayə vən-nihayə” və Təbərinin “Tarix” kitabında qeyd olunmuşdur.

Hicrətin ikinci və üçüncü əsrlərində yaşamış və Əhli-Beytin ﷺ vilayətini tanımayan bir sıra şəxslərin, bu mövzuları nəql etdikləri halda, həmin məsələlərə irad tutan şiə tapılarmı görəsən?!

Şiə mənbələrindən olan “Kamiluz-ziyarat” kitabında İmam Hüseynin ﷺ belə buyurduğu qeyd olunur:

لأن اقتلَ بيني وبين الحرم باع، أحب إليّ من أن اقتل وبيني وبينه شبر،ولأن أقتل بالطّف أحب إليّ من أن اقتل بالحرم

***“Hərəmlə bir ba** (ba - əllər sağa-sola tam şəkildə açıq olan zaman iki ovuc arasındakı məsafəyə deyilir – red.) **məsafədə öldürülmək mənim üçün onunla bir qarış məsafədə öldürülməkdən daha sevimlidir. Hərəmdə qətlə yetirilməkdənsə, Təff** (Kərbəla – red.) **ərazisində öldürülməyim daha yaxşıdır”.***[236]

Həzrət İmam Hüseyn ﷺ Məkkəni tərk etdiyi zaman, həmçinin, yolda onun getməsinə mane olmaq istəyən bir nəfərə cavab verdiyi zaman buyurmuşdur:

لا يخفى علي شيءٌ مما ذكرت، ولكني صابر ومحتسب إلى أن يقضي اللّه أمراً كان مفعولا

***“Sənin söylədiklərin mənə gizlin deyildir. Ancaq mən Allahın olacaq işi həyata keçirəcəyi vaxtadək səbr edib dözəcəyəm”.***[237]

---

[235] Əl-Kamilu fit-tarix, c.4, səh.43; Əl-Bidayə vən-nihayə, c.8, səh.185; Tarixut-Təbəri, c.4, səh.301

[236] Kamiluz-ziyarat, səh.151, hədis 182; Biharul-ənvar c.45, səh.85, hədis 16

[237] Əl-Fusulul-muhimmə, c.2, səh.808 (İmam Hüseynin ﷺ İraqa yollanması fəsli).

## Məktub yazan şəxslərin həqiqi niyyətləri

İmam Hüseyn (ə) yolda olarkən xatırlatdığı digər mövzulardan biri də bu idi ki, mənə məktub yazanların elə özləri məni qətlə yetirəcəklər. İmam Hüseyn (ə) digər bir sözündə belə buyurmuşdur:

ما كتب إليّ من كتب إلاّ مكيدةً لي وتقرباً إلى ابن معاوية؛

***"Mənə məktub yazanlar yalnız mənə hiylə qurmaq və (məni ələ verməklə) Müaviyənin oğluna yaxınlaşmaq üçün yazıblar".***[238]

İmam Hüseyndən (ə) ailə üzvlərini özü ilə aparması səbəbini soruşduqda isə belə cavab vermişdi:

ما أرى إلاّ الخروج بالأهل والولد؛

***"Mən ailə və uşaqlarımı da özümlə aparmaqdan başqa çıxış yolu görmürəm".***[239]

İmam Hüseyn (ə) başqa bir yerdə bu mövzuya təkid edərək buyurmuşdu:

أعلم علماً أنّ هناك مصرعي وهناك مصارع أصحابي لا ينجو منهم إلاّ ولدي علي؛

***"Qəti şəkildə bilirəm ki, mənim və əshabımın ölüm yeri oradır** (Kərbəladır – red.) **Əshabımdan yalnız oğlum Əli** (İmam Səccad (ə) – red.) **sağ qalacaqdır".***[240]

Bir belə biliyə sahib olduqları halda, xanımları və körpələri niyə özü ilə aparıb? İmam Hüseyn (ə) bu sualın cavabında belə buyurmuşdu:

إنّ الله قد شاء أن يراهن سبايا؛

***"Allah-təala onları əsir görmək istəyir".*** [241]

---

238 Ənsabul-əşraf, c.3, səh.185

239 Əl-Əxbarut-təval, səh.244

240 Dəlailul-imamə, səh.182; Nəvadirul-mucizat, səh.107; Əl-Luhuf, səh.39; Biharul-ənvar, c.44, səh.364

241 İsbatul-vəsiyyə, səh.126; Əl-Luhuf, səh.63; Biharul-ənvar, c.44, səh.364

Tanınmış şair Fərəzdəq yolda İmamla (ə) rastlaşır və hal-əhval tutduqdan sonra həzrət Hüseynə (ə) Kufədə vəziyyətin yaxşı olmadığını deyir. İmam Hüseyn (ə) isə ona belə cavab verir:

صدقت، للّه الأمر،واللّه يفعل ما يشاء وكلّ يوم ربنا في شأن؛

***"Doğru söyləyirsən, ancaq hər bir şey Allahın əlindədir. Allah istədiyini edir və Rəbbimiz hər gün bir işdədir** (biz onun iradəsinə tabeyik – müəl.)**".***[242]

Bəli, İmam Hüseynin (ə) xəbəri var idi. Elə bu səbəbdən, Fərəzdəqə bu şəkildə cavab vermişdi. Başqa bir şəxsə isə belə buyurmuşdu:

إني رأيت رؤيا ورأيت فيها رسول اللّه صلى اللّه عليه وآله وأمرني بأمر .

***"Mən bir yuxu gördüm. Yuxumda Peyğəmbəri (s) gördüm, o, mənə bir əmr verdi..."***

İmam Hüseyn (ə) yolda olarkən Kufə əhalisinə Qeys ibn Müsəhhərin vasitəsilə bir məktub göndərdi. Həmin dövrdə Kufəyə gedən bütün yollar hökumət məmurlarının ciddi nəzarəti altında idi. Heç kəs yoxlanılmadan nə şəhərə girə bilər, nə də şəhərdən çıxa bilərdi. Belə bir durumda Şamda nüfuz sahibi, Müaviyə və Yezidin tərəfdarı olan Husayn ibn Nümeyr Qeys ibn Musəhhəri həbs etdi. Yoxlanış apardıqları zaman məktubu ondan almaq istədikdə o həmin məktubu cırdı. Ondan məktubu niyə cırdın deyə soruşduqda belə cavab verdi: ***"Məktubun kimə yazıldığını və içində nə yazıldığını bilməməniz üçün cırdım".*** Onu İbn Ziyadın yanına göndərdilər. İbn Ziyad ona minbərə çıxıb camaatın qarşısında Əmirəlmöminin İmam Əlini (ə) və İmam Hüseyni (ə) lənətləməsi göstərişini verdi. O, minbərə çıxmağı qəbul etdi. Lakin çıxışına başlayarkən belə dedi:

---

[242] Tarixut-Təbəri, c.4, səh.290; Əl-Kamilu fit-tarix, c.4, səh.40; Əl-Bidayə vən-nihayə, c.8, səh.180

***"Ey camaat! Həqiqətən, insanların ən yaxşısı Fatimənin ﷺ övladı Hüseyn ibn Əlidir ﷺ və mən onun göndərdiyi adamam".***

O, sözünün davamında Ziyadı və Übeydullah ibn Ziyadı lənətləyir, Əmirəlmöminin İmam Əliyə ﷺ isə salavat-salam göndərirdi. Elə bu səbəbdən, onu hökumət binasının damına çıxarıb oradan aşağı atıb şəhadətə yetirirlər.[243]

Qeys ibn Müsəhhərin hekayəsi birbaşa Aşura hadisəsinə bağlı olaylardan biridir.

## Kufəyə gedən yolda İmam Hüseynin ﷺ öncədən söylədikləri

İmam Hüseyn ﷺ yolda bir məntəqədə dayandığı vaxt bir nəfərlə Kufəyə tərəf getdiklərindən söz düşür. Həmin şəxs İmam Hüseynə ﷺ öz fikrini bildirərək ona Kufəyə getməməyi tövsiyə edir. İmam Hüseyn ﷺ ona cavab olaraq buyurur: ***"Ey Allahın bəndəsi! Doğru işdən xəbərdaram, Allahın əmri (istəyi, iradəsi) dəyişilməzdir".*** Ardından əlini mübarək sinəsinə yönəldərək buyurur:

واللّه! لا يدعوني حتى يستخرجوا هذه العلقة من جوفي، فإذا فعلوا سلّط عليهم من يذلّهم

***"And olsun Allaha! Bunlar mənim ürəyimi çəkib sinəmdən çölə çıxarmayınca məndən əl çəkməyəcəklər. Bu işi (cinayəti) həyata keçirdikdən sonra, Allah-Təala onlara onları xar edəcək birini hakim edəcək".***[244]

İbn Qovləveyh "Kamiluz-ziyarat" kitabında rəvayət edir ki, İmam Hüseyn ﷺ "Əqəbətul-bətn" adlı bir yerə çatdıqda öz əshabına belə buyurdu:

---

[243] əl-İrşad c.2.səh.71.Tarixut-Təbəri c.4.səh.297.

[244] Əl-İrşad, c.2, səh.76; Əl-Kamilu fit-tarix, c.4, səh.39

ما أراني إلاّ مقتولا قالوا: وما ذاك يا أبا عبدالله؟ قال: رؤيا رأيتها في المنام .قالوا: وما هي؟ قال: رأيت كلاباً تنهشني أشدها علي كلب أبقع

***"(Bu işin sonunda) özümü yalnız qətl edilmiş görürəm. Dedilər: "Ey Əbu Abdullah! Bu nə sözdür siz buyurursunuz axı?" İmam ﷺ buyurdu: "Yuxumda görmüşəm". Soruşdular: "Yuxuda nə görmüsünüz?" İmam ﷺ buyurdu: "Məni dişləyən itlər gördüm və onların arasında mənə qarşı ən amansızı xallı olan bir it idi".***[245]

İmam Hüseyn ﷺ yol boyu dəfələrlə Kərbəla hadisəsindən xəbər vermiş və Kərbəlaya yaxınlaşdıqları zaman isə aşağıdakı şeri söyləmişdir:

سأمضي وما بالموت عارعلى الفتى *** إذا ما نوى خيراً وجاهد مسلما وواسى رجالا صالحين بنفسه *** وخالف مثبوراً وفارق مجرما *** فإن عشت لم أندم وإن مت لم أُلَم ***كفى بك ذُلا أن تعيش وترغما

***"Mən tezliklə (dünyadan) köçəcəm, ölüm igid üçün ayıb sayılmaz, əgər niyyəti xeyirxahlıqdırsa, müsəlman olaraq cihad edibsə, canıyla (ölümüylə – red.) saleh insanlara dəstək olubsa,***

***(əməlləri ucbatından) həlak olacaq şəxslərə müxalif olubsa və günahkarlardan uzaqlaşıbsa.***

***Əgər sağ qalsam, peşman olmaram, yox, əgər ölsəm, acı çəkmərəm. Zəlil olmaq üçün isə boyunduruq altda yaşamağın sənə kifayət edər".***[246]

Əllamə Məclisi yazır ki, İmam Hüseyn ﷺ Kərbəlaya yetişdikdə soruşdu:

أهذه كربلا؟ قالوا له: .نعم فقال: هذا موضع كرب وبلاء، هاهنا مناخ ركابنا، ومحط رحالنا، ومقتل رجالنا ومسفك دمائنا

***"Bura Kərbəladır? Dedilər: "Bəli!" İmam ﷺ buyurdu: "Bura sıxıntılı və bəlalı bir yerdir. Minikləri-***

---

[245] Kamiluz-ziyarat, səh.157

[246] Əl-İrşad, c.3, səh.81; Əl-Kamilu fit-tarix, c.4, səh.49; Tarixut-Təbəri, c.4, səh.305; Əl-Bidayə vən-nihayə, c.8, səh.187

***mizin dincələcəyi, yüklərimizin boşaldılacağı, kişilərimizin qətlə yetiriləcəyi və qanımızın axıdılacağı yer buradır".***[247]

## Kufə şəhərinin quruluşuna bir baxış

Kufə şəhəri və əhalisi haqda araşdırmaya dair bir şeyi də əlavə edək ki, bu şəhər və bütövlükdə İraq Ömərin xilafəti dövründə Səd ibn Əbu Vəqqasın vasitəsilə fəth olunmuşdur.

Kufə şəhəri həssas mövqedə yerləşirdi, həm ticarət, həm hərbi cəhətdən diqqət çəkən bir məkan idi. İraqın ayrı-ayrı yerlərindən, hətta Hicaz və Yəməndən insanlar köçərək bu şəhərdə məskunlaşmışdılar. Kufə şəhərində müxtəlif qəbilələrin nümayəndələri yaşayırdılar. Məzhəb baxımından isə şiəlik rəsmi şəkildə Kufədə hicrətin ikinci və üçüncü əsrində yayılmışdır. Kufə şəhərində olan bugünkü şiəlik də, o dövrdən qalan şiəlikdir. Birinci əsrdə Kufədə olan şiələr, bugünkü şiələr kimi olmamışdır.

## Şiə və şiəlik

Nəzərə almaq lazımdır ki, şiə və şiəlik sözlərinə dair iki tərif mövcuddur:

1-İlk tərif ondan ibarətdir ki, şiə o kəsdir ki, Əhli-Beytə عليهم السلام məhəbbət bəsləməklə yanaşı iki şeyxin (Əbu Bəkr və Ömərin) də xilafətini qəbul edir. Həmin dövrdə bir sıra Kufə əhalisi, Əmirəlmöminin Əli ibn Əbu Talibi عليه السلام Osmandan üstün və fəzilətli hesab etsələr də, o həzrəti iki şeyxdən (Əbu Bəkr və Ömərdən) üstün hesab etməzdilər.

2-İkinci tərif isə budur ki, (*bizim etiqad bəslədiyimiz və geniş yayılmış olan tərif də elə budur – müəl.)* şiə

---

[247] Biharul-ənvar, c.44, səh.383; Məqtəlul-Huseyn, Xarəzmi c.1, səh.237

Peyğəmbərdən ﷺ sonra İmam Əlinin (ə) canişin olduğuna və Peyğəmbərin ﷺ Əhli-Beytindən (ə) olan on iki imamın imamətinə etiqad bəsləyən şəxsdir.

Hicrətin birinci əsrində, ilk tərifdə qeyd etdiyimiz şiəlik geniş yayılmışdı. Bu məsələyə Musəyyəb ibn Nəcəbəni nümunə göstərmək olar. O, İmam Hüseyni (ə) Kufəyə dəvət edənlərdən biridir. Onun tərcümeyi-halında şiə olduğu qeyd olunmuşdur. Onun haqqında ravi (rəvayət nəql edən) belə deyir:

جالست المسيب بن نجبة الفزاري في هذا المسجد عشرين سنة وناس من الشيعة كثير، فما سمعت أحداً منهم يتكلّم في أحد من أصحاب رسول الله صلى الله عليه وآله إلاّ بخير، وما كان الكلام إلاّ في علي عليه السلام وعثمان

***"Mən bu məsciddə Musəyyəb ibn Nəcəbə Fəzari və bir çox şiələrlə düz iyirmi il oturub-durmuşam. (Bu müddət ərzində) Onlardan Peyğəmbər ﷺ səhabələrindən hər hansı biri haqda xeyirdən başqa bir söz dediklərini eşitmədim. Onların mübahisələri yalnız Əli (ə) və Osman haqda düşərdi".***[248]

Bəli, o dövrün Kufədə yaşayan şiələri səhabələr haqda danışdıqları zaman iki şeyxin (Əbu Bəkr və Ömərin) xəlifə olmalarına irad tutmazdılar. Onların əsas müzakirəsi Əlinin (ə) Osmanla müqayisədə haqlı və üstün olması haqda gedərdi. İmam Əli (ə) Kufədə Ömərin bidətlərindən biri olan təravih namazının qarşısını almaq istədikdə insanlar ***"Vay Ömər, vay Ömər, vay Ömərin sünnəti"*** şüarları ilə səs-küy qoparmışdılar.[249] Bir sözlə, hətta İmam Əlinin (ə) hakimiyyəti dövründə onunla beyət etmiş Kufə əhalisi belə həmin bidətdən əl çəkmək istəməmişlər. Görəsən, bunlar

---

[248] Tarixu mədinəti Diməşq, c.58, səh.198, Musəyyəb ibn Nəcəbənin tərcümeyi-halı, 7440

[249] Vəsailuş-şiə, c.8, s.46, hədis 10063; İbn Əbul-Hədid, Şərhu Nəhcil-bəlağə, c.12, səh.283

həqiqi şiədirlərmi? Əsla belə deyildir. Onlar şiə olmamışlar, bu qəbildən olanlar şiə termininin ilk tərifinə aid şiələrdən olmuşlar.

İmam Əlinin ﷺ təravih namazının camaatla qılınmasının qarşısını almaq hadisəsi mərhum Kuleyninin "Əl-Kafi" kitabında da qeyd olunub.

Əmirəl-möminin Əli ﷺ buyurdu:

والله! لقد امرت الناس أن لا يجتمعوا في شهر رمضان إلاّ في فريضة وأعلمتهم أنّ اجتماعهم في النوافل بدعة، فتنادى بعض أهل عسكري ممن يقاتل معي: يا أهل الإسلام! غيرت سنة عمر

***"And olsun Allaha! Ramazan ayında insanlara yalnız vacib namazları camaatla birgə qılmaqlarını əmr etdim və bildirdim ki, onların müstəhəb (nafilə) namazların camaatla qılmaları bidətdir. Bu zaman mənimlə birgə döyüşən əsgərlərimdən bəziləri: "Ey islam əhli, Ömərin sünnəti dəyişdirilir" – deyə hay-küy qopardılar!"***[250]

Beləliklə, aydın olur ki, həmin dövrdə Kufə əhalisi arasında bəziləri Əhli-Beytə ﷺ məhəbbət bəsləsələr də, hətta Bəni-Üməyyəni düşmən hesab etsələr də, iki şeyxin (Əbu Bəkr və Ömərin) xilafətini də qəbul edirdilər. Bunlara həqiqi şiə deyilməz!

Görəsən, Kufədə həqiqi şiələrin sayı nə qədər olmuşdur? Çox az sayda. Bunlardan Həbib ibn Məzahir, Müslim ibn Ovsəcə və Əsbəğ ibn Nubatə kimi şəxslərin adlarını çəkmək olar. Həmin qəbildən olan şiələrin bir çoxu Müaviyənin və Ziyad ibn Əbihin vasitəsilə qətlə yetirilmişdilər. Kərbəla hadisəsindən hələ öncə qətlə yetirilmiş şiələrin bəzilərinin adlarını bu araşdırmada qeyd etmişdik. Bu kiçik cəmiyyətin müqabilində isə Kufədə çoxlu sayda Bəni-Üməyyə tərəfdarları var idi. Bir az əvvəldə Hücr ibn Ədinin qətlinə imza atanların adlarını qeyd etmişdik.

---

[250] Əl-Kafi, c.8, səh.62-63, 21-ci hədis

Onların arasında Kufənin nüfuzlu şəxslərindən və zadəgan təbəqəsindən hesab olunan Husayn ibn Nümeyr, Məhəmməd ibn Əşəs ibn Qeys, Kəsir ibn Şəhab, Xalid ibn Ərfətə, Əbu Bərdə ibn Əbu Musa Əşəri, Səmərət ibn Cundəb, Yezid ibn Haris, Həccar ibn Əbcər və Şimr ibn Zilcövşən kimi şəxslər var idi.

Digər tərəfdən, Kufədə həmin dəstədən bir neçə nəfər, o cümlədən Abdullah ibn Müslim ibn Səid Həzrəmi, Müslim ibn Əmr Bahili, Əmarə ibn Əqəbə və başqaları Yezidə casusluq edirdilər. Müslim ibn Əmr Bahili cənab Müslimə ﷺ belə demişdi:

أنا من عرف الحق إذ أنكرته، ونصح لإمامه إذ غششته، وسمع وأطاع إذ عصيته وخالفت

***"Mən haqqı tanıdığım halda sən onu inkar emisən, mən imamıma yardım etdiyim halda sən onu aldatmısan. Mən onu dinləyib tabe olduğum halda sən ona qarşı çıxıb müxalifətçilik etmisən".***[251]

"Tarixu mədinəti Diməşq" kitabının müəllifi İbn Əsakir onun tərcümeyi-halında belə qeyd edir:

كان عظيم القدر عند يزيد؛

***"Yezidin yanında olduqca böyük ehtirama və dəyərə sahib idi".*** [252]

Belə bir şəxs Kufənin böyük şəxsiyyətlərindən hesab olunurdu. Nəticə etibarilə, Kufədə şiə yaşasa da, həqiqi şiə deyil, elə bu qəbil şiələr olmuşdur. Kufədəki həqiqi şiələrin başlarına gələnləri qarşıda qeyd edəcəyik.

---

[251] Əl-İrşad c.2, səh.60; Tarixut-Təbəri, c.4, səh.281; Əl-Kamilu fit-tarix, c.4, səh.34; Əl-Bidayə vən-nihayə, c.8, səh.172

[252] Tarixu mədinəti Diməşq, c.58.səh.114, Müslim ibn Əmr Bahilinin tərcümeyi-halı, 7426; Əl-Məarif, səh.406

## Xəvaric - Kufədə məskunlaşmış digər bir qrup

Kufədə yaşayan digər bir dəstə xəvariclərdən ibarət idi. Bu dəstənin başçıları Əşəs ibn Qeys, Şəbəs ibn Ribi, Əmr ibn Hüreys və başqaları idilər.

İmam Həsəni ﷷ qətlə yetirən həyat yoldaşı Cədə xəvaric firqəsinin başçılarından biri olan həmin Əşəs ibn Qeysin qızı idi. Əşəs İmam Əliyə ﷷ qarşı dil uzadan bir şəxs olmuşdu. Onun tərcümeyi-halına dair daha çox məlumat əldə etmək üçün "Tənqihul-məqal" kitabına müraciət etmək lazımdır.[253]

Əmr ibn Hüreys, Meysəm ibn Təmmarın qətlində əli olan bir şəxsdir. Maraqlısı odur ki, bu şəxslərin bir xeylisi Peyğəmbər ﷺ səhabəsi hesab olunur.

Şəbəs ibn Ribi, Həccar ibn Əbcər, Qeys ibn Əşəs və Yezid ibn Haris İmam Hüseynə ﷷ məktub yazıb o həzrəti Kufəyə dəvət edənlərin sırasında yer aldıqları halda, Ömər ibn Sədin qoşununda dəstə başçıları idilər. Aşura günü İmam Hüseyn ﷷ onlara xitab edərək buyurmuşdu:

ألم تكتبوا إليَّ؟

***"Siz mənə məktub yazmamısınızmı?"***[254]

Nəql olunur ki, Şəbəs ibn Ribi İmam Hüseynin ﷷ mübarək başını bədənindən ayırmaq göstərişi verildikdə belə demişdi:

أنا بايعته ثمّ غدرت به ثم أنزل فاحتز رأسه؟ لا والله لا أفعل

***"Mən ona beyət etdim, sonra isə ona qarşı xainlik etdim. İndi isə enib onun başını bədənindən ayırım? Yox, Allaha and olsun ki, mən bu işi görmərəm".***[255]

---

[253] Tənqihul-məqal, c.1, səh.149

[254] Əl-İrşad, c.2, səh.98; Tarixut-Təbəri, c.4, səh.323; Əl-Bidayə vən-nihayə, c.8, səh.194

[255] Əl-Durrun-nəzim, səh.551

Əmr ibn Həccac Zübeydi isə Hani ibn Ürvənin qayınatasıdır. O, Ömər ibn Sədin ordusundakı bir dəstənin başçısı olmuş və Fərat çayından ayrılan suyun İmam Hüseynin (ə) çadırlarına tərəf gəlməsinin qarşısını almaqla mühasirədə saxlamışdır.[256]

Ömər ibn Səd Uzrə ibn Qeysi yanına çağırıb İmam Hüseynə (ə) bir söz çatdırmaq üçün yanına getməsini əmr etdikdə o belə demişdi: ***"Mən ona məktub yazıb altından imza etmişəm, indi onunla üzbəüz gəlməyə qüdrətim çatmaz".***[257]

## İmam Hüseyni (ə) Kufəyə dəvət etmək üçün məktub yazan qruplar

İmam Hüseynə (ə) məktub yazanlar üç dəstədən ibarət olmuşdur:

1. Azlıq təşkil edən xalis şiələr
2. Kufədə yaşayan xəvaric dəstəsi
3. Bəni-Üməyyənin davamçıları və əlaltıları

Həqiqi şiələrdən bir neçəsi İmam Hüseynə (ə) məktubları çatdırmaq üçün o həzrətin (ə) yanına getmiş və yaxud onu Kufəyə dəvət etmək üçün görüşünə getmişlər. Araşdırmalar nəticəsində əldə etdiyimiz həmin şəxslərin adlarını aşağıda qeyd edirik:

Abdullah ibn Mismə Həmdani, Abdullah ibn Val Səhmi, Qeys ibn Musəhhər Seydavi, Əmmarə ibn Abdullah Səluli, Hani ibn Hani Səbii, Səid ibn Abdullah Hənəfi və Əbdürrəhman ibn Abdullah Ərhəbi.

Səid ibn Abdullah Hənəfi, Muxtar Səqəfinin evində Abis Şakiri və Həbib ibn Məzahirlə birlikdə Müslimə (ə)

---

256 Tarixut-Təbəri, c.4, səh.312

257 Tarixut-Təbəri, c.4, səh.310, Əl-İrşad, c.2, səh.84

beyət etdilər. Onların hər üçü də Kərbəlada şəhadətə çatmışlar.[258]

Əbdürrəhman Ərhəbi də Kərbəlada şəhadətə çatanlardandır.[259]

Öncədən qeyd edildiyi kimi Qeys ibn Müsəhhər İmam Hüseynin ﷺ yazdığı məktubu Kufə əhlinə gətirən adam idi. O həbs edildi və şəhadətə yetirildi. Abdullah ibn Val isə İmam Hüseynlə ﷺ görüşərək məktubları o həzrətə ﷺ təqdim edən şəxs idi. O, Süleyman ibn Surəd Xuzai ilə birgə Kərbəla hadisəsindən sonra şəhadətə yetmişdir.[260] Kufənin nüfuzlu şəxslərini və hörmətli fərdlərini evinə dəvət edərək İmam Hüseynə ﷺ kömək edə biləcəkləri təqdirdə o həzrəti dəvət etmələrini tövsiyə edən Süleyman ibn Surədin də fəaliyyəti olduqca maraqlıdır. Bir iddiaya əsasən, o, Ömər ibn Sədin qoşununda olmuş, İmam Huseyn ﷺ ilə birgə olmamışdır.

Həbib ibn Məzahir də Süleyman ibn Surəd ilə birlikdə məktubu imzalayanlardan biri olmasına baxmayaraq həzrət Müslimin ﷺ olayında gözə dəyməmişdir. Lakin qısa bir vaxtdan sonra Kərbəlaya getmiş və İmam Hüseynin ﷺ dəstəsində şəhadətə yetişmişdir.

Qeyd etmək lazımdır ki, İmam Hüseyni ﷺ dəvət edən nüfuzlu və böyük şəxsiyyətlərin nə həzrət Müslimin ﷺ, nə də Kərbəla hadisəsində fəaliyyətləri haqda heç bir məlumat yoxdur! Görəsən, həzrət Müslimə ﷺ yardım üçün pul toplayaraq silah almağa məsuliyyət daşıyan Müslim ibn Ovsəcə niyə birdən-birə yoxa çıxır? Müslim ﷺ niyə meydanda tənha qalır?

---

[258] Tarixut-Təbəri, c.4, səh.318; Əl-Futuh, c.5, səh.109; Əl-Bidayə vən-nihayə, c.8, səh.191

[259] Əbsarul-eyn fi ənsaril-Huseyn, səh.78

[260] Əl-Kamilu fit-tarix, c.4, səh.184

Digər tərəfdən, həqiqi şiələrdən olan Həbib ibn Məzahir və Müslim ibn Ovsəcə Məhərrəm ayının altıncı və ya yeddinci günü çox çətinliklə də olsa, özlərini Kərbəlaya çatdırırlar. Başqa bir tərəfdən isə İmam Hüseynə (ع) məktub yazanların böyük bir hissəsi, Ömər ibn Sədin qoşununda dəstə başçısı olmuşlar. Axı vəziyyət niyə belə oldu?

## İbn Ziyadın Kufə şəhərində həyata keçirdiyi tədbirlər

İndi isə həmin əhəmiyyət kəsb edən məsələyə aydınlıq gətirmək və verilən sualları cavablandırmaq üçün bir daha Kufənin yeni valinin, yəni İbn Ziyadın gəlişindən sonrakı durumunu araşdıracağıq.

## Hədə-qorxu gəlmək

İbn Ziyad Yezidin vasitəsilə ona çatdırılan Müaviyə tərəfindən verilmiş bir hökmə əsasən, Kufə şəhərinə daxil oldu. Kufədə bir çox işlər həyata keçirib və bir çox hadisələrin başverməsinə səbəbkar oldu. O, məsciddəki ilk xütbəsində belə dedi:

اما بعد، فإنّ أميرالمؤمنين ولاّني مصركم، وثغركم وفيئكم، وأمرني بإنصاف مظلومكم وإعطاء محرومكم وبالإحسان إلى سامعكم ومطيعكم وبالشدة على مريبكم، فأنا لمطيعكم كالوالد البر الشفيق وسيفي وسوطي على من ترك أمري وخالف عهدي، فليبق امرؤ على نفسه؛

***“Sonra isə, möminlərin əmiri*** *(Yezid – red.)* ***sizin şəhərinizə, məntəqənizə*** *(hücum ehtimalı olan bölgələrinizə - red.)* ***və qənimət mallarınıza rəhbərliyi mənə tapşırıb. Mənə məzlumlarınıza qarşı insaflı davranmaq, məhrumlarınıza yaxşılıq (ehsan) etmək, söz eşidib itaət edənlərinizə yaxşılıq etmək, şübhəli olanlarınıza*** *(etimad edilməyənlərinizə - red.)* ***qarşı isə sərt davranmaq göstərişi verib. Sizin itaətkar olanlarınıza qarşı xeyirxah bir ata kimi***

***davranacağam. Əmrimdən çıxaraq əhdi-peymanı pozub müxalif olanlara isə şallaq və qılıncımla cavab verəcəyəm. Hər bir şəxs (əməlinə fikir verərək) özünü qorusun”.***[261]

Bu çıxışda tərəfdarlara vəd verildi, müxaliflərə xəbərdarlıq və hədə-qorxu mesajı verildi. O, ilk olaraq insanları hədələdi və Kufə şəhərindəki qəbilələrin, nüfuzlu şəxsiyyətlərin bir-bir tanıdılması əmrini verdi. Vaxtaşırı onları saraya dəvət edib tanış olduqdan sonra, ona tabe olmaları üçün onların üzərinə öhdəlik qoydu. Onunla görüşə gəlməyənlər haqqında isə belə dedi:

**من لم يفعل برئت منه الذمة وحلال لنا دمه وماله، وأيما عريف وجد في عرافته من بغية أميرالمؤمنين أحد لم يرفعه الينا صلب على باب داره؛**

***“Kim bunu etməsə*** *(bizimlə görüşə gəlib vəfadarlığını bildirməsə - red.)* ***onun boynundan əhd götürülür*** *(artıq onunla aramızda əhd, sülh yoxdur – red.)* ***və onun qanı və malı bizə halaldır. Hər kim möminlərin əmirinə qarşı çıxan birini tanıyıb onu bizə bildirməzsə, o, evinin darvazasından dar ağacına çəkiləcək.”.***[262]

**Şayiə yaymaq**

İbn Ziyadın digər bir addımı ondan ibarət idi ki, bir qrup insana şəhərdə şayiə yaymaq əmrini vermişdi. Şayiə vasitəsilə əhalini Yezidin Şamdan göndərəcəyi ordu ilə qorxudaraq dağıtmalarını, həmçinin həzrət Müslimin (ə) başına toplaşanları da onun ətrafından dağıtmağa vadar etmələrini göstəriş vermişdi.[263]

Belə bir şəraitdə Müslim (ə) Muxtarın evini tərk edib Hani ibn Ürvənin evinə yerləşdi. Şayiə yayan şəxslərdən biri

---

[261] Məqatilut-talibiyyin, səh.64; Əl-Kamilu fit-tarix, c.4, səh.24; Tarixut-Təbəri, c.4, səh.267

[262] Əl-İrşad, c.2, səh.45; Əl-Kamilu fit-tarix, c.4, səh.25; Tarixut-Təbəri, c.4, səh.267

[263] Əl-İrşad, c.2, səh.52-53; Əl-Kamilu fit-tarix, c.4, səh.31; Tarixut-Təbəri c.4, səh.276

Kəsir ibn Şəhab Harisi idi. O, Müaviyə dönəmində Rey şəhərinin valisi olmuş, həmçinin, Hücr ibn Ədinin həbs olunmasında əli olmuşdur. [264] Həmin şayiələr insanlar arasında elə bir təsir qoymuşdu ki, tarixçilərin yazdığına görə əhali təlaş içində, bir-birilərinə Şamdan gələcək ordu barəsində xəbər verərək qorxuya düşmüşdülər.[265]

## Qəbilə başçılarının kənarlaşdıraraq yeniləri ilə əvəz olunması

Kufə şəhərinin əksər əhalisi qəbilələrdən ibarət idi. Bu səbəbdən Müslim ﷺ Kufəyə gəldikdə hər qəbiləyə bir başçı təyin etmişdi. İbn Ziyad isə həmin qəbilə başçılarını kənarlaşdıraraq onların yerinə öz havadarlarını seçdi. Hər qəbilənin içində qəbilələr və hökumətin valiləri arasında əlaqə saxlayacaq şəxslər təyin olundu. Keçmiş dövrlərdə hər bir şəhər və məhəllələrdə insanların problemlərini həll edəcək bacarıqlı adamlar seçilərdi. Onlar dövlət tərəfindən ayrılan yardım və hədiyyələrin insanlara bölünərək çatdırılmasında vasitəçi rolunu oynayırdılar. Qəbilə üzvləri, "İrrif" və ya "Ərif" adı verilən bu şəxslərin nəzarəti altında idilər. Bu kəlmənin cəm şəkli "əl-Urəfa" idi və bu kəlmədən hədislərdə də istifadə olunmuşdur. Rəvayətlərin birində buyurulur:

حملة القرآن عرفاء أهل الجنة.

***"Quranı bilənlər Cənnət əhlinin başçılarıdırlar".***[266]

---

[264] Həmin mənbələr

[265] Əl-İrşad, c.2, səh.54; Biharul-ənvar, c.44, səh.350; Tarixut-Təbəri, c.4, səh.277

[266] Əl-Kafi, c.2, səh.606; Sunənu Darəmi, c.2, səh.470; Məcməuz-zəvaid, c.7, səh.161; Əl-Camius-sağir, c.1, səh.580, 3759-cu hədis; Kənzul-ummal, c.1, səh514, 2289-cu hədis; Tarixu mədinəti Diməşq, c.69, səh.205

Rəvayətdə qeyd olunan “Urəfa” kəlməsi başçılar mənasını verən söz olaraq təfsir olunmuşdur. İbn Ziyad Kufədə həmin şəxsləri aşkar edib onları yeniləri ilə əvəz etdi, yeni təyin etdiyi başçılara lazımi göstərişlərini verdi. O, həmin başçılara qəbilə üzvlərinin hər bir fərdinə nəzarət etmək əmrini verdi. Həmin urəfa (başçılar) aşağıdakılar idi:

1. Abbas ibn Cədə Cədəli. Müslim ﵇ bu şəxsi Hicazdan, Mədinə şəhərindən köçüb Kufə şəhərində məskunlaşmış qəbilələrin hamısına başçı təyin etmişdi. İbn Ziyad onu bu işdən uzaqlaşdıraraq Əmr ibn Hüreysi onun yerinə başçı təyin etdi.

2. Təmim və Həmdan qəbilələrinin başçısı Əbu Səmamə Saidini də kənarlaşdırıb Xalid ibn Ərfətəni onun yerinə başçı təyin etdi.

3. Rəbiə, Bəkr və Kində qəbilələrinin başçısı Übeydullah ibn Əmr ibn Əziz Kindini kənarlaşdıraraq Qeys ibn Vəlid ibn Əbduşəmsi onun yerinə başçı təyin etdi.

4. Bəni-Əsəd, Məzcəh və digər qəbilələrə başçılıq edən Müslim ibn Ovsəcəni kənarlaşdıraraq Əbu Musa Əşərinin oğlu Əbu Bərdəni başçı təyin etdi. Əbu Bərdə, Hücr ibn Ədinin qətli üçün tərtib edilmiş sənədi imzalayan şəxslərdən biridir.

## Casus göndərilməsi

İbn Ziyad insanların arasına casuslar saldı. Onlar məsciddə və məsciddən kənar yerlərdə əhali ilə əlaqəyə girərək topladıqları məlumatı İbn Ziyada ötürürdülər.

Müslim ﵇ hamıdan gizli şəkildə Muxtarın evini tərk edərək Hani ibn Ürvənin mənzilinə köçdü və bu yerdəyişmədən heç kəsin xəbər tutmamasına çalışdı. Müslim ﵇ üçün pul toplamaq məsuliyyəti daşıyan Müslim ibn Ovsəcənin yanına İbn Ziyadın xidmətçisi Məqəl gələrək pul

yardımı etdi. O, Müslim ibn Ovsəcəyə üç min dirhəm yardım etməklə özünü şiə kimi göstərərək onun etimadını qazanmalı idi. O, bu tarixi gedişlə Müslim ibn Ovsəcəni aldadaraq Haninin evində məskunlaşan həzrət Müslimin ﷺ yerini öyrənməli idi. Bu hadisə bütün tarixi kitablarda qeyd olunmuşdur.[267]

## Sərt nəzarət

İbn Ziyadın həyata keçirdiyi mühüm işlərdən biri də Kufə şəhərini mühasirəyə almaq oldu. O, Kufə şəhərinə gələn yolların sərt şəkildə nəzarətə götürülməsinə göstəriş verdi. Şəhərin giriş-çıxışına sərt nəzarət olunması Qeys ibn Müsəhhərin həbs edilməsi hadisəsində aydın oldu. Yezid İbn Ziyada yazdığı bir məktubda ona belə bir göstəriş verdi:

وخذ على التهمة؛

***"Şübhələndiyin hər bir kəsi həbs et!"***[268]

Şəhərə nəzarət o həddə qədər sərt idi ki, yolda İmam Hüseynlə ﷺ rastlaşan bəzi kufəlilər şəhərin vəziyyətindən narahatlıqla söz açaraq o həzrətə ﷺ belə deyirdilər:

**لا والله ما ندري، غير أنا لا نستطيع أن نلج ولا نخرج**

***"And olsun Allaha ki, yox, heçnə bilmirik. (Nəzarət o qədər sərtdir ki,) doğrusu biz nə şəhərə daxil ola bilirik, nə də şəhərdən xaric olmaq mümkündür".***[269]

---

[267] Əl-İrşad, c.4, səh.45; Tarixut-Təbəri, c.2, səh.270; Təhzibul-kəmal, c.6, səh.424; Əl-Əxbarut-təval, səh.235; Siyəru əlamin-nubəla, c.3, səh.307; Əl-Bidayə vən-nihayə, c.8, səh.164; Əl-Kamilu fit-tarix, c.4, səh.25; Əl-İsabə, c.2, səh.70; Təhzibut-təhzib, c.2, səh.302 və digər mənbələr

[268] Tarixut-Təbəri, c.4, səh.286; Əl-Bidayə vən-nihayə, c.8, səh.179; Tarixu mədinəti Diməşq, c.18, səh.307; Əl-Kamilu fit-tarix, c.4, səh.36

[269] Əl-İrşad, c.2, səh.72; Tarixut-Təbəri, c.4, səh.295.

Bu əsnada İbn Ziyad, Husayn ibn Nümeyri Kufə şəhərinə polis rəisi təyin etdi.[270] Ona Kufədəki bütün evləri nəzarətə götürmək əmrini verdi. İbn Ziyad ona belə demişdi:

**وقد سلّطتك على دور أهل الكوفة**

***"Mən Kufə camaatının evlərinə nəzarəti sənin ixtiyarına verdim".***[271]

Nəzarətin sərt olduğuna Abdullah ibn Yəqtirin həbsini də nümunə çəkmək olar. Ona İmam Hüseynin (ə) süd qardaşı deyirdilər.[272] Əlbəttə, unutmaq olmaz ki, rəvayətlərə əsasən, İmam Hüseyn (ə) heç bir qadının südündən qidalanmamışdır. Abdullahın atası Peyğəmbərin (s) xidmətçisi, anası Məymunə isə Əmirəlmöminin İmam Əlinin (ə) evində yaşamışdır. Abdullah İmam Hüseyndən (ə) üç gün əvvəl dünyaya gəlmişdir. Onun anası İmam Əlinin (ə) evində xadimə olduğuna görə, İmam Hüseyn (ə) dünyaya gəldikdən sonra həm oğlunu, həm də Hüseyni (ə) qucağına almaqla hər ikisinə baxmışdır. İmam Hüseyn (ə) Abdullah ilə bir yerdə həmin xanımın qucağında olduğuna görə, məcazi mənada Abdullaha İmam Hüseynin (ə) süd qardaşı demişlər. Bu olay Abdullah ibn Yəqtirə ehtiram və şərəf gətirmişdi. Həzrət İmam Hüseyn (ə) Abdullah ibn Yəqtiri Kufə əhalisinin yanına göndərdi. Ancaq Kufə Şəhəri ciddi nəzarət altında olduğuna görə onu da Qeys ibn Müsəhhər kimi həbs edərək ibn Ziyadın yanına apardılar. Abdullahı da

---

[270] Bəzi tarix kitablarında yazıldığına görə, bu vəzifəyə Səmərət ibn Cundəb seçilmişdi. Səmərət ilk gündən Əhli-Beytə (ə) düşmən kəsilmişdir. Amma bəzilərinin dediyinə görə o, həmin vaxt artıq ölmüşdü.

[271] Əl-İrşad, c.2, səh.57; Məqatilut-talibiyyin, səh.68; Tarixut-Təbəri, c.4, səh.279

[272] Tarixut-Təbəri, c.4, səh.359; Əl-Kamilu fit-tarix, c.4, səh.93; Ət-Təbəqat, səh.77; Əl-Mucəmul-kəbir, c.3, səh.103, 2803-cü xəbər; Əl-Muntəzəm, c.5, səh.340

İbn Ziyadın göstərişi ilə hökumət evinin damından aşağı atdılar.[273]

Abdullah hökumət binasının damından aşağı atıldıqdan sonra sümükləri qırıldı. Ancaq hələ can verməmişdi ki, bu zaman Kufə şəhərinin qazilərindən biri olan Əbdülməlik ibn Ümeyr Ləxmi ona yaxınlaşaraq başını kəsdi. O, bu əməlinə görə tənqid edildikdə isə belə dedi:

أردت أن اريحه ؛

***"Onu əziyyətdən qurtarmaq istədim".***[274]

Bəli, ona müalicə üçün yardım göstərmək əvəzinə boğazını kəsdi!

## Qətl və qırğın

İbn Ziyadın Kufədə həyata keçirdiyi digər proqramlardan biri, həqiqi Əhli-Beyt عليهم السلام tərəfdarlarını və xalis şiələri qətlə yetirmək olmuşdur. O, atası Ziyad ibn Əbih kimi davranırdı. İbn Ziyadın göstərişi ilə şəhid edilən insanların arasından bir neçəsini aşağıda qeyd edirik:

## Meysəm Təmmar

Meysəm Təmmar İbn Ziyadın əli ilə şəhadətə yetişmişdir. Meysəmin hekayəsi, yəni Əmirəlmömininin Əli ibn Əbu Talibin عليه السلام onun hansı formada şəhid edilməsindən xəbər verməsi maraqlı və eşitməli olaylardandır. Həbib ibn Məzahirin Meysəmin necə şəhid ediləcəyindən xəbəri var idi. Ən maraqlısı budur ki, Rüşeyd Həcərinin isə onların hər ikisinin başına gələcək hadisələrdən məlumatı var idi.

---

[273] Mənaqibu ali-Əbi-Talib, c.3, səh.232; Biharul-ənvar, c.4.səh.343

[274] Əl-İrşad, c.2, səh.71; Tarixut-Təbəri, c.5, səh.300; Əl-Kamilu fit-tarix, c.4, səh.43

Kəşşinin “Rical” kitabında belə qeyd olunur ki, bir gün Həbib ibn Məzahirlə Meysəm Təmmar görüşərək bir-birlərinə gələcəkdə başlarına gələcək hadisələrdən xəbər verirlər. Meysəm Həbibə deyir: ***“Səni filan şəkildə şəhid edəcəklər”.*** Həbib isə Meysəmə deyir: ***“Səni isə filan şəkildə şəhid edəcəklər”.*** Onlar bir-birindən ayrılıb getdikdən sonra Rüşeyd Həcəri həmin yerə gəlib orada olan insanlardan soruşur: ***“Burada bir-birilə söhbət edən iki nəfər hara getdi?”*** Onlar dedi: ***“Bu iki nəfər olduqca təəccüblü sözlər danışırdılar”.*** Rüşeyd: ***“Nə danışırdılar?”***-deyə soruşdu. Onlar o ikisindən eşitdiklərini Rüşeydə danışdılar. Rüşeyd isə onlara belə dedi: ***“Onların hər ikisi Əmirəlmöminin Əlinin ﷺ buyurmuş olduğu hadisənin bir hissəsini unutmuş və söyləməmişlər. Meysəm Həbibin kəsilmiş başının Kufəyə gətirilməsi üçün mükafat təyin edilməsi hissəsini unutmuş və söyləməmişdir”.***[275]

Bəli, Kufədə belə şəxslər mövcud idi, ancaq onların sayı barmaq sayı qədər az idi. Onlar İmam Əlidən ﷺ eşitdikləri sirləri bir-birilərinə müjdə olaraq söyləyirdilər. İbn Həcər Əsqəlani Meysəm Təmmar barəsində yazır:

***Meysəm ömrünün son ilində Məkkəyə yollandı. Mədinə şəhərində Peyğəmbərin ﷺ xanımı Ümmu Sələmə ilə görüşərək söhbətləşmişdi. Kufəyə döndüyü zaman həbs edilərək zindana atıldı. Zindanda olan Muxtar Səqəfi ilə görüşdükdə isə belə demişdi:***

إنك ستفلت وتخرج ثائراً بدم الحسين فتقتل هذا الّذي يريد أن يقتلك؛

***“Sən tezliklə azad olacaq, Hüseynin qanının intiqamını almaq üçün qiyam edəcəksən. Bu səni öldürmək istəyəni*** *(İbn Ziyadı – red.)* ***öldürəcəksən”.***[276]

---

[275] Ricalu Kəşşi, c.1, səh.292-293

[276] Əl-İrşad, c.1, səh.324; Əl-İsabə, c.6, səh.250

Onun bu sözü öz təsdiqini tapdı, belə ki, Meysəmi şəhid etdilər. Muxtar isə Kərbəla hadisəsindən sonrakı dövrə qədər zindanda qaldı.

## Übeydullah ibn Əmr ibn Əziz Kindi

Ötən mövzulara nəzər salsaq, görərik ki, Kufə şəhərinin nüfuzlu şəxsiyyətləri zindana atılmışdı. Onlardan biri də Übeydullah ibn Əmr ibn Əziz Kindi idi ki, onu da qətlə yetirdilər. Onun tərcümeyi-halında belə yazılır:

كان فارساً شجاعاً كوفياً من الشيعة، وشهد مع أميرالمومنين علي عليه السلام مشاهده كلّها، وكان من الّذين بايعوا مسلماً ويأخذ البيعة من أهل الكوفة للحسين عليه السلام هو ومسلم بن عوسجة

***"O, at üstündə döyüşməyi bacaran şücaətli Kufə şiələrindən idi. Əmirəlmöminin Əlinin (ə) bütün döyüşlərində o həzrətin yanında olmuşdur. Kufədə Müslimə (ə) beyət etmişdir. O, Müslim ibn Ovsəcə ilə birlikdə əhalidən Hüseyn (ə) üçün beyət alırdı".***[277]

Öncədən qeyd olunduğu kimi Numan ibn Bəşir (Kufənin valisi) plana əsasən, Müslimin (ə) tərəfdarlarına toxunmadı və onlar da açıq və azad şəkildə fəaliyyət göstərməyə başladılar. Lakin Numandan sonra hakimiyyət İbn Ziyadın ixtiyarına verildiyi zaman Kufə şəhərinin polis rəisi Husayn ibn Nümeyr Übeydullah ibn Əmri tutaraq İbn Ziyadın yanına apardı. Ona dedilər: ***"Sən "Rəbiə" və "Kində" qəbiləsinin rəisisənmi?"*** O, dedi: ***"Bəli".*** Bu zaman İbn Ziyad onu qətlinə fərman verdi.[278]

---

[277] Tarixul-Kufə, səh.332
[278] Həmin mənbə

## Übeydullah ibn Haris ibn Nofəl Həmdani

Übeydullah ibn Haris Həmdani də İbn Ziyadın əmri ilə şəhadətə yetirilən şiələrdən biridir. O, Peyğəmbərin ﷺ əshabından olmuş və Əmirəlmöminin Əlinin (ə) yanında Siffeyn döyüşündə iştirak etmişdir. Onun Kufədəki fəaliyyəti haqda belə yazılmışdır:

كان يأخذ البيعة من أهل الكوفة للحسين عليه السلام؛

***"O, Hüseyn (ə) üçün Kufə əhalisindən beyət alırdı".***

Kəsir ibn Şihab onu həbs edib İbn Ziyadın yanına apardı və onu sorğuya çəkdilər. Ona "sən Müslimə (ə) beyət etmisən?" sualı verildikdə, o dedi: ***"Bəli!"*** Sonra ***"Hüseynə (ə) camaatdan beyət almısan?"*** deyə soruşulduqda, o yenə: ***"Bəli!"***-deyə cavab verdi. Bu zaman İbn Ziyad onun qəbiləsinin gözü qarşısında boynunun vurulması əmrini verdi![279]

Bir belə sıxıntı, ciddi nəzarət və sərt davranışlar dönəmində, həmçinin, qəbilə rəisini öz qəbiləsinin gözü önündə qətlə yetirdikləri halda, başqa bir qəbilə hər hansı bir addım atmağı düşünə bilərdimi?

## Əbdüləla ibn Yezid Kəlbi Əlimi

Kufədə İbn Ziyadın əmri ilə şəhid edilən şəxslərdən biri Əbdüləla Kəlbi olmuşdur. Onun haqqında belə yazılmışdır:

كان فارساً شجاعاً قارئاً، من الشيعة، كوفياً، وكان هو وحبيب بن مظاهر الأسدي يأخذان البيعة من أهل الكوفة للحسين عليه السلام؛

***"O, at üstündə döyüşməyi bacaran şücaətli və Quran qarisi olan Kufə şiələrindən biri idi. O, Həbib ibn Məzahir***

---

[279] Həmin mənbə

***Əsədi ilə bir yerdə Kufə əhalisindən Hüseyn ﷺ üçün beyət alırdılar".***[280]

Kəsir ibn Şəhab onu həbs etdi. Müslimi ﷺ şəhid etdikdən sonra İbn Ziyad onu hüzuruna gətizdirib qətlə yetirilməsi əmrini verdi.

## Abbas ibn Cədə Cədəli

Müslim ﷺ Abbas ibn Cədəni bir neçə qəbilənin başçısı təyin etmişdi. Onun barəsində belə yazılır:

**كان من الشيعة الّذين بايعوا مسلم بن عقيل رضي الله عنه في الكوفة ومن المخلصين في الولاء لأهل البيت عليهم السلام، وكان يأخذ البيعة من الناس للحسين بن علي عليهما السلام**

***"O, Kufədə Müslim ibn Əqilə (Allah ondan razı olsun) beyət edən şiələrdən və Əhli-Beytə ﷺ sədaqətlə məhəbbət bəsləyənlərdən biri idi. Əhalidən Hüseyn ﷺ üçün beyət alırdı".***[281]

Abbas Cədəli, Ömər ibn Sədin qoşununda dəstə başçısı və eyni zamanda xəvaricdən olan Məhəmməd ibn Əşəs Kindi tərəfindən həbs olunmuşdu. Müslimin ﷺ şəhadətinin ardınca İbn Ziyadın əmri ilə şəhadətə yetirilmişdir.[282]

**6-Əmarət ibn Səlxəb Əzdi.**

Kufədəki nüfuzlu şiələrdən biri Əmarət ibn Səlxəb Əzdi idi. O, şücaətli bir kişi, Müslimlə ﷺ beyət edənlərdən biri olmaqla yanaşı, Kufə əhaləsindən İmam Hüseyn ﷺ üçün beyət alan şəxslərdən hesab olunurdu. Məhəmməd ibn Əşəs

---

[280] Tarixul-Kufə, səh.334

[281] Həmin mənbə.

[282] Həmin mənbə, səh.335

onu həbs etdi. İbn Ziyad onu qəbiləsinin gözü qarşısında qətlə yetirilməsi əmrini verdi.[283]

## Şiələrin həbs edilərək zindana salınması

İbn Ziyadın Kufədə gördüyü işlərdən biri də şiələrin həbs edilərək zindana salınması idi. Zindana salınanlar arasında Muxtar, Haris Əvər Həmdani, Süleyman ibn Surəd və onun yoldaşları, habelə Müsəyyib ibn Nəcbə, Rufaə ibn Şəddad kimi şəxslər var idi. Bu adlara diqqət edin!

Təbəri yazır: İbn Ziyad bir məktubunda Yezidə belə yazdı:

وما تركت لكم ذا ظنة أخافه عليكم إلاّ وهو في سجنكم؛

***"Sizə qarşı (hər hansı bir hərəkətindən və ya qiyam edəcəyindən) qorxaraq şübhə etdiyim elə bir kəs yoxdur ki, indi sizin zindanınızda olmasın".***[284]

Bütün bu olanlardan sonra şiə böyüklərinin harada olmaları və sonlarının nə ilə bitdiyi aydın şəkildə üzə çıxır. Belə olan halda şiə böyüklərinin Hüseyni (ə) dəvət edib özləri də onu qətlə yetiriblər deyilməsi heç düzgün bir iddiadırmı?

İbn Ziyad Müaviyənin göstərişinə əsasən Bəsrənin valisi olmaqla yanaşı Kufəyə də vali təyin edildi. O, Yezidin ölümündən sonra Bəsrədən Şama tərəf hərəkət etdi. O zaman zindanda olanları qətlə yetirmədiyi üçün peşman olmuşdu.

İbn Ziyad Yusaf ibn Şureyx Yəşkəri ilə söhbəti əsnasında belə demişdi:

كنت أقول: ليتني كنت أخرجت أهل السجن فضربت أعناقهم؛

[283] Həmin mənbə

[284] Tarixut-Təbəri, c.4, səh.387; Əl-Kamilu fit-tarix, c.4, səh.131

***“Həmişə deyərdim ki, kaş həbs etdiklərimi zindandan çıxarıb boyunlarını vurardım”.***[285]

İbn Ziyad görəsən kimləri öldürməyi arzulayırdı? O zaman zindanda həbsdə olanlar, sonradan Kərbəla şəhidlərinin qanını və Aşura faciəsinin intiqamını almaq üçün ayağa qalxmışdılar. İbn Ziyad isə onlara qarşı vuruşmaq üçün təhkim edilmişdi. İbn Ziyad zindanda olanların bəzilərini qətlə yetirmiş, bəzilərini isə azad etmişdi, canını qurtarıb qaçanların bəzilərini isə təqib etdirmişdi. O, bir neçə ildən sonra Süleyman ibn Surəd, Muxtar Səqəfi və başqaları İmam Hüseynin ﷺ qatilləri və Şam əhli ilə vuruşmağa getdikləri zaman zindana atdıqlarını elə məhbəsdə öldürmək arzusunu dilə gətirmişdi.

Aşura hadisəsindən bir neçə il sonra İbn Ziyad və tərəfdarları qətlə yetirildi, onlardan bir neçəsini isə Muxtar qətlə yetirdi.

## Əhli-sünnənin Süleyman ibn Surədin şəxsiyyətinə baxışı

Əhli-sünnənin nəzərində Süleyman böyük bir şəxsiyyət hesab edilir. O, Peyğəmbər ﷺ səhabəsi[286] olduğuna görə kitablarında onun adını böyük hörmətlə xatırlamışlar. Burada onun haqqında yazılanlardan bir neçə nümunə qeyd edək.

Zəhəbi onun barəsində belə yazır:

كان ديناً عابداً؛

***“O, abid, dindar biri olmuşdur”.***[287]

---

[285] Tarixut-Təbəri, c.4, səh.403; Əl-Kamilu fit-tarix, c.4, səh.141

[286] Əs-Siqat, İbn Hibban, c.3, səh.160; Tarixu Bəğdad, c.1, səh.215; Məşahiru uləmail-əmsar, səh.81; İkmalul-kəmal, c.2, səh.163; Əl-Cərh vət-tədil, c.4, səh.123; Əl-İsabə, c.1, səh.571 və c.2.səh.144; Əl-Muntəxəb min zeylil-muzəyyəl, səh.26 və s.

[287] Siyəru əlamin-nubəla, c.3, səh.395

İbn Əsir, İbn Əbdülbərr, İbn Həcər Əsqəlani və başqaları onun barəsində belə yazmışlar:

كان خيراً فاضلاً له دين و عبادة؛

***"O, xeyirxah, fəzilətli, dindar və abid bir şəxs idi".***[288]

İbn Kəsir onu "hörmətli səhabə" adlandıraraq haqqında belə yazmışdır:

وقد كان سليمان بن صرد الخزرجي صحابياً جليلاً نبيلاً عابداً زاهداً

***"Süleyman ibn Surəd Xəzrəci zahid, abid, əsilzadə və hörmətli bir Peyğəmbər ﷺ səhabəsi olmuşdur".***[289]

İbn Səd, İbn Əsir və başqaları onun öz qövmü arasında böyük hörmətə sahib olduğuna işarə edərək belə yazmışlar:

كانت له سن عالية وشرف في قومه

***"O, yaşı çox, öz qövmü içində ali məqam və şərəfə sahib biri idi"***.[290]

O, Əlinin (ə) səhabələrindən olmuş,[291] Cəməl[292] və Siffeyn[293] döyüşlərində o həzrətlə bərabər iştirak etmişdir. Əhli-sünnə tarixçiləri davamında qeyd edirlər ki, o, Həbib ibn Məzahirlə birgə Kufə şiələri adından İmam Hüseynə (ə) məktub yazıb o həzrəti Kufəyə dəvət edənlərdən idi.

Əhli-sünnə tarixçilərinin bura qədər onun haqqında söylədikləri üst-üstə düşür. Ancaq bundan sonra, yəni İmam Hüseynə (ə) məktub yazıb cavabını aldıqdan sonra, İmam Hüseynin (ə) qatillərindən intiqam almaq üçün "təvvabin"

---

288 Usdul-ğabə, c.2, səh.351; Əl-İstiab, c.2, səh.650; Əl-İsabə, c.3, səh.144; Əl-Əqdus-səmin, c.4, səh.238

289 Əl-Bidayə vən-nihayə, c.8, səh.280

290 Əl-Təbəqatul-kubra, c.4, səh.292; Usdul-ğabə, c.2, səh.351; Tarixu Bağdad, c.1, səh.215; Təhzibut-təhzib, c.4, səh.175 və s.

291 Tarixul-kəbir, c.4, səh.1; Əl-Əxbarut-təval, səh.185-186

292 Ət-Təbəqatul-kubra, c.4, səh.292

293 Ət-Təbəqatul-kubra, c.4, səh.292 və c.6, səh.25; Əl-İstiab, c.2, səh.650; Əl-İsabə, c.3, səh.144; Tarixu Bəğdad, c.1, səh.215; Siyəru əlamin-nubəla c.3, səh.395; Təhzibut-təhzib, c.4, səh.175

dəstəsinin sırasındakı qiyamı, İmam Hüseynə (ə) kömək etməməsi və həmin dövrdə harada olduğuna dair mövzularda artıq fikirlər üst-üstə düşmür. Biz burada həmin müxtəlif fikirlərdən bir neçəsini nümunə olaraq qeyd edirik:

Bəziləri qeyd edir:

ترك القتال معه

***"Onunla birgə döyüşməyə getmədi".***[294]

Bəziləri isə qeyd edir:

تخلّوا عنه

***"Ondan** (İmam Hüseyn (ə) – red.) **uzaqlaşdılar".***[295]

Bəziləri isə belə yazır:

عجز عن نصره

***"Ona kömək etməyə gücü çatmadı".***[296]

Bəziləri isə qeyd edir ki:

تخلّف عنه ثمّ ندم

***"Ondan uzaqlaşdı, ancaq sonra peşman oldu".***[297]

Bəziləri isə qeyd edir ki:

أمسك عنه ولم يقاتل معه

***"Ondan uzaqlaşdı və onunla birgə döyüşə qatılmadı".***[298]

Başqa bir tarixçilər isə belə qeyd etmişlər:

إعتزله ولم يكن معه فلما قتل الحسين ندم

***"Hüseyndən (ə) kənarlaşdı və döyüşdə onunla birgə olmadı. Ancaq Hüseyn (ə) qətlə yetirildikdən sonra peşman oldu".***[299]

---

[294] Əl-İstiab, c.2, səh.650; Usdul-ğabə, c.2, səh.351; Tarixu Bağdad, c.1, səh.216

[295] Əl-Bidayə vən-nihayə, c.8, səh.280; Əl-Əqdus-səmin, c.4, səh.238

[296] Siyəru əlamin-nubəla, c.3, səh.395

[297] Əl-İsabə, c.3, səh.144

[298] Ət-Təbəqatul-kubra, c.4, səh.292

[299] Ət-Təbəqatul-kubra, c.6, səh.25

Bəzi tarixçilər Süleymanın İmam Hüseynə ﷺ yazmış olduğu məktuba və o həzrətə ﷺ hansı səbəb üzündən yardım edə bilmədiyi mövzusuna toxunmamışlar.[300] Bəziləri isə hicrətin 65-ci ilində Süleyman ibn Surədlə əlaqəli baş verənləri qeyd etməmişlər.[301]

Bir tərəfdən qeyd edirlər ki, o, İmam Hüseynə ﷺ kömək etməkdə aciz idi və Kərbəlada iştirak etməməsi özünün ixtiyarında deyildi, digər tərəfdən isə onun "peşman" olduğunu niyə qeyd edirlər?! Əhli-sünnə alimlərinin sözlərindəki çaşqınlıq əslində onların həqiqəti söyləmək istəmədikləri səbəbindəndir. Bəli, bu, əhli-sünnə alimlərindən bəzilərinin ikiüzlülüyünün bariz nümunəsidir. Belə bir şəxsin hətta Peyğəmbər ﷺ səhabəsi olmasına baxmayaraq, həbsə atılmasını açıq şəkildə bəyan etmək istəmirlər. Ancaq "Tənqihul-məqal" kitabında belə qeyd olunur:

ولم يكن له سبيلٌ الى نصر الحسين عليه السلام لأنهم مقيدين بالحبس؛

***"Süleymanın Hüseynə ﷺ kömək etməyə çıxış yolları yox idi. Çünki onlar*** *(Süleyman və yoldaşları – red.)* ***həbsə atılmışdılar".***[302]

Hətta onlar Süleymanın günah etməsinin ardından peşman olaraq qiyam edib döyüşdüyünü göstərmək istəyirlər. Onlar həmin mənaya işarə edərək belə yazırlar:

كان ديناً عابداً خرج في جيش تابوا إلى الله من خذلام الحسين الشهيد، وساروا للطلب بدمه، وسموا جيش التوابين؛

***"O, dindar və abid bir şəxs idi. Şəhid olan Hüseyni ﷺ tənha qoyduqlarına görə Allaha tövbə edən qoşunla qiyama qalxdı və onun qanının intiqamı tələbi ilə hərəkətə***

[300] Təhzibul-əsma vəl-luğat, c.1, səh.234
[301] Əl-Muxtəsər fi əxbaril-bəşər, hicrətin 65-ci ili
[302] Tənqihul-məqal, c.2, səh.63

***keçdilər. Həmin qoşun “təvvabin*** *” (tövbə edənlər – red.)* ***qoşunu olaraq adlandırıldı”.***[303]

Bu qoşun Şam ordusuyla üzləşən, İbn Ziyadın qoşunun başçılarını, həmin dövrdə Kufəni idarə edən və sonradan Şama köçən hakimiyyət nümayəndələrini bir hücumda qətlə yetirən qoşun idi. Qeyd edək ki, “təvvabin” hərəkatının özünəməxsus bir tarixçəsi var.

## Qaçan şəxsləri təqib etmək

İbn Ziyad Müslimin (ع) tərəfdarlarından bir neçəsini şəhadətə yetirdikdən sonra Müslim ibn Ovsəcə, Həbib ibn Məzahir və başqalarını təqib etsə də, onları həbs etdirə bilmədi.

## Kufə İbn Ziyadın tam nəzarəti altında

İmam Hüseyn (ع) Kərbəlaya çatdığı vaxtda Kufə şəhəri İbn Ziyadın həyata keçirtdiyi tədbirlər sayəsində özünün tam nəzarəti altına keçmişdi. Həmin dövrdə bütün planları yerinə yetirdikdən sonra minbərə çıxaraq insanlara xitab etdi:

أيها الناس! إنكم قد بلوتم آل سفيان، فوجدتموهم على ما تحبون، وهذا يزيد، قد عرفتموه، أن حسن السيرة، محمود الطريقة، محسن إلى الرعية، متعاهد الثغور، يعطي العطاء في حقّه؛

***“Ey camaat! Siz Əbu Süfyan ailəsini sınaqdan çıxarmış, onların da istədiyiniz kimi olduğunu görmüsünüz. Bu Yeziddir, siz artıq onu tanımısınız. (Bilmisiz ki, o,) gözəl əxlaqlı, təqdirə layiq üslüblu, öz rəiyyətinə yaxşı davranan,***

[303] Tarixul-İslam, c.3, səh.395

***sərhədlərini himayə edən, malı haqq üzrə (haqq sahibinə) əta edəndir”.***[304]

İbn Ziyad başqa bir yerdə isə belə deyir:

لا يبقين رجلٌ من العرفاء والمناكب والتجار والسكّان إلاّ خرج فعسكر معي، فأي ما رجل وجدناه بعد يومنا هذا متخلّفاً عن العسكر برئت منه الذمة

***“Başçılardan, etimadlı şəxslərdən, tacirlər və sakinlərdən hamısı mənim ordumla bir yerdə döyüşə getməlidir. Bizim ordumuza qoşulmaqdan boyun qaçıranlarla aramızdakı əhd-peyman götürülür (malına və canına cavabdehlik daşımıram – müəl.)”.***[305]

“Tarixu Hələb” kitabının müəllifi isə əlavə edib yazır:

وكان ابن زياد إذا وجه الرجل إلى قتال الحسين في الجمع الكثير يصلون إلى كربلاء... فبعث ابن زياد سويد بن عبدالرحمن المنقرى في خيل إلى الكوفة، وأمره أن يطّوف ، فمن وجده قد تخلّف، أتاه به؛

***“İbn Ziyad camaatı Kərbəlaya gedən böyük bir qrupla Hüseynlə ﷺ döyüşməyə göndərdikdə ... İbn Ziyad Suveyd ibn Əbdürrəhman Minqərini bir qrup atlı ilə Kufəyə göndərdi. Ona (şəhərin küçə və məhəllələrini) dolaşıb, qoşundan ayrı düşənlərə rast gəldikləri zaman (həbs edərək dərhal) yanına gətirmək göstərişini verdi”.***[306]

Bu minvalla hədə-qorxu planı həyata keçdikdən sonra məmurlar şəhərdə axtarışa başladılar. Kufə şəhəri İbn Ziyadın istədiyi nizam-intizama uyğun şəklə salındı. O, zindanda olanlardan və hər hansı bir formada şəhərdən qaçaraq xurma bağlarında gizlənən adamlardan başqa hamını toplayıb Kərbəlaya göndərdi. O, Kufədə bir nəfər saxlamamaq şərtilə hamını toplayıb Ömər ibn Sədin başçılığı ilə İmam Hüseynlə ﷺ vuruşmağa yolladı. Bu səbəbdən, İmam

---

[304] Əl-Futuh, c.5, səh.89

[305] Ənsabul-əşraf, c.3, səh.178

[306] Buğyətut-tələb fi tarixi Hələb, c.6, səh.2626-2627; Biharul-ənvar, c.4, səh.385; Əl-Futuh, c.5, səh.157; Əl-Əxbarut-təval, səh.254

Hüseynin ﷺ dəstəsinə qoşulmaq istəyənlər İbn Ziyadın topladığı qoşunla birgə Kərbəlaya tərəf yollandılar. Bu üslubdan yararlanaraq asan şəkildə İmam Hüseynə ﷺ qoşula bildilər və Kərbəlaya çatdıqdan sonra onlardan bəziləri İmam Hüseynin ﷺ dəstəsinə qoşuldular.

## İmam Hüseynin ﷺ dəstəsinə qoşulanlar

İbn Ziyadın topladığı qoşunda yer alan, İmam Hüseynin ﷺ dəstəsinə qoşulmaq üçün şəhəri tərk edən bəzi şəxslərin adları və şəxsiyyətləri tarixə bəllidir. Həmin şəxslər gecənin qaranlığında İmam Hüseynin ﷺ dəstəsinə qoşuldular. Buradan güman etmək olar ki, bəzi başqa şəxslər də, Ömər Sədin qoşununa həmin məqsədlə qoşulmuşdular, lakin İmam Hüseynin ﷺ tərəfinə keçməyə nail ola bilməmişlər.

Qəti şəkildə söyləmək olar ki, insanların bir qrupu İmam Hüseynə ﷺ qoşulmaq üçün Ömər ibn Sədin ordusu ilə birgə Kərbəlaya gəlmişdilər. Onlar çarəsizlikdən həmin orduya qoşulmuşdular, onların arasından bəziləri gecə özlərini İmam Hüseynin ﷺ yanına çatdıra bildilər. Həmin insanlar Aşura axşamı və ya Aşura günü zülmətdən nura keçid edənlər deyildi, onlar öncədən hidayət yolunu tapmışdılar. Əlbəttə, Hürr ibn Yezid Aşura günü haqq və hidayətə çatmışdı.

Məcburiyyət qarşısında Ömər ibn Sədin ordusuna qoşularaq, İmam Hüseynin ﷺ aqibəti xeyirli olan dəstəsinə qoşulanlardan biri Qasim ibn Həbib ibn Əbu Bəşir Əzdi olmuşdur.[307] Onun haqqında belə yazılmışdır:

كان القاسم فارساً من الشيعة الكوفيين، خرج مع ابن سعد، فلما صار في كربلاء، مال إلى الحسين عليه السلام... وقتل بين يديه

[307] Əl-Məzar, İbn Məşhədi, səh.494

***"Kufə şiələrindən olan Qasim ibn Həbib gözəl at minməyi bacaran birisi idi. O, (Ömər) ibn Sədlə birgə Kufədən yola çıxmışdı. Kərbəlaya gəldikdə isə Hüseynə ﵇ qoşularaq onun qarşısında şəhadətə çatmışdır".***[308]

Digər xoşbəxt şəxslərdən biri Əmr ibn Zəbiə ibn Qeys Zəbəi olmuşdur.[309] Onun barəsində belə yazılır:

كان عمر فارساً مقداماً. خرج مع ابن سعد ثمّ دخل في انصار الحسين عليه السلام

***"Ömər***[310] ***at üstündə döyüşməyi bacaran, cəsur bir şəxs idi. (Ömər) ibn Sədlə birlikdə yola çıxmış, sonra isə Hüseynin ﵇ köməkçiləri sırasına daxil olmuşdur".***[311]

Həmin xoşbəxt şəxslərdən digər biri isə Həllas ibn Əmr Əzdi Rasibi olmuşdur. O, Əlinin ﵇ xilafəti dövründə Kufə şəhərinin təhlükəsizlik məsələlərində məsuliyyət daşımışdır. Qardaşı Numanla birgə Ömər ibn Sədin ordusuna qoşulsa da, ardından özünü İmam Hüseynin ﵇ dəstəsinə çatdırmışdır.[312] Həmin xoşbəxt şəxslərdən ata və oğul Məsud ibn Həccac Təmimi və Əbdürrəhmanın adlarını da qeyd etmək olar ki, onlar da Ömər ibn Sədin qoşununda Kərbəlaya yollanmış, oradan isə İmam Hüseynə ﵇ qoşularaq şəhadətə nail olmuşlar.[313]

---

[308] Əbsarul-eyn fi ənsaril-Huseyn, səh.186
[309] Mənaqibu ali-Əbi-Talib, c.3, səh.232
[310] Seyid ibn Tavus özünün "İqbalul-əmal" (3/78) kitabında onun adını "Ömər ibn Zəbiət əz-Zəbi" deyə qeyd etmişdir.
[311] Əbsarul-eyn fi ənsaril-Huseyn, səh.194
[312] Həmin mənbə, səh.187
[313] Həmin mənbə, səh.193

## Kufədən yola düşən qoşunun cinah rəhbərləri

### Baş komandan Ömər ibn Səd

İbn Ziyadın göndərdiyi hərbi qoşun başçılarını tanımaq böyük əhəmiyyət kəsb edir. Çünki bu məsələ bir sıra şübhələrin aydınlaşmasında böyük rol oynayır. Həmin ordunun baş komandanı Ömər ibn Səd idi. Bu mövzunu aydınlaşdırmadan öncə burada iki məsələyə aydınlıq gətirək:

1.Tarixçilərin yazdığına əsasən, Ömər ibn Sədi dörd min nəfərlik qoşuna komandan təyin edərək Deyləmə[314] döyüşə göndərmək istəyirdilər. Həmin mövzu haqda bir çox tarixi mənbələrdə belə qeyd olunmuşdur:

كانوا قد أُعدوا للخروج معه إلى الري لقتال الديلم؛

***"Qoşun Rey şəhərinə yollanıb Deyləmilərlə vuruşmaq üçün hazır vəziyyətə gətirilmişdi".***[315]

2. Ömər ibn Səd ilk gündən Bəni-Üməyyə tərəfdarı olmuş, Əhli-Beytlə ﷺ heç bir əlaqəsi olmamışdır. Hətta Numan ibn Bəşir həzrət Müslim ﷺ və yoldaşlarına qarşı mülayim davrandığı zaman o, Yezidə yazdığı bir məktubda belə qeyd etmişdi: ***"Bir tədbir görməsən, Kufə şəhəri əldən çıxacaq".***

3. Əmirəl-möminin Əli ﷺ Kufədə olduğu dövrdə Ömər ibn Sədin İmam Hüseynin ﷺ qatili olacağını xəbər vermişdi.[316]

---

[314] Burada bir araşdırmaya ehtiyac duyulur. Görəsən, həmin dövrdə doğrudan da Reydə müharibə olacaqdımı, yoxsa deyləmilərlə döyüşmək bəhanəsi ilə ordu toplayırdılar?

[315] Əl-İsabə, c.2, səh.171; Əl-Əxbarut-təval, səh.253; Əl-Futuh, c.5, səh.85; Mətalibus-suul fi mənaqibi alir-Rəsul, səh.400; Tarixul-İslam, c.5, səh.25; Ləvaicul-əşcan, səh.105

[316] Əl-İstiab, c.1, səh.393-394

**Husayn ibn Nümeyr**[317]

Tarixi mənbələrdə ibn Nümeyr haqda az məlumat var.

O, Şamın şəhərlərindən biri olan Homsdan idi.[318] Həmin diyarın əhalisi nasibi idilər, Əhli-Beytin عليهم السلام və xüsusən, Əlinin عليه السلام düşmənləri idilər.[319] Husayn ibn Nümeyr belə bir şəhərdə böyümüşdü. Təbəri yazır:

كان على شرطة عبيدالله؛

***"O, Ubeydullahın şəhər mühafizəçilərinin böyüyü idi".***[320]

Qeyd etdiyimiz kimi, Husayn şəhərə nəzarəti dövründə bir çox insanı həbs etmişdi. Onun törətdiyi bəzi cinayətləri burada qeyd edək: ***"O, Kərbəlada Həbib ibn Məzahiri şəhid edən kəsdir"***.[321]

O, Ömər ibn Sədin qoşunu tərəfindən İmam Hüseynin عليه السلام çadırlarına ilk ox atan şəxs olmuşdur. Çünki o, oxatanlar dəstəsinin rəhbəri idi. Kərbəlada kəsilən Əhli-Beytə عليهم السلام məxsus mübarək başları Şama aparan bir yaramazdır. Yezid başları onun hüzuruna gətirilməsi və onların hansı şəkildə qətlə yetirilməsi barədə danışılması əmrini vermişdi. Kəsilmiş başları onun yanına gətirdikdən sonra sorğu-sual başladı. Növbə Husayna çatanda Yezid dedi: ***"Mənə Hüseynin عليه السلام necə qətlə yetirildiyini danış"***. Husayn əvvəlcə aman istəyərək ardından belə söylədi:

---

[317] Bəzi mənbələrdə Husayn ibn Təmim qeyd edilib, ancaq bizim nəzərimizə görə düzgün olanı elə "Husayn ibn Nümeyr"dir.

[318] Əl-İsabə, c.2, səh.80; Əl-Bidayə vən-nihayə, c.8, səh.239; Əl-Vafi bil-vəfəyat, c.13, səh.56

[319] Mucəmul-buldan, c.2, səh.349

[320] Əl-İsabə, c.2, səh.80; Əl-Bidayə vən-nihayə, c.8, səh.239; Əl-Vafi bil-vəfəyat c.13, səh.56

[321] Mənaqibu ali-Əbi-Talib, c.3, səh.252; Məqtəlul-Huseyn, Əbu Mixnəf, səh.143-145; Əl-Futuh səh.105-108 və s.

إعلم ـ أيها الأمير ! ـ أنّ الّذي عقد الرايات ووضع الأموال وجيش الجيوش وأرسل الكتب وأوعد ووعد هو الّذي قتله

***"Ey əmir, bil! Bayraqları bağlayıb malları** (ənamları – red.) **hazır edən, ordunu təşkil edən, (bu barədə) məktublar göndərən, (döyüşə qatılacaqları təqdirdə) vədlər verən, (qoşundan ayrı düşüb bu işə qarşı çıxacaqları təqdirdə isə) hədə-qorxu gələn şəxs** (yəni sən özün – red.) **Hüseyni ﷺ qətlə yetirdi".***[322]

Yezid bu cavabdan qəzəblənərək məclisi tərk edərək otağa getdi. Husayn ibn Nümeyr, Abdullah ibn Zübeyri Kəbə evindən çıxarmaq naminə Kəbə evini darmadağın etmək üçün mancanaq qurmuş adamdır. Kərbəla faciəsindən beş-altı il sonra Husayn ibn Nümeyr, İbn Ziyadla həmkar olan digər Şam əhli ilə birlikdə Muxtar və yoldaşları tərəfindən qətlə yetirilərək Cəhənnəmə vasil oldu.[323]

**Şəbəs ibn Ribi[324]**

O, Əhli-Beytin عليهم السلام qatı düşmənlərindən və xəvaric dəstəsinin böyüklərindən biri idi. Kərbəla hadisəsində min nəfərlik dəstəyə başçılıq etmişdir. O, həm də İmam Hüseynə عليه السلام məktub yazanlardan olmuşdur.[325] Qeyd etmək lazımdır ki, xəvaric hətta Kərbəla hadisəsindən sonra da Əhli-Beyt عليهم السلام əleyhinə mübarizə aparmaq yolunda Bəni-Üməyyə ilə həmkarlıq etmişdir. Onlar həm Əlinin عليه السلام qətlində, həm İmam Həsənin عليه السلام qətlində, həm də Aşura hadisəsində Bəni-Üməyyə ilə müttəfiq olmuşlar. Ancaq sonralar hakimiyyət üstündə aralarında ixtilaf yaranaraq olduqca maraqlı çəkişmələrə düçar olmuşlar.

---

322 Nurul-eyn fi məşhədil-Huseyn, səh.70

323 Əl-Əmali, Şeyx Tusi, səh.242

324 Siyəru əlamin-nubəla, c.4, səh.150

325 Əl-İrşad, c.2, səh.98; Əl-Futuh c.4, səh.323; Əl-Kamilu fit-tarix, c.4, səh.62; Əl-Bidayə vən-nihayə, c.8, səh.194

**Həccar ibn Əbcər İcli**

Həccar ibn Əbcər Kərbəlada min nəfərlik orduya başçı təyin edilmişdi. O, Şəbəs ibn Ribi və başqa şəxslərlə birgə məktub yazıb İmam Hüseynə (ع) göndərənlərdən biri olmuşdur.[326] Həccar Kərbəla hadisəsindən sonra Muxtar əleyhinə qiyam edənlərin sırasında yer alsa da, sonda məğlubiyyətə düçar olmuşdur.[327] O da atası kimi xaçpərəst idi[328] Atası xaçpərəst kimi dünyadan köçmüşdü. İbn Həcər bu haqda Mərzbanidən nəql edərək yazır:

أنّ ابجر مات على نصرانيته في زمن علي

***"Həqiqətən, Əbcər Əlinin (ع) zamanında xaçpərəst kimi dünyasını dəyişmişdir".***[329]

**Hürr ibn Yezid Riyahi**

Hürr ibn Yezid Riyahi, İbn Ziyadın Kərbəlaya göndərdiyi orduda min nəfərlik qoşuna başçılıq edənlərdən biri idi. Əlbəttə, onun tövbə hekayəsi əvvəldən sona qədər, bəşər üçün böyük bir ibrət nümunəsidir. O, ilk başda İmam Hüseynin (ع) önünü Kərbəlada kəsərək narahatçılıq yaratsa da, sonradan yanlış yolda olduğunu anlamış və könüllü olaraq hidayət yolunu seçmişdir.

**Şimr ibn Zilcövşən**

Şimr dörd minlik qoşuna başçılıq edirdi.[330] O, əvvəldən Bəni-Üməyyə tərəfdarı olmuş və İbn Ziyada xidmət etmişdir. Belə ki, İbn Ziyad, Ömər ibn Sədin onun əmrinə tabe olmaqda səhlənkarlığa yol verdiyini hiss etdikdə Ömərə

---

326 Həmin mənbələr

327 Məqtəlul-Huseyn, Əbu Mixnəf, səh.371; Tarixut-Təbəri, c.4, səh.528-529; Əl-Futuh, c.6, səh.262

328 Əl-İsabə, c.2, səh.143; Əl-Əxbarut-təval, səh.214

329 Əl-İsabə, c.2, səh.143

330 Əl-Əmali, Şeyx Səduq, səh.220; Biharul-ənvar, c.44, səh.315

təqdim etməsi üçün Şimrə bir məktub vermiş və Öməri nəzarətdə saxlamağı tapşırmışdı. Şimr Bəni-Üməyyə məftu-nu idi. Əhli-sünnə, eləcə də şiə tarixçiləri qeyd edirlər ki, İbn Ziyad Şimrə dedi:

إذهب فإن جاء حسين وأصحابه على حكمي وإلاّ فمر عمر بن سعد أن يقاتلهم، فإن تباطأ عن ذلك فاضرب عنقه، ثمّ أنت الأمير على الناس؛

***"Get, əgər Hüseyn ﷺ və əshabı bizim hökmümüzə tabe olsa, heç, yox əgər tabe olmasa, Ömər ibn Sədə onlarla döyüşmək əmrini ver. Əgər Ömər bu işə süstlük etsə, boynunu vur. Ardınca bütün orduya baş komandan sənsən".***[331]

İbn Həcər Şimr haqda belə yazır: ***Şimr camaat namazını qıldıqdan sonra təvəssül edərək dedi:***

اللّهم إنك تعلم أني شريف فاغفر لي

***"İlahi! Sən mənim ləyaqətli adam olduğumu bilirsən, məni əfv et!"***[332]

Ravi deyir ki, ona dedim: ***"Sən Peyğəmbər ﷺ qızının oğlunu öldürdüyün halda Allahın səni bağışlayacağına ümid edirsən?"*** Şimr ona belə cavab verdi: ***"Sən nə deyirsən? Nə etməli idim? Bizə göstəriş verənlər bizim əmr sahiblərimiz idi, biz onların sözündən çıxsaydıq, heyvan-dan da aşağı səviyyəyə düşərdik! Çünki əmr sahiblərinə qulaq asıb itaət etmək bizə vacibdir!"*** İbn Həcər Əsqəlani özünün belə təəsübkeş olmasına baxmayaraq bu məsələni nəql etdikdən sonra belə yazır:

***Bu, yersiz bir üzrdür, çünki əmr sahibinə yaxşı işlərə dair verilən göstərişlərdə itaət etmək vacibdir.***[333]

---

[331] Əl-Bidayə vən-nihayə, c.8, səh.190

[332] Tarixu mədinəti Diməşq, c.23, səh.189; Mizanul-itidal, c.2, səh.280; Lisanul-mizan c.3, səh.152.

[333] Lisanul-mizan, c.3, səh.153; Mizanul-itidal, c.2, səh.280

**Qeys və Məhəmməd**

İbn Ziyadın Kərbəlaya göndərdiyi ordunun içində dəstə başçılarından olan Məhəmməd və Qeys qardaş idilər. Onlar Əşəsin oğlanları idi. Əşəs, həmçinin, Cədənin atası idi. O Cədə ki, Müaviyənin təhriki ilə pula və Yezidlə ailə qurmağa olan tamahı ucbatından İmam Həsəni (ə) zəhərləmişdi.

Aparılan araşdırmalara əsasən, bu iki nəfərin atasının, yəni Əşəsin Əmirəlmöminin Əli ibn Əbu Talibin (ə) qətlində əli olmuşdur.[334] Qeys və Məhəmməd də öz ataları kimi xəvaric dəstəsindən olmuşlar. Məhəmməd min nəfərlik qoşuna rəhbərlik etmişdir. O, Müslimlə (ə) döyüşmüş, onu həbs etdikdən sonra şəhid etmişdir.

Məhəmməd ibn Əşəs İmam Hüseyni (ə) dəvət edənlərin arasında olmamışdır. Lakin qardaşı Qeys İmam Hüseynə (ə) göndərilən məktubu imzalayanlardan biri olmuşdur. Aşura günü İmam Hüseyn (ə) düşmən ordusundakı Şəbəs ibn Ribiyə, Həccar ibn Əbcərə, Qeys ibn Əşəsə və Yezid ibn Harisə səslənərək buyurdu: ***“Siz məni dəvət etmək üçün məktub yazmamışdınızmı?”*** Qeys ibn Əşəs belə cavab verdi: ***“Gəl, Yezidə beyət et!”*** İmam Hüseyn (ə) ona cavabında buyurdu: ***“Sən Müslimi (ə) Kufədə şəhadətə yetirənin qardaşısan, özün isə məni qətlə yetirməkdə iştirak etmək istəyirsən”.***

لا والله، لا أعطيهم بيدي إعطاء الذليل ولا أُقر لهم إقرار العبيد

***“Xeyr, and olsun Allaha, mən xar şəkildə onlara yardım əli uzatmaz və kölə kimi də onların istədiyini təsdiqləmərəm”.***[335]

---

[334] Əl-İrşad, c.1, səh.19

[335] Əl-İrşad, c.2, səh.98; Əl-Bidayə vən-nihayə, c.8, səh.194; Tarixut-Təbəri, c.4, s.323; Əl-Kamilu fit-tarix, c.4, səh.63

**Yezid İbn Haris**

Yezid ibn Haris iki min nəfərlik dəstəyə rəhbərlik edirdi. O da İmam Hüseyni (ə) Kufəyə dəvət edənlərin sırasında yer almışdı. Aşura günü İmam Hüseyn (ə) ona birbaşa adıyla xitab etmişdi. O, Ömər ibn Səd və başqaları ilə birgə Kufədə bəni-Üməyyə hökumətinə casusluq fəaliyyəti göstərmiş, Süleyman ibn Surəd və Muxtarın əleyhinə işlər aparmışdır.[336]

**Əmr ibn Hüreys**

Əmr də İbn Ziyadın topladığı orduda qoşun başçılarından biri olmuşdur. O, İbn Ziyadın müavini idi. Bu onun nə qədər bəni-Üməyyə məftunu olduğunun bariz göstəricisidir. Belə ki, İbn Ziyad Kufəni tərk etdiyi zaman, şəhərin idarəçiliyini ona həvalə edərdi.[337]

**Əmr ibn Həccac**

Əmr ibn Həccac da İbn Ziyadın ordusundakı qoşun rəhbərlərindən biri idi. O, qoşuna xitab edərək belə demişdi:

يا أهل الكوفة! إلزموا طاعتكم وجماعتكم، ولا ترتابوا في قتل من مرق من الدين وخالف الإمام

***“Ey Kufəlilər! (Öz rəhbərinizə, yəni Yezidə) itaət etməyi vacib bilin və birliyinizi qoruyub saxlayın. Dindən çıxmış və öz rəhbəri əleyhinə*** *(Yezidə qarşı – red.)* ***qiyam etmişləri qətlə yetirməkdə şəkk-şübhəyə düşməyin”.***[338]

Belə bir etiqada sahib olanlara şiə söyləmək mümkündürmü?!

Əmr ibn Həccaca Fərat çayını mühasirədə saxlamaq tapşırılmışdı. O, ixtiyarında olan beş yüz əsgərlə birgə,

---

336 Cumalun min ənsabil-əşraf, c.6, səh.367 və 381

337 Həmin mənbə, səh.367 və 376

338 Tarixut-Təbəri, c.4, səh.331; Məqtəlul-Huseyn, Əbu Mixnəf, səh.136

suyun İmam Hüseynin ﷺ xeymələrinə tərəf getməsinin önünü kəsmişdi.[339]

Həmin Əmr ibn Həccac həyasızcasına Peyğəmbərin ﷺ övladına xitab edərək belə demişdi:

يا حسين! هذا الفرات تلغ فيه الكلاب وتشرب منه الحمير والخنازير، واللّٰه لا تذوق منه جرعةً حتى تذوق الحميم في نار جهنم؛

***"Ey Hüseyn! Bu Fərat çayından itlər, uzunqulaqlar və donuzlar su içir. Amma and olsun Allaha! Fəratın suyundan bir damcı belə içmədən Cəhənnəmdə qaynar su içəcəksən** (Allaha pənah aparırıq – müəl.)**!"***[340]

Belə bir adamın şiə olduğunu kimsə deyə bilərmi?

Onun bu sözündən sonra İmam Hüseyn ﷺ ona nifrin etdi.

İbn Əsir yazır: ***"Muxtar və yoldaşları Əmr ibn Həccacın sorağına düşmüşdülər. Axırda onu səhrada susuzluqdan taqətinin tükəndiyi vəziyyətdə tapdılar və elə oradaca onu Cəhənnəmə vasil etdilər"***.[341]

**Uzrə ibn Qeys Əhməsi**

Uzrə ibn Qeys də İbn Ziyadın ordusundakı qoşun başçılarından biri olmuşdur. Onun tərcümeyi-halında belə qeyd olunur:

**وهو على خيل أهل الكوفة**

***"O, Kufə ordusunun süvarilərinə başçılıq edirdi".***[342]

İbn Ziyad onu İmam Hüseynə ﷺ bir xəbər aparması üçün göndərmək istədikdə o, üzrxahlıq edərək demişdi:

---

[339] Əl-İrşad, c.2, səh.86; Mənaqibu ali-Əbi-Talib, c.3, səh.247; Tarixut-Təbəri, c.4, səh.312; Əl-Kamilu fit-tarix, c.4, səh.67 və s.

[340] Ənsabul-əşraf, c.3, səh.182, 33-cü hədis

[341] əl-Kamilu fit-tarix c.4.səh.236. Tarix. İbn Xəldun c.3.səh.25.

[342] Əl-İrşad, c.2, səh.204; Tarixut-Təbəri, c.4, səh.332; Məqtəlul-Huseyn, Əbu Mixnəf, səh.139.

***"Mən ona məktub yazıb yardım edəcəyimə söz vermişdim*** *(yəni mən onunla üz-üzə gələ bilmərəm – red.)".*[343]

O, Ömərin xilafəti dövründə Həlvan (Şamla İraq sərhədində yerləşir) şəhərinin valisi olmuşdur.[344] Onun mövqeyi İslamın ilk əvvəlindən bəlli idi. Bunlar İbn Ziyadın ordusunda, Kərbəlada əsgərlərə əmr edən qoşun başçıları idilər. Kimsə bunların şiə olduğunu iddia edə bilərmi?!

## Şamdan gələn bir qoşunun Kərbəlada iştirakı

Qeyd edilənlərə nəzər salmaqla bütün mövzuları bir araya toplasaq, qəti şəkildə demək olar ki, Kufədən gəlmiş ordudan əlavə, Kərbəlaya Şamdan da bir qoşun gəlmişdi. Bu məsələyə dair sübut da mövcuddur. Belə ki, İmam Sadiqdən ﷺ Tasua və Aşura günləri oruc tutmaq haqda sual edildikdə o həzrət belə buyurdu:

تاسوعاء، يوم حوصر فيه الحسين عليه السلام وأصحابه رضي الله عنهم بكربلاء واجتمع عليه خيل أهل الشام وأناخوا عليه وفرح ابن مرجانة وعمر بن سعد بتوافر الخيل وكثرتها، واستضعفوا فيه الحسين عليه السلام وأصحابه رضي الله عنهم وأيقنوا أنه لا يأتي الحسين عليه السلام ناصر ولا يمده أهل العراق. بأبي المستضعف الغريب

***"Tasua elə bir gündür ki, həmin gün Hüseyn ﷺ və yoldaşları, Allah onlardan razı olsun, Kərbəlada mühasi-rəyə alındılar. Şam ordusunun at(lı)ları onların ətrafına cəm olub onun qarşısını kəsdilər. İbn Ziyad və Ömər ibn Səd öz at(lı)larının çoxluğundan sevinc içində idilər. O gün Hüseyni ﷺ və onun yoldaşlarını, Allah onlardan razı olsun, zəyif hala saldılar. Əmin oldular ki, Hüseynin ﷺ köməyinə heç kəs gəlməyəcək, İraq camaatı ona yetişə***

---

[343] Əl-İrşad, c.2, səh.84-85; Tarixut-Təbəri, c.4, səh.310

[344] Tarixu mədinəti Diməşq, c.40, səh.309-310

***bilməyəcək. Qərib və zəyif düşmüşə** (İmam Hüseynə ﷷ – red.) **atam fəda olsun".***[345]

Bu haqda Şeyx Səduq öz sənədinə əsasən, belə rəvayət nəql edir:

ونظر الحسين عليه السلام يميناً وشمالا ولا يرى أحداً، فرفع رأسه إلى السماء فقال: اللهم إنك ترى ما يصنع بولد نبيك... وأقبل عدوالله سنان بن أنس الأيادي وشمر بن ذي الجوشن العامري في رجال من أهل الشام

***"Hüseyn ﷷ bir sağına nəzər saldı, bir soluna baxdı, ancaq ətrafında heç kəsi görmədi. Sonra başını səmaya qaldırıb belə buyurdu: "İlahi! Sənin Peyğəmbərinin övladı ilə necə davrandıqlarını Özün görürsən..." Elə bu əsnada, Sinan ibn Ənəs Əyadi və Şimr ibn Zilcövşən Amiri Şam əhlindən olan bir neçə nəfərlə onun üzərinə gəldilər..."***[346]

Bu rəvayətin özü onu göstərir ki, İmam Hüseyni ﷷ şəhid etmək üçün Şamdan belə qoşun gəlmişdi. Aşura günü oruc tutmaq isə bəni-Üməyyədən miras qalmışdır.

Şeyx Tusi öz sənədinə əsasən, nəql edir ki, İmam Sadiq ﷷ buyurmuşdu:

إنّ آل امية لعنهم الله ومن أعانهم على قتل الحسين عليه السلام من أهل الشام نذروا نذراً إن قتل الحسين وسلم من خرج إلى الحسين وصارت الخلافة في آل أبي سفيان أن يتخذوا ذلك اليوم عيداً لهم، وأن يصوموا فيه شكراً ويفرحون أولادهم، فصارت في آل أبي سفيان سنةً إلى اليوم في الناس

***"Ali-Üməyyə - Allah onlara lənət etsin - və İmam Hüseyni ﷷ qətlə yetirməkdə onlara yardım etmək üçün Şamdan gələnlər nəzir etmişdilər ki, Hüseynin ﷷ qətlə yetiriləcəyi, ona tərəf çıxanların təslim olacağı və xilafətin Əbu Süfyan ailəsində qalacağı təqdirdə həmin günü bayram etsinlər, o günü şükr əlaməti olaraq oruc tutsunlar və övladlarını (onlara hədiyyə verməklə) sevindirsinlər.***

[345] Əl-Kafi, c.4, səh.147, hədis 7; Biharul-ənvar, c.45, səh.95, hədis 40
[346] Əl-Əmali, Şeyx Səduq, səh.226

***Beləcə bu iş Əbu Süfyan ailəsində bu günə qədər bir sünnə olaraq qaldı”.***[347]

Bəli, bəni-Üməyyə Aşura günü bayram etmişlər bu gün isə həmin adəti vəhhabilər yaşadır və acığa həmin gün oruc tuturlar. Elə bu səbəbdəndir ki, İmam Sadiq (ə) buyurub:

ذاك يوم قتل الحسين، فإن كنت شامتاً فَصم

***“O gün** (Aşura günü – red.), **Hüseynin (ə) qətlə yetirildiyi gündür. Əgər (həmin gün onun başına gələn) müsibətə sevinirsənsə oruc tut!”***[348]

## Kərbəlada həyata keçirilən bir sıra cinayətlər

Nəql olunan dəlillərə əsasən, sübuta yetdi ki, Aşura günü İmam Hüseynlə (ə) döyüşmək üçün Şamdan Kərbəlaya əlahiddə bir qoşun da gəlmişdi. Onların dəqiq sayı bəlli olmasa da, bəzilərinin adları məlumdur. Əlbəttə, bunlar Kufədə yaşayan şamlılar deyildi, əksinə, onlar İmam Hüseyni (ə) qətlə yetirmək üçün Şamdan Kərbəlaya göndərilmişdilər.

Sözün qısası ondan ibarətdir ki, İmam Hüseynin (ə) qatillərinin Kufə şiələri olmasına bir faiz belə ehtimal vermək olmaz. Çünki heç bir şiə fasiq, dinsiz və daşürəkli olsa belə, bu qəbil cinayətləri törətməz. Həmin cinayətlər bunlardan ibarətdir: Suyun önünü kəsmək, çadırlara od vurmaq, uşaqları öldürmək, qadınları qətlə yetirmək, malları talamaq və Peyğəmbər (s) qızının övladını atların ayaqları altında tapdalatmaq.

Heç şübhəsiz, şiələr belə bir rüsvayçı əməllər etməzdi. Hətta Ömər ibn Sədin ordusundakı dəstə başçılarının daşürəkli və dinsiz şiə olduqlarını fərz etsək belə, onlar suyun

347 Əl-Əmali, Şeyx Tusi, səh.667
348 Həmin mənbə

qabağını kəsmək, çadırlara od vurmaq və buna bənzər başqa cinayətlərə əl atmazdılar.

Xətiblərin Kərbəladakı cinayətləri, məsələn, Əhli-Beytin ﻉ qız uşaqlarının qulağındakı sırğaları qoparmalarını bəyan etmələri Aşura həqiqətlərinin bir parçasıdır. Bu faciə və cinayətlərin yalnız sünnilərin rəvayət etdiyini gördükdən sonra qəbul edilməsinin sorağına düşmək lazım deyil. Əlbəttə, təəssübkeş əhli-sünnə alimlərinin bütün hadisələri rəvayət etdiyini də gözləməyin və heç kəs bu hadisələrin baş vermədiyini və Əhli-Beyt ﻉ düşmənlərinin törətdiyi cinayət və zülmlərin bir xurafat olduğunu söyləyə bilməz.

Tarixdə qeyd olunduğu kimi, İmam Hüseynin ﻉ mübarək cəsədini on nəfər mindikləri atların ayaqları altında tapdalamışlar və bu danılmaz bir həqiqətdir. Araşdırmalara əsasən, onların kim olduqlarını mötəbər kitablardan əldə etmişik. Həmin şəxslərin adlarını burada qeyd edirik: İshaq ibn Huvəyyə, Əxnəs ibn Mərsəd, Həkim ibn Tufeyl Sinbisi, Saleh ibn Vəhəb Cofi, Vahiz ibn Naim, Əmr ibn Səbih Seydavi, Rəca ibn Munqiz Əbdi, Salim ibn Xeysəmə Cofi, Hani ibn Subeyt Həzrəmi, Useyd ibn Malik.

Əhli-sünnənin nəzərində olduqca mötəbər şəxs sayılan Əbu Əmr Zahid deyir: ***“Biz həmin on nəfəri araşdırdıqda, onların hamısının zinadan əmələ gəldiyini əldə etdik”***.[349]

Görəsən, Aşura günü baş verən cinayətləri şiələrin həyata keçirdiyini necə iddia etmək olar?

---

[349] Əl-Luhuf, səh.79-80; Musirul-əhzan, səh.59; Biharul-ənvar, c.45, səh.59-60.

## İmam Hüseynin ﷺ qatillərinin etiqadı

Kərbəlada İmam Hüseynə ﷺ qarşı vuruşanların etiqadı nədən ibarət idi? İmam Hüseynin ﷺ qatillərinin şeytani inamları (etiqadlarına) dair bir nümunəyə diqqət yetirin!

Əhli-sünnə məzhəbinə mənsub tarixçi Təbəri öz sənədinə əsasən, belə rəvayət edir ki, Aşura günü İbn Ziyadın ordusunda İmam Hüseynin ﷺ düşmənlərindən olan Yezid ibn Məqil, Kufə şəhərinin Quran alimlərindən biri hesab olunan və İmam Hüseynin ﷺ tərəfdarlarından olan Bureyr ibn Xuzeyrə xitabən belə dedi: ***“Allahın sənin bəxtinə nə yazdığını görürsənmi?”*** Bureyr isə belə cavab verdi: ***“Allahın mənim iqbalıma çıxardığı səadət və xoşbəxtlikdir, ancaq sənin üzləşdiyin isə bədbəxtlik və yaramazlıqdır”***. Yezid ibn Məqil dedi: ***“Yalan deyirsən! Sən əvvəldən yalançı olmusan. Yadındadırmı, Bəni-Ləvəzan qəbiləsinin arasında Osman əleyhinə yalanlar deyir, Müaviyəni azğın və haqq yolundan azdıran hesab edir, Əli ibn Əbu Talibi ﷺ isə haqq imam və düzgün yola hidayət edən sanırdın”***. Bureyr dedi: ***“Şəhadət verirəm ki, mən bu gün də, elə sən söylədiyin etiqad və rəyi qəbul edirəm”***. Yezid ibn Məqil onun Əmirəlmöminin Əli ibn Əbu Talibin ﷺ vilayətinə imanı olduğunu bildiyi halda belə dedi: ***“Mən də sənin azğınların dəstəsində olduğunu təsdiqləyirəm”***. Bureyr dedi: ***“Əvvəlcə mübahilə edib sonra döyüşməyə hazırsanmı?”*** Yezid ibn Məqil dedi: ***“Olar!”***

Bu vaxt hər ikisi döyüşdən öncə əllərini səmaya qaldırıb yalan danışanı lənətlədilər və Allahdan haqq olanın batil düşüncədə olana qalib gəlməsini istədilər. Ardınca döyüş başladı və Bureyr Yezid ibn Məqili öldürdü.[350] Maraqlı nöqtə burasındadır ki, Aşura günü, Əmirəlmöminin Əlinin

---

[350] Tarixut-Təbəri, c.4, səh.328-329; Əl-Kamilu fit-tarix, c.4, səh.66

﵇, yoxsa Osmanın haqq olması barədə müzakirə edilir. Deməli, İmam Əliyə ﵇ tərəfdarlıq və ya Osmana tərəfdarlıq fikirlərin ayrılıq nöqtəsi və müharibənin mənşəsi idi. Yezid ibn Məqil ilə Bureyr arasındakı mübahilə (qarşılıqlı nifrin etmə) İmam Əlinin ﵇ ardıcılı və şiəsi olan Bureyr ibn Xuzeyrin qələbəsi ilə sona çatdı.

Təbəri digər bir mövzuya toxunaraq belə yazır ki, İmam Hüseynin ﵇ başqa köməkçilərindən biri Nafe ibn Hilal döyüş meydanına ayaq qoyarkən rəcəz oxuyaraq dedi: ***“Mən Əlinin ﵇ dininə etiqad bəsləyirəm”***. İbn Ziyadın ordusundan Muzahim ibn Hüreys adlı birisi onunla döyüşmək üçün meydana atılaraq belə dedi: ***“Mən də Osmanın dininə etiqad bəsləyirəm”***. İbn Əsir özünün “Əl-Kamilu fit-tarix” kitabında, İbn Kəsir isə özünün “Əl-Bidayə vən-nihayə” kitabında bu olayı nəql etsələr də, Muzahim ibn Hüreysin “mən də Osmanın dinindəyəm” söyləmiş olduğu cavabı qeyd etməmişlər. Görəsən niyə? Çünki gizli qalmalı və heç kəs İmam Hüseynin ﵇ qatillərini tanımamalıdır ki, əsrlər sonra bəziləri deyə bilsinlər ki, İmam Hüseyni ﵇ öz şiələri şəhadətə yetiriblər.

Tarixçilərin qeyd etdiyinə əsasən, İbn Ziyad bir məktubunda Ömər ibn Sədə belə yazmışdı:

أمنع الحسين وأصحابه الماء، فلا يذوقوا منه حسوة كما فعلوا بالتقي عثمان بن عفان؛

***“Hüseyn ﵇ və yoldaşlarına suyu yasaq et, sudan bir qurtum belə dadmasınlar, necə ki, özləri təqvalı Osman ibn Əffana qarşı (belə) etmişdilər!”***[351]

Bu məsələlərə diqqət yetirməklə, Kərbəlada hansı dəstə ilə hansı cəbhənin üz-üzə dayandığı bəlli olur.

---

351 Tarixut-Təbəri, c.4, səh.311; Əl-Əxbarut-təval, səh.255; Əl-Bidayə vən-nihayə, c.8, səh.189

Əhli-beyt عليهم السلام əsirlərini Mədinə şəhərinə qaytaran zaman Bəni-Haşimin qadınları ah-nalə ilə əzadarlıq bərpa etdilər. Bu hadisəni nəql edən ravi deyir ki, mən bu vaxt Əmr ibn Səid Əşdəqin yanına getdim. Əmr həmin səhnəni gördükdə güldü və Əhli-Beytə عليهم السلام düşmənçilik ruhunda bir şeir də oxuyaraq ardından belə dedi:

هذه واعية بواعية عثمان بن عفّان

***“Bu fəryadlar Osman ibn Əffana edilən fəryadların əvəzidir”.***[352]

Bəli, döyüşün ilk başlanğıcından sonuna qədər, yəni Əhli-Beytin عليهم السلام Mədinəyə qayıdan gününə qədər, yenə də Osmanın adı hallanırdı.

## İmam Hüseynin عليه السلام sözlərində Əhli-Beyt عليهم السلام düşmənlərinin xüsusiyyətləri

Aşura günü çıxışlarının birində İmam Hüseyn عليه السلام Əhli-Beyt عليهم السلام düşmənlərinin xislətlərini bəyan edərək belə buyurdu:

فإنما أنتم من طواغيت الأمة وشذّاذ الأحزاب ونبذة الكتاب، ونفثة الشيطان، وعصبة الآثام، ومحرفي الكتاب، ومطفئي السنن، وقتلة أولاد الأنبياء ومبيري عترة الأوصياء... وأنتم ابن حرب وأشياعه تعتمدون وإيانا تخاذلون

***“Həqiqətdə siz ümmətin tağutları, yolunuzu azmış bir qrup, Kitaba*** *(Qurana – red.)* ***arxa çevirən, şeytan məqsədli, günah dəstəsi*** *(günah edib, ona doğru çağıranlar – red.)****, Kitabı təhrif edən, Peyğəmbər*** ﷺ ***sünnəsini söndürən*** *(yox edən – red.)****, peyğəmbərlərin*** عليهم السلام ***övladlarının qatilləri, vəsilərin nəslini qıranlarsınız... Siz***

[352] Tarixut-Təbəri, c.4, səh.357

***Hərbin övladı və onun tərəfdarlarına arxalanır və bizi yarı yolda qoyursunuz”.***[353]

Bu sözlər kimə şamil olunur? Bu sözlər hətta şiəliyin ən aşağı dərəcəsində olub, günahın uca nöqtəsinə çatan bir şiəyə belə şamil edilmir. İmam Hüseyn ﷵ onlardan: ***“Məni hansı məqsədə görə qətlə yetirmək istəyirsiz?”***-deyə soruşduqda, onlar belə cavab verdilər: ***“Atana qarşı olan düşmənçiliyə görə səni qətlə yetirmək istəyirik”.***[354]

İmam Hüseyn ﷵ başqa bir zamanda düşmən ordusuna xitab edərək buyurmuşdu:

يا شيعة آل سفيان! إن لم يكن لكم دين وكنتم لا تخافون المعاد، فكونوا أحراراً في دنياكم هذه؛

***“Ey Süfyan ailəsinin havadarları! Dininiz yoxdursa, Qiyamətdən də qorxunuz yoxdursa, heç olmasa bu dünyada azad yaşayın*** *(yəni qeyrət və şərəfiniz olsun – red.)****”***[355]

Deməli, İmam Hüseynin ﷵ düşmənləri və qatilləri Əbu Süfyan tərəfdarları sırasında olan günahkar şiələr deyil, əslində, Əbu Süfyan ailəsinin tərəfdarları olmuşdur.

Beləliklə, öncə də qeyd etdiyimiz kimi Kufədəki Əli ﷵ şiələri ya zindana atılmış, ya qətlə yetirilmiş, ya da qaçıb canlarını qurtarmışdılar. Belə bir hal İbn Ziyaddan qabaq mövcud olduğu kimi, ondan sonra da davam etmişdi. Sözün həqiqi mənasında köməksiz qalan qadın və uşaqların çadırlarına od vurmaq kimi bir cinayəti hər hansı bir şiə törədərdimi heç?! Bütün bu cinayətlər sünnilərin mötəbər mənbələrində qeyd olunmuşdur.

---

[353] Biharul-ənvar, c.45, səh.8; Tarixu mədinəti Diməşq, c.14, səh.218 (azca fərqlə).

[354] Nurul-eyn fi məşhədil-Huseyn, səh.47

[355] Əl-Futuh, c.5, səh.117; Tarixut-Təbəri, c.4, səh.344; Əl-Kamilu fit-tarix, c.4, səh.76; Əl-Bidayə vən-nihayə, c.8, səh.203

İbn Əsir yazır: ***“Hüseynlə ﴿ع﴾ döyüşdə Ömər ibn Səd öz qoşununa çadırlara od vurmalarını əmr etdi. İmam Hüseyn ﴿ع﴾ onları bu işdən çəkindirmək istəsə də, onlar buna məhəl qoymadan çadırlara od vurdular”***.

O davam edərək belə yazır:

وخرجت امرأة الكلبي تمشي إلى زوجها فجلست عند رأسه تمسح التراب عن وجهه وتقول: هنيئاً لك الجنة. فأمر شمر غلاماً اسمه رستم فضرب رأسها بالعمود فشدخه فماتت مكانها

***“Kəlbinin xanımı şəhid olmuş ərinin cənazəsinə tərəf gedərək onun baş tərəfində əyləşdi. Ərinin üzündəki toz-torpağı təmizləyərək belə dedi: “Behişt sənə mübarək olsun”. Bu zaman Şimr Rüstəm adlı quluna əmr verdi və o, qadının başına toppuzla vurdu, başını yardı və qadın yerindəcə can verdi”.***[356]

Bəlazuri bu haqda belə yazır: ***“Çadırlara od vurulduqdan sonra, qadınlar şivən qopararaq fəryad çəkib çadırlardan bayıra töküldülər”***.[357]

Başqa bir mötəbər mənbədə isə belə qeyd olunur:

وجاء سهم فأصاب ابناً للحسين وهو في حجره؛

***“Bir ox gəlib Hüseynin ﴿ع﴾ qucağındakı oğluna dəydi”.***[358]

Alçaqlıq o həddə gəlib çatmışdı ki, murdarın biri ağlayaraq İmam Hüseynin ﴿ع﴾ qızı Fatimənin sırğalarını qulağından dartıb qopartmaq istədikdə Fatimə ona dedi:

لم تبكي؟

***“Niyə ağlayırsan?”***

[356] Əl-Kamilu fit-tarix, c.4, səh.69-70; Tarixut-Təbəri, c.4, səh.333-334; Məqtəlul-Huseyn, Əbu Mixnəf, səh.141

[357] Ənsabul-əşraf, c.3, səh.194; Əl-Kamilu fit-tarix, c.4, səh.69; Tarixut-Təbəri, c.4, səh.334

[358] Əl-Muntəzəm, c.5, səh.340

O xəbis belə cavab verdi: ***"Bunu mən etməsəm başqa birisi gəlib sırğanı aparacaq".***[359] Heç fasiq bir şiə belə bu və buna bənzər işlər görərmi?!

## Müaviyə və Yezidin müdafiəsi üçün düzəldilən qondarma hədislər

Həmin bədxah və təəssübkeş qrup özlərinin mənfur məqsədlərinə çata bilmədilər. Ancaq növbəti mərhələdə Yezidin törətdiklərinə bəraət qazandırmağa çalışdılar. Belə ki, Yezidin və atası Müaviyənin aradan getmiş hörmətini bərpa etmək naminə yenə də uğursuz bir addım atdılar, yəni onların şəninə yalan hədislər düzəltdilər. Məsələn, Peyğəmbərin ﷺ İstanbulu fəth edəcək möminlərdən ibarət qoşunun rəhbərinin Yezid olacağına dair bir hədis qondardılar. Guya, Peyğəmbər ﷺ buyurub ki, həmin qoşunun rəhbəri Yezid olacaqdır! [360]

Hətta bir az da irəli gedərək belə söyləmişlər: ***"Yezidin ordusunun bayrağı altında Hüseyn ibn Əli ﴿ع﴾ də olacaqdır".***[361]

İbn Teymiyyə Yezidin cinayətlərini ört-basdır etmək üçün onun müdafiəsinə qalxaraq belə yazır: ***Yezidin Hüseyn ibn Əlini ﴿ع﴾ öldürdüyünü fərz etsək belə, onun yaxşı əməlləri də olmuşdur. Belə ki, Qurani-Kərimdə buyurulur:***

إِنَّ الْحسنات يذْهبن السيئات

***"Həqiqətən, yaxşılıqlar günahları aradan aparır".***[362]

Ğəzzali və onun kimiləri isə Yezidin cinayətlərinə bəraət qazandıraraq belə söyləmişlər: ***"Yezidi lənətləməyin,***

---

[359] Siyəru əlamin-nubəla, c.3, səh.303; Ət-Təbəqat, səh.78

[360] Minhacus-Sunnə, c.4, səh.571-572

[361] Tarixu mədinəti Diməşq, c.14, səh.111; Əl-Vafi bil-vəfəyat, c.12, səh.262

[362] Hud surəsi, ayə 114

***çünki ola bilsin ki, tövbə etmişdir”***. Sizin fikrinizcə, belə yalanlar bir tədqiqatçı üçün gizli qala bilərmi? Yalan söyləyənlər öz məqsədlərinə yalnız o vaxt çata bilərlər ki, bütün tədqiqatçılar sıradan çıxmış olsun! Ancaq sayları az olsa da, hər bir zaman həqiqəti müdafiə edən tədqiqatçılar olmuş və olacaqdır. Onların dediyinə görə, Müaviyə minbərdə özünü və ailəsini tərif edərkən İmam Hüseyn də (ə) həmin məclisdə olmuş və onun söylədiklərini təsdiqləmişdir. Ancaq həmin rəvayətin qondarma olduğunu sübut etmək üçün İbn Əsakirin həmin rəvayəti nəql etdikdən sonra söylədiyini qeyd etməklə kifayətlənirik:

هذا حديث منكر ولا ارى اسناده متصلاً إلى الحسين

***Bu qəbuledilməz** (münkər – red.) **bir hədisdir, onun isnadının Hüseynə (ə) yetişdiyini düşünmürəm.***[363]

Belə yalanlar heç bir dərdə dərman ola bilməz. Çünki Müaviyə və Yezid tarixin ömürlük üzüqara insanlarıdır.

Əhli-sünnənin hədis mütəxəssisləri və hafizləri açıq-aşkar şəkildə bəyan edirlər ki, Müaviyənin fəzilətlərinə dair Peyğəmbərdən (s) bir hədis belə yoxdur. Onların bəziləri “Səhihul-Buxari” kitabına yazdıqları şərhlərdə bunu açıq aşkar qeyd etmişlər.[364]

Əgər günümüzdə də müxtəlif məqalələrdə və internet saytlarında İbn Teymiyyə məktəbinin ardıcıllarının sözlərini təkrar edənlər peyda olursa, artıq bunun haradan qaynaqlandığı şübhəsiz ki, məlumdur! Biz əhli-sünnə alimlərinin həmin bədxahlar haqqındakı fikir və düşüncələrini bəyan etdik. Onlar hədis qondarıb ***“Aşura günü bayram və şadlıq günüdür”*** dedikləri zaman, İbn Cövzi, İbn Kəsir və Əl-Eyni kimi böyük alimlər isə həmin hədisləri nasibilərin və İmam Hüseyn (ə) qatillərinin tərəfdarlarının uydurduğunu açıq-

[363] Tarixu mədinəti Diməşq, c.14, səh.114
[364] Fəthul-bari, c.7, səh.81

aşkar bəyan etmişlər və həmin işin şiələri incidərək əziyyət verməkdən ibarət olduğunu söyləmişlər.

Həmin bədxahlar həddi aşaraq yalançı bir hədis nəql etmişlər ki, guya surəd[365] adlı bir quş Peyğəmbərin ﷺ əlinin üstünə qonanda o həzrət belə buyurdu: ***"Bu ilk oruc tutan quşdur və bu quşun oruc tutduğu gün Aşura günü olmuşdur!"***

Hakim Nişapuri deyir: ***"Bu hədisi İmam Hüseynin (ə) qatilləri qondarmışlar"***.[366]

## Aşura həqiqətlərini dəyişdirmək

Bədxah təəssübkeşlər öz məqsədlərinə *(yəni bəni-Üməyyə və Yezidin əl-üzünü yumaq barədəki məqsədlərinə - müəl.)* çata bilmədiklərini gördükdə başqa bir yola əl atdılar. Onlar Aşura həqiqətlərini təhrif edərək dəyişdirmək metoduna əl atdılar.

Aşağıdakı mövzulara bir nəzər salaq:

1. İmam Hüseynin (ə) öz şəhadəti haqda öncədən xəbər verməsi və həmin səfərin ilahi bir vəzifə olduğunu dilə gətirməsi;

---

365 Həyatul-həyvan, Dumeyri, "surəd" maddəsi

366 Əl-Eyni "Umdətul-qari" (11/118) kitabında, Əllamə Məclisi isə "Biharul-ənvar" (61/291) kitabında bunu Hakim Nişapuriyə istinadən nəql etmişlər. Bəzilərinin dediyinə görə, Hakim Nişapuri bu məsələyə özünün "Əl-Mustədrək ələs-səhiheyn" kitabında toxunmuşdur. Amma həmin kitabda o mövzuya rast gəlinmir. Ancaq Hakim Nişapuri kitabın "İmam Hüseynin (ə) şəhadəti" bölümündə belə deyir: *"Bu rəvayətlərin şərhini "Məqtəlul-Huseyn" kitabında qeyd etmişəm. Eşidib nəticə çıxartmaq istəyən üçün orada kifayət qədər məlumat vardır* (Əl-Mustədrək ələs-səhiheyn, c.3, səh.177)*"*. Buradan belə nəticəyə gəlmək olar ki, o "Məqtəlul-Huseyn" adlı bir kitab yazmış, yuxarıdakı mövzunu da orada qeyd etmişdir. Təəssüflər olsun ki, həmin kitab əlimizə yetişməmişdir.

2. Peyğəmbərin ﷺ İmam Hüseynin عليه السلام şəhadəti haqda xəbər verməsi;

Bu məsələ elə açıq-aşkar mövzu olmuşdu ki, hətta evdən bayıra çıxmayan xanımlar belə bu məsələdən xəbərdar idilər.

Ortada bu qədər məlumat olarkən, bəzilərinin dediyinə görə, yolda olan zaman, Müslimin عليه السلام şəhid edildiyi xəbəri İmam Hüseynə عليه السلام yetişdikdə, o həzrət elə oradan geri dönmək qərarına gəlmişdi, ancaq Müslimin عليه السلام qardaşları İmam Hüseynin عليه السلام geri dönməsinə mane olmuşlar.

İbn Cövzi bu barədə belə yazmışdır:

هم أن يرجع، فقال أخو مسلم: والله لا ترجع حتى نصيب بثأرنا؛

***"Hüseyn عليه السلام geri dönmək qərarına gəldi. Bu zaman Müslimin عليه السلام qardaşı belə dedi: "And olsun Allaha, intiqamımızı almamış geri dönməməlisən!"***[367]

Halbuki, Şeyx Mufid, Əhməd ibn Davud Dinəvəri (v.282 h.q.), Təbəri, Zəhəbi və başqaları bu mövzu barəsində belə yazmışlar ki, İmam Hüseyn عليه السلام Müslimin عليه السلام qardaşlarına belə buyurdu:

ما ترون، فقد قتل مسلم؟ فقالوا: والله ما نرجع حتى نصيب ثأرنا، أو نذوق ماذاق .فقال: لا خير في العيش بعد هؤلاء؛

***"Müslim عليه السلام artıq şəhadətə yetirilib, bu haqda fikriniz nədir? Onlar dedilər: "And olsun Allaha! Biz onun intiqamını almamış dönməyəcəyik, ya da onun daddığını*** *(şəhadəti – red.)* ***dadacağıq". İmam Hüseyn عليه السلام isə belə buyurdu: "Onlardan*** *(onların şəhadətindən – red.)* ***sonra yaşamağın bir xeyri yoxdur".***[368]

---

[367] Əl-Muntəzəm, c.5; səh.329

[368] Əl-İrşad, c.2, səh.75; Əl-Əxbarut-təval, səh.247; Tarixut-Təbəri, c.4, səh.292; Əl-Kamilu fit-tarix, c.4, səh.42; Təhzibul-kəmal, c.4, səh.427; Əl-Bidayə vən-nihayə, c.8, səh.214; Əl-İsabə, c.2, səh.71; Təhzibut-təhzib, c.2, səh.304

Onların bəziləri isə belə deyirlər: *"Həzrət İmam Hüseyn ﷺ Aşura gecəsi gəldiklərinə görə, peşmançılıq hissi keçirmişdi".*[369]

Tarixi hadisənin həqiqətlərini dəyişdirmək istəyənlərin bəzilər özlərindən belə bir rəvayət düzəldərək qeyd ediblər ki, guya İmam Hüseyn ﷺ Aşuranın axşamı və ya Aşura günü Şama gedib Yezidə beyət etmək və yaxud onunla bir ortaq nəticə əldə etmək qərarına gəlmişdi! Bu tip rəvayətlər düzəltməklə onlar öz düşüncələrinə görə Aşura hadisəsini rövnəqdən salmaq, bəni-Üməyyə və Yezidin eyiblərini örtmək fikrində idilər. Ancaq bu addımların heç biri həmin hadisənin həqiqətlərini ört-basdır edə bilməzdi. Təbəri bu ibarəni nəql etdikdən sonra ona irad bildirərək öz sənədinə əsasən Əqəbə ibn Səmanın belə söylədiyini rəvayət edir:

صحبت حسيناً، فخرجت معه من المدينة إلى مكّة ومن مكّة إلى العراق، ولم أفارقه حتى قتل، وليس في مخاطبته الناس كلمة بالمدينة ولا بمكّة ولا في الطريق ولا بالعراق ولا في عسكر إلى يوم مقتله إلاّ وقد سمعتها، ألا والله ما أعطاهم ما يتذاكر الناس وما يزعمون من أن يضع يده في يد يزيد بن معاوية

***"Mən Hüseynlə ﷺ birlikdə olmuş, onunla birlikdə Mədinədən Məkkəyə, Məkkədən də İraqa getmişəm. Öldürülənə qədər də ondan ayrılmamışam. Onun insanlara Mədinədə, Məkkədə, İraqda və hətta qətlə yetirildiyi ana qədər öz əsgərləri arasında etdiyi xitablarda dediyi elə bir söz olmayıb ki, mən onu eşitməyim. Agah olun! And olsun Allaha ki, o, insanların öz aralarında danışıb güman etdikləri kimi əlini Yezid ibn Müaviyənin əlinə qoymamışdır** (ona beyət etməyi qəbul etməmişdir – red.)**".***[370]

Bəli, Əqəbə ibn Səman and içir ki, belə bir söz-söhbət olmamışdır və olmamalı idi də. İmam Hüseyn ﷺ Yezidə beyət etmək qərarına gəlmişdi?! Əsla!

---

[369] Tarixut-Təbəri, c.4, səh.313

[370] Tarixut-Təbəri, c.4, səh.313; Məqtəlul-Huseyn, Əbu Mixnəf, səh.100

Bu yalanlar nəyə xatir idi? Bunların hamısı əzəmətli Aşura hadisəsini rövnəqdən salmaq və bu misilsiz hadisənin müsəlmanlara qoyduğu təsiri zəiflətmək üçün idi. Həm də onlar bu bəhanə ilə bəni-Üməyyəni və Yezidi müdafiə etmək istəyirdilər.

## Başqa uğursuz fəaliyyətlər

Gördüyünüz kimi bütün addımlar nəticəsiz qaldı. Onlar nə İmam Hüseyndə (ə), nə də onun əzəmətli hərəkatında zəif bir cəhət tapa bildilər. Yezidin qatil olmadığına səy göstərərək başqalarını şübhəyə salmağa çalışsalar da, bu addımları nəticəsiz qaldı. Buna görə də, başqa bir metoda əl ataraq dedilər:

Hüseyn ibn Əli (ə) dini qanuna əsasən xəlifə seçilmiş Yezidə qarşı qiyam etmişdir. Bu xüsusda əlavə edib belə yazmışlar: ***"Peyğəmbər (s) səhabələrinin əksəriyyəti, o cümlədən Abdullah ibn Ömər***[371] ***Yezidə beyət etmişdilər.***[372] ***Ancaq Hüseyn (ə) şəri hakimiyyətə qarşı qiyam etmişdir və dindən çıxmışdır və onu gərək qətlə yetirəydilər və bu qətliyam haqq olaraq həyata keçirilib!"***

Onların bu səyləri də nəticə verməyib uğursuzluğa düçar oldu. Digər bir tərəfdən, mötəbər tarixi mənbələrdəki araşdırmalara əsasən, Abdullah ibn Ömər pul alaraq özünü Müaviyəyə satmışdır. Bu isə məsələnin tam əksini göstərir, yəni hətta səhabə belə Yezidə beyət etmiş olsa, onun hakimiyyətini leqallaşdırmır, əksinə, həmin şəxs onun etdiklərinə şərik olur.

---

[371] Diqqət etmək lazımdır ki, cümlədə "səhabələrin əksəriyyəti" qeyd olunsa da, yalnız Abdullah ibn Ömərin adını yazmaqla kifayətlənmişlər. Həmin mənbədə digər səhabələrin adı qeyd olunmamışdır. Əvvəldə Abdullah ibn Ömərin Yezidə beyəti haqda yazmışıq.

[372] Şərhul-qəsidətil-həmziyyə, səh.271

Yezidə beyət onun cinayətlərinə və etdiyi günahlara şəriklikdir; digər bir tərəfdən də, Yezidə beyət edənin ədalətsizliyinin nişanəsidir. Eynilə atası Müaviyənin də, Yezidin etdiyi bütün əməllərə şərik olduğu kimi. Bəziləri sözü dəyişərək Yezidin qatil olduğunu etiraf etsələr də, belə deyirlər: ***“Bəlkə tövbə etmişdir, onu lənətləməyin!”*** Belə yanaşma da fayda verməmişdir.

Digər bir üsluba əl ataraq ***“Aşura bayram günüdür”*** söyləmişlər. Bu ibarə sufilik təriqətinin rəhbərinin sözüdür. Hal-hazırda Bağdadda yerləşən məzarı sufilərin ziyarətgahıdır. Bu məsələyə əvvəl də toxunmuşduq. Onlar mübarizə aparmaqdan əl çəkmədilər və sonra belə dedilər: ***“İmam Hüseyn ﷺ şəhadətə yetməklə ali bir məqama nail olmuşdur, ona matəm saxlamağın nə mənası var? Siz əksinə, gərək sevinəsiniz!”*** Narahatçılıqları ucbatından, Kərbəlada baş verən hadisələri camaat eşitməsin deyə, Hüseynin ﷺ qətl səhnəsini tərənnüm edən yazıları oxumağı da qadağan etmişdilər.

Bu metodun da bir faydası olmadı və bununla bir irəliləyiş əldə edə bilmədilər. Onlar çarəsiz vəziyyətdə nə edəcəklərini belə bilmədilər. Yalan təsir etmədi, şübhə bir işə yaramadı, Yezidi müdafiə etmək heç bir irəliləyişə səbəb olmadı və bəraət qazandırmağın da faydası olmadı. Bəziləri isə başqa bir üsula əl atıb belə yazdılar: ***“Yezid səhabə olmadığı üçün onun etdiklərinə bəraət qazandırıb müdafiə edə bilmərik”***.

Bu sözün mənası nədir? Bu, səhabələrin etdikləri bütün işlərin yaxşı tərəfə yozulmasına bir işarə deməkdir! Çünki əhli-sünnə Peyğəmbərin ﷺ bütün səhabələrini müctehid hesab edirlər. Elə bu səbəbdən də deyirlər ki, Cəməl müharibəsini bərpa edənlər ictihad etmişlər. Siffeynə yollanaraq müharibəni başlayanlar da ictihad etmişlər. Əgər Yezid də

səhabədən olsaydı, onun barəsində də deyəcəkdilər ki, o ictihad edib və heç bir təqsiri yoxdur!!

## Yezidi kafir elan etmək və lənətləməkdən qaça bilməmək

Yezidin müdafiəsi üçün bütün addımlar uğursuzluğa düçar oldu. Əhli-sünnənin böyük alimlərindən bəziləri isə Yezidi açıq şəkildə nəinki lənətləyir, hətta onu kafir belə hesab edirlər. Əhməd ibn Hənbəl Yezidi kafir hesab etmişdir. Onun bu haqda olan nəzərini İbn Cövzi, Şəhabuddin Alusi, İbn Həcər Məkki və başqaları nəql etmişlər.

İbn Həcər bu haqda belə yazır:

إنّ يزيد بلغ من قبائح الفسق والانحلال عن التقوى مبلغاً لا يستكثر عليه صدور تلك القبائح منه، بل قال الإمام أحمد بن حنبل بكفره. وناهيك به علماً وورعاً بأنه لم يقل ذلك إلاّ لقضايا وقعت منه صريحة في ذلك ثبتت عنده

***Yezid günahın çirkinliyində və təqvadan uzaqlıqda elə bir həddə çatmışdı ki, bütün bu pis işlərin onun tərəfindən edilməsi iddiası Yezid üçün çox hesab edilməməlidir*** *("bu günahların hamısını etmiş ola bilməz" deyə düşünülməməlidir – red.)*. ***Hətta İmam Əhməd ibn Hənbəl onun kafir olduğu fikrindədir. Mən sənə onun elm və təqva əhli olduğunu xatırladaraq deyirəm ki, o*** *(Əhməd ibn Hənbəl – red.)****, bunları*** *(Yezidin kafirliyini – red.)* ***yalnız Yezid tərəfindən açıq aşkar həyata keçmiş və onun*** *(Əhməd ibn Hənbəlin – red.)* ***nəzərində sübuta yetmiş hadisələrə görə demişdir.***[373]

İbn Həcərdən savayı, başqaları da Əhməd ibn Hənbəlin Yezidi lənətlədiyini və kafir elan etdiyini nəql etmişlər. Bu durumda bəziləri ola bilər ki, Əhməd ibn Hənbəlin dediklərini təkzib edərək bu sözləri onun demədiyini iddia etsinlər. Biz onların iddiasına belə cavab verərik: Əgər

---

[373] Həmin mənbə, səh.270-271

Əhməd Yezidi kafir elan etməyibsə, onda o da haqqı etiraf etməyən və həqiqəti bəyan etməkdən çəkinən kəslərin sırasına qoşulmuş və bu əməli ilə Yezidin etdiyi zülmlərə şərik olmuşdur.

## Yezidi lənətləməyə etiqadı olan alimlər

Əhli-sünnə alimlərindən bir qrupu Yezidi lənətləməyi caiz bilir, hətta bəziləri açıq-aşkar şəkildə ona lənət də edirlər. Nümunə üçün həmin alimlərin adlarını aşağıda qeyd edirik:

Qazi Əbu Yəla Fərra, Hafiz Əbulfərəc ibn Cövzi, Hafiz Əbülhəsən Heysəmi, Səduddin Təftazani, Hafiz Şeyx Əbdüssəməd ibn Həsən Şirazi,[374] Hafiz Cəlaluddin Suyuti, Şəhabuddin Alusi Bağdadi, Şəhabuddin ibn Həcər Məkki, Əllamə Bərzənci[375] və Şeyx Məhəmməd Əbduh.[376]

Həmin alimlərdən bəziləri, o cümlədən Təftazani bir az da irəli gedərək Yezidi kafir hesab etmişdir.

## Səduddin Təftazaninin nəzəri

Səduddin Təftazani "Şərhul-Məqasid" əsərində belə yazır:

انّ ما وقع بين الصحابة من المحاربات والمشاجرات على الوجه المسطور في كتب التواريخ، والمذكور على ألسنة الثقاة، يدلّ بظاهره على أنّ بعضهم قد حاد عن طريق الحق وبلغ حدالظلم والفسق؛

---

[374] Əl-Ənsab, c.3, səh.493; Səmani özünün "Əl-Ənsab" kitabında Şeyx Əbdüssəməd Şirazini tərif etdikdən sonra belə yazmışdır: "O qüdrətli alim və düşüncəli şəxsiyyət olmasına baxmayaraq, Yezid ibn Müaviyəni, Əbdülməlik ibn Mərvanı və bütün bəni-Üməyyəni lənətləmişdir".

[375] Ruhul-məani, c.26, səh.72; Kitabın müəllifi Şəhabuddin Alusi bu mövzuya dair onun yazdıqlarını qeyd etmişdir

[376] O, müasir dövrün əhli-sünnə alimlərindəndir, əslən Misirlidir.

***Səhabələr arasında baş vermiş münaqişələr və müharibələr tarixin səhifələrində yazılmış və etimadlı şəxslərin dilində dolaşmış şəkli və bunlardan görsənən qədəri ilə bizə bunu bildirir ki, onların bəzisi haqq yolundan çıxmış, zalımlıq və fasiqlik həddinə çatmışlar .***

Beləliklə, bəzi səhabələrin haqq yolundan çıxması və günaha bulaşması Səduddin Təftazaninin etirafı ilə qəti şəkildə aydınlaşır. O, səhabələrin belə əməllər törətdiklərinin səbəblərini də açıqlayaraq yazır:

وكان الباعث له الحقد والعناد والحسد واللداد وطلب الملك والرياسة والميل إلى اللذات والشهوات، إذ ليس كلّ صحابي معصوماً ولا كلّ من لقي النبي صلى اللّه عليه وآله بالخير موسوماً، إلاّ أنّ العلماء لحسن ظنهم بأصحاب رسول اللّه صلى اللّه عليه وآله ذكروا لها محامل وتأويلات ا تليق

***Buna səbəb isə kin-küdurət, inadkarlıq, həsəd, düşmənçilik, dünya malı və hakimiyyət sevdası, nəfsi istəklərə meyil və şəhvətpərəstlik olmuşdur. Çünki hər bir səhabə məsum deyildir və Peyğəmbəri ﷺ görən hər bir şəxs xeyirxah hesab edilmir. Baxmayaraq ki, alimlər səhabələrə qarşı xoş niyyətlə yanaşaraq onların etdiklərini başqa mənalara yozmuş və uyğun izahlar*** *(həmin işləri günah olmaqdan çıxaracaq üzrlər – red.)* ***vermişlər.***

Təftazaninin sözünə əsasən, səhabələr də günaha bulaşmışlar. Buna sübut onun aşağıda qeyd edəcəyimiz iddiasıdır:

وأما ما جرى بعدهم من الظلم على أهل بيت النبي صلى اللّه عليه وآله، فمن الظهور بحيث لا مجال للإخفاء ومن الشناعة بحيث لا اشتباه على الآراء، إذ تكاد تشهد بها الجماد والعجماء ويبكي له من في الأرض والسماء، وتنهد منه الجبال وتنشق الصخور، ويبقى سوء عمله على كرالشهور ومرالدهور، فلعنة اللّه على من باشر أو رضي أو سعى ولَعذاب ٱلآخرة أَشد وأَبقى

***Onlardan sonra Peyğəmbərin ﷺ Əhli-Beytinin (ə) başına gətirilmiş zülmlər isə elə açıq aşkardır ki, gizlədilə bilməz və elə çikrindir ki, nəzər-rəy fərqliliyi ola bilməz*** *(elə bir həddədir ki, "filankəs belə ictihad edib, xətaya*

*düçar olub" kimi izahlar bu iyrəncliyi örtə, bəraət qazandıra bilməz – red.).* ***Bu cinayətə cansızlar və canlılar belə şahid olmuş, yerdə və göydə olanlar göz yaşı tökmüşdür. Bu zülmə dağlar (dözə bilməyərək) lərzəyə gəlmiş, qayalar parçalanmış və bu cinayətin sarsıntısı aylar təkrarlandıqca və zaman keçdikcə (hər bir dövrdə) iz buraxmışdır. Allah bu zülmü edənə, bu işdən razı olana və bunun üçün çalışana lənət etsin. «Əlbəttə, axirət əzabı daha ağır və əbədidir».***[377]

Təftazani davam edərək belə bir sual verir:

فإن قيل: فمن علماء المذهب من لم يجوزِ اللعن على يزيد، مع علمهم بأنه يستحق ما يربو على ذلك ويزيد .قلنا: تحامياً عن أن يرتقى إلى الأعلى فالأعلى؛

***Əgər deyilsə ki, məzhəbimizin alimlərindən bəziləri Yezidə lənət deməyi icazəli bilmir; baxmayaraq ki, onlar da Yezidin bundan da artığına və çoxuna layiq olduğunu bilirlər.***

***Deyərik ki, bunu işin daha da yuxarılara çıxmasından qorumaq üçün edirlər*** *(yəni, Əhli-Beytə عليهم السلام edilən zülmlərdə dolayısı ilə, yaxud da birbaşa əli olan, əhli-sünnə nəzərində müqəddəs hesab edilən şəxslərə gedib çıxacağından ehtiyatlanaraq bu fətvanı vermişlər – red.).*[378]

Əgər Yezid lənətlənsə, bir az da əvvələ gedib atasına şamil ediləcək, hətta bir az irəli gedərək Müaviyədən üstdə olanlara da gedib çatacaqdır. Hafiz Əbdülmuğis ibn Züheyr Hənbəli Bağdadidən Yezidi lənətləməyi qadağan etməsi haqda soruşduqda belə cavab vermişdi:

انما قصدت كف الألسنة عن لعن الخلفاء، وإلاّ فلو فتحنا هذا لكان خليفة الوقت أحق باللعن؛

---

[377] Taha surəsi, ayə 127

[378] Şərhul-Məqasid, c.2, səh.306-307

***Bu işimlə xəlifələrin lənətlənməsinin dayanmasını istəmişəm. Əgər bu işə icazə versək o zaman dövrün xəlifəsi lənətə daha layiq şəxsdir*** *(ən birinci onu lənətləyərik və bu ixtilafa səbəb olar – red.)*.[379]

Bu sözü bəyan etməklə Yezidi lənətləməyin qarşısını alanların məqsədi aydın olur. Bəlkə də, onlar Yezidin lənətə layiq olduğunu bilirlər, lakin bu lənətin irəliləyib yuxarılara çatmaması üçün Yezidə lənətin qarşısını almışlar.

## Təbəri və Yezidin lənətlənməsi barədə Abbasi xəlifəsi Mötəzidin sözlərinin nəqli

Təbəri özünün "Tarix" kitabında Abbasi xəlifəsi Mötəzidin yazmış olduğu bir fərmanı rəvayət etmişdir. Mötəzid Abbasi xəlifələrindən olmuşdur. O, həmin fərmanda bəni-Üməyyəni, Müaviyə və Yezidi məzəmmət edərək belə yazmışdır:

ومنه إيثاره بدين الله ودعاؤه عباد الله إلى ابنه المتكبر الخمير، صاحب الديوك والفهود والقرود، وأخذه البيعة له على خيار المسلمين بالقهر والسطوة والتوعيد والإخافة والتهديد والرهبة، وهو يعلم سفهه ويطّلع على خبثه ورهقه، ويعاين سكرانه وفجوره وكفره؛

***"Bunlardan*** *(onun eyiblərindən – red.)* ***biri də özünü*** *(şəxsi mənafeyini – red.)* ***Allahın dinindən uca tutması, Allahın bəndələrini öz təkəbbürlü və şərabxor, xoruzlar, bəbirlər və meymunlar saxlayan oğluna tərəf*** *(ona beyət etməyə - red.)* ***dəvət etməsi, müsəlmanların ən xeyirli şəxsləri müqabilində onun üçün zor tətbiq edərək, güclə, təhdid, qorxutma yolu ilə beyət almasıdır. Halbuki Müaviyə oğlunun nadanlığını bilirdi, onun xəbisliyindən və axmaqlığından agah idi. Onun sərxoşluğunu, günah və küfrünü görürdü".***

---

[379] Siyəru əlamin-nubəla, c.21, səh.161

Bu yazıdakı "onun nadan olduğunu bilirdi" ifadəsinə diqqət yetirin! Deməli, Müaviyə Yezidin nadan və düşüncəsiz olduğundan xəbəri var idi. Bu olduqca incə bir məsələdir, çünki bəzi sünni alimləri, o cümlədən, İbn Xəldun deyir ki: ***"Biz Müaviyənin addımını, yəni oğlunu zor tətbiq etməklə, hədə-qorxu gəlməklə, qətllərlə də olsa, iş başına gətirməsini doğru sayırıq. Çünki, bəlkə, onun öz oğlunun durumundan xəbəri olmamışdır!"***

Mötəzid fərmanın davamında əlavə edərək yazmışdır:

فلما تمكّن منه ما مكّنه منه وطّأه له، وعصى الله ورسوله فيه، طلب بثارات المشركين وطوائلهم عند المسلمين، فأوقع بأهل الحرة الوقيعة الّتي لم يكن في الإسلام أشنع منها ولا أفحش، مما ارتكب من الصالحين فيها...، فقال مجاهراً بكفره مظهراً لشركه :ليت أشياخي ببدر شهدوا *** جزع الخزرج من وقع الأسل؛

***"Elə ki, Yezid atasının onun üçün münasib hala salıb hazırladığı xilafəti ələ keçirdi, bu işində Allah və Peyğəmbərinə ﷺ qarşı çıxdı. Müsəlmanlardan müşriklərin intiqamını almağa başladı. Hərrə əhli ilə elə bir işə əl atdı ki*** *(Hərrə faciəsinə işarədir – red.)*, ***İslam tarixində bundan daha çirkin və rəzil bir hadisə olmayıb. Belə ki orada neçə-neçə salehlərə qarşı cinayət törətdi. O, öz küfrünü elan edib, şirkini aşkar edərək (şer şəklində) dedi: "Ey kaş Bədrdə olan*** *(qətlə yetirilən müşriklər – red.)* ***şeyxlərimiz görəydi *** Qılınclarımızın təsirinə dözə bilməyən Xəzrəci".***

Bəli, tarixi həqiqətlərin üstündən əsrlər keçməsinə baxmayaraq, günümüzdə belə bəni-Üməyyə və İbn Teymiyyə məktəbinin şagirdləri təəssüf hissi doğuran Hərrə faciəsi barəsində şübhələr salaraq, həmin ləkəni bəni-Üməyyə və Yezidin üzərindən təmizləmək istəyirlər. Mötəzid sözünün davamında Yezidin şəxsiyyətini tanıdaraq belə yazır:

**هذا هو المروق من الدين وقول من لا يرجع إلى الله ولا إلى دينه ولا إلى كتابه ولا إلى رسوله ولا يؤمن بالله ولا بما جاء من عندالله؛**

***"Bu özü dindən çıxmaqdır. Bu, əsla nə Allaha doğru, nə onun dininə, nə onun kitabına, nə onun peyğəmbərinə ﷺ doğru qayıtmayacaq, nə Allaha nə də onun tərəfindən gələnə** (Peyğəmbərin ﷺ gətirdiyinə - red.) **etiqad bəsləməyəcək bir şəxsin sözüdür".***

Mötəzid fərmanında Aşura hadisəsinə işarə edərək yazır:

ثمّ من أغلظ ما انتهك وأعظم ما اخترم، سفكه دم الحسين بن علي وابن فاطمة بنت رسول الله صلى الله عليه وآله مع موقعه من رسول الله ومكانه منه ومترلته من الدين والفضل، وشهادة رسول الله صلى الله عليه وآله له ولأخيه بسيادة شباب أهل الجنة، اجتراءً على الله، وكفراً بدينه، وعداوة لرسوله، ومجاهدة لعترته، واستهانةً بحرمته. فكأنما يقتل به وبأهل بيته قوماً من كفّار أهل الترك والديلم، لا يخاف من الله نقمةً ولا يرقب منه سطوة، فبتر الله عمره واجتث أصله وفرعه، وسلبه ما تحت يده، وأعد له من عذابه وعقوبته ما استحقّه من الله بمعصيته

***"Sonra isə onun ayaqlar altına atdığı qanunların ən dəhşətlisi və məhv etdiyi ehkamların ən böyüyü Peyğəmbərin ﷺ yanında xüsusi yer və dərəcəyə sahib olmasına, din və fəzilət baxımından məqamına, Peyğəmbərin ﷺ "o** (İmam Hüseyn (ə) – red.) **və qardaşı cənnət cavanlarının ağasıdır" deməsinə rəğmən Əlinin (ə) və Peyğəmbər ﷺ qızı Fatimənin (ə) oğlu olan Hüseynin (ə) qanını tökməsidir. (O, bunu) Allaha qarşı çıxmaq, dinini inkar etmək, Peyğəmbərlə ﷺ düşmənçilik etmək, onun soyu ilə müharibə edərək və hörmətini yüngül tutmaq üçün etmişdi. Sanki o, Hüseyni (ə) və onun ailəsini öldürməklə türk** (həmin dövrdə xilafətə qarşı vuruşan qeyri-müsəlman türk tayfaları nəzərdə tutulur – red.) **və deyləm camaatından olan kafirləri öldürür. Allahın qəzəbindən qorxmur və onun qüdrətindən ehtiyat eləmir. Buna görə Allah da onun ömrünü kəsdi, onun əslini və soyunu yox etdi. Əlinin altında olanları** (mal-dövlət, səltənəti – red.)*

***ondan aldı və onun üçün Allah yanında günahlarına görə layiq olduğu əzab və cəzanı hazırladı”.***[380]

Mötəzid fərmanın sonunda onlara nifrin etmişdir. O, yazdığı fərmanda İmam Hüseynin (ə) ehtiramını sübut edən səciyyələrini xatırladaraq bu zamində mövcud olan ayələri və rəvayətləri də qeyd etmişdir və işarə etmişdir ki, Qurani-Kərimdəki Əhli-Beytə (ə) məhəbbət (məvəddət) ayəsini misal çəkmək kifayətdir.

## Alusinin nəzəri

Yezidi aşkar şəkildə lənətləyən əhli-sünnə alimlərindən biri Alusidir. O, bu məsələ ilə əlaqədar maraqlı cümlə qeyd etmişdir. Belə ki, Qurani-Kərimin bu ayəsini:

**فَهلْ عسيتم إِنْ تولَّيتم أَنْ تفْسِدوا في ٱلأَرضِ وتقَطِّعوا أَرحامكُم**

***“Odur ki, sizdən (Peyğəmbərdən (s) və İslamdan) üz döndərəcəyiniz təqdirdə Yer üzündə fəsad törətmək və öz qohumluq əlaqələrinizi tamamilə kəsməkdən başqa bir şey gözlənilərmi?!”***[381] - nümunə çəkərək belə yazmışdır ki, alimlər bu ayəyə əsasən, Yezidə lənət deyilməsini caiz hesab edirlər; Bərzənci “Əl-Əşaə” kitabında, İbn Həcər Məkki isə “Əs-Səvaiqul-muhriqə” əsərində Əhməd ibn Hənbəldən nəql edirlər ki, Əhməd ibn Hənbəlin oğlu Abdullah atasından Yezidi lənətləmək haqda soruşduqda Əhməd belə cavab vermişdi: ***“Allahın Qurani-Kərimdə lənətlədiyi bir kəsi necə lənətləməyəsən?”;*** Abdullah da atasına demişdi: ***“Mən Quranı oxumuşam, ancaq orada Yezidə lənət deyildiyinə rast gəlməmişəm”***. Əhməd ibn Hənbəl isə belə cavab vermişdi:

---

[380] Tarixut-Təbəri, c.8, səh.187-188

[381]Muhəmməd surəsi, ayə 22

إنّ الله تعالى يقول: (فَهلْ عسيتم إِنْ تولَّيتم أَنْ تفْسِدوا في ٱلأَرضِ وتقَطِّعوا أَرحامكُم) الآية وأي فساد وقطيعة أشد مما فعله يزيد؛

***"Allah-Təala Qurani-Kərimdə belə buyurmuşdur: «Odur ki, sizdən (Peyğəmbərdən ﷺ və İslamdan) üz döndərəcəyiniz təqdirdə Yer üzündə fəsad törətmək və öz qohumluq əlaqələrinizi tamamilə kəsməkdən başqa bir şey gözlənilərmi?!» Hansı fəsad və qohumluq əlaqəsini kəsmək Yezidin elədiyindən daha pisdir?!"***

Alusi davam edərək yazır: ***"Yezidə lənət deməyin qarşısını almaq olmaz. O, yaramaz xislət sahibi olmuş, öhdəsində məsuliyyət olduğu dönəmdə olduqca böyük günahlar törətmişdir"***. Alusi bütün bunları nəql etdikdən sonra Yezid başda olmaqla, onların hamısına Allahın, mələklərin və insanların lənətini diləyərək belə yazır:

والطامة الكبرى ما فعله بأهل البيت ورضاه بقتل الحسين ـ على جده وعليه الصلاة والسلام ـ واستبشاره بذلك وإهانته لأهل بيته مما تواتر معناه

***"Ən böyük müsibət isə onun Əhli-Beytə عليهم السلام qarşı etdikləri və Hüseynin - babasına və özünə salam olsun - öldürülməsinə razı olması, buna sevinməsi və onun عليه السلام ailəsini təhqir etməsidir. Hansı ki, bunlar məna etibarilə mütəvatir həddə bizə yetişmişdir*** *(sözbəsöz eyni olmasa da, məzmun etibarilə bu mənada olan müxtəlif rəvayətlər o həddədir ki, mütəvatir hesab edilir və insanda doğruluğu barədə əminlik yaradır – red.)"*.

Bir belə qeyd edilənlərin ardından elə bir şəxs tapıla bilərmi, desin ki, bu deyilənlərin sənədi mövcuddurmu və ya bunlar təhrif olunmuş məsələlərdir?! Əhli-Beytlə عليهم السلام heç bir əqidə və düşüncə bağlılığı olmayan Şəhabuddin Alusi deyir:

وقد جزم بكفره وصرح بلعنه جماعة من العلماء، منهم: الحافظ ناصر السنة ابن الجوزي، وسبقه القاضي أبو يعلى، وقال العلاّمة التفتازاني لا: نتوقّف في شأنه بل في إيمانه، لعنة الله تعالى عليه وعلى أنصاره وأعوانه .وممن صرح بلعنه: الجلال السيوطي .وفي تاريخ ابن الوردي وكتاب الوافي بالوفيات: إنّ السبي لمّا ورد من العراق على يزيد خرج فلقي الأطفال والنساء من ذرية

علي والحسين رضي الله تعالى عنهما والرؤس على أطراف الرماح وقد أشرفوا على ثنية جيرون، فلما رآهم نعب غراب فأنشأ يقول؛

***Böyük alimlərin bir qrupu Yezidin kafir olduğuna inanıb və ona açıq şəkildə lənət deyiblər. Hafiz Nasirussünnə ibn Cövzi onlardan biridir. Qazi Əbu Yəla isə ondan öncə bu nəzəri bildirmişdir. Əllamə Təftəzani deyib: "Onun barədə** (lənətlik olması barədə - red.) **tərəddüd etmirik, hətta onun imanı barədə belə** (yəni mömin olması barədə şəkdə deyilik, əksinə kafir olmasına əminik – red.)**. Allahın lənəti olsun ona, ona kömək və yardım edənlərə". Ona açıq-aşkar lənət deyənlərdən biri də Cəlal (Cəlaluddin) Süyutidir. İbn Vərdinin "Tarix" kitabında və "Əl-Vafi bil-vəfəyat" kitabında qeyd edilib: "Əsirlər İraqdan Yezidin yanına çatdıqda o, çıxıb Əlinin* ﷺ *və Hüseynin* ﷺ *nəslindən olan uşaq və qadınları gördü. Kəsilmiş başlar da bu zaman nizələrin uclarında idi. Onlar artıq Ceyrunun** (məntəqə adı – red.) **yoluna daxil olmuşdular. Elə ki, Yezid başları gördü, bu zaman bir qarğa qarıldamağa başladı. Yezid də ardıyca bir şeir dedi".***[382]

Qazi Əbu Yəla əhli-sünnənin böyük şəxsiyyətlərindəndir. İbn Teymiyyə onun sözlərinə etimad edərək özünün "Minhacus-sunnə" kitabında ondan çoxlu sayda rəvayət nəql etmişdir. Ancaq bu məsələdə ona tabe olub sözünü qəbul etmək istəmir. Onun Əhli-Beytə عليهم السلام qarşı düşmən mövqeyi buna icazə vermir. Alusi davamında əlavə edir: ***"Oxunan bu şeirlər onun kafir olduğunu aşkar edir. Mənim etiqad və nəzərimə görə, Yezidin Peyğəmbərə*** ﷺ ***imanı olmamışdır. Onun Məkkədə ilahi hərəmə və əhaliyə qarşı, Peyğəmbərin*** ﷺ ***hərəminə və Əhli-Beytinə*** عليهم السلام ***qarşı törətdiyi cinayətlər, heç də Quranın bir vərəqini nəcisin***

---

[382] Ruhul-məani, c.26, səh.72

***içinə atmaqdan kiçik sayılmaz. Bütün alimlər onun kafir olduğuna fətva verirlər və inanmıram ki, onun törətdiyi əməl və davranışları tarixboyu böyük alimlərin gözündən yayınaraq gizlin qalmış olsun. Müsəlmanların böyük şəxslərinin onun əleyhinə qiyam etməmələrinin səbəbini hakimiyyətin onlar üzərindəki ciddi nəzarət etməsində görürəm".*** Alusi əslində, bu ifadəsi ilə bir belə cinayətlər müqabilində Yezid əleyhinə qiyam etməyərək sükutu seçən səhabələrə, tabeinə bəraət qazandırmağa çalışmışdır. Belə bir bəhanə gətirmək qəbul edilə bilərmi?!

## İbn Həzm Əndəlusinin nəzəri

İbn Həzm Əndəlusi Yezid barəsində belə yazır:

ومن قام لغرض دنيا كما فعل يزيد بن معاوية... لأنهم لا تأويل لهم اصلاً وهو بغي مجرد

***Hər kim Yezid ibn Müaviyə kimi dünya naminə iş görərsə ... Çünki bunları (bu işləri) başqa yerə yozmaq belə mümkün deyil. O, ipə-sapa yatmayan bir tüğyançıdır.***[383]

Xatırlatmaq yerinə düşər ki, İbn Həzm Əhli-Beytin عليهم السلام düşmənlərindən olmuşdur. Onun tərcümeyi-halını bəyan edənlər bu məsələni təkidlə qeyd etmişlər.

## Qazi Şovkaninin nəzəri

Qazi Şovkani Yezid barəsində deyir:

لقد أفرط بعض أهل العلم كالكرامية ومن وافقهم في الجمود على أحاديث الباب حتى حكموا بأنّ الحسين السبط رضي الله عنه باغ على الخمير السكّير، الهاتك لحرمة الشريعة المطهرة، يزيد بن معاوية لعنهم الله، فيا لله العجب من مقالات تقشعرمنها الجلود؛

---

[383] Əl-Muhəlla, c.11, səh.97

***Bu mövzuda olan hədislərə** (hakimə hər bir halda itaət mövzusunda olan hədislərə – red.)* ***bağlı qalıb ondan kənara çıxmamaqda Kərramiyyə və onlarla eyni fikirdə olan bəzi elm əhli ifrata varmışlar. Belə ki, onlar hətta Peyğəmbər ﷺ nəvəsi Hüseynin (ə) şərabxor və sərxoş, pak olan şəriətin hörmətini sındıran Yezid ibn Müaviyyəyə qarşı haqsız olduğunu söyləmişlər. Allah onlara lənət etsin! Tükləri biz-biz edən bu sözlər necə də təəccüblüdür!***[384]

Qazi Şovkani burada Əbdülmuğis ibn Züheyr Hənbəli Bağdadiyə və ya İbn Ərəbi Malikiyə işarə edir. Biz əvvəldə onların nəzərlərini qeyd etmişdik.

## Bir-birinə uyğun gəlməyən mövqe və nəzərlər

Yada salınmalı məsələlərdən biri də ondan ibarətdir ki, bir sıra əhli-sünnə alimlərinin nəzərində bir-birinə zidd mövqe nəzərə çarpır. Misal üçün, İbn Həcər Məkki "Əl-Qəsidətul-həmziyyə" kitabının şərhində Yezidi məzəmmət etməsinə baxmayaraq "Əl-Fətavəl-hədisiyyə"[385] kitabında Yezidin qatil olmasına, yəni İmam Hüseynin (ə) qətlinə onun göstəriş verməsinə şübhə ilə yanaşır, hətta bu məsələni inkar da etmək istəyir. Zəhəbi də bir-birinə zidd mövqedən çıxış etmişdir. O bir yerdə bitərəf mövqedən çıxış edərək belə deyir: ***"Biz Yezidi sevmirik, amma onu məzəmmət də etmirik"***. Ancaq digər bir yerdə belə deyir:

كان [يزيد بن معاوية] ناصبياً فظّاً غليظاً جلفاً. يتناول المسكر ويفعل المنكر. افتتح دولته بقتل الشهيد الحسين واختتمها بواقعة الحرة، فمقته الناس ولم يبارك في عمره؛

[384] Neylul-ovtar, c.7, səh.362

[385] Əl-Fətavəl-hədisiyyə, səh.193

***O, (Yezid ibn Müaviyə) nasibi, qəddar, yaramaz və ədəbsiz idi. Məsdedici içkilər içər və dində qəbul edilməyən işlər görərdi. Öz hakimiyyətinə Şəhid Hüseyni ﷺ öldürməklə başladı və Hərrə hadisəsi ilə sonlandırdı. İnsanlar ona nifrət bəsləyirdilər. Ömrü də uzun çəkmədi.***[386]

Ğəzzali, bizim də nəql etdiyimiz kimi "İhyau-ulumiddin" kitabında bir-birinə zidd olan mövqedən çıxış edərək bəyan edir: ***"Siz Yezidə lənət deməyin, Allahı zikr etmək lənət söyləməkdən daha yaxşıdır. Bəlkə, Hüseynin ﷺ qətlinə o fərman verməmişdir. Bəlkə də öz əməlindən tövbə etmişdir. Allahdan onun bağışlanmasını diləyin"***.

Amma ömrünün sonuna yaxın yazmış olduğu "Sirrul-aləmin və kəşfu ma fid-dareyn" adlı kitabında isə əvvəlki sözünün əksinə olaraq Yezidi məzəmmət edir.[387] Əlbəttə, bəzilərinin nəzərinə görə bu kitab ona məxsus deyil. Həmçinin, "Əl-imamə vəs-siyasə" kitabının da İbn Quteybəyə məxsus olmasına şübhə edənlər var.

Əvvəldə qeyd etmişdik ki, İbn Sədin "Ət-Təbaqatul-kubra" kitabını çap etsələr də, həmin kitaba İmam Həsən ﷺ və İmam Hüseynə ﷺ aid bölüm salınmamışdır.

Bəli, həqiqətləri dəyişdirmək istəyənlər müxtəlif üslublardan istifadə edirlər. Bəzən kitabı çap etmir, bəzən kitabı danır, bəzən isə dünyada altmış və ya yetmiş il ömür sürmüş alimin varlığını inkar edib belə bir şəxsin, ümumiyyətlə, olmadığını idda edirlər. Nümunə üçün, "Limaza ixtərtu məzhəbəş-şiətil-imamiyyə" *(Niyə şiəlik məzhəbini seçdim – red.)* kitabının müəllifi Şeyx Əhməd Əmin Əntakini misal çəkirik. İbn Teymiyyə tərəfdarlarının bəzisi onun barəsində

---

[386] Siyəru əlamin-nubəla, c.4, səh.37-38

[387] Sirrul-aləmin, səh.23; Qeyd etmək istərdik ki, o həmin kitabda "Qədir-xum" hədisinə dair bir sıra mövzuları bəyan edərək, bəzi səhabələrin beyəti pozduqları məsələsini üzə çıxarmışdır. Bəzi alimlərin ehtimalına görə, o, ömrünün sonuna yaxın düzgün nəzər sahibi olmuşdur.

belə deyirlər: ***“Belə bir şəxs, ümumiyyətlə, olmamış və bu, şiələrin qondardığı bir şəxsdir”***.

Qeyd edək ki, Şeyx Məhəmməd Əmin və Şeyx Əhməd Əmin hər ikisi qardaşdırlar. Onlar İraqa səfərə gəldikdə bizim evdə qalıblar. Mən şəxsən, özüm onlara nahar və şam yeməklərini vermiş, hətta axşam yataqlarını belə sərmişəm. Ancaq indi bəzi vəhhabi məsləkli uşaqlar yazırlar ki, bu şəxsi şiələr özlərindən çıxardıblar. Belə bir adda adam olmamışdır. Halbuki, bizim mənzildə onlarla birgə hətta şəkil də çəkdirmişik.

Qiymətli kitab sayılan “Əbaqatul-ənvar”ın müəllifi sübut edir ki, “Sirrul-aləmin” kitabı Ğəzzaliyə məxsusdur. Hətta bunu Zəhəbinin “Mizanul-itidal” kitabında “Sirrul-aləmin” kitabından nəql etdiyi mövzunu qeyd etməklə sübut etmişdir. Bəziləri də İbn Quteybənin “Əl-İmamə vəs-siyasə” kitabından bir mövzu nəql etməklə həmin kitabın İbn Quteybiyyəyə məxsus olduğunu isbat etmişlər.

“Əl-İmamə vəs-siyasə” kitabının üçüncü əsrə aid bir nüsxəsi hal-hazırda İİR parlamentinin kitabxanasında qorunub saxlanılır. Həmin kitabı mən özüm görmüşəm və bir çox əhli-sünnə alimlərinin möhrünü həmin kitabda müşahidə etmişəm. Bu gün müxtəlif ölkələrdə “Əl-İmamə vəs-siyasə” adı altında çap edilən kitabları həmin nüsxə ilə tutuşdurduqda (ələlxüsus bizə lazım olan mövzuları) həmin nüsxələr arasında heç bir fərqin olmadığını görürük. Beləliklə, əl atdıqları heç bir metodun faydası olmamış və bu yöndə heç bir uğur qazana bilməmişlər.[388]

---

[388] Qeyd edək ki, Seyid Əbdüləziz Təbatəbai çox çətinliklə də olsa, kitabxanaları dolaşaraq həmin kitabların nüsxələrini əldə edərək çap etdirmişdir. Cənab Məhmudi də öz növbəsində, bəzi kitabların, o cümlədən, “Ənsabul-əşraf” kitabının əlyazmasını əldə edərək yenidən çap etdirmişdir.

## Xülasə

Bura qədər açıqladığımız həqiqətləri xülasə şəkildə aşağıdakı formada bəyan etmək olar:

1. Müaviyənin İmam Hüseyn (عليه السلام) barəsində Yezidə verdiyi tövsiyə İmama (عليه السلام) məhəbbət bəslədiyinə görə deyildi. Bu, əslində, öncədən qurulmuş tədbir planı idi.

2. Hakimiyyətin Hicaz ərazisindəki valilərinin planı İmam Hüseyni (عليه السلام) Məkkədən kənara çıxarmaq olmuşdur.

Bu mövzuya dair üç dəlil göstərdik:

Birincisi, Mədinə valisi Vəlid ibn Ütbənin İmam Hüseynlə (عليه السلام) rəftarı;

İkincisi, Məkkə valisi Əmr ibn Səidin İmam Hüseynlə (عليه السلام) rəftarı;

Üçüncüsü, Kufə valisi Numan ibn Bəşirin həzrət Müslim (عليه السلام) və tərəfdarları ilə rəftarı.

3. İmam Hüseynə (عليه السلام) göndərilən məktublar planlaşdırılmış bir məsələ olmuşdur.

4. İmam Hüseynin (عليه السلام) öz şəhadətindən agah olması və öz qatillərini tanıması.

5. Yezid və Yezid kimilərin mənfur məqsədlərini İmam Hüseynin (عليه السلام) öncədən söyləməsi.

6. İmam Hüseynin (عليه السلام) şəhid edilməsində Müaviyənin rolu.

7. Aşura hadisəsində Yezidin oynadığı rol.

8. Kufə əhalisinin Aşura hadisəsindəki rolunun aydınlaşması.

9. İmam Hüseyni (عليه السلام) Kufəyə dəvət edənlərin çoxu onun qatilləri olmuşdur.

Deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, İmam Hüseynin (عليه السلام) qatilləri Kufədə yerləşən bəni-Üməyyə dəstəsindən, xəvaricdən, ya da Şamdan Kərbəlaya göndərilmiş ordudan olmuşdur.

Biz təhqiqat apararkən, Ömər ibn Sədin ordusundakı dəstə başçıları arasında bir nəfər olsun belə şiə tapa bilmədik. İmam Hüseynin (عليه السلام) qatillərinin şiələr olduğunu iddia edənlər, həmin şəxsləri müəyyən edib adlarını çəkməli, həmçinin, həmin şəxslərin Əmirəlmöminin Əlinin (عليه السلام) birbaşa imamətini qəbul etdiklərini və onların adlarının İmam Hüseynin (عليه السلام) qatilləri arasında qeyd olunduğunu isbat etməlidirlər. Onlar bu iddianı sübut edə bilməzlər. Ancaq onların iddiasının əksinə olaraq İmam Hüseynin (عليه السلام) tərəfdarları arasında Quran qariləri olan böyük səhabələr və təqvalı şəxsiyyətlər mövcud olmuşdur. Onlar bütün əhali arasında tanınmış və hörmətə layiq kəslər idilər.

# SONUNCU FƏSİL

# AŞURA HADİSƏSİNƏ DAİR MÖVZULARA BİR BAXIŞ

## Aləmdə baş verən hadisələr və dəyişikliklər

Tarixi Aşura hadisəsinə dair mövzuların müzakirəsini üç fəsildə bəyan edərək araşdırmanı sona yetirdik. Sonuncu fəsildə isə Aşuradan sonra baş verən hadisələri qeyd etmək istərdik.

Kərbəladakı faciədən sonra varlıq aləmində elə hadisələr baş verdi ki, onları xatırlatmaq mömin kəsin imanının möhkəmlənməsinə, münafiqlərin şübhələrinin isə dağılmasına səbəb olacağına ümid edirik. Bu hadisələri əhli-sünnənin mötəbər kitablarından mənbəsi ilə birgə nəql etməklə, onların bu mövzuda müzakirə zamanı hər hansı bir söz deməsinin qarşısını alacağıq. Bu araşdırmada aşağıdakı mənbələrdən istifadə olunmuşdur:

“Dəlailun-nubuvvə”, Əbu Bəkr Beyhəqi

“Mərifətus-səhabə”, Əbu Nəim İsfəhani

“Siyəru əlamin-nubəla”, Şəmsuddin Zəhəbi

“Əl-Bidayə vən-nihayə”,  İbn Kəsir Dəməşqi

“Məcməuz-zəvaid”, Əbu Bəkr Heysəmi

“Tarixul-xuləfa”, Cəlaluddin Suyuti

“Tarixu mədinəti Diməşq”, İbn Əsakir Dəməşqi və digər mötəbər mənbələr.

Kərbəla faciəsindən və İmam Hüseynin (ə) şəhadətindən sonra varlıq aləmində bir sıra hadisələr baş vermişdir ki, onlardan biri Günəşin tutulması olmuşdur. Digər bir hadisə isə ondan ibarət olmuşdur ki, hər bir daşı qaldıran zaman onun altında qan axdığına şahid olurdular. Bu zəmində əhli-sünnənin də doğru hesab etdiyi mötəbər

sənədə istinadən söylənilmiş bir neçə rəvayətə nəzər salaq. Təbərani yazır ki, Ümmü Həkim belə deyir:

قتل الحسين عليه السلام وأنا يومئذ جويرية، فمكثت السماء أياماً مثل العلقة

***"Hüseyn ﷺ qətlə yetirilən zamanda mən cavan bir qız idim. (Həmin vaxt) göyün üzü bir neçə gün qan laxtası kimi (qırmızı) olmuşdu".***

Əbu Bəkr Heysəmi bu rəvayəti Təbəranidən nəql edərək deyir:

رواه الطبراني و رجاله الى أم حكيم رجال الصحيح

***"Bunu Təbərani rəvayət etmişdir və Ümmü Həkimə qədər olan ravilər "Səhih"in*** *("Səhihul-Buxari"nin – red.)* ***raviləridir".***[389]

Əbu Bəkr Heysəmi davam edərək yazır ki, Əbu Qubeyl belə demişdir:

لمّا قتل الحسين بن علي انكسفت الشمس كسفةً حتى بدت الكواكب نصف النهار، حتى ظننا أنها هي

***"Hüseyn ibn Əli ﷺ şəhadətə yetirilən zaman Günəş elə tutulmuşdu ki, hətta günorta vaxtı ulduzlar belə görsənirdi. Biz elə sandıq ki, bu, Qiyamət günüdür".***

Heysəmi bu rəvayətin altında yazır:

رواه الطبراني وإسناده حسن

***"Bunu Təbərani rəvayət etmişdir və isnadı həsəndir*** *("həsən" mötəbər və qəbul edilən xəbərlər kateqoriyasına aiddir – red.)****".***[390]

Heysəmi, əhli-sünnənin nəzərində böyük bir şəxs sayılan Zöhridən başqa bir rəvayət nəql edərək yazır ki, Məhəmməd ibn Şihab Zöhri deyir: ***Əbdülməlik ibn Mərvan***

---

[389] Məcməuz-zəvaid, c.9, səh.196-197; Əl-Mucəmul-kəbir, c.3, səh.113, h.2836; Tarixu mədinəti Diməşq, c.14, səh.226; Təhzibul-kəmal, c.6, səh.432

[390] Məcməuz-zəvaid, c.9, səh.197

***məndən Hüseynin ﷺ qətlə yetirildiyi gün hansı olayın baş verdiyini soruşduqda ona belə cavab verdim:***

لم ترفع حصاة ببيت المقدس إلاّ وجد تحتها دم عبيط

***"Beytül-müqəddəsdə qaldırılan hər daşın altında təzə qan axdığı müşahidə edilirdi".***

Əbdülməlik Zöhrinin sözünü təsdiq edərək belə cavab verdi:

إني وإياك في هذا الحديث لقرينان

***"Sənin kimi mənim də belə bir hadisədən xəbərim var".***

Heysəmi bu rəvayətin sənədi barədə deyir: *"Bu hədisi nəql edən ravilərin hamısı doğru danışanlardır".*[391]

Təbərani bu barədə Zöhridən digər bir hədis nəql edərək yazır:

ما رفع بالشامِ حجريوم قتل الحسين بن علي إلاّ عن دم؛

***"Hüseyn ibn Əlinin ﷺ qətl edildiyi gün Şamda qaldırılan hər bir daşın altında qan var idi".***[392]

Bu hədisin raviləri də "Səhih"in raviləridir.

Heysəmi başqa bir nəfərdən belə rəvayət edir:

لمّا قتل الحسين انتهبت جزور من عسكره، فلما طبخت إذا هي دم؛

***"Hüseyn ﷺ qətlə yetirildikdən sonra onun ordusuna məxsus bir heyvanı qəsb etdilər. Onu bişirdikləri zaman, bir də gördülər ki, bütöv bir qandır".***

Heysəmi və başqaları bu rəvayətin sənədi barəsində deyirlər:

رجاله ثقات

***"Raviləri etibarlıdır".***[393]

---

[391]Məcməuz-zəvaid, c.9, səh.169; Əl-Mucəmul-kəbir, c.3, səh.119; Əl-Mənaqib, Xarəzmi, səh.388

[392] Məcməuz-zəvaid, c.9, səh.169; Əl-Mucəmul-kəbir, c.3, səh.113, h.2835

[393] Məcməuz-zəvaid, c.9, səh.169; Əl-Mucəmul-kəbir, c.3, s.121, h.2863

Bu mövzu haqda İbn Kəsir Dəməşqi də söz söyləmişdir və onun ibarələrinə yaxşı diqqət yetirin. Çünki o, İbn Teymiyyənin şagirdi olmuş və Əhli-beytə ﷺ qarşı da heç bir xoş münasibəti olmamışdır. O, özünün tarixlə bağlı yazdığı əsərində belə deyir:

وأما ما روي من الأحاديث والفتن الّتي أصابت من قَتلَه ،فأكثرها صحيح، فإنه قلّ من نجى من اولئك الّذين قتلوه من آفة وعاهة في الدنيا، فلم يخرج منها حتى أُصيب بمرض وأكثرهم أصابه الجنون

***"Hüseynin ﷺ qatillərinin başına gələn hadisə və bəlaların əksəriyyəti doğrudur. Onların çox az bir qismi bu dünyanın dərd-bəlasından qurtula bilmişlər, onlar bir xəstəliyə tutulmamış dünyanı tərk etməmişlər, əksəriyyəti isə dəliliyə düçar olmuşdur".***[394]

## İmam Hüseynə ﷺ matəm saxlamaq və o həzrətin müsibətinə ağlamaq

İmam Hüseynin ﷺ faciəsinə ağlamaq haqqında həddən artıq sayda rəvayət mövcuddur və bu rəvayətlər həm şiə, həm də sünni məzhəbinin kitablarında qeyd olunmuşdur. Burada əhli-sünnə mənbələrində doğru sayılan bir neçə rəvayəti qeyd etməklə kifayətlənirik.

Əhməd ibn Hənbəl Əmirəlmöminin İmam Əli ﷺ ilə birgə Siffeyn müharibəsində iştirak etmiş bir şəxsin belə dediyini rəvayət edir:

***Kufəyə dönərkən Kərbəladan keçdiyimiz zaman Əmirəlmöminin Əli ﷺ belə buyurdu:***

اصبر أبا عبدالله! إصبر أبا عبدالله! بشطّ الفرات. قلت: وماذا؟ قال: دخلت على النبي صلى الله عليه وآله ذات يوم وعيناه تفيضان. قلت يا نبي الله! أغضبك أحد؟ ما شأن عينيك تفيضان؟ قال: بل قام من عندي جبريل قبل فحدثني أنّ الحسين يقتل بشط الفرات؛

394 Əl-Bidayə vən-nihayə, c.8, səh.219-220

***“Fərat çayının kənarında səbirli ol ey Əbu Abdullah! Səbirli ol, ey Əbu Abdullah** (“Əbu Abdullah” İmam Hüseynin ﷺ künyəsidir – red.)**!” (Ravi deyir) Mən soruşdum: “(Bu söylədiyinin mənası) nədir?” Buyurdu ki, bir gün Peyğəmbərin ﷺ yanına getmişdim, onun gözlərindən yaş axırdı. Dedim: “Ey Allahın peyğəmbəri, səni kimsə qəzəbləndirib? Gözündən yaş axmağının səbəbi nədir?” Buyurdu: “Bir az əvvəl Cəbrail yanımdan getdi. O, mənə Hüseynin Fərat çayı kənarında qətl olunacağını xəbər verdi”.***[395]

Həmin dövrdə İmam Hüseyn ﷺ də Siffeyn döyüşündə atası ﷺ ilə birlikdə iştirak etmişdi.

Hafiz Əbu Bəkr Heysəmi rəvayəti nəql etdikdən sonra deyir ki, bunu Əhməd, Əbu Yəla, Bəzzar və Təbərani də nəql etmişdir və ravilərinin hamısı doğru danışan kəslərdir.[396]

Təbərani də “Əl-Mucəmul-kəbir” əsərində bu mövzuya dair Ümmü Sələmədən bir rəvayət nəql edir:

كان رسول الله صلى الله عليه وآله جالساً ذات يوم في بيتي فقال لا: يدخل علي أحد. فانتظرت فدخل الحسين رضي الله عنه، فسمعت نشيج رسول الله صلى الله عليه وآله يبكي، فأطلعت فإذا حسين رضي الله عنه في حجره والنبي صلى الله عليه وآله يمسح جبينه وهو يبكي. فقلت: والله ما علمت حين دخل. فقال: إنّ جبرئيل عليه السلام كان معنا في البيت. فقال: تحبه؟ قلت: أما من الدنيا فنعم. قال: إنّ أُمتك ستقتل هذا بأرض يقال لها كربلاء. فتناول جبرئيل عليه السلام من تربتها فأراها النبي صلى الله عليه وآله؛

***Bir gün Peyğəmbər ﷺ mənim evimdə əyləşmişdi. Bu vaxt belə buyurdu: “Yanıma heç kim daxil olmasın!” Mən (otağa heç kimin daxil olmamasına) nəzarət edirdim,***

---

395 Musnədu Əhməd, c.2, səh.78; Əl-Musənnəf, c.8, səh.632; Musnədu Əbu Yəla, c.1, səh.298; Əl-Mucəmul-kəbir, c.3, səh.106 və bir çox digər mənbələr.

396 Məcməuz-zəvaid, c.9, səh.187

***(amma) birdən Hüseyn عليه السلام (o həzrətin ﷺ yanına) girdi. Ardınca Peyğəmbərin ﷺ hönkürtü ilə ağladığını eşitdim. Nəzər saldıqda Hüseynin عليه السلام Peyğəmbərin ﷺ qucağında olduğunu gördüm. Peyğəmbər ﷺ onun alnına sığal çəkərək ağlayırdı. Mən dedim: "And olsun Allaha, onun nə vaxt daxil olduğunu bilmədim". Peyğəmbər ﷺ buyurdu: "Cəbrail عليه السلام bizimlə birgə evdə idi və (mənə belə) dedi: "Onu (Hüseyni عليه السلام) sevirsən?" Dedim: "Dünyaya məxsus olanı deyirsənsə, bəli!" Cəbrail عليه السلام dedi: "Sənin ümmətin tezliklə onu Kərbəla adlanan yerdə qətlə yetirəcək". (Ümmü Sələmə deyir) Sonra Cəbrail عليه السلام (bir miqdar) oranın torpağından gətirib onu Peyğəmbərə ﷺ göstərmişdi".***[397]

Bu hədisdən bir neçə mətləb başa düşülür:

1. İmam Hüseyn عليه السلام hələ kiçik yaşlarında olarkən Peyğəmbər ﷺ ona ağlamışdı. Peyğəmbər ﷺ dünyadan köçəndə İmam Hüseynin عليه السلام neçə yaşı var idi ki? Deməli, Peyğəmbərin ﷺ ağlamasında bir məna və mesaj var.
2. Xəbəri verən Cəbraildir عليه السلام.
3. Ağlayan Allahın Rəsuludur ﷺ.

Peyğəmbər ﷺ bunu Ümmü Sələməyə xəbər verir, həmçinin İmam Hüseynin عليه السلام şəhadətə yetiriləcəyi yerin torpağını da görür. Bütün bu məsələlər mövzunun böyük əhəmiyyət kəsb etdiyindən xəbər verir.

Heysəmi bu hədislərin doğru olması haqda belə demişdir: ***"Bu hədisi Təbərani ayrı-ayrı sənədlərlə nəql etmişdir və onu rəvayət edənlərin hamısı doğru danışan şəxslərdir".***[398]

---

[397] Əl-Mucəmul-kəbir, c.3, səh.108-109 və c.23, səh.289; Kənzul-ummal, c.13, səh.656 və c.12, səh.126

[398] Məcməuz-Zəvaid, c.9, səh.189

Qeyd etmək lazımdır ki, həmin hədisi Nişapuri özünün "Əl-Mustədrək ələs-səhiheyn" kitabında nəql edərək onun Müslim və Buxarinin səhihlik şərtlərinə uyğun olduğunu demişdir.[399]

## Əhli-sünnə mənbələrindəki rəvayətləri qeyd etməkdə hədəfimiz

Əhli-sünnənin rəvayətlərini nəql etməkdə iki hədəfimiz vardır:

Birincisi, onların rəvayətlərini sadəcə bir nümunə olaraq doğru sənədlər əsasında qeyd edirik.

İkincisi, əhli-sünnə bu mövzu haqda rəvayətlər qeyd edib onların doğruluğunu təsdiqləyir, amma özünü vilayət əhli sayan, Əhli-Beytə عليهم السلام məhəbbət bəslədiyini iddia edən bəzi fərdlər isə bu cür mövzulara şübhə ilə yanaşırlar; biz bu rəvayətləri qeyd etməklə onların həqiqi halını ortaya qoymuş oluruq. Belə çıxır ki, onların Əhli-Beytə عليهم السلام qarşı mərifəti Təbəranidən, Əhməd ibn Hənbəldən, Əbu Bəkr Heysəmidən, Bəzzardan və Əbu Yəla Mosulidən də aşağı həddədir! Görəsən, Allah-Təala bu qəbildən olan şəxslərlə necə davranacaq?!

## Davamlı ağlamaq və göz yaşı tökmək

Əzəmətli Kərbəla hadisəsinə bəzən ümumiyyətlə ağlamaq, bəzən isə bu faciəyə davamlı göz yaşı tökmək *(yəni əsrlər keçsə də yenə də bu faciəyə görə ağlamaq – red.)* məsələsi müzakirə obyektinə çevrilmişdir. Davamlı göz yaşı axıtmaq isə əlahiddə bir mövzudur.

---

399 Əl-Mustədrək ələs-səhiheyn, c.3, səh.176-177

Əbu Nəim İsfahani “Hilyətul-ovliya” kitabında davamlı ağlamaq və göz yaşı tökmək haqqında İmam Səccaddan (عليه السلام) həmişə əzadarlıq məclislərində eşitdiyimiz bir rəvayəti nəql edərək qeyd edir ki, həzrətdən (عليه السلام) ***“niyə bu qədər ağlayırsınız?”*** deyə soruşduqda, o həzrət (عليه السلام) belə cavab vermişdi: ***“Niyə də ağlamayım axı? Həmin hadisəni öz gözlərimlə görmüşəm”***. Ardından İmam (عليه السلام) həzrət Yəqubun (عليه السلام) hekayəsini misal çəkərək buyurmuşdur: ***“Yaqub (عليه السلام) Yusifin (عليه السلام) sağ olduğunu bildiyi halda bir müddət ondan ayrı qalmasına baxmayaraq, Quranın bəyan etdiyinə əsasən, gözləri tutulana qədər Yusifin (عليه السلام) fərağında ağlayaraq göz yaşı tökmüşdür. Belə olan halda, mən necə ağlamayım?”***[400]

İmam Səccad (عليه السلام) Kərbəlada baş verən müsibətə o qədər ağlayırdı ki, bu aləmdə ən çox ağlamış beş nəfərdən biri kimi tanınmışdır. Ən çox ağlayan şəxslərdən biri isə həzrət Fatimeyi-Zəhradır (عليها السلام). Bu məsələyə dair rəvayətlər “Vəsailuş-şiə” kitabında qeyd olunmuşdur.[401]

Beləliklə, rəvayətlərə əsasən, İmam Hüseynin (عليه السلام) müsibətinə ağlamaqdan əlavə, bunun davamlı olması da lazımdır. Əlbəttə, İmam Hüseynə (عليه السلام) əzadarlıq məclisləri yalnız ağlamaqla bitmir, burada başqa ayinlər də olmalıdır.

## Matəm və əzadarlıq növlərinə bir baxış

Qeyd etdiyimiz kimi, İmam Hüseynin (عليه السلام) matəm və əzadarlıq məclisləri yalnız ağlamaqla bitmir. Digər əzadarlıq növləri, o cümlədən, dözümsüzlük göstərmək *(ər.cəzə [جزع] – red.),* şivən qoparmaq kimi əzadarlıq növləri də mövcuddur. Burada belə bir sual yaranır, görəsən,

---

400 Hilyətul-ovliya, c.3, səh.138

401 Vəsailuş-şiə, c.3, səh.282, 87-ci fəsil, h.7

dözümsüzlük göstərməyin və şivən qoparmağın hökmü nədir? Bir rəvayətdə qeyd olunur ki, Cabir dedi: ***İmam Baqirdən ﷺ dözümsüzlük göstərmək (cəzə) barəsində soruşduqda, o həzrət belə cavab verdi:***

أشد الجزع: الصراخ بالويل والعويل ولطم الوجه والصدر وجز الشعر من النواصي؛

***"Ən şiddətli dözümsüzlük (budur): Vaveyla deyərək şivən qoparmaq, fəryad eləmək, üz və sinəyə vurmaq** (lətmə - red.)**, və saç yolmaq".*** [402]

Başqa bir rəvayətdə isə belə buyurmuşdur:

كلّ الجزع والبكاء مكروه سوى الجزع والبكاء على الحسين عليه السلام؛

***"Bütün dözümsüzlüklər və ağlamaqlar məkruhdur, yalnız İmam Hüseyn ﷺ üçün edilən dözümsüzlük (cəzə) və ağlamaqlardan başqa!"*** [403]

Əzadarlıq növlərindən digəri üzə lətmə vurmaq, sinə vurmaq və vaveyla deyib şivən qoparmaqdan ibarətdir. Bütün sadalanan növ əzadarlıq formaları Əhli-Beyt عليهم السلام məktəbində və Allahın yanında bəyənilən bir iş sayılır və bunların hamısı matəm mərasimində icra olunmalıdır. Əlbəttə, bu əməllər şəriətin müəyyən etdiyi çərçivə dairəsində yerinə yetirilməlidir və əlbəttə, şəri hökmləri bizlərə bəyan edən müctehidlər bu əməlin də şəriətə uyğun həddini izah etmişlər. Biz də öz növbəmizdə onların sözlərinə tabe olmalıyıq. Bəziləri bu zəmində nadanlıq üzündən lüzumsuz və sübutsuz şayiələr yayırlar ki, onların məsələsi artıq ayrı bir mövzudur.

Digər əzadarlıq formaları isə növhə demək, paltarın yaxasını cırmaq, qara geyinmək, yemək vermək, bazarları bağlamaq və dərsləri tətil etməkdən ibarətdir. Bütün bu mövzuların sənədi mövcuddur, hətta bəzi mövzuların əhli-

---

402 Həmin mənbə, səh.270-271, 83-cü fəsil, h.1

403 Həmin mənbə, səh.282, 87-ci fəsil, h.9

sünnə mənbələrində mötəbər dəlilləri belə vardır. Bu məsələlər əgər söylənilməyibsə, nə etmək olar?

## Yas məclislərində iştirak etmək

Ravi deyir ki, İmam Museyi-Kazıma ﷺ dedim:

إنّ امرأتي وامرأة ابن مارد تخرجان في المآتم فأنهاهما، فتقول لي امرأتي: إن كان حراماً فانهنا عنه حتى نتركه وإن لم يكن حراماً فلأي شيء تمنعناه؟ فإذا مات لنا ميت لم يجئنا أحد؛

***“Mənim həyat yoldaşımla İbn Maridin həyat yoldaşı yas məclisində iştirak etmək üçün evdən çıxmaq istədikdə mən onları getməyə qoymadım. Bu vaxt həyat yoldaşım dedi: “Əgər (məclisə getməyimiz) haramdırsa qadağan et, biz də getməyək! Yox, əgər haram deyilsə, nəyə əsasən bizə mane olursan? Bizdən kimsə ölsə, heç kəs yanımıza (yas məclisimizə) gəlməyəcək!”***

İmam Museyi-Kazımın ﷺ cavabına diqqət yetirin! O həzrət ﷺ belə cavab verir:

عن الحقوق تسألني؟ كان أبي عليه السلام يبعث أمي وأم فروة تقضيان حقوق أهل المدينة؛

***“Sən məndən (ictimai) hüquqa dair sual soruşursan. Atam anamı və Ümmü Fərvəni*** *(öz anasını – red.)* ***Mədinə əhlinin (ictimai) hüququna riayət etmələri üçün (məclislərə) göndərərdi”.***[404]

Bu rəvayətdən istifadə edərək aşağıdakı mətləbləri əldə edirik:

1. Başqalarının məclisində iştirak etmək ictimai hüquq sayılır. Hüquqa riayət etmək üçün başqalarının yas məclislərində iştirak etməliyik. Yas məclisinə getmək və başsağlığı vermək üzərimizdə bir növ haqq hesab olunur.

---

[404] Həmin mənbə, səh.239, 69-cu fəsil, h.1

2. Başqalarının matəm mərasimində iştirak etmək lazımdır ki, başqaları da bizim yas məclislərimizdə iştirak etsinlər. Bu Əhli-Beyt ﻋﻠﻴﻬﻢ ﺍﻟﺴﻼﻡ məktəbinin riayət olunmalı ədəb qaydalarındandır.

3. Həmin hüquqa riayət olunması daimi olmuşdur. Çünki İmam Museyi-Kazım ﻋﻠﻴﻪ ﺍﻟﺴﻼﻡ ***"Atam İmam Sadiq*** ﻋﻠﻴﻪ ﺍﻟﺴﻼﻡ ***anasını və həyat yoldaşını həmişə yas məclislərində iştirak etməyə göndərərdi"*** - deyə buyurmuşdur.

4. Kişilər xanımlarına möminlərin yas məclislərində iştirak etmələrinə maneçilik yaratmamalıdırlar.

Digər bir rəvayətdə isə İmam Baqir ﻋﻠﻴﻪ ﺍﻟﺴﻼﻡ belə buyurmuşdur:

إنما تحتاج المرأة في المأتم إلى النوح لتسيل دمعتها؛

***"Qadının yas məclisində ağı deyib göz yaşı axıtmağına ehtiyacı vardır".***[405]

Bir məsələyə də diqqət yetirmək lazımdır ki, İmam Sadiq ﻋﻠﻴﻪ ﺍﻟﺴﻼﻡ "Xidmətçim yas məclisində gedib iştirak etməlidir" söyləmir, əksinə ali məqama sahib olan anasını Mədinə əhalisinin yas məclisində iştirak etməyə göndərir. Bu məsələnin əhəmiyyətli olduğunu göstərir, həm də insanlar arasındakı ictimai hüquqa riayət olunmasının zəruriliyini bildirir.

İnsanlar arasında mövcud olan belə bir haqq-hüquqa riayət olunmasına imamlar ﻋﻠﻴﻬﻢ ﺍﻟﺴﻼﻡ təşviq etdikləri halda, Əhli-Beytin ﻋﻠﻴﻬﻢ ﺍﻟﺴﻼﻡ əzadarlıq mərasimləri barədə üzərimizə hansı öhdəliklərin düşdüyünü anlamaq elə də çətin deyildir. Biz Əhli-Beytin ﻋﻠﻴﻬﻢ ﺍﻟﺴﻼﻡ haqqına riayət edilməsini qəbul edirik, bəs bu məsələ ilə əlaqədar necə davranmalıyıq?

Peyğəmbərin ﺻﻠﻰ ﺍﻟﻠﻪ ﻋﻠﻴﻪ ﻭﺁﻟﻪ oğlu İbrahim dünyasını dəyişəndə o, oğlunun yasında ağlamışdı.[406] Əhli-sünnənin də nəql

---

[405] Həmin mənbə, səh.242, 71-ci fəsil, h.1

[406] Həmin mənbə, səh.280, 87-ci fəsil, h.3

etdiyinə əsasən, Xanım Fatimənin عليها السلام bacısı, Peyğəmbərin ﷺ qızı Rüqəyyə dünyasını dəyişən zaman, Fatimə عليها السلام o həddə qədər ağlamışdır ki, hətta göz yaşları qəbrin daxilinə axmışdı.[407] Peyğəmbər ﷺ Cəfər ibn Əbu Talib və Zeyd ibn Harisənin şəhadəti xəbərini eşitdikdə bu xəbərə möhkəm ağlamışdı. Buna bənzər başqa hallarda da Peyğəmbər ﷺ belə davranmışdı.[408]

İndi isə bu rəvayətə diqqət yetirin! İmam Baqir عليه السلام, vəfatından sonra ona yas mərasimi keçirilməsi üçün kənara bir miqdar pul ayırıb qoyur. Çünki bu Peyğəmbərin ﷺ sünnəsinə uyğun idi. Peyğəmbər ﷺ Cəfər Təyyarın evinə yemək aparılması göstərişini vermişdi, çünki ev sahiblərinin başı əzadarlığa qarışmışdı.[409] Belə göstərişlər biz şiələrin hədis mənbələrində mövcuddur, biz bu göstərişlərə əməl etməsək, bəs kim əməl edəcək?!

Başqa bir rəvayətdə qeyd olunur ki, İmam Sadiq عليه السلام qız övladlarından birinin dünyasını dəyişdiyini eşitdikdə, ***bir il müddətində ona ağı deyərək matəm saxladı***. Sonra digər bir övladı dünyasını dəyişdiyi vaxt ona da növhə deyərək matəm saxlamışdı. İmam Sadiq عليه السلام sağ olarkən oğlu İsmayıl vəfat edir, İmam عليه السلام onun vəfatında şiddətli formada ah-nalə edir. İmamdan عليه السلام ***"Evinizdə nəyə görə bu həddə qədər ah-nalə edilir?"*** deyə soruşduqda belə cavab vermişdi:

إنّ رسول الله صلى الله عليه وآله قال ـ لمّا مات حمزة : لكن حمزة لابواكي له

***Həmzə şəhadətə yetişən zaman Peyğəmbər ﷺ belə buyurmuşdu: "(Həmzə dünyasını dəyişib) ancaq ona ağlayan yoxdur".***[410]

---

407 Həmin mənbə, səh.279, 87-ci fəsil, h.1
408 Həmin mənbə, səh.280, 87-ci fəsil, h.6
409 Həmin mənbə, səh.238, 68-ci fəsil, h.1
410 Həmin mənbə, səh.241, 70-ci fəsil, h.1

## Əzadarlıq edənlərə yemək vermək

Əzadarlıq edən şəxslərə yemək vermək İslam dininin mühüm göstərişlərindən biridir. İmam Sadiq (ə) rəvayətlərin birində belə buyurur:

***"Cəfər Təyyar şəhid olduğu zaman onun ailəsinin başı matəm mərasiminə qarışmışdı. Peyğəmbər (s) onun ailəsinin yas məclisinə başları qarışdığı üçün üç gün yemək hazırlayıb onların evinə aparılmasını göstəriş verdi və müsibətlə üzləşən insanın evinə üç gün hazır yemək aparmaq bir sünnəyə çevrildi".*** [411]

Digər bir hədisdə İmam Sadiq (ə) belə buyurmuşdur:

ينبغي لجيران صاحب المصيبة أن يطعموا الطعام عنه ثلاثة أيام

***"Yaxşı olar ki, müsibət sahibinə qonşuları üç gün yemək versinlər".*** [412]

## Qara paltar geyinmək

Matəm zamanı qara paltar geyinmək də rəvayətlərdə öz əksini tapmışdır. Belə ki, rəvayətlərin birində İmam Sadiq (ə) buyurur:

لمّا قُتلَ الحسين بن علي عليهما السلام، لبس نساء بني هاشم السواد والمسوح وكن لا يشتكين من حرولا برد، وكان علي بن الحسين عليهما السلام يعمل لهن الطعام للمأتم؛

***"İmam Hüseyn (ə) qətl edildikdə Bəni-Haşim qadınları (həzrətə (ə) yas saxlamaq üçün) əyinlərinə qara və qaba paltar geyindilər. Onlar nə soyuqdan, nə də istidən şikayət edirdilər. İmam Səccad (ə) isə əzadarlıq məclislərində onlar üçün yemək hazırlayırdı".*** [413]

---

[411] Həmin mənbə, səh.235, 67-ci fəsil, h.1
[412] Həmin mənbə, səh.237, 67-ci fəsil, h.5
[413] Həmin mənbə, səh.238, 67-ci fəsil, h.1

İbn Əbilhədid belə yazır:

فخرج الحسن عليه السلام... فبايعه الناس. و كان خرج إليهم وعليه ثياب سود

***“(Əmirəlmöminin Əli ﷺ şəhadətə yetəndən sonra) Həsən ﷺ (insanların qarşısına) çıxdı... Camaat da ona beyət etdi. Həzrət ﷺ onların qarşısına çıxarkən əynində qara geyim vardı”.***[414]

## Qadınların bəzənməməsi

Əhli-sünnənin qədim mənbələrində İmam Həsənin ﷺ şəhadətinə dair belə bir rəvayət nəql olunmuşdur:

فلما مات أقام نساء بني هاشم عليه النوح شهرا

***“(İmam Həsən Müctəba ﷺ) dünyasını dəyişdikdə Bəni-Haşim xanımları ona bir ay əza saxladılar”.***[415]

Maraqlısı budur ki, digər bir rəvayətdə belə qeyd olunur:

حدت نساءُ بني هاشم عليه سنة

***“Bəni-Haşim qadınları ona (İmam Həsənə ﷺ) görə bir il boyu bəzəkdən istifadə etmədilər”.***[416]

Rəvayətdə istifadə olunan *“hidad”* kəlməsi bəzənməmək mənasını verir. Onlar qara paltar geyinmiş, matəm saxlayaraq ağı və növhələr söyləmiş, hətta bəzənməkdən uzaq duraraq saçlarına daraq belə vurmamışlar.

---

414 Nəhcül-bəlağənin şərhi, İbn Əbilhədid, c.16, səh.22

415 Ət-Təbəqat, İmam Həsənin ﷺ tərcümeyi-halı, səh.84-85; Əl-Bidayə vən-nihayə, c.8, səh.47; Təhzibul-kəmal, c.6, səh.252; Usdul-ğabə, c.2, səh.15; Tarixu mədinəti Diməşq, c.13, səh.283 və s.

416 Tarixu mədinəti Diməşq, c.13, səh.295; Əl-Bidayə vən-nihayə, c.8, səh.47-48; Əl-Muntəxəb min zeylil-muzəyyəl, səh.19

## Bazarların bağlanması

Əzadarlıq dönəmində bazarların bağlanması adət halına çevrilmişdi. Bu haqda Təbərinin "Tarix" kitabında belə qeyd olunur:

مكث الناس يبكون على حسن بن علي عليه السلام سبعاً، ما تقوم الأسواق

***"Camaat Həsən ibn Əliyə ﷺ ağlamağı yeddi gün davam etdirdilər, (bu müddət ərzində) bazarları da açmadılar".*** [417]

Bu gün də böyük bir elm xadimi vəfat edərkən ümum-xalq matəm elan olunması rəsmi adət halına çevrilmişdir. Əlbəttə, bu məsələləri şiələr üçün sadalayırıq, nasibilərlə (Əhli-beyt ﷺ düşmənləri ilə) işimiz yoxdur. Biz öz üzərimizə düşən öhdəliyi yerinə yetirməliyik!

---

[417] Əl-Muntəxəb min zeylil-muzəyyəl, səh.19; Ət-Təbəqat, İmam Həsənin ﷺ tərcümeyi-halı, səh.90

## Kitabın xülasəsi

Bu kitabda araşdırılaraq müxtəlif fəsillərdə müzakirə etdiyimiz mövzuları xülasə şəkildə aşağıdakı formada bəyan etmək olar:

**Birincisi,** şəriətin uyğun gördüyü şəkildə Aşura mərasimi keçirmək. Yəni Əhli-Beytin (ə) Bəni-Üməyyə tərəfindən pozulmuş olan haqqını müdafiə etmək. İmam Hüseynə (ə) mərasim keçirtməyimizin nə qədər dəyərli olduğunu anlamalıyıq!

**İkincisi,** İmam Hüseynin (ə) şəhadət hadisəsi iki yolla gedib Müaviyəyə çatır:

1. Müaviyə öz oğlu Yezidi əhaliyə hakim təyin edir. Yezidə beyət edərək onunla həmkarlıq edənlər onun bütün yaramaz işlərinə də şərikdirlər.

2. İmam Hüseynin (ə) Mədinədən Məkkəyə getməsi ilə başlayıb, oradan da İraqa - Kərbəlaya çataraq Aşura günü sona çatan hərəkatına dair hadisələri və məlumatları araşdırmaq sayəsində ortada bir planın olduğu məlum olur. Bu planın qurucusu isə Müaviyədən başqası deyildir. Əlbəttə, Yezid həmin planı həyata keçirən olmuşdur və əslində, atasının vəsiyyətinə əməl etmişdir.

Bu düşünülməsi mühüm olan bir məsələdir. Əlbəttə, bir sıra adamların eşitmədikləri bir məsələyə inanmağı olduqca çətin gəlir. Ancaq bu yöndə çox düşünmək, irəli sürülən mövzunu araşdırmaq lazımdır.

**Üçüncüsü,** İmam Hüseyni (ə) şəhadətə yetirməkdə Yezidlə əlbir olmuş Kufə camaatı şiə olmamışdır. İmam Hüseynin (ə) şəhadətində birbaşa əli olanların *(Bəni-Üməyyə və Əbu Süfyan ailəsi tərəfdarlarının xarakteristikasını ayrıca bir fəsildə dəlillərlə sübuta yetirdik – müəl.)* hamısı ya Şam əhalisi olmuş, ya da qeyri-şiələr olmuşdur. Deməli, bu cinayəti həyata keçirənlər - istər bu cinayətdə

birbaşa əli olanlar olsun, istərsə həmin cinayətin icrasına kömək edənlər olsun - əsla şiə olmamışlar. Biz elmi metodla araşdırma aparıb belə bir qənaətə gəlmişik və Yezid ordusunun dəstə başçılarının heç birinin şiə olmadığını görmüşük.

**Dördüncüsü,** tarixboyu əhli-sünnə məzhəbinin nüfuzlu şəxsləri və alimləri Aşura hadisəsinə dair bir neçə dəstəyə ayrılmışlar:

1. Yezidin hakimiyyətinin şəriətə uyğun olduğunu qəbul edir və onu əmirəlmöminin hesab edirlər. Nəticədə, İmam Hüseyni ﷺ qiyamçı və qaydaları pozan bir şəxs hesab etməklə onun qətlə yetirilməsinin düzgün olduğunu düşünürlər.

2. Əhli-sünnənin əksəriyyəti bəlkə də, bu qrupa daxildir. Onlar İmam Hüseynin ﷺ şəhadətini nahaq saysa da, bəzi sözlərində ixtilaflı məqamlara rast gəlinir. Qeyd etdiyimiz kimi, bəziləri Yezidin qətlə əmr verməsinə şübhə ilə yanaşır, bəziləri isə onun bəlkə də, tövbə etdiyini söyləyirlər. Hər bir halda əksəriyyət təşkil edən ikinci qrupun nümayəndələri, Bəni-Üməyyə tərəfdarlarından ibarət birinci qrupa müxalifdirlər.

3. Bunlar isə qəti şəkildə bəyan edirlər ki, qətl Yezidin əmri ilə həyata keçmişdir. Hətta Şamda törətdiklərini nəzərə alaraq Yezidi cinayətkar hesab edirlər. Bu qrupa daxil olan alimlərin etirafına əsasən, Yezid lənətə layiqdir. Hətta bəzi hallarda onu kafir belə hesab etmişlər.

**Beşincisi,** İmam Hüseynə ﷺ əzadarlıq məclisi bərpa etmək şiələrin ümdə vəzifələrindən biridir! Biz hər bir mümkün yolla şəriət çərçivəsindəki qaydaları qorumaq şərtilə və gücümüzün yetdiyi həddə qədər bu zəmində çalışıb səy göstərməliyik! Çünki Aşura hadisəsi əhəmiyyətli məsələ olan imamət mövzusuna bağlı bir hadisədir və

bildiyimiz kimi imamət isə dinin əsas prinsiplərindəndir *(üsuliddindəndir – red.)*.

Nəticə etibarilə Aşura olayı dinin əsas prinsipi ilə birbaşa əlaqəlidir. Bu yolda səy göstərib xidmət etmək isə dinin əsasına və onun bünövrəsinin möhkəmlənməsinə xidmət edir. Bu yolda həyata keçirilənlər yalnız hissi duyğulardan ibarət deyil. Bu həm də etiqadı ibadət məsələsidir. Şəriətdə bəyan edilən bir çox fiqhi məsələlər mövcuddur ki, həmin məsələlərin dinin əsas prinsipi ilə bağlı olduğunu görürük. İmam Hüseynin (عليه السلام) matəmi və o həzrətin əzadarlıq mərasimi ilahi rəmz və əlamətlərdən hesab olunur. Əlbəttə, bu rəmz yox, əslində, reallıq və həqiqətdir. Araşdırmanın əvvəlində bəyan etdiyimiz məsələlərə diqqət yetirsəniz, həmin məna sizlərə aydın olar.

**Altıncısı,** olduqca az bir qrup Yezidə dəstək olmaqla ona bəraət qazandırsalar da, İslam dininin müxtəlif məzhəblərindən olanlar hər il İmam Hüseynin (عليه السلام) əzadarlıq mərasimlərində iştirak edirlər. Onlar belə davranışları ilə şiələrə dəstək olduqlarını, Əhli-Beytə (عليهم السلام) məhəbbət bəslədiklərini, həmçinin, şiələrin qüssələrinə şərik olduqlarını nümayiş etdirirlər. Bununla yanaşı, əhli-sünnənin hər məzhəbindən olanlar, Əhli-Beytə (عليهم السلام) qarşı düşmənçilik edən bədxah təəssübkeşlər müqabilində şəffaf mövqe nümayiş etdirərək öz fikirlərini bəyan etməlidirlər! Yəni əslində onlar da bizim kimi, həmin bədxah təəssübkeşlərin sözlərini rədd edən fikir bildirməlidirlər. Həmin mövqeni nümayiş etdirməklə haqqı isbat və batili inkar etməlidirlər ki, həmin təəssübkeşlərin sözləri bütün əhli-sünnənin mövqeyi kimi görünməsin! Ayrı-ayrı şəhərlərdə əhli-sünnədən olanlar İmam Hüseynin (عليه السلام) əzadarlıq məclisində fəal iştirak edirlər. Onlar bizimlə həmkarlıq etməli, həmfikir olmalıdır ki, sünni və şiə birlikdə hərəkət etməli, ötən dövrlərdə İmam Hüseynin (عليه السلام) özü və əzadarlıq mərasimi

haqda bihudə söz söyləmiş bir neçə alimlərə öz nifrətlərini bildirməlidirlər.

Kərbəla faciəsi və İmam Hüseynin عليه السلام şəhadəti əslində islami hadisədir, əgər o həzrətin عليه السلام hərəkatı - Aşura hadisəsi olmasaydı, bu gün din adlı bir şey qalmazdı. Çünki, Bəni-Üməyyənin məqsədi dinin kökünü məhv etmək idi. Deməli, İslam dininin ayrı-ayrı firqələri də Əhli-Beyt عليهم السلام səhabələrinin din yolunda zəhmətə qatlaşaraq üzləşdikləri çətinliklərə görə onlara minnətdar olmalıdırlar.

# MÜNDƏRİCAT


ÖN SÖZ .................... 3
GİRİŞ .................... 7
AŞURA HADİSƏSİ TARİXİ DÖNƏMLƏRDƏ .................... 10
İmamların عليهم السلام Aşura hadisəsinin əzəmətli tutulmasına önəm verməsi .................... 10
Əzəmətli hadisənin unudulması uğrunda səy göstərənlərin uğursuzluğa düçar olması .................... 11
1. İrfan və sufilik üslubu .................... 12
2. Müqəddəslik və pəhrizkarlıq üslubu .................... 13
3. Təkzib üslubu .................... 14
Həqiqətlərin aşkarlanması .................... 16
Digər bir mövqedən çıxış edənlər .................... 18
Mövzunun xülasəsi .................... 20
Yezidin qatil olduğunu təsdiq etməklə yanaşı onun əməlinə bəraət qazandırmaq .................... 20
İbn Xəldunun İmam Hüseynin عليه السلام şəhadətinə qarşı inadkarlığı .................... 21
İbn Ərəbi Malikinin nəzəri .................... 23
Baxışların xülasəsi .................... 29
Nəyə görə Aşura hadisəsinə qarşı mübarizə? .................... 30
Əbdülmuğis Hənbəli Bağdadinin nəzəri .................... 30
Təftazani və onun “xəlifələrə lənət oxumaq” barədə nəzəri ... 34
Müaviyənin Kərbəla hadisəsindəki roluna işarə .................... 35
İfratçı əhli-sünnə alimlərinin nəzərlərinin .................... 37
araşdırılması və onların tənqidi .................... 37
1-Yezidin xilafət və hakimiyyətinin bütün səhabələr tərəfindən qəbul edilməsi .................... 37
2-Yezidin hakimiyyətində Abdullah ibn Ömərin rolu .... 38
Yezidi nəyə görə lənətləmək olmaz? .................... 40
Müaviyənin mədhi üçün hədis uydurulması .................... 41
5. İraq şiələrinin İmam Hüseyni عليه السلام dəvət etmələri ........ 47

BİRİNCİ FƏSİL
MÜAVİYƏNİN İMAM HÜSEYNİN (ə)
ŞƏHADƏTİNDƏKİ ROLU ............................................49
Yezidin vəliəhdlik və canişinliyi ......................................49
İmam Həsən Müctəba (ə) - Yezidin canişinlik yolunda ən böyük maneə ............................................................................50
Digər bir maneə - Səd ibn Əbu Vəqqas .............................54
Aişənin canişinlik planına qarşı çıxması ...........................55
Müaviyə və başqa bir terror planı ....................................57
Həqiqətlərlə oynamaq ........................................................58
Maneə törədən başqa bir şəxs - Əbdürrəhman ibn Xalid....59
Ziyad ibn Əbihin aqibəti ....................................................62
Müxaliflərlə digər bir mübarizə - sürgün etmək.................64
Böyük mənsəb sahiblərini pulla satın almaq ......................66
Abdullah ibn Ömərin sükutu ..............................................67
Munzər ibn Zübeyrin yarımçıq sükutu ...............................67
Müaviyənin hakimiyyət dövrü və onun təyin etdiyi valilərin davranışları ..........................................................69
Müaviyənin Kufədəki mənfur məqsədləri ..........................71
Müaviyənin digər bir üslubu..............................................74
İmam Hüseynin (ə) Müaviyə ilə söhbəti ............................75
Müaviyənin məktubuna İmam Hüseynin (ə) cavabı ..........78
İmam Hüseynin (ə) müqaviməti və Müaviyənin uğursuzluğu.......................................................................79
Mədinə şəhəri valisinin Müaviyə tərəfindən çıxarılması....79
Əhəmiyyət kəsb edən üç məsələ ........................................80
Yezidin Mədinə valisi Vəlidə göndərdiyi məktub..............84
Şiə kitablarında Müaviyənin Yezidə verdiyi tövsiyələr .....87
İmam Hüseynin (ə) Məkkəyə daxil olması ........................90
İmam Hüseyn (ə) və Məkkə valisinin rəftarı......................93
Məkkə valisi Əmr ibn Səid Əşdəqin şəxsiyyəti haqda .......95
Kufə əhalisinin məktubları və həzrət Müslimin (ə) Kufəyə göndərilməsi.......................................................97

Kufə şəhərinin valisi Numanın fəaliyyəti ....................... 97
Numanın özünü sülhsevər və mərhəmətli göstərməsi ........ 99
Xülasə və nəticə ........................................................ 100

İKİNCİ FƏSİL
YEZİD İBN MÜAVİYƏNİN ........................................ 103
AŞURA HADİSƏSİNDƏKİ ROLU ................................ 103
Müaviyə və İbn Ziyadın başçı təyin edilməsi ................. 103
İbn Abbasın Yezidə məktubu ........................................ 114
Yezid oğlu Müaviyənin xütbəsi ..................................... 116
İbn Ziyadın iqrar etməsi ............................................... 118
Yezidin həzrət Müslimin (ə) şəhadətinə sevinməsi .......... 119
Kəsilmiş pak başların Yezidə göndərilməsi ..................... 119
Qadınların və körpə uşaqların əsir edilərək Yezidin hüzuruna göndərilməsi ................................................ 121
Yezidin rüsvay olması və Dəməşq şəhərində durumun dəyişməsi ............................................................. 127
1. İmam Hüseynin (ə) nizəyə taxılmış başının Quran oxuması ........................................................... 127
2. İmam Səccadın (ə) Dəməşq şəhəri məscidindəki çıxışı ............................................................... 128
3. Dəməşq şəhərində üçgünlük ümumi matəm ............ 128
4. İmam Səccadın (ə) "məvəddət" ayəsinin nazil olma səbəbinə istinad etməsi ........................................ 129
5. İmam Səccadın (ə) Minhal ilə söhbəti ...................... 130
Yezidin məclisində Peyğəmbər səhabəsinin etiraz etməsi .......................................................................... 131
İmam Hüseynin (ə) mübarək başı Şama gətirilən zaman tabeindən olan bir nəfərin sözləri ................................ 132
Dəməşq şəhərinin vəziyyətinə dair tarixçilərin rəvayət etdikləri ....................................................................... 133

ÜÇÜNCÜ FƏSİL
KUFƏ ƏHALİSİNİN İMAM HÜSEYNİN ﵇
ŞƏHADƏTİNDƏKİ ROLU .......... 135
İmam Hüseyni ﵇ dəvət edən kufəlilər .......... 135
Məkkə valisi Əmr ibn Səidin amannaməsi .......... 137
İmam Hüseynin ﵇ öz şəhadətindən xəbər verməsi .......... 137
İmam Hüseynin ﵇ öz yuxularını yozması .......... 138
Peyğəmbərin ﷺ İmam Hüseynin ﵇ şəhadətindən xəbər verməsi .......... 141
Əmirəlmöminin Əli ibn Əbu Talibin ﵇
İmam Hüseynin ﵇ şəhadətinə dair verdiyi xəbər .......... 143
İmam Hüseynə ﵇ göndərilən məktublar .......... 145
İmam Hüseynin ﵇ Kufə şiələrinə cavab məktubu .......... 148
Məktub yazan şəxslərin həqiqi niyyətləri .......... 153
Kufəyə gedən yolda İmam Hüseynin ﵇ öncədən söylədikləri .......... 155
Kufə şəhərinin quruluşuna bir baxış .......... 157
Şiə və şiəlik .......... 157
Xəvaric - Kufədə məskunlaşmış digər bir qrup .......... 161
İmam Hüseyni ﵇ Kufəyə dəvət etmək üçün məktub yazan qruplar .......... 162
İbn Ziyadın Kufə şəhərində həyata keçirdiyi tədbirlər .......... 164
Hədə-qorxu gəlmək .......... 164
Qəbilə başçılarının kənarlaşdıraraq yeniləri ilə əvəz olunması .......... 166
Casus göndərilməsi .......... 167
Sərt nəzarət .......... 168
Qətl və qırğın .......... 170
Meysəm Təmmar .......... 170
Übeydullah ibn Əmr ibn Əziz Kindi .......... 172
Übeydullah ibn Haris ibn Nofəl Həmdani .......... 173
Əbdüləla ibn Yezid Kəlbi Əlimi .......... 173
Abbas ibn Cədə Cədəli .......... 174

6-Əmarət ibn Səlxəb Əzdi .......... 174
Şiələrin həbs edilərək zindana salınması .......... 175
Əhli-sünnənin Süleyman ibn Surədin şəxsiyyətinə baxışı 176
Qaçan şəxsləri təqib etmək .......... 180
Kufə İbn Ziyadın tam nəzarəti altında .......... 180
İmam Hüseynin (ə) dəstəsinə qoşulanlar .......... 182
Kufədən yola düşən qoşunun cinah rəhbərləri .......... 184
Baş komandan Ömər ibn Səd .......... 184
Husayn ibn Nümeyr .......... 185
Şəbəs ibn Ribi .......... 186
Həccar ibn Əbcər İcli .......... 187
Hürr ibn Yezid Riyahi .......... 187
Şimr ibn Zilcövşən .......... 187
Qeys və Məhəmməd .......... 189
Yezid İbn Haris .......... 190
Əmr ibn Hüreys .......... 190
Əmr ibn Həccac .......... 190
Uzrə ibn Qeys Əhməsi .......... 191
Şamdan gələn bir qoşunun Kərbəlada iştirakı .......... 192
Kərbəlada həyata keçirilən bir sıra cinayətlər .......... 194
İmam Hüseynin (ə) qatillərinin etiqadı .......... 196
İmam Hüseynin (ə) sözlərində Əhli-Beyt (ə) düşmənlərinin xüsusiyyətləri .......... 198
Müaviyə və Yezidin müdafiəsi üçün düzəldilən qondarma hədislər .......... 201
Aşura həqiqətlərini dəyişdirmək .......... 203
Başqa uğursuz fəaliyyətlər .......... 206
Yezidi kafir elan etmək və lənətləməkdən qaça bilməmək .......... 208
Yezidi lənətləməyə etiqadı olan alimlər .......... 209
Səduddin Təftazaninin nəzəri .......... 209
Təbəri və Yezidin lənətlənməsi barədə Abbasi xəlifəsi Mötəzidin sözlərinin nəqli .......... 212

Alusinin nəzəri........................................................................215
İbn Həzm Əndəlusinin nəzəri ..........................................................218
Qazi Şovkaninin nəzəri....................................................................218
Bir-birinə uyğun gəlməyən mövqe və nəzərlər.................................219
Xülasə ..............................................................................................222

SONUNCU FƏSİL
AŞURA HADİSƏSİNƏ DAİR MÖVZULARA
BİR BAXIŞ.......................................................................................224
Aləmdə baş verən hadisələr və dəyişikliklər ....................................224
İmam Hüseynə (ə) matəm saxlamaq və o həzrətin
müsibətinə ağlamaq .........................................................................227
Əhli-sünnə mənbələrindəki rəvayətləri qeyd etməkdə
hədəfimiz .........................................................................................230
Davamlı ağlamaq və göz yaşı tökmək .............................................230
Matəm və əzadarlıq növlərinə bir baxış............................................231
Yas məclislərində iştirak etmək........................................................233
Əzadarlıq edənlərə yemək vermək ...................................................236
Qara paltar geyinmək.......................................................................236
Qadınların bəzənməməsi..................................................................237
Bazarların bağlanması.......................................................................238
Kitabın xülasəsi................................................................................239



"Ümumilikdə Aşura hadisəsini üç istiqamət və ya cəhət üzrə araşdırmaq olar:

1, Hadisəni törədən səbəblər.
2, Kərbəla hadisəsində baş verənlər.
3, Bəşəriyyət və İslam tarixində bu hadisənin təsiri və ondan doğan nəticələr.

Qeyd olunan hər üç cəhətin özündə belə müxtəlif istiqamətlər mövcuddur ki, biz onların bəzilərini bu kitabda araşdırmağa çalışacağıq. Həmçinin Kərbəla hadisəsinə dair şübhələrə və suallara cavab verəcəyik. Qeyd edək ki, bu araşdırma kiminsə sözünü təkzib etmək və ya başqa birisinin söyləmiş olduğunu tənqid etmək məqsədini daşımır. Əslində, məqsəd bu hadisənin müxtəlif yönlərdən araşdırılmasıdır. Əldə olunan nəticə onu göstərir ki, bu günə qədər bu hadisə haqqında bu tip araşdırma aparılmamışdır. Elə bu səbəbdən əsərə **"Aşuranın deyilməyən həqiqətləri"** adı verilmişdir".

Ayətullah Seyid Əli Milani

W W W . B E S I R E T . A Z